Crossref ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2024
№3 (81)

BAKI-2024

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2024
№3 (81)

BAKU-2024

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***“GEOSTRATEGY”*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 32
DOI:10.30546/3006-0346.2024.3.81.001

**İRADƏ HÜSEYNOVA**
*Bakı Dövlət Universiteti Qafqaz xalqları tarixi kafedrasının müdiri.*
*Tarix elmləri doktoru, professor*
*E-mail: prof.irada.huseynova@gmail.com*

## PREZİDENT İLHAM ƏLİYEVİN YARATDIĞI SİYASİ REALLIQLAR VƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ TARİXİ ZƏRURƏT KİMİ

*Qərbi Azərbaycan bizim tarixi torpağımızdır... şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin.*

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq, tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmiş, müstəqilliyi, azadlığı, ərazi bütövlüyü uğrunda mübarizə aparmış, qurbanlar vermişdir. Lakin buna baxmayaraq, tarixin müxtəlif dövrlərində bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir.

XX əsrin sonu - XXI əsrin əvvəllərində 30 ilə yaxın müddət ərzində işğalçı Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlamış, lakin II Qarabağ müharibəsində mübariz və qəhrəman Azərbaycan Ordusunun əks-hücumları nəticəsində erməni hərbi birləşmələri geri çəkilməyə və təslim olmağa məcbur edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycana qarşı törədilən terror, soyqırımı siyasəti yüz illərlə əvvəl başlayan tarixə malikdir. Məlum olduğu kimi, Rusiya imperiyası tərəfindən hələ I Pyotr dövründən başlayan Cənubi Qafqaza ermənilərin kütləvi şəkildə köçürülmə siyasəti XIX əsrdə Türkmənçay müqaviləsindən sonra daha geniş və iri miqyaslı xarakter daşımışdır. Ermənilər Qafqaz regionuna gəlmə xalq olaraq son bir neçə əsr ərzində Qacarlar İranı və Osmanlı imperiyasından kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına miqrasiya etmişlər. Onlar bu regionda məskunlaşandan sonra qonşu Qafqaz xalqlarına qarşı ərazi iddiaları ilə çıxış etməyə başlayırlar. Bu iddiaların əsas məğzi "Dənizdən-dənizə Böyük Ermənistan" xülyası, bu məqsədlə qonşu dövlətlərə, ilk növbədə isə Azərbaycan və Türkiyəyə, eləcə də Gürcüstana və hətta Rusiyaya qarşı ərazi iddialarının irəli sürülməsi təşkil edir. Məsələn, sovet dövründə, 1961-ci ildə B.S.Nalbandyanın Yerevanda (İrəvanda) "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı əsəri dərc edilmiş və burada Tbilisi qədim erməni şəhəri kimi təqdim olunmuşdur [3, s. 8]. Tanınmış gürcü ziyalısı İlya Çavçavadze hələ XX yüzilliyin əvvəllərində - 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa və Qafqazda "ayaq tutub yeridiyindən", onların əsassız "Böyük Ermənistan" iddialarından bəhs edirdi. O, yazırdı ki, ermənilər aborigen albanları süni şəkildə qriqorianlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" adlandırırmışlar. Bunun hamısı yalandır. Öz işğalçı siyasətlərindən əl çəkməyən ermənilər vaxtilə gəlib sığındıqları Azərbaycan torpaqlarını "Şərqi Ermənistan" adlandıraraq, həmin əraziləri tarixi vətənləri, doğma mədəniyyət mərkəzləri kimi uydurmalarla mənimsəmək fikrinə düşüblər [15, s.225]. Göründüyü kimi ermənilər hər zaman digər dövlətlərin torpaqlarına tamah salmış, hər vəchlə öz əsassız iddialarını həyata keçirməyə çalışmışlar.

Mənfur qonşularımız ermənilər tərəfindən azərbaycanlılar mərhələli şəkildə yaşadıqları öz doğma tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara düçar edilmiş, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənlərini dağıtmışdırlar. Azərbaycan xalqı zaman-zaman erməni millətçilərinin etnik təmizləmə, soyqırımı siyasətinin qurbanı olmuş, yurd-yuvalarından, doğma torpaqlarından qovulmuş, qaçqın və köçkün həyatı yaşamaq məcburiyyətində olmuşlar.

Hər hansı bir tarixi dönəmdə özləri üçün münasib şəraitdən istifadə edib, erməni xislətindən qaynaqlanaraq qonşu dövlət və xalqlara qarşı əsassız ərazi iddialarını irəli sürüb, bu yolda müxtəlif hiylə, təxribat, dezinformasiyadan istifadə edib öz məkrli planlarını həyata keçirməyə cəhd göstərirdilər. 1988-ci ildə SSRİ-nin süqutu ərəfəsində erməni separatizmi ölkədə cərəyan edən proseslərdən istifa-

də edərək beynəlxalq hüquq, norma və prinsiplərə zidd, uzun müddətdən bəri planlaşdırdıqları məkrli siyasəti gerçəkləşdirməyə başladılar.

Ermənilərin İrandan Cənubi Qafqaza, indiki Ermənistan ərazisinə köçürülməsinin bilavasitə rəhbəri olmuş A.S.Qriboyedov yazırdı: "Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... Biz onunla həmçinin müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki sıxıntılarla (çətinliklərlə) barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların (müsəlmanların) qorxusunu aradan qaldıraq" [16, s.267-270].

N.Şavrov isə etiraf edirdi: "XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər erməninin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır". [13, s.60]

Beləliklə, bu faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları, avtoxton sakinləri Azərbaycan türkləri olmuş, ermənilər isə digər ölkələrdən bu ərazilərə mərhələli şəkildə köçürülmüşlər. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazi toponimlərinin 90%-dən çoxunu türk mənşəli adlar təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilmiş və ya ruslaşdırılmışdır. Rusiya imperiyasının erməniləri İrandan, Türkiyədən Şimali Azərbaycanın qərb bölgələrinə və Qarabağa köçürmə siyasəti azərbaycanlıların öz əzəli torpaqlarından sıxışdırıb çıxarmaq məqsədi güdürdü və "erməni dövləti"nin yaradılmasına hazırlıq idi. Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycana xüsusi məqsədlə - onlara burada "yeni vətən" yaratmaq məqsədilə köçürülmüşdü [11, s.390]. Rus müəllifi M.Vladikin ermənilərin köçürülməsi barədə yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb, 1812-1829-cu illərdə baş vermiş müharibələrdən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər" [12, s.122].

Sözügedən tarixi faktlar erməni və rus mənbələrində öz əksini tam aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını əzəli torpaqlarından didərgin salmışdır. Ümumilikdə isə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırımına məruz qalmışdır.

İlk mənbələr, o cümlədən arxiv sənədləri sübut edir ki, indiki Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adlarının və digər toponimlərin dəyişdirilməsi prosesinə ilk dəfə 1919-cu ildə Azərbaycan ərazisində erməni dövləti yaradıldıqdan (1918) dərhal sonra Ermənistan Respublikası hökumətinin qərarı ilə başlanılmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1935-ci ilədək orada 190-dan artıq azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir [11, s. 390]. Sonrakı dövrlərdə azərbaycanlılara məxsus tarixi adların dəyişdirilməsi prosesi daha da sürətləndirilərək kütləvi miqyas almış və 1991-ci ildə Ermənistan Respublikası yaradıldıqdan sonra əsasən başa çatmışdır.

Sovet Rusiyası da ermənilərin rəğbətini qazanmaq üçün avantürist addım atdı. Rusiya Xalq Komissarları Soveti 1917-ci ilin dekabrında "Türkiyə Ermənistanı" haqqında dekret verdi. Bolşeviklər 1920-ci ilin 28 aprelində Azərbaycanı işğal edəndən 7 ay sonra "erməni daşnak respublikasını" sovetləşdirməklə Rusiyanın tarixi Azərbaycan torpağında Ermənistan dövləti qurması planlarını tamamlamış oldu. Az sonra tarixi Zəngəzurun qərb hissəsini də bolşeviklər ermənilərə bağışladılar. 1923-cü ildə isə Moskva Qarabağı da iki yerə ayırıb onun dağlıq hissəsində muxtariyyət yaratdı.

Xalqımıza qarşı edilən bu tarixi xəyanətkarlıq haqqında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan, əslində, Azərbaycanın tarixi torpağıdır. Ona görə, gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq" [14].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyip Ərdoğanın imzaladığı 2021-ci il tarixli Şuşa Bəyannaməsi tarixi siyasi əhəmiyyətli hadisə olmaqla böyük rəmzi məna daşıyır. Belə ki, Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsindən düz 100 il sonra imzalanmışdır. Bu Bəyannamə Azərbaycana və Türkiyəyə qarşı ikili standartlar mövqeyindən yanaşan, regionda siyasi maraq və nüfuz uğrunda mübarizə aparan dövlətlərə dərin mənalı

bir ismarıcdır. 1921-ci il oktyabrın 13-də imzalanan bu müqavilədə bəyan edilirdi ki, Naxçıvanın təhlükəsizliyinin qarantı Türkiyədir. Bəyanatda göstərilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər" [3, s. 204- 206].

Prezident İlham Əliyev birgə Bəyannamənin imzalanması zamanı bu məsələyə toxunaraq qeyd etmişdir: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir" [3, s. 207].

Qars müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında digər məsələlər, xüsusən də ərazi-sərhəd problemi həll olundu. Belə ki, müqavilənin əsas müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə üst-üstə düşürdü. 16 mart 1921-ci ildə Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış "dostluq və qardaşlıq" haqqında Moskva müqaviləsində Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi. Beləliklə, danışıqlarda yaranmış gərginliklərə baxmayaraq, türk diplomatiyasının göstərdiyi ciddi səyləri sayəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail oldu, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı [4, s.43]. Müqaviləyə görə, Türkiyənin şimal-şərq sərhədləri dəyişilməz qaldı. Göründüyü kimi, Moskva və Qars müqavilələrində Türkiyə ərazi verilməsi baxımından heç bir güzəştə getmədi. Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapdı. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan Türkiyə 100 il sonra – 2021-ci ildə Şuşa Bəyannaməsi ilə Qarabağın təhlükəsizliyinin də qarantına çevrildi.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Şuşa Bəyannaməsi, həmçinin müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir [14].

Sevindirici haldır ki, Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı ölkə başçısı İlham Əliyev dövlətimizin milli maraqlarına və Azərbaycançılıq ruhuna sadiq qalaraq Azərbaycan torpaqlarının tarixinə və mədəniyyətinə sahib çıxılmasının önəmini hər zaman vurğulayıb, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu bütün beynəlxalq kürsülərdən bəyan edib.

2020-ci ildə Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm qələbə yeni reallıqlar yaradıb. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Hazırda Azərbaycanın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan torpaqlarının həqiqi sahiblərinə geri qaytarılması, vaxtilə bu torpaqlarda yaşamış Azərbaycan əhalisinin hüquqlarının bərpa olunmasıdır. İllərlə həsrətlə gözlədiyimiz Böyük Qayıdış tarixi hadisəsi reallığa çevrildi. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: "Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir".

Azərbaycan Respublikası 44 günlük (27 sentyabr – 10 noyabr 2020-ci il) Vətən müharibəsində bu taleyüklü məsələni şərəflə həll etdi. Azərbaycan Ordusunun bu möhtəşəm qələbəsi XX əsrin əvvələrində zorla Ermənistana verilmiş ərazilərimizin də yenidən diqqət mərkəzinə salınmasına, həmin

ərazilərdən məcburi şəkildə köçürülmüş soydaşlarımızın problemlərinin gündəmə gəlməsinə geniş imkanlar yaratmışdır. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizəni özünün fəaliyyətinin əsas məqsədi kimi daim səsləndirmişdi. İtirilən torpaqların geri qaytarılmasında uzaqgörən Ulu Öndər Heydər Əliyev həmişə nikbin idi və bunun həyata keçiriləcəyinə əmin idi. O, qeyd edirdi: "Mən belə hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qaytarılmalıdır. ...Xalqımız da bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər qaytaracaqdır".

Ümummilli Lider Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiya edilməsi haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı böyük elmi-siyasi və tarixi əhəmiyyətə malik bir sənəddir. Fərmanda tamamilə haqlı olaraq qeyd edilir ki, keçmiş SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 745 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur [1, s. 352]. Təkcə bu cinayət aktlarının həyata keçirilməsi nəticəsində 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan ərazisindən kütləvi şəkildə və zorakılıqla sürgün edilmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi 1905, 1918-ci illərdə azərbaycanlı əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir" [17]. Təsadüfi deyil ki, bu gün biz artıq Zəngəzura, İrəvana və digər əzəli Azərbaycan torpaqlarına getmək kimi tarixi hüququmuzu beynəlxalq birlik qarşısında qaldırırıq. Zorla didərgin salınmış dədə-baba yurdlarına geri qayıtmaq hər bir soydaşımızın haqqıdır.

Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən Prezident İlham Əliyev müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirdi: "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır".

İlham Əliyev Qərbi azərbaycanlı ziyalılarla görüşdə Qərbi Azərbaycana qayıdış Konsepsiyasının hazırlanması vəzifəsini də qarşıya qoydu. Bir ay müddətində Konsepsiya hazırlanaraq sənəddə son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapdı. Konsepsiya 2024-cü il yanvar ayının 25-də Müşahidə Şurasında təsdiq edildi.

Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bugünkü Ermənistanın yerləşdiyi ərazinin tarixi Azərbaycan torpağı olduğunu və bu ərazidə tarix boyu Azərbaycan xalqının yaşadığını xüsusi olaraq vurğuladı. 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı, 1920-ci ildə Azərbaycan SSR-nin Zəngəzuru Ermənistana güzəştə getmək qərarlarına siyasi qiymət verdi. Prezident Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yerini yüksək qiymətləndirdi, eyni zamanda, haqlı olaraq bu tarixin şanlı səhifələri ilə yanaşı, qara səhifələrini də unutmamağı, tarixi həqiqətləri təhrif olunmuş formada təqdim etməməyi və bundan dərs çıxarmağı tövsiyə etdi. Dövlət başçısı İrəvanın ermənilərə verilməsi qərarını istər 1918-ci ildə, istərsə də hazırkı dövrdə müxtəlif səbəblərlə izah etməyə çalışanların heç bir izahatının qəbul edilən olmadığını, bu qərarın xalqımızın başına nə qədər böyük bəlalar gətirdiyini vurğuladı və haqlı olaraq qeyd etdi ki, "əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi" [18].

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı bir zərurətdir və bu, ədalətin bərpası, onların təməl hüquqlarının təmin olunmasıdır. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq bu istiqamətdə hərtərəfli işlərə başlanılıb.

Heç şübhəsiz ki, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandanın qüdrəti, apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə doğru irəli gedəcək, tarixi ədalət zəfər çalacaq!

**Açar sözlər:** *Cənubi Qafqaz, Qərbi Azərbaycan, tarixi ekskurs, reallıqlar, deportasiya*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hüseynova İ. M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004. 472 səh.*

*2. Hüseynova İ. M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı. 2008*

*3. Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyüzat", 2021, 224 s.*

*4. Hacıyev.İ. Moskva və Qars beynəlxalq müqavilələri. Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2021, 152 s.*

*5. Vandalizm: tarixi adlara qarşı soyqırımı (tərtib edəni: Nazim Mustafa), Bakı:Təhsil, 2006, 92 səh.*

*6. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı İlərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 səh*

*7. Muradverdiyev A. Zəngəzur - tariximizin yaddaşı, Bakı: Xəzər, 2007, 1024 səh*

*8. İ.M.Bayramov. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti, Bakı: 2011,288səh.*

*9. Vaqif Arzumanlı, Nazim Mustafa, Tarixin qara səhifələri. Bakı, 1998, səh. 45-52*

*10. Ulu Öndər Heydər Əliyev xatirələrdə. Bakı, 2023, 480 səh*

*11. İrəvan xanlığı. Bakı, 2010, 620 səh.*

*12. Владыкин М.Путешествие по Кавказу. (Путеводитель и собеседник в путешествии по Кавказу), ч.I. М., 1885.*

*13. Н.Н.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку, 1990, Элм, 156 стр.*

*14. https://ikisahil.az/post/227389-shusha-beyannamesi-tarixi-qars-beyannamesine-istinad-edilir-prezident-ilham-eliyev*

*15. Чавчавадзе И. Армянские ученые и вопиющие камни. Баку, 1990, с.225.*

*16. Грибоедов А. С. Записка о переселении армян из Персии в наши области // Грибоедов А. С. Полное собрание сочинений: [В 3 т. ]. — Пг. : Изд. Разряда изящной словесности Акад. наук, 1911—1917. — Т. 3. — 1917. — С. 267—270.*

*17. https://respublika-news.az/news/1685674243-konlum-kecir-o-yerlerden*

*18. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi. 24 dekabr 2022 https://president.az/az/articles/view/58470*

**Гусейнова Ирада**
**Доктор исторических наук, профессор, заведующий кафедрой истории народов Кавказа Бакинского государственного университета**

## РЕЗЮМЕ

### Реалии Западного Азербайджана в историческом контексте

Народ Азербайджана исторически пострадал от армянских провокаций и терроризма, был лишен части своих исторических земель, боролся с несправедливыми территориальными претензиями и физическим уничтожением своего населения. Армяне, воспользовавшись тяжелым положением, в котором время от времени находился Азербайджан, наносили по нему удары и незаконно захватывали наши земли, надеясь на защиту могущественных государств. В результате 44-дневной Отечественной войны, начавшейся 27 сентября 2020 года, были возвращены территории Азербайджана, оккупированные Республикой Армения в 90-х годах 20-го века. Успешная внешняя и внутренняя политика Президента Азербайджанской Республики Ильхама Алиева, сила нашей армии и единство народа сыграли ключевую роль в завоевании победы. В ходе войны Республика Армения еще раз доказала свою политику убийства мирного населения.

Сегодня все мировое сообщество информируется о геноциде и депортации азербайджанцев армянами, проводятся различные мероприятия, конференции, мемориальные церемонии. Азербайджан всегда держит вопрос геноцида и депортации в повестке дня и старается не забывать об этом. Однажды азербайджанцы вернутся на свои исконные земли.

**Ключевые слова:** *Южный Кавказ, Западный Азербайджан, исторический экскурс, реалии, депортация.*

**Huseynova Irada**
**Doctor of historical sciences, professor, head of the Caucasian peoples history department of Baku State University**

**SUMMARY**
**Western Azerbaijan realities in historical context**

The people of Azerbaijan have historically suffered from Armenian provocations and terrorism, were deprived of part of their historical lands, and struggled with unfair territorial claims and the physical destruction of their population. The Armenians, taking advantage of the difficult situation in which Azerbaijan was from time to time, attacked it and illegally seized our lands, hoping for the protection of powerful states. As a result of the 44-day Patriotic War, which began on September 27, 2020, the territories of Azerbaijan occupied by the Republic of Armenia in the 90s of the 20th century were returned. The successful foreign and domestic policies of the President of the Republic of Azerbaijan Ilham Aliyev, the strength of our army and the unity of the people played a key role in winning victory. During the war, the Republic of Armenia once again proved its policy of killing civilians.

Today, the entire world community is informed about the genocide and deportation of Azerbaijanis by Armenians, various events, conferences, and memorial ceremonies are held. Azerbaijan always keeps the issue of genocide and deportation on the agenda and tries not to forget about it. One day, Azerbaijanis will return to their ancestral lands.

**Key words:** *South Caucasus, Western Azerbaijan, historical approach, realities, deportation.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.3.81.0011

# AZƏRBAYCANIN ENERJİ RESURSLARI XƏZƏR-QARA DƏNİZ REGİONUNDA GEOSİYASİ VƏZİYYƏTİN TRANSFORMASİYASININ MÜHÜM KATALİZATORU KİMİ

**AYGÜN ƏKBƏROVA**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Dövlət Universietinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: aygunniyaz@gmail.com*

## Giriş

Xəzər-Qara dəniz regionunda geosiyasi vəziyyətin transformasiyası dəyişən ittifaqlar, ərazi mübahisələri, resurs rəqabəti və xarici təsirlər də daxil olmaqla bir sıra amillərin mürəkkəb qarşılıqlı təsiri ilə şərtlənir. Əhəmiyyətli amillərdən biri regionda nüfuz və nəzarət uğrunda mübarizə aparan Rusiya və Türkiyə kimi əsas regional oyunçuların iddialı hərəkətləridir. Rusiyanın 2014-cü ildə Krımı ilhaq etməsi və Qara dənizdə hərbi mövcudluğunu artırması gərginliyi artırıb, qonşu dövlətlərin və beynəlxalq aktorların reaksiyalarına səbəb olub. Bundan əlavə, bəzi regional dövlətlərin, xüsusən də Şərqi Avropa və Cənubi Qafqaz ölkələrinin inteqrasiya istəkləri Avropa İttifaqı və NATO kimi Qərb institutları ilə əməkdaşlığın artmasına səbəb olmuşdur. Bu tendensiya Rusiya ilə gərginliyi artırır, regionda Qərb və Şərq gücləri arasında daha geniş geosiyasi rəqabətə səbəb olur.

Azərbaycanın enerji resursları Xəzər-Qara dəniz regionunun geosiyasi dinamikasının formalaşmasında mühüm rol oynayır. Neft və təbii qazın əhəmiyyətli istehsalçısı və ixracatçısı kimi Azərbaycanın enerji sektoru regional iqtisadiyyatlara, təhlükəsizlik siyasətinə və beynəlxalq əlaqələrə təsir göstərir. Azərbaycanın enerji resurslarının təsirini başa düşmək regionun strateji əhəmiyyətini və gələcək inkişaf perspektivlərini qiymətləndirmək üçün çox vacibdir.

Bu baxımdan, tədqiqatımızın məqsədi Azərbaycanın enerji resurslarının Xəzər-Qara dəniz regionunda geosiyasi vəziyyətin transformasiyası üçün necə katalizator rolunu oynadığını təhlil etməkdir. Enerji geosiyasəti, iqtisadi maraqlar və təhlükəsizlik mülahizələri arasındakı qarşılıqlı əlaqəni araşdıraraq, məqalə inkişaf edən regional mənzərə haqqında fikirlər təqdim etmək məqsədi daşıyır. Bundan əlavə, məqalə Azərbaycanın enerji sektoru ilə bağlı imkanları və çağırışları, onun regional əməkdaşlıq, sabitlik və inteqrasiya üçün təsirlərini müəyyən etməyə xidmət edir.

Azərbaycan Respublikasının karbohidrogen resurslarının həcmi

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsidir, geosiyasi mövqeyi və zəngin karbohidrogen ehtiyatları baxımından dünyadakı ən mühüm regionlardan biridir. Xəzərin təbii sərvətləri haqqında müxtəlif tədqiqatçılar müxtəlif məlumatlara malikdirlər. Amerika Birləşmiş Ştatlarının Enerji İnformasiya Administrasiyasının (EBI) statistikasına görə, Xəzərdə 48 milyard barel neft və 8,2 trilyon m³ təbii qaz enerjisi var. Neft ehtiyatlarının 41%-i (19,6 milyard barel) və qaz ehtiyatlarının 36%-i (3 trilyon m³) dəniz ərazilərində cəmləşib. Resursların 35%-i və 45%-i torpaqdakı resurslardır. Qalan ehtiyatlar sahildən 100 mil məsafədədir. EBI-nin məlumatına görə, Xəzər regionunda hələ də kəşf edilməmiş 20 milyard barel neft və 7 trilyon m³ təbii qaz var [6].

Bundan əlavə, 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş imzalanıb. Beləliklə, nəhəng "Azəri-Çıraq-Günəşli" blok neft yataqlarının işlənməsində yeni dövr başladı. Müqaviləni Azərbaycanın hökumət rəsmiləri SOCAR, BP, Chevron, IMPEX, Statoil, ExxonMobil, TP, ITOCHU və ONGC Videsh şirkətləri imzalayıb. 2050-ci ilə qədər yenidən işlənmiş Hasilatın Pay Bölgüsü Sazişə əsasən, BP layihənin operatoru kimi fəaliyyətini davam etdirəcək, SOCAR-ın payı 11 faizdən 25 faizə, Azərbaycanda qalan mənfəət payı isə 75 faizə yüksələcək. Bu Sazişdən sonra 2019-cu ildə "Azəri-Çıraq-Günəşli" blokunun müqavilə sahəsində əlavə hasilat platformasının tikintisinə dair də razılıq əldə olunub [9].

BP-nin məlumatına görə, 2019-cu ilin sonunda Azərbaycanın təsdiq edilmiş neft ehtiyatları 1 milyard kubmetr təşkil edib. Hesabata görə, 2019-cu ilin sonunda dünyanın təsdiqlənmiş neft ehtiyatları 244,6 milyard barelə çatıb və Azərbaycanın bunda payı 0,4 faiz təşkil edib[7].

Azərbaycan qaz ehtiyatlarına görə də ən əlverişli regionlardan biridir. Burada zəngin qaz ehtiyatları-

nın olması 20-ci əsrin ortalarında Azərbaycan qaz sənayesinin və vahid qaz şəbəkəsinin yaranmasına səbəb olmuşdur. Lakin iqtisadi canlanma burada təbii qaza tələbatı artırıb və müəyyən vaxtlarda ölkə Sovet İttifaqının vahid qaz sistemindən əlavə yanacaq almaqla bu enerjidaşıyıcıya olan tələbatı ödəyib. İttifaqın dağılması ilə əlaqədar olaraq ölkə təbii qaza olan tələbatını daxili mənbələr hesabına ödəməli oldu. 1990-cı illərdə ölkədə hasil edilən qaz (1998-ci ildə 5589,5 min $m^3$) tələbatdan aşağı idi. Yeni neft və qaz yataqlarının genişləndirilməsi, mövcud ehtiyatlardan səmərəli istifadə son zamanlar bu problemi həll etdi və Azərbaycan qaz ixracatçısına çevrildi [6, s. 44].

Xüsusilə, 1990-cı ildə Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən "Şahdəniz" yatağında "Şahdəniz" quyusu açılaraq Azərbaycanı qazla təmin edib. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti Böyük Britaniyanın British Petroleum və Norveçin Statoil şirkətləri ilə "Şahdəniz" yatağının işlənməsinə dair müqavilə imzalamışdır. Müqaviləyə əsasən, "British Petroleum" və "Statoil" şirkətlərinə yatağın birgə işlənməsi üzrə danışıqlar aparmaq və yatağın hazırlanması üçün xüsusi səlahiyyətlər verildi. İki şirkət ittifaq yaratdı və sonradan Türkiyə Neft Şirkəti ilə birləşdi [6, s. 40].

BP-nin icmalı 2019-cu ilin sonunda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatlarını 2,8 trilyon kubmetr səviyyəsində qiymətləndirib. İcmalın məlumatına görə, 2018-ci ilin sonuna Azərbaycanın təbii qaz ehtiyatları 2,1 trilyon kubmetr qiymətləndirilib və bununla da bir il ərzində qaz ehtiyatları 0,7 trilyon kubmetr və ya 33,3% artıb [7].

Bundan əlavə, "Fitch Ratings"in qiymətləndirməsinə görə, Azərbaycan dünyanın aparıcı ölkələrindən biridir və təbii qaz ehtiyatlarına görə yalnız Qətərdən geri qalır. Fitch-in məlumatına görə, 2019-cu ildə ölkənin neft və qaz ehtiyatları qlobal ehtiyatların 0,8%-ni təşkil edib. Hasilata nəzər salsaq, Qazaxıstan təbii qaz ehtiyatlarına görə demək olar ki, Azərbaycanla bərabər səviyyədədir. Bu çərçivədə Qaraçuxur hövzəsində qazılan quyularda aparılan tədqiqatlar zamanı Abşeron laylarında sənaye əhəmiyyəti olmayan qazlara rast gəlinmişdir. Belə ki, təbii qaz hasilatına keçən quyularda suyun miqdarının sürətlə artdığı müşahidə olunub. 11 neft təbəqəsindən yalnız 6 layda qaz zonaları var. İkinci təbəqənin nisbətən yuxarı hissəsindəki tektonik qırıqlar arasında 23 ha (230000 $m^2$) sahəsi olan qaz zonası var. Üçüncü layın qaz zonasında yerləşən bütün quyularda qazveriminin azalması nəticəsində quyular bağlanıb [4].

**Azərbaycan Respublikasının Qara dəniz ölkələrinin enerji təhlükəsizliyinə təsirləri**

Azərbaycanın Qara dəniz ölkələrinin enerji təhlükəsizliyində rolu ilə bağlı mövqeyini bir neçə bənddə ümumiləşdirmək olar: birincisi, qlobal rəqabət, enerji resurslarının təhlükəsizliyi və enerji marşrutlarının müxtəlifliyi səbəbindən güclü və effektiv Avropa enerji siyasəti zəruridir. İkincisi, enerji siyasəti milli suverenliyin əsasını təşkil edir, ona görə də milli təhlükəsizlik çərçivəsində adekvat enerji təhlükəsizliyinin təmin edilməsi Aİ üçün mühüm prioritetdir. Üçüncüsü, bütün üzv dövlətlər, o cümlədən Balkan ölkələri mövcud enerji siyasətini dəstəkləyir, lakin onların heç biri ümumi enerji bazarının inteqrasiyasını nəzərdə tutmur. Bu qeyri-sabit mövqeyin arxasında bir neçə səbəb var. Balkan ölkələri də daxil olmaqla hər bir üzv dövlətin öz milli maraqları və xarici siyasəti var. Bundan əlavə, Avropa regionlarının istehlak və idxal dərəcələri fərqlidir. Dördüncüsü, uğursuzluğa düçar olmuş Nabukko layihəsindən sonra Aİ daha ciddi addımlar atmaq istəyir. Cənub Qaz Dəhlizi alternativ enerji mənbələri baxımından ən mühüm layihədir. Beşincisi, Aİ-Azərbaycan enerji münasibətlərinə nəzər saldıqda aydın olur ki, Azərbaycan istər Aİ, istərsə də Balkan ölkələrinin iqtisadi, geosiyasi və təhlükəsizlik maraqlarına görə etibarlı və strateji tərəfdaşdır.

Bunun nəticəsidir ki, Avropa İttifaqı və Balkan ölkələri ilə Azərbaycan arasında əlaqələr sürətlə intensivləşir. Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı Proqramı və Cənub Qaz Dəhlizi Azərbaycanın Avropaya gələcək inteqrasiyasına töhfə verən əsas elementlərdir. Beləliklə, uzun illərdən sonra Avropa İttifaqı ümumi enerji siyasəti istiqamətində mühüm addım atmışdır. TAP və TANAP layihələri ilə Avropanın bir çox regionlarını enerji ilə təmin edir və tək mənbədən asılılığı azaldır, Avropanın enerji təhlükəsizliyini təmin edəcək ən mühüm faktora gətirib çıxarır[1].

Digər tərəfdən, Rusiya maneələr yaratmaqla Aİ-nin yeni mənbələrdən təbii qaz almasına mane olmağa çalışır. Bu maneələr geosiyasi sferada hadisələrin gedişindən asılı olaraq dəyişir. Bu məqamda Azərbaycan əsas ölkə rolunu oynayır və Qara

dəniz ölkələrinin enerji resurslarının müxtəlifliyinin artırılmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Rusiya ilk mərhələdə mənfi şərhləri ilə Cənub Qaz Dəhlizinin reputasiyasına xələl gətirməyə çalışır. Eyni zamanda, Azərbaycan və Türkmənistanın enerji ixracı infrastrukturunun əsasını təşkil edəcək Transxəzər boru kəməri Rusiyanın maraqlarına ziddir. Rusiyanın növbəti addımları irimiqyaslı geosiyasi manevrlərlə layihənin hər hansı inkişafının qarşısını ala bilər. Lakin Azərbaycanın Cənubi Qafqazda əhəmiyyətinin artması və 2020-ci ildə TAP kəməri ilə ilk təbii qazın nəqlinə başlaması rusları çətin vəziyyətə salıb.

2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. TAP fəaliyyətə başladıqdan sonra Bolqarıstanın qaz ehtiyacının 33%-ni, Yunanıstanın 20%-ni və İtaliyanın 10,5%-ni ödəyir. BP, İtaliyanın SNAM və Azəri SOCAR hər biri 20 faiz payla üç əsas investordur. TAP Cənub Qaz Dəhlizinin bir hissəsidir [2]. Layihənin tərəfləri hesab edirdilər ki, kəmər Avropanın enerji təhlükəsizliyini artıracaq və Rusiyadan asılılığını azaldacaq. ABŞ-ın Avropadakı enerji təhlükəsizliyi üzrə xüsusi səfiri Riçard Morninqstarın sözlərinə görə: “Azərbaycan sahillərindən kənarda regionda başqa ehtiyatlar da var. Türkmənistandan qaz idxal etmək hələ də mümkündür” [5].

Cənub Qaz Dəhlizi Aİ üçün vacib olsa da, Rusiya üçün narahatlıq doğurur. Məsələn, Qərbin dəstəklədiyi Nabukko layihəsinin müzakirə olunduğu bir vaxtda Rusiya öz təbii qazını Qara dəniz sahilində Bolqarıstana nəql etmək üçün “Cənub axını” boru kəməri layihəsinin təşəbbüskarı oldu. Bu layihə Avropa İttifaqının rəqabət qaydalarına uyğun gəlmədiyi üçün baş tutmadı və sonradan Rusiyanın “Qazprom” şirkətinin təklif etdiyi “Türk axını” boru kəməri layihəsi də uğursuzluğa düçar oldu. Rusiya bu regionda onun iştirakı olmadan qaz nəqli layihələrinə isti yanaşmır. Layihə ilə bağlı son hadisə təbii qazın nəqlinə başlanmasıdır. 2020-ci ilin oktyabrında Yunanıstan-Türkiyə sərhədindən İtaliyanın cənubundakı qəbul terminalına qədər olan TAP boru kəməri, nəhayət, 15 noyabr 2020-ci ildə Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olaraq tamamlandı və boru kəməri vasitəsilə kommersiya fəaliyyətləri başladı[8].

Üstəlik, TAP-ın işə düşməsindən il yarım sonra başlayan Rusiya-Ukrayna müharibəsi Qara dəniz regionunda enerji ticarəti və nəqli üçün mühüm tranzit marşrutuna təsir göstərir. Xüsusilə, Azərbaycan kimi enerji istehsal və ixrac edən ölkələr Qara dənizdən keçən enerji nəqli marşrutlarının təhlükəsizliyindən asılıdır. Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar bölgədəki enerji balanslarına və ticarət əlaqələrinə əhəmiyyətli dərəcədə təsir edir. Avropa İttifaqı Rusiyanın enerji resurslarından asılılığını azaltmaq və Rusiyanın siyasətinə qarşı tarazlıq yaratmaq üçün sanksiyalar tətbiq edir. Bu sanksiyalar Avropanın enerji təchizatının təhlükəsizliyini təmin etmək səylərinin bir hissəsi kimi qiymətləndirilir. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar Avropanın alternativ enerji mənbələrinə ehtiyacını artırıb. Ona görə də Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları nəticəsində Azərbaycanın enerji ixracı və ticarət potensialı artıb. Avropa Rusiyadan enerji asılılığını azaltmaq üçün Azərbaycan kimi alternativ enerji mənbələrinə müraciət edir.

Bu yaxınlarda Aİ Azərbaycanla 2027-ci ilə qədər Azərbaycan təbii qazının idxalını iki dəfə artırmaq üçün anlaşma memorandumu imzalayıb. Memorandumun əsas detallar aşağıdakılardır [3]:

– Qaz idxalı. Aİ 2027-ci ilə qədər Azərbaycandan qaz idxalını ildə ən azı 20 milyard kubmetrə (bcm) çatdırmağı hədəfləyir.

– Trans-Adriatik Boru Kəməri. Hazırda Azərbaycan Trans-Adriatik Boru Kəməri vasitəsilə hər il 8 milyard kubmetrdən çox qaz nəql edir. Bu, 2027-ci ilə qədər 20 milyard kubmetrə qədər genişləndiriləcək.

– Təchizat təhlükəsizliyi. Azərbaycanın artan qazı idxalı Rusiya qazının tədarükünün kəsilməsini kompensasiya etməyə kömək edəcək və Avropanın təchizat təhlükəsizliyinə əhəmiyyətli dərəcədə töhfə verəcək.

– Enerji əməkdaşlığı. Aİ Azərbaycanı etibarlı enerji tərəfdaşı hesab edir və enerji sahəsində uzunmüddətli və proqnozlaşdırıla bilən əməkdaşlığın vacibliyini vurğulayır. Azərbaycan qazını Aİ-yə nəql edən Cənub Qaz Dəhlizi 2020-ci ildən fəaliyyət göstərir.

– Diversifikasiya. Rusiyanın enerji təchizatını silah kimi istifadə etməyə çalışması fonunda enerji idxalının şaxələndirilməsi Aİ üçün prioritet məsələdir. Aİ liderləri Rusiyanın əksər neft idxalını bu ilin sonuna qədər dayandırmağa razı olsalar da, 2021-ci ildə Aİ-nin ehtiyaclarının təxminən 40%-ni təşkil edən Rusiya qazına birbaşa qadağa qoymayıblar.

## Nəticə

Azərbaycanın 2020-ci ildə TAP layihəsində təbii qazın nəqlinə başlaması regionun enerji balansında əhəmiyyətli dəyişiklikdən xəbər verir. Bu layihə Azərbaycanın zəngin təbii qaz ehtiyatlarını Avropaya çatdırmış və regionda enerji ticarətinə yeni rəng qatmışdır. Lakin 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsi Azərbaycanın Avropada enerji idxalçısı kimi strateji əhəmiyyətini bir az artırdı. Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar və artan təhlükəsizlik narahatlıqları Azərbaycanın enerji resurslarına tələbatını artırıb və regiondakı rolunu daha da gücləndirib. Bu dinamika fonunda 2022-ci ildə Avropa İttifaqı ilə imzalanan anlaşma memorandumu ilə Azərbaycanın təbii qaz ixracını iki dəfə artırmaq qarşıya məqsəd qoyulmuşdu. Bu saziş Azərbaycanın Avropa bazarı üçün strateji tərəfdaşlıq yaratmaq səylərini dəstəkləyir və regionda enerji ticarətinin gələcəyini formalaşdırır. Azərbaycanın enerji resurslarına artan tələbatı ilə regionda enerji ticarəti və təhlükəsizlik dinamikası mürəkkəbləşir. Bu vəziyyət region ölkələri arasında əməkdaşlığa və rəqabətə təsir edərək regiondakı geosiyasi balansı dəyişdirir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *"Amerikanın səsi, Bakı Bürosu. TAP layihəsi: Avropanın enerji təhlükəsizliyinə təsirlər. URL: https://www.amerikaninsesi.org/a/tap-layihesi/3345986.html*

2. *Çarpıcı, A. TAP'ın proje finansmanı tamamı, Enerji Günlüğü Gazetesi. URL: https://www.enerjigunlugu.net/tapin-proje-finansmani-tamam-30636h.htm*

3. *EU signs deal to double gas imports from Azerbaijan by 2027. euractiv. URL: https://www.euractiv.com/section/energy/news/eu-signs-deal-to-double-gas-imports-from-azerbaijan-by-2027/*

4. *Fitch: Azərbaycanın təbii qaz ehtiyatları 120 ilə kifayət edəcək, APA. URL: https://apa.az/az/senaye-ve-energetika/Fitch-Azrbaycanin-tbii-qaz-ehtiyatlari-120-il-kifayt-edck-629501*

5. *Kaya, N.E. Turkey to benefit from many gas supplies and best prices, Anadolu Haber Ajansı, 05.03.2019. URL: https://www.aa.com.tr/en/economy/turkey-to-benefit-from-many-gas-supplies-best-prices-/1409431*

6. *Mirzayev, R. Heydar Aliyev and new oli strategy of independent Azerbaijan. Baku: Goyturk, 2016.*

7. *Nə qədər qalıb - Azərbaycanın neft ehtiyatları yenidən dəyərləndirildi. URL: https://sputnik.az/economy/20200617/424216782/azerbaycan-neft-ehtiyat-deyerlendirme.html*

8. *TAP layihəsi işə düşdü. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. URL: https://aircenter.az/az/single/tap-layihesi-ise-dusdu-521*

9. *Yeni əsrin müqaviləsi: "Əsrin müqaviləsi"ndən başlanan yolda növbəti zirvə. Newtimes, 29 sentyabr 2017. URL: http://newtimes.az/az/organisations/5291*


## XÜLASƏ


Azərbaycan Respublikasının enerji resurslarının Xəzər-Qara dəniz regionunda geosiyasi vəziyyətin transformasiyasının mühüm katalizatoru kimi tədqiq edildiyi məqalədə qeyd olunur ki, 2020-ci ildə Trans-Adriatik Boru Kəməri (TAP) layihəsində Azərbaycanın təbii qaz nəqlinə başlaması regionun enerji landşaftında əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Bu təşəbbüs Azərbaycanın zəngin təbii qaz ehtiyatlarının Avropaya ixracını asanlaşdırdı, regional enerji ticarətinə yeni dinamika daxil etdi. Məqalədə həmçinin vurğulanır ki, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlaması Azərbaycanın Avropada əsas enerji idxalçısı kimi strateji əhəmiyyətini artırıb. Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar və artan təhlükəsizlik narahatlıqları Azərbaycanın enerji resurslarına tələbatını artırıb və onun regiondakı rolunu gücləndirib. Bu hadisələr kontekstində, 2022-ci ildə Azərbaycan və Avropa İttifaqı arasında anlaşma memorandumunun imzalanması Azərbaycanın təbii qaz ixracını iki dəfə artırmaq məqsədi daşıyırdı. Azərbaycanın enerji tələbatı artmaqda davam etdikcə, regionda enerji ticarəti və təhlükəsizlik dinamikasının mürəkkəbliyi güclənir, əməkdaşlığa, regional ölkələr arasında rəqabətə təsir edir və Xəzər-Qara dəniz regionunda geosiyasi tarazlığı dəyişdirir.


**Açar sözlər:** *Azərbaycan Respublikası, enerji resursları, Xəzər-Qara dəniz regionu, Rusiya, geosiyasi vəziyyət, transformasiya.*

**Айгюн Акбарова**
***Доктор философии по политическим наукам, доцент***

## РЕЗЮМЕ
## ЭНЕРГОРЕСУРСЫ АЗЕРБАЙДЖАНА КАК ВАЖНЫЙ КАТАЛИЗАТОР ТРАНСФОРМАЦИИ ГЕОПОЛИТИЧЕСКИЙ СИТУАЦИИ В КАСПИЙСКО-ЧЕРНОМОРСКОМ РЕГИОНЕ

В статье, где энергетические ресурсы Азербайджанской Республики изучаются как важный катализатор трансформации геополитической ситуации в Каспийско-Черноморском регионе, отмечается, что начало транспортировки природного газа Азербайджаном в Транс-Проект Адриатического трубопровода (TAP) в 2020 году вызвал существенные изменения в энергетическом ландшафте региона. Эта инициатива способствовала экспорту богатых запасов природного газа Азербайджана в Европу и придала новую динамику региональной торговле энергоносителями. В статье также подчеркивается, что начало российско-украинской войны в 2022 году повысило стратегическое значение Азербайджана как основного импортера энергоносителей в Европе. Санкции Европейского Союза против России и растущая обеспокоенность по поводу безопасности увеличили спрос Азербайджана на энергоресурсы и усилили его роль в регионе. В контексте этих событий подписание в 2022 году меморандума о взаимопонимании между Азербайджаном и Евросоюзом направлено на удвоение экспорта природного газа Азербайджана. Поскольку спрос на энергию в Азербайджане продолжает расти, сложность торговли энергоресурсами и динамики безопасности в регионе усиливается, влияя на сотрудничество и конкуренцию между странами региона и меняя геополитический баланс в Каспийско-Черноморском регионе.

**Ключевые слова:** *Азербайджанская Республика, энергетические ресурсы, Каспийско-Черноморский регион, Россия, геополитическая ситуация, трансформация.*

**Aygun Akbarova**
***Doctor of Philosophy in Political Sciences, Associate Professor***

## SUMMARY
## ENERGY RESOURCES OF AZERBAIJAN AS AN IMPORTANT CATALYST OF THE TRANSFORMATION OF GEOPOLITICAL SITUATION IN THE CASPIAN-BLACK SEA REGION

In the article, where the energy resources of the Republic of Azerbaijan are studied as an important catalyst for the transformation of the geopolitical situation in the Caspian-Black Sea region, it is noted that the start of natural gas transportation by Azerbaijan in the Trans-Adriatic Pipeline (TAP) project in 2020 caused significant changes in the energy landscape of the region. This initiative facilitated the export of Azerbaijan's rich natural gas resources to Europe and introduced a new dynamic to regional energy trade. The article also emphasizes that the start of the Russia-Ukraine war in 2022 has increased the strategic importance of Azerbaijan as the main energy importer in Europe. European Union sanctions against Russia and growing security concerns have increased Azerbaijan's demand for energy resources and strengthened its role in the region. In the context of these events, the signing of a memorandum of understanding between Azerbaijan and the European Union in 2022 aimed to double Azerbaijan's natural gas exports. As Azerbaijan's energy demand continues to grow, the complexity of energy trade and security dynamics in the region is intensifying, affecting cooperation and competition among regional countries and changing the geopolitical balance in the Caspian-Black Sea region.

**Keywords:** *Republic of Azerbaijan, energy resources, Caspian-Black Sea region, Russia, geopolitical situation, transformation.*

UOT 32(092)
DOI:10.30546/3006-0346.2024.3.81.0016

# PREZİDENT İLHAM ƏLİYEVİN PRAQMATİK XARİCİ SİYASƏT FƏLSƏFƏSİ VƏ QOŞULMAMA HƏRƏKATI ÇƏRÇİVƏSİNDƏ DİPLOMATİK UĞURLAR

**ZAUR MƏMMƏDOV**
*Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının baş müəllimi, beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: zaur.mammadov@dia.edu.az*
*ORCID: https://orcid.org/0009-0005-0270-1892*

Hər bir dövlətin qarşısında dayanan ən mühüm məqsədlərdən biri özünün milli maraqlarını beynəlxalq sistemdə maksimum şəkildə qorumaqdan ibarətdir. Xarici siyasətlə bağlı verilən qərarların dövlətin gələcəyinə, onun daxilindəki sabitliyə və eyni zamanda beynəlxalq münasibətlər sistemindəki təhlükəsizliyinə təsiri təkzibolunmaz faktordur. Şübhəsiz, son illər baş verən hadisələr və latent səviyyədə olan münaqişələrin açıq müstəviyə keçmələri dünya siyasi sisteminin transformasiya çağı yaşadığının göstəricisidir. Təsadüfi deyil ki, hazırda siyasi diskursda da aktual olan mövzular sırasında dünyanın hara istiqamətlənməsidir - birqütblü, yoxsa çoxqütblü idarəçilik sisteminə...

Bir çoxları düşünür ki, 30 il ərzində ABŞ-nin başçılığı altında başlanan və nizamlanan təkqütblü dünyanın çöküşü əslində bu gün deyil, bundan bir müddət əvvəl başlamışdır. Hələ 2014 –cü ildə amerikalı diplomat Haas qeyd edirdi ki, post- ikiqütblü dünyanın yeni mərhələyə qədəm qoyması baş verir [9]. Digərləri düşünür ki, bunun səbəbinin nə olmasından asılı olmayaraq hazırda birqütblü dünyanın süquta doğru irəliləməsi fonunda dünyada ikinci aparıcı dövlətin olmaması, çox güman ki, bir çox coğrafiyalarda xaotik proseslərin sayını artıracaq.

C. Aykenberri isə, düşünür ki, "soyuq müharibə"-dən sonra dünyada liberal nizamın hər yerdə formalaşmaşdığı vaxtda yeganə hegemon dövlət var idi, indi isə, liberal dünyanın özü ciddi böhran vəziyyətinə düşübdür. Bunun səbəbi hazırda Qərb dünyasının özündə dövlətlər arasında milli maraqların reallaşması uğrunda davam etməkdə olan rəqabətdir [7, p.450.].

C. Nay isə, hazırda dünyada qlobal oyunçular arasında geosiyasi mübarizəyə toxunaraq Çinin yeni beynəlxalq sistem yaratmadığını, əslində mövcud beynəlxalq nizamda öz mövqeyinin gücləndirilməsi üçün mübarizə apardığından yazır [8]. Rusiyalı alim A. Lukin isə qeyd edir ki, qeyri – Qərb dövlətlərinin iqtisadi inkişafı və sıçrayışı Qərbin siyasi və iqtisadi cəlbediciliyini azaldıb [6, p. 91–112.].

Bu fonda, bizi maraqlandıran ən əsas nüanslardan biri dövlət təhlükəsizliyinin qorunması istiqamətində xarici siyasətlə bağlı, dünyanın ayrı – ayrı güc mərkəzləri ilə münasibətlərdəki praqmatik addımların nədən ibarət ola biləcəyi haqqındadır. Rusiya və Ukrayna arasında müharibənin hələ də pik həddə olduğu, İran və İsrail qarşıdurmasının getdikcə daha çox hərbi toqquşma fazasına keçdiyi bir vaxtda kifayət qədər həssas bölgədə yerləşən Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemindəki yeri tədqiqat predmeti olaraq uzunmüddət diskussiya obyekti olmalıdır. Bu gün Gürcüstan və Ermənistanda siyasi hakimiyyət uğrunda illərdir davam edən gərginliyin getdikcə daha da şiddətlənməsi, ABŞ, Aİ və Rusiyanın bu dövlətlərin daxilində siyasi partiyalar, ümumilikdə siyasi sistemlərində öz maraq qrupları vasitəsilə apardıqları siyasət Cənubi Qafqazın Ukraynadan sonra ciddi mübarizə meydanına çevrildiyinin göstəricisidir.

Onlardan fərqli olaraq, Azərbaycan Respublikası qlobal aktorlar arasında davam etməkdə olan mübarizədə maksimum sığortalanmaq üçün öz xarici siyasət konsepsiyasını əvvəldən şəffaf və açıq şəkildə bəyan edibdir. Əksinə, ölkəmiz Qərblə Şərqin toqquşma meydanı deyil, dialoq mərkəzi kimi tanınır. Ulu Öndər Heydər Əliyevdən başlayaraq Azərbaycan xarici siyasətinin əsas istiqamətini hər zaman balanslaşdırılmış siyasət təşkil edib və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Sözsüz ki, xarici siyasət prioritetləri sırasında dünyanın ayrı-ayrı dövlətləri ilə ikitərəfli münasibətlərin inkişafı, beynəlxalq təşkilatlarla inteqrasiyanın genişləndirilməsi vacib yerləri tuturlar. Həmin beynəlxalq təşkilatlar arasında Qoşulmama Hərəkatı xüsusi yeri tutur.

Hələ 2011-ci ildə Qoşulmama Hərəkatının üzvü olarkən bir çoxları bu birliyin lazımsız, ölü bir institut olduğuna eyham vururdular. Zaman-zaman, rəsmi

Bakı atdığı addımının gələcəkdə yarana biləcək təhdidlərdən sığortalanmağımız üçün,vacib amil olduğunu hamıya başa salmış oldu.

Vaxtilə müəyyən dövlətlərin İkinci Dünya müharibəsindən sonra iki hərbi-siyasi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün təsis edilən Qoşulmama Hərəkatı (QH) indi beynəlxalq münasibətlər sistemi üçün mühüm çoxtərəfli mexanizmlərdən birinə çevrilmişdir.

2011 –ci ildə Şərqi Avropa, Qara – Xəzər dənizi region dövlətlərinin NATO və KTMT kimi qütbləşmiş hərbi – siyasi təşkilatları tərəfindən ciddi çağırışlarla üz-üzə olduğu və gələcək illərdə onların mütləq seçim edəcəkləri bir vaxtda, Azərbaycan İndoneziyanın Bali adasında baş tutan Qoşulmama Hərəkatının növbəti Sammitində quruma üzv oldu. Elə həmin ildən başlayaraq dünyanın 120 dövlətini birləşdirən nəhəng beynəlxalq institut Azərbaycanın təcavüzkar Ermənistan ilə haqlı mübarizəsində ölkəmizin haqq səsini eşidən qərarlar, bəyanatlar verməyə başladı.

9 – 10 may 2012 –ci ildə Qoşulmama Hərəkatının Misirdə baş tutan iclasının yekunlarına dair qəbul edilən sənəddə Ermənistan və Azərbaycan arasında münaqişənin dövlətlərin ərazi bütövlüyünə hörmət, ərazi bütövlüyünə qarşı güc tətbiq etməmək və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinə dəstək ifadə edilmişdir [5].

Elə həmin ilin 30 – 31 avqust tarixlərində Tehranda keçirilən Qoşulmama Hərəkatının liderlərinin XVI Zirvə Toplantısında üzv ölkələr iki dövlət arasında olan münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində həll edilməsinin vacibliyini bəyan etmişlər [4].

28 – 29 may 2014-cü ildə Əlcəzairdə baş tutan növbəti Sammit zamanı QH üzvləri Yekun Bəyanatda BMT –də 1990 –cı illərin əvvəllərində verilmiş qərarlara baxmayaraq Azərbaycan torpaqlarının hələ də işğal altında olduğunu, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu qeyd etmişlər [3].

4- 6 aprel 2018 –ci ildə, həmin dövrdə Ermənistanın ciddi seçim qarşısında olduğu bir dövrdə, Bakıda baş tutan Qoşulmama Hərəkatının Aralıq dövr Nazirlər Konfransının yekun sənədində bir daha münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edilmişdir.

Venesuellada keçirilən 18-21 iyul 2019-cu il tarixli Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Nazirlər səviyyəsindəki iclasında Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və işğalı ilə bağlı əvvəlki sənədlərdə əksini tapmış dəstək mövqeyi bir daha təsdiq edilmişdir [1].

25-26 oktyabr 2019-cu il tarixində Bakıda 120 BMT üzv dövlətinin yüksək səviyyəli nümayəndələrinin və 42 beynəlxalq təşkilat nümayəndələrinin iştirakı ilə baş tutan Sammitdə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə baxmayaraq Cənubi Qafqazdakı bu münaqişənin həll edilməmiş qalması və beynəlxalq sülhə hədə olması pislənilmiş, danışıqların məhz Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı əsasında həll edilməsinin vacibliyi bildirilmişdir [2].

Yeri gəlmişkən, 2019-cu ildə Bakıda baş tutan Zirvə Görüşündə ölkəmizə 3 il müddətində Hərəkata sədrlik həvalə edilmişdir. 44 günlük müharibədən 1 il əvvəl Azərbaycanın Qoşulmama Hərəkatına rəhbər gətirilməsi ölkəmizin qısa müddət ərzində yorulmaz, sistemli fəaliyyətinin nəticəsi idi. Bu, həm də, Azərbaycanın beynəlxalq imicinə verilən dəyər idi.

Müharibə vaxtı, 2020 –ci ilin 9 oktyabr tarixində ordumuzun ədaləti bərpa etdiyi günlərdə BMT Baş Assambleyasının sessiyası çərçivəsində 120 dövləti özündə birləşdirən Hərəkatın xarici işlər nazirləri “Bütün cəbhə boyu Azərbaycan Respublikasının silahlı qüvvələrinin mövqeləri və mülki yaşayış məntəqələrinə qarşı Ermənistan Respublikası tərəfindən silahlı hücum” adlı abzası tədbirin gündəliyinə daxil etmiş, nəticədə müharibənin gedişatında bizim üçün vacib olan Xüsusi Bəyannamə qəbul edilmişdir.

44 günlük müharibə zamanı bir sıra Qərb dövlətləri tərəfindən baş verənlərlə bağlı Birləşmiş Millətlər Təşkilatında qapalı müzakirələr keçirilərkən Hərəkata üzv olan bəzi dövlətlərin təhlükəsizlik şurasının qeyri – daimi üzvü kimi prinsipiallıqlarını nümayiş etdirmələri həmin vaxt ölkəmizə qarşı məkrli planları olan tərəflərin arzularının puça çıxması ilə nəticələndi.

Sədrliyi dövründə Azərbaycan Prezidenti İlham Əliyev uzun onilliklərdən sonra 120 dövləti birləşdirən Qurumun funksionallığını dəfələrlə artırdı. Hərəkat tarixində ilk dəfə olaraq üzv dövlətlərin haqlı səsləri daha ucadan eşidilməyə başladı və Vallerstaynın “dünya sistemi” nəzəriyyəsində ifadə etdiyi nüvə, periferiya və yarımperiferiya kimi anlayışla şübhə altına salındı. Beləcə, Azərbaycan beynəlxalq aləmə göstərmiş oldu ki, beynəlxalq

sistemi bu tərzdə coğrafiyalara bölmək ikili standartlara əsaslanan ədalətsiz yanaşmadır. Beynəlxalq proseslərdə mürəkkəb trendlər fonunda məhz Azərbaycanın təşəbbüsü ilə 18 noyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edilmişdir. [1]. Şübhəsiz ki, bu qətnamənin qəbulu Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının imicinin yüksəldilməsi ilə nəticələnmiş, eyni zamanda üzv dövlətlərinin maraqlarının Qərb tərəfindən nəzərə alınmasına gətirib çıxarmışdır.

Bundan başqa, 4-5 oktyabr 2021-ci ildə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin, 26 noyabr 2021-ci il tarixində isə, Qoşumama hərəkatının Parlamentarilər Şəbəkəsi təsis edilmişdir.

Bütün bunların nəticəsidir ki, Hərəkata üzv dövlətlər tərəfindən Azərbaycanın sədrliyini daha 1 il uzadıldı, qurumun fəaliyyətində dönüş nöqtələri sayılacaq addımların atılmasına nail olundu. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində yerinin möhkəmləndirilməsi və gücləndirilməsi, ayrı – ayrı beynəlxalq aktorlarla əməkdaşlığın strateji müttəfiqlik səviyyəsinə qaldırılması, iqtisadi əlaqələrdə şaxələndirilmə siyasətinin effektiv şəkildə aparılması Ermənistana təzyiq idi və bu və ya digər şəkildə mövqeyimizi gücləndirən mühüm amillərdən idi.

Qarabağ və Şərqi Zəngəzur torpaqlarının ermənilər tərəfindən işğal edilməsi müharibə əvvəli və sonrası rəsmi Bakının beynəlxalq təşkilatlar çərçivəsində mövqelərini gücləndirən xüsusi amil idi. Bu yöndə, BMT Baş Assambleyası, BMT Təhlükəsizlik Şurası, Türk Şurası, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı tərəfindən qəbul edilmiş qərarlar, verilən bəyanatlar Ermənistanı kifayət qədər çətin duruma salmaqda idi. Təsadüfi deyil ki, 44 günlük müharibədən sonra Azərbaycan və Ermənistan liderləri arasında baş tutan görüşlərdə üçüncü tərəflərin istəyib – istəməməsindən asılı olmayaraq daim beynəlxalq ədalət prinsiplərinə əsaslanan rəsmi Bakının mövqeyi danışıqların yekun sənədlərinə həkk edilirdi.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Qoşulmama Hərəkatı. https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/qosulmama-herekati-qh.*

*2. Bakı Qoşulmama Hərəkatına üzv dövlətlərin XVIII Zirvə Görüşü. https://president.az/az/articles/view/34578*

*3. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində zəfərə aparan yol. Bakı, 2021. https://idp.gov.az/uploads/Ermenistan-Azerbaycan_Dagliq_Qarabag_munaqishesinin_hellinde_Azerbaycani_Zefere_aparan_yol.pdf*

*4. Qoşulmama Hərəkatı. Azərbaycan Respublikasının xarici işlər nazirliyi. https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/qosulmama-herekati-qh*

*5. Rəşad Baxşəliyev. İlham Əliyev diplomatiyasının növbəti təntənəsi. // Azərbaycan qəzeti. 2 avq.2019. S.1.4. https://anl.az/down/meqale/azerbaycan/2019/avqust/667404.htm*

*6. Lukin A. Russia in a Post-Bipolar World // Survival. L.: International Institute for Strategic Studies, 2016. Vol. 58. N 1. P. 91–112.*

*7. İkkenbery J.G. The future of liberal world order // Japan Journal of political science. Cambridge University Press, 2015. №3. P.450.*

*8. Дж.Най. Уцелеет ли новый мировой порядок? // Россия в глобальной политике. 2017. N 2.*

*9. Хасс Р. Разваливающийся сегодня миропорядок.//Россия в глобальной политике. 2014. №6. [Elektron resurs]. www.globalaffairs.ru/number/razvalivayuschiisya-miroporyadok-17194. Дата обращения.*


## XÜLASƏ


Beynəlxalq münasibətlərin təməl prinsipləri olan milli maraqlar və milli güc, təhlükəsizlik, suverenlik kimi anlayışlar bugünkü dəyişən dünyada bir sıra çağırışlarla üzləşməkdədir. Ələlxüsus, BMT Təhlükəsizlik Şurasına üzv olmayan dövlətlər öz milli maraqlarını qoruduğu zaman tez-tez ikili standartlara şahidlik edirlər. Azərbaycan Respublikası təkcə son 30 il ərzində deyil, ondan da əvvəl yetmiş illik SSR dövründə xalqının maraqlarının tapdalanması, tarixi torpaqlarımızın, milli irsimizin istismarı, işğalı və vandalizm reallıqları ilə üz-üzə idi. Bütün bunlara baxmayaraq dövlətimiz İkinci Dünya müharibəsindən sonra öz ərazi bütövlüyünü tam bərpa edən hələlik yeganə beynəlxalq subyekt kimi tarixə düşdü. Təsadüfi deyil ki, bu gün Azərbaycan bizə yaxın və uzaq ölkələr üçün nümunə rolunu oynayır. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin hazırda çağdaş dünyada geosiyasi gərginliklər fonunda apardığı

praqmatik xarici siyasət təhlil edilir, ələlxüsus dünyanın ikinci ən böyük beynəlxalq platforması sayılan Qoşulmama Hərəkatı çərçivəsində əldə edilən uğurlardan bəhs edilir.

**Açar sözlər:** *Azərbaycan, xarici siyasət, geosiyasi mübarizə, geosiyasi çağırışlar, balanslı siyasət, praqmatizm, Ermənistan – Azərbaycan münaqişəsi, Qarabağ, Qoşulmama Hərəkatı.*

**Mammadov Zaur**
***Head teacher of the Department of Political Science and Political Management, doctoral student of the Department of International Relations***
***ORCID: https://orcid.org/0009-0005-0270-1892***
***zaur.mammadov@dia.edu.az***

## Pragmatic foreign policy philosophy of President Ilham Aliyev and diplomatic successes within the Non-Aligned Movement.

### SUMMARY

Today, in a changing world, the basic concepts of international relations such as national interest and strength, security, and sovereignty face a number of challenges. Especially those states that are not members of the UN Security Council, while defending their national interests, become eyewitnesses of double standards. The Republic of Azerbaijan, not only over the past 30 years, but also before that during the 70-year period of being part of the USSR, was face to face with the reality of trampling on the national interests, the exploitation of our historical lands, our national heritage, occupation and vandalism. Despite all of the above, our state went down in history as the only international entity after the 2nd World War that managed to completely restore territorial integrity. It is no coincidence that today Azerbaijan plays the role of an example for countries near and far abroad. The article analyzes the pragmatic foreign policy pursued by Azerbaijani President Ilham Aliyev against the backdrop of geopolitical tensions in the contemporary world, in particular, discusses the successes achieved within the framework of the Non-Aligned Movement, which is considered the second largest international platform in the world.

**Keywords:** *Azerbaijan, foreign policy, geopolitical struggle, geopolitical challenges, balanced policy, pragmatism, Armenian-Azerbaijani conflict, Karabakh, Non-Aligned Movement.*

**Мамедов Заур Вагиф оглы**
***Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики. Советник и ст. преподаватель Академии Государственного Управления.***
***email: zmammadov2015@gmail.com***
***ORCID: https://orcid.org/0009-0005-0270-1892***

## Прагматичная внешнеполитическая философия Президента Ильхама Алиева и дипломатические успехи в рамках Движения неприсоединения

### РЕЗЮМЕ

На сегодняшний день в меняющемся мире основные понятия международных отношений как национальный интерес и сила, безопасность, суверенитет сталкиваются с рядом вызовов. Особенно те государства, которые не являются членами Совета Безопасности ООН защищая свои национальные интересы становятся очевидцами двойных стандартов. Азербайджанская Республика не только в течении последних 30 лет, но и до этого во время 70-ти летнего периода пребывания в составе СССР была лицом к лицу с реальностью попирания интересов народа, эксплуатацией наших исторических земель, нашего национального наследия, оккупацией и вандализмом. Несмотря на все вышеперечисленное, наше государство вошло в историю как единственный международный субъект после 2-ой Мировой Войны, которому удалось полностью восстановить территориальную целостность. Неслучайно сегодня Азербайджан играет роль примера для стран ближнего и дальнего зарубежья. В статье анализируется прагматичная внешняя политика, проводимая Президентом Азербайджана Ильхамом Алиевым на фоне геополитической напряженности в современном мире, в частности, обсуждаются успехи, достигнутые в рамках Движения неприсоединения, которое считается второй по величине международной платформой в мире.

**Ключевые слова:** *Азербайджан, внешняя политика, геополитическая борьба, геополитические вызовы, сбалансированная политика, прагматизм, армяно-азербайджанский конфликт, Карабах, Движение неприсоединения.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.3.81.0020

# MÜASİR DÖVRÜN MÜNAQİŞƏ TENDENSİYALARI VƏ BURADA DÖVLƏTLƏRARASI QARŞIDURMALARIN YERİ

**MƏLƏK CƏFƏRLİ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti,*
*Beynəlxalq münasibətlər ixtisası üzrə doktorant*

*E-mail: rzaeva.m15@gmail.com*
*Orcid id: 0000-0002-7232-8465*

Dövlətləri maddi, mənəvi və siyasi baxımdan baha başa gələn hərbi qarşıdurmalara daxil olmaqdan çəkindirmək üçün qanun mexanizmi olan Birləşmiş Millətlər Təşkilatının (BMT) yaradılmasından keçən zaman ərzində münaqişələrin xarakteri əhəmiyyətli dərəcədə dəyişsə də, savaşın şiddəti ortadan qalxmamışdır. Müasir münaqişələr daha az insanın həyatını itirməsinə səbəb olur, lakin daha uzun müddət davam edir və şiddətin artması ən çox mülki əhaliyə təsir göstərir. Yeni dünya reallığında çağdaş münaqişələr, əsasən, ölkələrin institusional strukturunun çökməsi və bununla yanaşı ictimai müqavilənin pozulması ilə nəticələnir. Münaqişələrin qarşısının alınmasında və həll edilməsində mühüm amil olan beynəlxalq əməkdaşlıq zəifləmiş, qlobal potensialını itirmişdir. Təbii ki, dronlar, kiberhücumlar kimi texnoloji irəliləyişlərin yaratdığı imkanlardan hərbidə istifadə də münaqişə meyillərinə təsirsiz ötüşməmişdir. Beynəlxalq Cinayət Məhkəməsi (BCM) kimi qurumlar təhlükəsizlik tədbirləri üçün fəaliyyətdə olsalar belə, beynəlxalq ictimaiyyət çox vaxt yeni qarşıdurmalar qarşısında aciz görünür. Sülhə nail olmaq isə getdikcə mürəkkəbləşir, çünki dövlət institutunun yenidən qurulması və dinc yanaşı yaşamaq üçün potensial tələb olunur.

İkinci Dünya müharibəsindən sonra, müharibələr, supergüclərin müdaxiləsi olsun, ya da olmasın, Cənuba doğru dəyişmişdir. Əksinə, keçmişdəki ən qanlı qarşıdurmaların episentri olan Şimal (Birinci Dünya müharibəsində 13 milyon, İkinci Dünya müharibəsində 60 milyon ölüm sayı) [13] isə terror qruplaşmaları zərbələrinə məruz qalsa da, hal-hazırda sülh içindədir. Qlobal miqyasda müharibədə ölənlərin sayı 1946-cı ildən bəri mütləq şəkildə azalmaqdadır, lakin zorakılıq hadisələrinin sayı artmaqdadır. Bu gün əksər münaqişələr cinayətkar qruplar, beynəlxalq terror qrupları kimi qeyri-dövlət subyektləri arasında baş verir [3].

Müasir münaqişələrin intensivliyi, aktorları və səbəblərində müxtəliflik, bu qarşıdurmaların sıralamasını riskli bir müəssisə halına çevirməklə, dövlətlərarası və ayrı-ayrı qruplaşmaların müharibələri arasındakı klassik fərqi ayırmaqda çətinlik yaradır. Qeyri-dövlət subyektlərinin varlığı və dövlətlər arasındakı münaqişələri tənzimləyən qaydalara riayət olunmaması ilə xarakterizə olunan bu ixtilaflar, ilk növbədə, inzibati və təhlükəsizlik baxımından əraziyə nəzarəti təmin etmədikləri üçün institusional strukturların legitimliyini itirmiş dövlətlərə təsir edir. Buradakı sosial müqavilənin pozulması, əsasən, milli və etnik-dini kimliklər arasında rəqabətin olduğu kontekstdə kəskin sosial böhranlar yaradır. Belə münaqişələr ilk etapda sivil xalqa təsir göstərir, onlar məcburi şəkildə silahlı qüvvəyə cəlb olunur; mütəşəkkil aclığın, cinsi zorakılığın, qətliamların qurbanı olur; məcburi köçkünə çevrilir.

Etnik, dini və ya sosial fərqliliklər qabardılaraq münaqişə daha da alovlandırılır. Mütəşəkkil hökumət qüvvələri; etnik və ya dini zəmində, iqtisadi maraqlar ətrafında qurulan üsyançı qruplar; xarici muzdlular; qonşu ölkələrdən olan kombatantlar; çoxtərəfli müdaxilə qüvvələri və humanitar təşkilatlar daxil olmaqla hər biri müasir münaqişələrdə vardır və burada yolları kəsişir.

Nəticədə, bu münaqişələr məcburi köçkün və qaçqınların da kütləvi axınına səbəb olur. Sülhün bərqərar olması çətin bir iş olduğunu sübut edir. Çünki çağdaş münaqişələrin təbiətinə uyğun olmayan ənənəvi alətlər (embarqo, müdaxilə və s.) ilə məhdudlaşan beynəlxalq birlik gücsüz görünür. Başlanğıcda dövlətlərin hərbi əməliyyatlarını tənzimləmək üçün düşünülmüş beynəlxalq hüquq, bu məqsədə çatmaq üçün hələ də mübarizə aparır və qeyri-dövlət silahlı qruplaşmalara, demək olar ki, tətbiq olunmur. 2002-ci ildən bəri, BCM savaş sərkərdələrini ədalətə təslim etmək üçün bir yol təklif etmişdir, ancaq yaradılışından bəri neçə-neçə məhkəmə və istintaqa baxmayaraq, bu proseslərin çəkindirici, sülhü təşviq edən təsirləri reallaşmaqda zəif olduğunu göstərir [13].

Ümumiyyətlə, "münaqişə" anlayışı və onun izah olunması ilə bağlı çox sayda elmi ədəbiyyatda mübahisələr mövcuddur və çağdaş elm sahələrində istifadə olunan münaqişə kateqoriyası zənn edildiyindən də çox daha geniş məfhumdur. İnsan, sosial qruplar, cəmiyyət və dövlətin öyrənilməsi

ilə bağlı olan bütün elmlər obyektindən asılı olaraq təzahür formaları ilə birlikdə münaqişə anlayışını analiz edir və öyrənir. Dövlətlər arasında müxtəlif dərəcələrdə və səviyyələrdə münaqişəyə səbəb ola biləcək münasibətlər mövcud ola bilər. Bu baxımdan, münaqişə ardıcıl dörd mərhələ şəklində özünü göstərir. Birincisi, münasibətlərdəki uyğunsuzluğun dərk edilməsi; daha sonra gərginliyin getdikcə artması; üçüncüsü, heç bir halda hərbi qüvvədən istifadə olunmadan təzyiqin göstərilməsi və ən son mərhələ isə müharibənin baş verməsidir.

Münaqişələrə münasibətdə bir çox yanaşmalar mövcuddur, onlardan ən başlıcası mənafelərin toqquşması ilə bağlı fikirlərdir ki, bu yanaşma tərəfdarları konfliktin əsasında mənafenin dayandığını iddia edirlər. Əsasən, N.Makiavelli, T.Hobbs, M.Veber və başqaları zaman-zaman bu yanaşmaya tərəfkeşlik etmişdirlər [1,s.31]. Bu yanaşmaya əsasən, baxmayaraq ki, insan təbiətindən başlayaraq ictimai münasibətlərin sinfi mahiyyətinə qədər mənafe özünü fərqli formalarda göstərir, lakin mənafelərin münaqişəsi kimi nizamlanmasına və həll olunmasına cəhd edilir. Mənafelər baxımından analiz siyasi təsir uğrunda dövlətlərin mübarizəsi; transmilli təşkilatların mənafelərinin toqquşması, habelə, bir etnosun digər etnosu tabe etməyə, yaxud tam məhvinə cəhd etməsi kimi təzahürləri də özündə birləşdirir. Dövlətin sərhədləri daxilində cərəyan edən münaqişələr daxili siyasi münaqişələrə aiddir. Beynəlxalq siyasi münaqişələr isə əsasən maddi resurslar, yaxud hakimiyyət uğrunda dövlət, dövlətlərarası birliklər və ya beynəlxalq arenada fəaliyyətdə olan digər ittifaqlar arasında mübarizə şəklində təzahür edir.

Alman-amerikan sosioloq Levis Kozer geniş sahələri əhatə etməyə çalışaraq münaqişələrə belə tərif verib qeyd edirdi ki, konflikt (münaqişə) – iki və daha artıq qrupun dəyərlər, sosial status, güc, hakimiyyət, maddi və mənəvi resurslar (təbii qaynaqlar) uğrunda mübarizəsidir və burada məqsəd odur ki, bir tərəf digər tərəfi neytrallaşdırsın, ona zərər versin və rəqibi məhv etsin. Minimum iki tərəfin qarşılıqlı münasibətdə olması, bu tərəflərin məqsədləri, baxışları, mənafeləri və tələbatları toqquşmalı və bu fikir ayrılığını tərəflərin dərk etməsi münaqişənin baş verməsini şərtləndirən əsas amillərdəndir. [14, s.40]

Keçmiş dövrlərdən etibarən bəşəriyyətin ən parlaq zəkalarının "münaqişə" fenomeninin aydınlaşdırılmasına aid baxışları bizə məlum olsa da, əsasən, XIX əsrdən başlayaraq münaqişə nəzəriyyələri işlənməyə təkan olmuşdur. İlk dəfə olaraq müəllifi Adam Smit olan "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində münaqişə anlayışı çoxsəviyyəli sosial təzahür kimi nəzərdən keçirilir. Cəmiyyətin siniflərə ayrılması və iqtisadi sferada rəqabət məhz konfliktin əsasında durur. Münaqişə (xüsusilə, sosial konflikt) A.Smitin təbirincə desək, bəşəriyyətin bir neməti, siniflər arasındakı qarşıdurma isə cəmiyyəti inkişaf etdirən bir mənbədir. K.Marksa görə, münaqişə təkcə mövcud ictimai quruluş daxilində daim dəyişən münasibətlərə gətirib çıxarmır, həm də ümumi sosial sistem münaqişə yolu ilə transformasiyaya məruz qalır [6,s.200].

XX əsrin 60-cı illərindən başlayaraq müasir cəmiyyətdə münaqişələrə yol verilməməsi əsaslarını öyrənilməsi diqqət mərkəzində olan siyasi sabitlik nəzəriyyələri yaranmışdır. Amerika politoloqu D.İston qeyd edir ki, siyasi strategiyanın təyin olunmasında iştirak edən siyasi hakimiyyət; sistem daxili konfliklərin həlli üçün hüquqi və qeyri-hüquqi qaydalar tətbiq edən siyasi rejim; siyasi əmək bölgüsü ilə bağlanan sistem üzvlərindən ibarət siyasi birlik üçlüsü siyasi sistemin saxlanılmasını təşkil edir. Bu da sabitliyin konservativ modeli adlanır. Bu nəzəriyyə istiqamətinin digər bir nümayəndəsi D.Sanders "daxili münaqişəli davranış" konsepsiyasında qeyd edir ki, hakimiyyətdə, rejimdə və birlikdə baş verən dəyişkənliklər, dinc və zorakı çağırışlar kimi sabitliyi pozan daxili münaqişəli davranış formalarından ibarət hadisələrin olması, dövrlər və ölkələr baxımından fərqlənən "normallıq" sistemindən kənara çıxmaq kimi dəyərləndirilir. Bu sistemdən kənara çıxmaq qarşıdurmalara normallıq kateqoriyasını gətirir və kütlə şüurunun mövcud olduğu zamanda ictimai cəhətdən hakim mövqedə olan sosial-siyasi dəyərlər səviyyəsi ilə sıx bağlıdır [2,s.30].

XX əsrin 70-ci illərinin ortalarında yuxarıda adıçəkilən üçüncü istiqamət etnosiyasi nəzəriyyələr olaraq meydana çıxmışdır. "Daxili kolonializm" konsepsiyası amerikalı sosioloq, professor Maykl Hekter tərəfindən işlənib hazırlanmışdır. Onun fikrincə, əhali arasında etnik fərqlərin mövcudluğu dövlətdə sosial-iqtisadi qeyri-bərabərliyin səbəblərindəndir və mərkəzi hökumət ilə etnik qruplar arasında siyasi münaqişənin baş verməsi polietnik dövlətlərin modernləşməsi üçün vacib amildir. Qeyri-bərabər şəkildə etnomilli qrupların modernləşməsi, onlar arasında sosial-iqtisadi baxımdan fərqlərin güclənməsinə səbəb olur və bu iqtisadi bərabərsizlik öz növbəsində sonradan etnomillətçiliyə çevrilə bilən etnomilli həmrəyliyin yaranması ilə nəticələnir. Bu konsepsiyaya yaxın nəzəriyyələrdən sayılan

"qeyri-bərabər inkişaf" nəzəriyyəsini işləyib hazırlayan şotland siyasət nəzəriyyəçisi Tom Neyrn qeyd edir ki, ölkədə inkişaf etmiş mərkəzin nümunələrinin daha az inkişaf etmiş rayonlara qəbul etdirilməsi nəticəsində etnomilli münaqişələr yaranır [2,s.30].

Bütün bu nəzəriyyələrin təhlilindən o nəticəyə gəlmək mümkündür ki, münaqişə yıxıcı aspekti ilə yanaşı əslində müsbət, inkişafı labüdləşdirən yaradıcı aspektə də malikdir. Beynəlxalq münasibətlərin iştirakçılarının bu sistemin təbii şərti olaraq məqsədləri və maraqları toqquşur və bu mübarizə çox zaman qaçılmazdır. Zəruridir ki, münaqişə ilə bağlı anlayışlar barəsində məsələlərin qoyuluşunda bu qeyd edilsin. Məsələ əslində beynəlxalq münaqişələr sahəsinə aid olanları üzə çıxarmaqdan və bu münaqişədə beynəlxalq sistemin ümumi inkişafını formalaşdıran amillərin necə reallaşdırılmasını göstərməkdən ibarətdir. İctimai-siyasi hadisə və proses olmaqla münaqişə subyektləri arasında münasibətləri tənzimləməklə yanaşı həm də müəyyən funksiyalar da daşıyır. Beynəlxalq siyasi reallığın dəyişməsi, yəni bir siyasi reallıqdan digərinə keçmə vasitəsi olaraq da münaqişəni nəzərdən keçirmək mümkündür.

Müasir dövrdə siyasi münasibət iştirakçılarının qüdrətini ifadə etmək üçün "güc" sözündən istifadə olunur. İstənilən dövlətin səlahiyyət qabiliyyətinin adekvat şəkildə dəyərləndirilməsi təkcə onun özünün güc ifadəsində müəyyənləşdirilmiş mənafelərinin reallaşdırılmasına cəhd edən siyasi birlik şəklində nəzərdən keçirilməsi zamanı mümkün olur. Ümumiyyətlə, zorakılığın və hərbi gücün tətbiq olunmasında tək iradəli akt kifayət deyil, bunun üçün real ilkin şərtlər də tələb olunur. Silah istehsalı hesabına zorakılığın qələbəsi əldə olunursa, bu, bilavasitə, həm iqtisadi gücə, həm də maddi resurslara da əsaslanır. Hərbi birləşmələrin və silahın kəmiyyət, o cümlədən, keyfiyyət göstəricilərinə əsasən hərbi güc ölçülə bilir. Təbii ki, ordu və donanma əsas iqtisadi imkanlardan asılıdır. İlk növbədə, nəqliyyat vasitələrinin və istehsalın inkişaf səviyyəsinə əsasən silahlar, heyət, təşkilat, strategiya keyfiyyət olaraq dəyişir.

Bəşər tarixinin inkişafı sosial inqilablar və dünya müharibələri dövründə belə fikir formalaşdırmışdır ki, sadəcə zorakılıq, güc sayəsində yaranmış problemləri həll etmək mümkündür. Alman sosioloqu M.Veber zorakılıq ilə dövlətin ayrılmaz əlaqəsini göstərərək, dövlətin zorakılığa əsaslandığını yazırdı və qeyd edirdi, baxmayaraq ki, dövlət üçün zorakılıq xüsusi və spesifik vasitə təşkil edir, ancaq bu heç də dövlətin yeganə vasitəsi deyil [7, s.32]. Totalitar rejimli siyasi sistemlərin süqutu, zorakılığın cəmiyyətdən tamamilə uzaqlaşdırıldığını göstərmir. Siyasi rejim aləti olaraq ən demokratik ölkələrdə belə zorakılıqdan istifadə olunur və bu yalnız siyasi ifratçılara məxsus deyil. Bu baxımdan, istər daxili, istərsə də beynəlxalq siyasi münaqişə sahəsindən zorakılıq bir tərkib hissəsi olaraq ayrılmaz faktordur.

Dövlətlərarası münaqişələrin mənşəyində beynəlxalq münasibətlər durur. Dövlət, onun institutları, dövlətlərarası ittifaqlar, qeyri-hökumət təşkilatları, beynəlxalq qurumlar beynəlxalq münasibətlərin əsas aktorları kimi çıxış edir və BMT əsas orqandır ki, millətlər və dövlətər arasında sülh və əmin-amanlığı qorumaq vəzifəsini daşıyır. Beynəlxalq münasibətlərin ən vacib komponenti dövlətlərarası münasibətlərdir və onun subyektləri kimi dövlət və dövlət birlikləri çıxış edir. Dövlətlərarası münasibətlər beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq tənzimlənir və bunlardan ən əhəmiyyətliləri, milli suverenlik, başqa dövlətin daxili işlərinə qarışmamaq və əməkdaşlıqdır. Qarşıduran hər iki tərəf dövlət və ya dövlətlər koalisiyasından ibarət olan dövlətlərarası münaqişələr; tərəflərdən biri dövlət olan müstəmləkəçilik, irqçilik, anti-demokratik hakimiyyət əleyhinə olan milli-azadlıq müharibələri; bir dövlət tərəfindən digər dövlətin ərazisində baş vermiş daxili münaqişə tərəflərindən hər hansı birini dəstəkləməsi ilə beynəlmiləl hala çevrilmiş daxili münaqişələr olmaqla üç qrupda təsnifatlaşdırmaq mümkündür.

Təsnifat baxımından dövlətlərarası münaqişələri bir neçə kateqoriyaya ayırmaq olar. Belə ki, münaqişənin səbəbləri; əsas ziddiyyətlərin təbiəti; iştirakçıların sayı və mahiyyəti; aktorların maraq və mənafeləri; məkan və zaman çərçivəsi; istifadə olunan vasitə və metodlar; inkişaf dinamikası; sosial-psixoloji xüsusiyyətlər; münaqişənin müddəti və s. bu kimi əsaslar təsnifata daxildir. Ziddiyyətlərin təbiətinə görə ideoloji, iqtisadi, etnik və dini qarşıdurmalar fərqləndirilir. Dövlətlərarası münaqişələr obyektiv və subyektiv ziddiyyətlərdən qaynaqlanaraq həm siyasi, həm qeyri-siyasi xarakterə malik ola bilər. Dövlətlərarası münaqişələr zaman və məkan miqyasına görə də fərqlənir. Belə halda, beynəlxalq münasibətlərin bütün aktorlarının maraqlarının toqquşduğu qlobal münaqişələr; tərəfləri məhdud sayda olan regional və yerli münaqişələr; eyni zamanda ikitərəfli münaqişələr olmaqla ayırmaq mümkündür. Tərəflərin istifadə etdiyi vasitələrin tipologiyasına əsasən, silahlı və yalnız dinc vasitələr-

dən istifadə etməklə qarşıdurmaları fərqləndirmək olar. Eyni zamanda silahlı qarşıdurmalarda hərbi potensialdan məhdud və ya kütləvi şəkildə istifadəsinə dair də fərqlənmə mövcuddur.[9,s.1]

Dövlətlərarası münaqişələrin iştirakçıları dövlətlər və ya dövlətlərin koalisiyaları olur; bu münaqişələrin əsasında tərəflərin milli və dövlət mənafelərinin üst-üstə düşməməsi və ya toqquşması durur; eyni zamanda həm lokal, həm də qlobal olaraq müasir dövlətlərarası münaqişələr beynəlxalq münasibətlərə təsir edir; dövlətlərarası münaqişələr tərəf olan dövlətlərin siyasətinin bir növ davamı kimi çıxış edir və iştirakçı dövlətlərdə, eləcə də dünyada kütləvi insan məhvi təhlükəsini yaradır.

Dövlətlərarası münaqişələrdə tərəflərin müdafiə etdiyi mənafelər baxımından bir neçə tipini müəyyənləşdirmək mümkündür. Bura daxildir: müxtəlif siyasi sistemlərə malik dövlətlər arasında baş verən ideologiyalar münaqişəsi; dünyada hegemonluq, eləcə də regionda siyasi hökmranlıq uğrunda dövlətlər arasında münaqişələr; yeni əraziləri tutmaq və ya öz ərazilərini azad etmək məqsədilə ərazi ziddiyyətlərinə bağlı olan ərazi münaqişələri; dini və etnik zəmində baş verən münaqişələr; iqtisadi cəhətdən tərəflərin mənafelərini qoruduğu münaqişələr və s.

Əlbəttə ki, bütün bu münaqişələrin hər birinin özünəməxsus xarakterik cəhətləri vardır. Dövlətlərarası münaqişələr bir çox faktordan qaynaqlanan cəhətlərə malikdir. İqtisadi motivli münaqişə əsasən beynəlxalq sferada maliyyə cəhətdən uyğunsuzluğun artması, yəni iqtisadi böhrandır. Dövlət daxilində hakim mövqe tutmaq kimi bir çox məqsəd və fəaliyyətləri bir növ ört-basdır etmək, yəni hökumətin, diqqəti dövlətdaxili bu problemli situasiyadan yayındırmaq məqsədilə xaricdə geniş miqyasda bir münaqişə yaratması ilə nəticələnir. Dövlətlərarası münaqişələrin yaranmasının digər bir səbəbi millətlərarası hər hansı millətin hüquqlarının pozulmasıdır. Təbii ki, dövlətlərarası münaqişələrin mövcudluğunun əsasında mənəvi amillər də çıxış edir. Əqidələrin, dünyagörüşlərin, ideyaların toqquşması, müxtəlif dinlərin və onların cərəyanlarının, eləcə də konfessiyaların arasındakı ziddiyətlərin, ziyalıların irəli sürdüyü nəzəriyyələri, baxışları, elmi ixtiraları ilə əlaqədər mübarizələr dövlətlərarası münaqişələrin mənəvi motivdə meydana çıxmasını şərtləndirən səbəblərdəndir.

Ümumiyyətlə, istənilən toqquşma və ya konflikt ilə bağlı hər hansı vəziyyəti təhlil edərək müəyyən bir tipə aid etmək çox vaxt mümkün olmur, çünki istər dövlətlərarası səviyyədə olsun, istər digər səviyyələrdə qarşıdurma əslində subyektiv və obyektiv amillərin əhatəli müşahidə tələbi ilə şərtlənir və burada əsas səbəbdən əlavə, onu alovlandıran digər bir neçə səbəb də ola bilər. Əslində, belə qruplaşdırmaların bir növ şərti xarakter daşıdığını danmaq olmaz, çünki təkcə bir faktordan yaranması mümkün olan münaqişə yoxdur və demək olar ki, dövlətlərarası münaqişələrin çoxunda baş rolda tərəflərin sosial-iqtisadi və ictimai-siyasi mənafeləri durur.

Beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici və daxili siyasəti bir-birinə bu və ya digər şəkildə təsir etdiyi kimi, dövlətlərarası münaqişələrlə daxili münaqişələrin əlaqəsi zamanı da bunu müşahidə etmək mümkündür. Əgər bir dövlətin daxili siyasəti düzgün qurulmayıbsa, bundan xarici siyasət də bir növ təsirlənmiş olacaq. Məhz dövlətlərarası münaqişələrin xarakterik xüsusiyyətlərindən biri də budur ki, onun daxili siyasi münaqişələrlə qarşılıqlı əlaqəsi vardır və bu, özünü əsasən daxili siyasi münaqişələrin sonradan dövlətlərarası münaqişəyə çevrilməsi kimi göstərə bilər. Bu, başqa dövlətlərin ölkədə baş verən daxili münaqişəyə qarışması və ya müdaxiləsi ilə nəticələnir, eləcə də bu münaqişə digər dövlətlər arasında ziddiyətlər yaradır və gərginliyə gətirib çıxarır. Tarixdə bununla bağlı çox nümunələr vardır. Ərəb baharı ilə başlanan Suriyadakı vətəndaş müharibəsi sonradan dünyanın aparıcı dövlətlərinin bu münaqişə üzərindən öz güclərini bir növ göstərmək yerinə çevrilməsi və daxili münaqişənin ABŞ, Rusiya, Türkiyə kimi dövlətlərin müdaxiləsi ilə daha da alovlanması buna nümunədir.

Əksinə, dövlətin daxili şəraitinin kəskinləşməsinə beynəlxalq münaqişədə iştirakı da təsir edə bilər. Necə ki, yanlış prioritetlər üzərində və düzgün olmayan istiqamətlərdə qurulan, beynəlxalq münasibətləri səhv analiz edərək yürüdülən xarici siyasət dövlətin daxili siyasətinə də mənfi təsir göstərir, elə də bu labüddür ki, eyni situasiya xaricdə münaqişələrə qoşulan dövlətin daxili münaqişələri ortaya çıxsın. 44 günlük Vətən müharibəsi zamanı Ermənistan tərəfinin məğlub olması birbaşa daxildə baş verən çəkişmələrə səbəb olmasını misal göstərmək mümkündür.

Dövlətlərarası münaqişələr əksər hallarda müharibə şəklində təzahür edir. Bu zaman müharibə ilə dövlətlərarası silahlı münaqişə arasında fərqlərə nəzər salmaq lazım gəlir. Belə ki, müharibə mənbələrinə, həmçinin səbəblərinə görə fərqlənir və təkcə silahlı qarşıdurma ilə məhdudlaşmır. Kulminativ həddə dövlətlər arasında yaranan siyasi və ideoloji

ziddiyətlər, digər tərəfdən dərin iqtisadi bərabərsizlik və qeyri-bərabər inkişaf səviyyəsi da daxil olmaqla bir çox səbəb müharibələrin əsasında duran faktorlardandır. Silahlı münaqişələr isə ərazi, dini, milli, sinfi mübahisəli səbəblərdən yaranır və burada tərəflərin müdafiə etdiyi məqsədlər miqyas və tətbiq olunan vasitələr etibarilə məhdud xarakter daşıyır. Müharibə isə iştirakçı olan bütün cəmiyyətin situasiyasıdır və beynəlxalq şəraitin daha sonrakı inkişafına çox mühüm təsir ilə nəticələnir.

Nəticə etibarilə, əsas məsələ dövlətlərarası səviyyədə münaqişələrin həllində effektiv forma, tərəflərin maraqlarının tarazlığına nail olmaqdır ki, əvəzində, qarşıdurmanı yaradan səbəbləri aradan qaldırmağa imkan yaratsın. Qarşısının alınması və ya həll edilməsi baxımından dövlətlərarası münaqişələrdə bir neçə üsuldan istifadə olunur. İnandırma, məcburetmə və zərərsizləşdirmə ən çox yayılmış üsullardandır. İnandırma metodu, əsasən, bir dövlətin başqa dövlətə münasibətdə öz milli-dövlət maraqlarının reallaşması üçün əlverişli şərait yaratmaq məqsədilə gördüyü tədbirlərin toplusudur. Münaqişənin başlanğıc mərhələsində bu metod təsirli olur və ziddiyyətləri həll etməyə imkan verir. Bu mərhələdə ikitərəfli və çoxtərəfli danışıqlar aparılır və tərəflər öz niyyətlərini aktiv şəkildə bəyan edir. Məcburetmə metodu isə bir dövlətin öz iradəsini güc tətbiq etmək yolu ilə başqa bir dövlətə qəbul etdirməsinə yönəlmiş tədbirlərdir. Burada dövlət qətiyyətli şəkildə hədəflərinə çatmaq üçün öz ümumi gücündən intensiv olaraq istifadə edir. Bir qayda olaraq, məcburetmə üsulu beynəlxalq təcrübədə böhran mərhələsində münaqişənin inkişafının qarşısını almaq və ya dayandırmaq vasitəsi kimi istifadə olunur. Zərərsizləşdirmə üsulu hərbi gücün vasitəsilə dövlətin müqavimət göstərmək iqtidarından tamamilə məhrum edilməsi və ya onun məhv edilməsidir. Bu zaman dövlətlərarası münaqişənin həlli və ya latent formaya keçməsi labüd olur.

**Açar sözlər:** *münaqişə anlayışı, dövlətlərarası qarşıdurmalar, müasir tendensiyalar, beynəlxalq münasibətlər, güclər mübarizəsi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasbəyli A.N. "Beynəlxalq münasibətlərdə siyasi münaqişələrin nəzəri və konseptual yanaşmaları." İctimai və Humanitar elmlər seriyası - 2010. №1. 30-35 s.*

*2. Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Dərslik. Bakı, BDU nəşriyyatı - 2006. 292 s.*

*3. A New Era of Conflict and Violence. [elektron resurs] URL: https://www.un.org/ru/un75/new-era-conflict-and-violence*

*4. Ачасов О.Б. и др. / Современные конфликты и войны: особенности, причины возникновения, предназначение и тенденции в развитии. Национальные интересы: приоритеты и безопасность - 2017, т. 13, №5. 987–1000 с.*

*5. Бровко О. Д. Религиозный фактор политических конфликтов. [elektron resurs] URL: rusnauka.com/15_APSN_2010/Politologia/68138.doc.htm*

*6. Coser L.A. "Social Conflict and the Theory of Social Change." The British Journal of Sociology, Vol. 8, No. 3. (Sep., 1957), 197-207 p.*

*7. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Mütərcim - 2018. 372 s.*

*8. Huibregtsea A. Interstate Conflict and Ethnicity, Civil Wars, Political Science, University of New York, Tirana. 2011, 40-60.*

*9. Кудояр Л.М., Хоменко А.П. Межгосударственные конфликты. [elektron resurs] URL: core.ac.uk/download/pdf/14057878.pdf*

*10. Ланцов С. Политическая конфликтология. Питер - 2008. 319 с.*

*11. Lee R.J. Explaınıng interstate conflict and war: what should be controlled for? Department of Political Science. Vanderbilt University. 2003 - 50 p.*

*12. Лукин, Ю.Ф. Конфликтология: управление конфликтами. Учебник для вузов. Гаудеамус, 2007. 799 с.*

*13. Rowman & Littlefield. "Contemporary conflict." London, 28.09.2018 [elektron resurs] URL: espace-mondial-atlas.sciencespo.fr/en/topic-insecuritypeace/article-4A05-EN-contemporary-conflict.html*

*14. Запрудский Ю.Г. Социальный конфликт. Ростовский Университет. 1992. 426 с.*

**Malak Jafarli**
***Azerbaijan University of Architecture and Construction, lecturer***
***rzaeva.m15@gmail.com***

**Contemporary conflict trends and the place of interstate confrontations here**

**SUMMARY**

In the modern era, many changes in world po-

litics, international relations, and the emergence of new trends are recorded. The dynamics of these relations also reflect the influence of interstate confrontations and conflicts. The article begins with the analysis of the situation related to the last years. Global economic disputes, political tensions, regional and global shortages appear as the source of these trends. In particular, political situations in the regions, changes and conflicts in the energy industry, differences in interstate relations are the main topics of this issue. It is important to distinguish the political nature and specificity of interstate conflicts both in our country and on a global scale, because the occurrence of sharp social changes, the resolution of a number of conflicts, and the emergence of other political conflicts that lead to the collapse of the previous international system are conducive to this. Thus, efforts to reveal the political content of conflicts occurring in the sphere of contemporary international relations create new attempts to evaluate the current reality from a theoretical point of view. The fate of states, peoples and various social groups fundamentally depends on their participation in one or another political conflict, its course and results. So, as an inevitable result of conflicts, some states and peoples either lost their political authority, independence, territory, or, on the contrary, strengthened their position in the international arena. The article analyzes the conflict trends of the modern era, their causes and consequences, and discusses the role and place of interstate conflicts in these relations.

**Keywords:** *conflict concept, interstate confrontations, modern trends, international relations, power struggle.*

**Малак Джафарли**
***Азербайджанский Университет Архитектуры и Строительства, преподаватель***
***rzaeva.m15@gmail.com***

**Современные конфликтные тенденции и место межгосударственных противостояний здесь**

**РЕЗЮМЕ**

В современную эпоху отмечаются многие изменения отношений в сфере мировой политики и международных отношений с появлением новых тенденций. Динамика этих отношений также отражает влияние межгосударственных противостояний и конфликтов. Статья начинается с анализа ситуации за последние годы. Источником этих тенденций являются глобальные экономические споры, политическая напряженность, региональный и глобальный дефицит. В частности, основными темами являются политическая ситуация в регионах, изменения и конфликты в энергетической отрасли, различия в межгосударственных отношениях. Важно различать политическую природу и специфику межгосударственных конфликтов как в нашей стране, так и в мировом масштабе, поскольку возникновение резких социальных изменений, разрешение ряда конфликтов, а также возникновение других политических конфликтов, которые приводят к этому способствует распад прежней международной системы. Таким образом, попытки раскрыть политическое содержание конфликтов, происходящих в сфере современных международных отношений, порождают новые попытки оценить сложившуюся реальность с теоретической точки зрения. Судьба государств, народов и различных социальных групп коренным образом зависит от их участия в том или ином политическом конфликте, его хода и результатов. Итак, как неизбежный результат конфликтов, некоторые государства и народы либо теряли свое политическое влияние, независимость, территорию, либо, наоборот, укрепляли свои позиции на международной арене. В данной статье анализируются конфликтные тенденции современной эпохи, их причины и последствия, а также обсуждается роль и место межгосударственных конфликтов в этих отношениях.

**Ключевые слова:** *концепция конфликта, межгосударственные противостояния, современные тенденции, международные отношения, борьба за власть.*

UOT327
DOI:10.30546/3006-0346.2024.3.81.0026

# POSTKOLONİAL FEMİNİZM VƏ HİBRİDLİK

**NƏRGİZ NAĞIYEVA**
*Bakı Dövlət Universiteti, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: nargiz_nagiyeva@mail.ru*

## Giriş

Beynəlxalq münasibətlərdə müxtəlif nəzəriyyələr mövcuddur. Klassik realizm, struktur realizm (neo-realizm), neoklassik realizm, klassik liberalizm, neoliberalizm, marksizm, yaşıl nəzəriyyə kimi klassik və müasir nəzəriyyələrlə yanaşı feminizm də bu nəzəriyyələr sırasındadır. Feminizmin beynəlxalq münasibətlərdəki yeri 1960-cı illərdəki inkişaflarla ortaya çıxmağa başladı və 1980-ci illərdə daha da konkretləşdi. Zaman-zaman daha çox milli qadın hərəkatlarının və təşkilatlarının beynəlmiləlləşməsi feminizmin beynəlxalq münasibətlərdə bir nəzəriyyəyə çevrilməsində mühüm rol oynamışdır [14, 5].

Feministlər iddia edirdilər ki, post-müstəmləkəçilik nəzəriyyəsi digər beynəlxalq münasibətlər nəzəriyyələri kimi qadınları istisna edir. Postkolonial feminizm postkolonial nəzəriyyənin təsirli modelini, sosial institutları şübhə altına alan mədəniyyətlərarası tənqid sahəsini formalaşdırmışdır. Postkolonial feminizm əsasən Qərb alimləri tərəfindən intizamda erkən feminist yanaşmaların (birinci və ikinci dalğa feminizm) inkişafına qarşı çıxdı və Qərb feminizminə əhəmiyyətli tənqidlər gətirdi.

Feminizm yanaşması qadınların sırf qadın olduqları üçün qarşılaşdıqları çətinlikləri, onların zülm və zülmlə əlaqəsini, sinfi, irqi, milləti, dini, dili və s. aspektlərdə yaşadığı problemləri həll edən bir elm sahəsi hesab olunur. Feminizm qavrayışı ilk dəfə XVIII əsrdə İngiltərədə ortaya çıxdı və akademik sahəyə ilk dəfə Meri Uolstounkraftın 1792-ci ildə nəşr olunan "Qadınların hüquqlarının müdafiəsi" adlı əsəri ilə daxil oldu [13, 7-8].

Sosioloq Andre Michelə görə, feminizm sözü fransız dilinə 1837-ci ildən sonra daxil olmuşdur [1,17]. Robertin Lüğətindən sitat gətirən Mişel feminizmi "qadınların cəmiyyətdəki rolunu və hüquqlarını genişləndirmək məqsədi daşıyan doktrina" olaraq təyin edir [8, 23].

1970-ci illərdə, Mişelin fikrincə, feminizmin tərifi təkcə doktrina deyil, həm də hərakatı əhatə etməli idi. Şirin Tekeli 1983-cü ildə feminizmi "yeni feminizm" adlandırır və bunun mübarizə meydanını genişləndirdiyini bildirir [1, 17].

Bəzi nəzəriyyəçilər feminizmin inkişaf proseslərini bir və ya iki feminist dalğaya bölərkən, digərləri üç və ya dörd feminist dalğaya bölür. Lakin ümumilikdə feminist hərəkatların tarixi inkişafında bir çox tədqiqatçıların hörmətlə qarşıladığı proses üç xronoloji dalğadan ibarətdir və bu proseslərin dəqiq tarixlərini müəyyən etmək mümkün deyil. Feminizmin bu üç dalğası, ümumiyyətlə, XIX əsrdən XXI əsrə qədər olan dövrü əhatə edir. Bu dövrlərdə qadınlar müxtəlif anlayışların, fərqli nəzəriyyə və ideologiyaların təsirinə məruz qalmış və bu təsir onların qadın hüquqları kontekstində öz tələb və ya məqsədlərinə uyğun olaraq həyata keçirdikləri hərəkətlərə dolayı və ya birbaşa təsir etmişdir. Eyni zamanda, feminizmin tarixi inkişafı müəyyən proseslərə bölünməsi səbəbləri qadın və ya feminist qrupların müxtəlif dövrlərdə fərqli tələb və istəkləri, patriarxal və kapitalist sistemi müxtəlif nöqtələrdən tənqid etmələridir.

Ümumiyyətlə, birinci dalğanın 1848-ci ildə başladığı və 1960-cı illərə qədər davam etdiyi iddia edilir [4, 174]. İkinci dalğa feminizmi 1960-cı illərdən başlayaraq 90-cı illərə qədər davam edən anti-müharibə əhvali-ruhiyyəsi və müasir hüquq axtarışları kimi detallarla özünü göstərdi [12, 1708]. Beynəlxalq münasibətlərdə feminizmin yeri də bu dövrə uyğundur. Onu da vurğulamaq lazımdır ki, ikinci dalğa tərəfdarları Durutürkün [6, 79-80] ifadə etdiyi kimi, birlikdə hərəkət etmək istəklərinə əsaslanaraq üçüncü dalğanı tənqid ediblər. Üçüncü dalğanı fərqləndirən əsas fərq, "irq, sinif, mədəniyyət və cinsiyyət arasındakı kəsişmələri nəzərə alan bir anlayış irəli sürməsi və bu kontekstdə dominant və ağ qadın mərkəzli feminist yanaşmaları tənqid etməsidir" [18, 127].

1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində Qərbdə yaşayan "Qara Feministlər" [16, 295-297] ağdərili feministlərin rəngli qadınların üzləşdiyi zülmü nəzərə almaması və buna görə də ikinci dalğa feminizminin gizli irqçi münasibətini tənqid edirdilər. 1980-ci illərdə Qərb ağ feministləri bu tənqidə cavab olaraq "qlobal feminizmi" qəbul etdilər və bütün dünyada qadınların müxtəlifliyini

Çin Xalq Respublikası (ÇXR) ilə Azərbaycan Respublikası arasında münasibətlər Sovet İttifaqının süqut etməsi və Azərbaycanın öz müstəqilliyini yenidən qazanması ilə 1991-ci ildən başlamışdır. Çin 27 dekabr 1991-ci ildə ölkəmizin müstəqilliyini tanıyıb.Azərbaycanla Çin arasında diplomatik əlaqələr 2 aprel 1992-ci ildə qurulmuşdur.Həmin ilin avqust ayında Çinin respublikamızda səfirliyi açılıb, 1993-cü il dekabr ayının 1-də isə ilk səfir təyin edilib [12].Təbiidir ki, iki ölkə arasındakı münasibətlər intensiv şəkildə 1993-cü ildən, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərməsindən sonra başlamışdır [5, s 32].Çin BMT Təhlükəsizlik Şurasının Qarabağın Ermənistan tərəfindən işğalı ilə bağlı 4 qətnaməsinin qəbulunda mühüm rol oynamışdır.Uzaqgörən lider Heydər Əliyev 1994-cü ilin 7-10 mart tarixlərində Çinə səfər etdikdən sonra Çinlə olan münasibətlər xüsusilə inkişaf etməyə başlamışdır [10, s 104].Çin Xalq Respublikası qondarma Dağlıq Qarabağ xunta rejimini deyil, məhz Ermənistanı münaqişə tərəfi hesab edən ilk ölkələrdən biri olmuşdur [10, s 75-76].Bu səfəri zamanı Heydər Əliyev Ermənistanın işğalçı siyasəti və bu siyasətin nəticələri haqqında danışmışdır. Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsindəki çıxışında da, Ermənistanın təcavüzü və müharibən törətdiyi çətinlikləri vurğulamışdır. Səfər çərçivəsində keçirilmiş mətbuat konfrasında isə Heydər Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Qarabağ münaqişəsinin həllində Çin Xalq Respublikasının BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutduğunu xüsusi qeyd etmişdir [1, s 438]. Çinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə tezliklə həllinə tərəfdar olduğunu bəyan etməsi bu səfərin ən böyük nəticəsi kimi yadda qalmışdır.

Onu demək kifayətdir ki,Çin Xalq Respublikasının Azərbaycanın problemlərinə, xüsusilə Qarabağ probleminə konstruktiv yanaşması vaxtilə Çinin özünün də separatizmlə üz-üzə qalmasından qaynaqlanır.Belə ki, 1949-cu ildə Çin Tayvan problemi ilə qarşı-qarşıya qalmışdır və o zamandan bəri Çin hökuməti Sintsyan Uyğur, Tibet muxtar bölgələri və Tayvan məsələlərinə həssas yanaşır [1, s 438].İki ölkə arasında bu oxşarlıq Çinin mövqeyinin formalaşmasına mühüm təsir göstərmiş, ölkələrin yaxınlaşmasında müəyyən rol oynamışdır.Çinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə qarşılıq olaraq, 90-cı illərdən bəri Azərbaycan "Vahid Çin" prinsipini qəbul edir [13].1995-ci il mayın 9-da

Azərbaycan Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin ilə Moskvada görüşmüşdür [8, s 19].Bu görüşün məhz Moskvada - Rusiyanın paytaxtında keçirilməsi də Qarabağ münaqişəsi və bu münaqişəyə Rusiya və Çinin diqqətini cəlb etmək üçün vacib rol oynamışdır.

XX əsrin əvvəllərində də iki ölkə arasında münasibətlər uğurla davam etmişdir. 2000-ci il iyunun 23-də ölkəmizdə səfərdə olan Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin Prezident Heydər Əliyevlə görüşündə Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olmuş, danışıqlarda Çin tərəfi Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxdığını bəyan etmişdir [1, s 439].Çinin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi istiqamətində növbəti və daha konkret addımı isə 2002-ci il dekabrın 2-nə təsadüf edir.Həmin tarixdə "BMT və ATƏT arasında əməkdaşlıq haqqında qətnamə"yə Azərbaycan tərəfindən hər il irəli sürülən 907-ci qətnaməyə düzəliş üzrə BMT Baş Məclisində keçirilmiş səsvermədə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında Çin ölkəmizin ərazi bütövlüyünə dair düzəlişin lehinə səs verən yeganə dövlət olmuşdur [1, s 439]. "BMT və ATƏT arasında əməkdaşlıq haqqında qətnamə" iclaslarında 1996, 1997, 2000, 2001 və 2002-ci illərdə Çin Azərbaycan Respublikasının lehinə səs verərək, onun mövqeyini dəstəkləmiş, 1998 və 1999-cu illərdə isə iştirak etməmişdir [13].

Beləliklə, Heydər Əliyevin apardığı məqsədyönlü xarici siyasət kursunun nəticəsi kimi Çin Xalq Respublikası uzun illərdir Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edir, dünya ictimaiyyəti ilə birlikdə Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar çıxmış, eyni zamanda BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 4 qətnamənin icrasını dəstəkləmişdir. Öz növbəsində Azərbaycan Respublikasının hököməti də ÇXR-in vahid Çin siyasətinə hömətlə yanaşır və Çin ərazisindəki Tavyan və digər münaqişə bölgələrini Çinin tərkib hissəsi kimi qəbul edir.Azərbaycan Respublikası Tayvan adlı dövləti tanımır, onunla hər hansı bir şəkildə diplomatik və ya digər münasibətləri yoxdur. Tayvanın beynəlxalq təşkilatlara üzvlüklə bağlı qaldırdığı məsələlərdə Azərbaycan Respublikası yalnız vahid Çin prinsipindən çıxış edir və ancaq ÇXR-i təmsil edən qurumları tanıyır [11, c 68].

2004-cü il 29 oktyabr tarixində BMT Baş Assambleyasının Plenar İclasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin Baş Assambleyanın gündəliyinə salınması ilə bağlı qərarla bağlı keçirilən səsvermədə isə Çin bitərəf mövqe tutmuşdur. 2006-cı ilin sentyabr ayında BMT Baş Assambleyasının 61-ci sessiyasının gündəliyinə "GUAM ərazisində uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" bəndinin salınması ilə bağlı Çin tərəfi ilə müvafiq danışıqlar aparılsa da, Çin qeyd olunan məsələdə bitərəf mövqe nümayiş etdirmişdir [13]. 2005-ci il 17 mart tarixində Çin Xalq Respublikasının sədri Xu Szintao Azərbaycan Prezidenti İlham Əliyevlə Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparmışlar.Cənab Szintao bildirib ki, Çin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Tayvan məsələsində Çinin də belə bir problemlə üzləşdiyini vurğulayan ÇXR-in sədri deyib ki, biz münaqişələrin sülh yolu ilə, beynəlxalq hüquq normalarına, ən əsası isə, BMT-nin Nizamnaməsinə uyğun olaraq həll edilməsinə tərəfdarıq [9, s 172].

Prezident Heydər Əliyevin dövründə başlayan balanslı və çoxvektorlu xarici siyasət əlaqələrimizdə Çinin bu önəmi Prezident İlham Əliyevin dövründə də böyük uğurla davam etdirilmişdir.İlham Əliyevin prezidentlik dövründə də onun Çinlə münasibətlərində Qarabağ problemi prioritet məsələ olmuşdur.Bütün xarici səfərlərdə, beynəlxalq təşkilatlardakı çıxışlarında və ölkəmizdə keçirilən yüksək səviyyəli görüşlərdə olduğu kimi, Çinə edilən bütün rəsmi səfərlərdə və Çin nümayəndə heyətləri ilə görüşlərdə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışının mühüm bir hissəsini Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, erməni terroru, erməni hərbçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklər, Xocalı soyqırımı haqqında bəyanatlar təşkil etmişdir.

2007-ci ildə Qarabağda qondarma "prezident seçkiləri" ilə bağlı məsələyə münasibət bildirən Çin Xarici İşlər Nazirliyinin rəsmisi Liu Cyançao bildirmişdi ki, Çin Azərbaycanın müstəqilliyinə, suverenliyinə və onun ərazi bütövlüyünə hörmətlə yanaşır [7, s 1]. Çinin Xarici İşlər Nazirliyinin mövzu ilə bağlı müxtəlif bəyanatlarında da ÇXR-in Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin dəyişmədiyi bildirilmişdir.Çin Xalq Respublikası bütün sferalarda hər zaman Azərbaycanın tərəfində olduğunu bəyan etmişdir.2010-cu il aprelin 15-də Azərbaycan Res-

publikası Milli Məclisinin Sədri Oqtay Əsədovla görüşündə Ümumçin Xalq Nümayəndələri Yığıncağının Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Ley Minqçiu Çinin Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini, Qarabağ probleminin də məhz beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu bəyan etmişdir [6, s 2].

Azərbaycanla Çin bir-birini beynəlxalq təşkilatlarda da dəstəkləyir.Çinin Azərbaycana dəstək verdiyi mühüm məqamlardan biri də Azərbaycanın 2 il-2011-ci ildən 2013-cü ilədək BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olmuşdur [5, s 32].2014-cü il mayın 19-da Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Şanxayda keçirilən IV Zirvə toplantısı qeyd olunmalıdır.Zirvə toplantısında Prezident İlham Əliyev ÇXR-in Sədri Si Cinpin ilə görüşmüşdür. Prezident İlham Əliyev bu toplantının artıq sülhün, sabitliyin, əməkdaşlığın təşviq olunması sahəsində nüfuzlü beynəlxalq quruma çevrildiyini, bu müşavirədə sədrliyin Çinə keçməsinin Asiyada sülh və təhlükəsizliyin daha da möhkəmlənməsinə səbəb olacağını bildirmişdir [1, s 440]. Prezident Azərbaycanın da terrorizmin qurbanı olduğunu vurğulayaraq, erməni vandalizminin Azərbaycan üçün ağır nəticələrindən danışmışdır.Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidenti ilə görüşündə hər iki ölkənin 2020-ci ilə qədər xüsusi inkişaf konsepsiyasının olduğunu ayrıca qeyd etmişdir.Bu mötəbər tədbirin yekun bəyannaməsində Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun nizamlanması ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsinə xidmət edən bəndlərin (6 bənd) yer alması-nı separatizmlə birgə mübarizə siyasətinin daha bir uğuru kimi qiymətləndirmək olar.Xüsusilə bəyannamədəki 2.4-cü bəndin dövlətlərin separatçılarla heç bir münasibət yaratmaması, 3.5-ci bəndinin Ermənistan-Azərbaycan arasındakı münaqişənin beynəlxalq hüququn prinsip və normaları əsasında sülh yolu ilə həllinə dəstək verilməsinə dair məsələləri əhatə etməsi Azərbaycan tərəfi üçün əhəmiyyətli olmuşdur [13]. Bəyannamənin 1.4-cü bəndi dövlətlərin bir-birinin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət prinsipini, münaqişələrin sülh yolu ilə həlli, daxili işlərə müdaxilə edilməməsi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq səviyyədə əməkdaşlıq kimi məsələləri nəzərdə tutur [1, s 440].

2015-ci il dekabrın 8-dən 11-dək Çinə dövlət səfəri zamanı Çinin Renmin Universitetinin “Tarix üzrə professor” diplomunun təqdimatı mərasimində etdiyi çıxışında Prezident İlham Əliyev Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat verməklə yanaşı, rəsmi Pekinin bu məsələdə tutduğu mövqeyi yüksək qiymətləndirmişdir [1, s 441].Dövlət başçılarının görüşlərində və səfər çərçivəsində imzaladıqları birgə bəyannamədə Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə xüsusi yer ayrılmışdır.Çin rəhbərliyi münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun, ədalətli həlli məsələsinə daim qətiyyətli dəstək göstərəcəyini vurğulamışdır. Azərbaycan tərəfi də öz növbəsində “Vahid Çin” prinsipini dəstəkləyəcəyini bəyan etmişdir [3, s 1].2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev Çin Kommunist Partiyasının üzvlərini qəbul edib. Danışıqlar zamanı Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinə toxunmuş, Ermənistanın təcavüzkarlıq siyasəti və münaqişənin həlli ilə bağlı danışıqlar prosesi ilə bağlı məlumat vermişdir [2, s 204]. Prezident həmçinin bildirmişdir ki, iki ölkənin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsi mühüm əhəmiyyət daşıyır.

Çinin Qarabağ münaqişəsinə ədalətli münasibətini iki mövqedən dəyərləndirmək olar.Birincisi, bunun əksini etməsi, yəni Çinin dünyanın hər hansısa bir bölgəsində separatizmə dəstək verməsi ilk növbədə Çinin özünə ziyan verə bilər.Çin nə qədər güclü olsa da, onu da terrorun təhdid etdiyini etiraf etmək mütləq vacibdir. Separatçılıq bu böyük ölkəni də ciddi çətinliklərlə qarşılaşdıra bilər. Digər tərəfdən, Dağlıq Qarabağdakı separatçı rejimin heç bir geosiyasi önəmi yoxdur və onu dəstəkləmək Çinə heç bir üstünlük verməzdi. Digər tərəfdən, Çinin Azərbaycanpərəst siyasəti Azərbaycanın öz mövqeyi ilə də sıx şəkildə bağlıdır. Çünki Azərbaycan Respublikası bütün dövlətlərin, o cümlədən də Çinin ərazi bütövlüyünə hörmətlə yanaşır, suverenliyini dəstəkləyir.

2020-ci ildə 44 günlük Vətən müharibəsinin başlamasından sonra 28 sentyabrda Çin hökuməti Azərbaycan və Ermənistanı Qarabağda gərginliyi tezliklə azaltmağa və fikir ayrılıqlarını dialoq yolu ilə həll etməyə çağırmışdır. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Van Venbin brifinq za-

manı "müvafiq tərəfllərin təmkinli davranacağına və gərginliyin daha da artmasından qaçmağa çalışacaqlarına və həmçinin tərəflərin fikir ayrılıqlarını dialoq yolu ilə həll edəcəklərinə ümid etdiklərini" bildirmişdir [13]. 2022-ci ildə Azərbaycan-Çin diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü qeyd edildi və bu əlamətdar hadisə iki ölkə arasında əlaqələrin daha da inkişafına imkan yaratdı [4, s 2]. Artıq Qarabağ münaqişəsi geridə qalır, siyasi proseslərdə çox böyük rola malik olan Çinin Azərbaycanın haqlı mövqeyini müdafiə etməsi siyasi proseslərdə öz nəticəsini vermişdir

**Nəticə**

Çin Xalq Respublikası Ermənistan-Azərbaycan Qarabağ problemi və onun fonunda baş verən I və II Qarabağ müharibələri zamanı Azərbaycanın tərəfində olmuş, onun haqlı mövqeyini dəstəkləmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

***Azərbaycan dilində***

*1) Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi - Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı:"Poliart" MMC, 2017. - 904 s.*

*2) Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildonümü (çıxışlar, nitqlər, müsahibələr, məktublar, məruzələr), Prezident salnaməsi, Bakı: "Sim-sim Press", 2022. - 368 s.*

*3) Azərbaycan-Çin münasibətləri qarşılıqlı etimada əsaslanır//Azərbaycan qəzeti 2015 15 dekabr. – 1 s.*

*4) Azərbaycan-Çin münasibətləri yeni tarixi mərhələlərin astanasındadır//Azərbaycan qəzeti, 2021 3 iyun. – 1 s.*

*5) Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri:Tarix və müasirlik-"Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi seminarın materialları. Bakı 02-04 oktyabr 2017, Bakı:"Avropa", 2018. - 300 s.*

*6) Çin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır//Azərbaycan qəzeti, 2010 16 aprel. – 2 s.*

*7) Çinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi dəyişməzdir//Azərbaycan qəzeti, 2015 2 iyun. – 1s.*

*8) Heydər Əliyev və Çin (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər), Bakı:"Mütərcim", 2021. - 224 s.*

*9) İlham Əliyev:İnkişaf məqsədimizdir, səkkizinci kitab (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar),Yanvar2005-mart 2005, Bakı:"Azərnəşr", 2011. - 408 s.*

*10) M.Əhmədov. Azərbaycan-Çin münasibətlərinin strategiyası və perspektivləri, Bakı: "Qorqud", 1999. - 152 s.*

***Rus dilində***

*11) Азербайджан и Китай:Формы, особенности и перспективы развития взаимоотношений, Баку:"Азернешр", 2009. - 303 с.*

***İnternet resursları***

*12) Azərbaycanla Çin arasında mehriban, işgüzar münasibətlər mövcuddur. http://www.anl.az/down/meqale/respublika/2014/iyul/380344.htm [ Müraciət tarixi: 02.02.2024]*

*13) Çin Xalq Respublikası və Qarabağ münaqişəsi. https://qafsam.org/2020/10/28/cin-xalq-respublikasi-v%C9%99-qarabag-munaqis%C9%99si/ [ Müraciət tarixi: 02.02.2024]*

**XÜLASƏ**

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra dünyanın bir çox ölkələri kimi Çin Xalq Respublikası ilə diplomatik münasibətlər qurdu. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Çin Xalq Respublikası ilə siyasi əlaqələr daha da genişləndi. Çin Xalq Respublikası ilk gündən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Çin Xalq Respublikası Ermənistan-Azərbaycan Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. Çin kimi güclü bir müttəfiqin Azərbaycanı dəstəkləməsi Azərbaycanın mövqeyini gücləndirmişdir. Çin Xalq Respublikasının Azərbaycanı dəstəkləməsi bir tərəfdən, onun özünün də separatizmlə üzləşməsi ilə, digər tərəfdən Azərbaycanı güclü tərəfdaş kimi qəbul etməsindən qaynaqlanır. Məqalədə müstəqillik əldə etdikdən sonra Azərbaycanın üzləşmiş olduğu Qarabağ problemi və onun sonu olan Vətən müharibəsinə Çin Xalq Respublikasının münasibətindən bəhs edilir.

**Açar sözlər:** *Azərbaycan, Çin Xalq Respublikası, Qarabağ, Heydər Əliyev, İlham Əliyev, münaqişə, Ermənistan.*

**Shadiyeva Ajtaj**
**The PhD candidate of the department of History of Asian and African countries of Baku State University**

**Armenia-Azerbaijan Karabakh conflict in the foreign policy of the People's Republic of China**

After gaining its independence, Azerbaijan established diplomatic relations with the People's Pepublic of China, like many countries of the world. With the coming to power of National Leader Heydar Aliyev, poltical relations expanded further with the People's Republic of China. The People's Republic of China has supported the territorial integrity of Azerbaijan from the first day. The People's Republic of China defended Azerbaijan's rightful position in the Armenian-Azerbaijan Karabakh conflict. The support of Azerbaijan by a strong ally like China has strengthened Azerbaijan's position. The support of the People's Republic of China to Azerbaijan is due to on the one hand the fact that it is facing sepatatism, and on the other hand, it considers Azerbaijan as a strong partner. The article will talk about the People Republic of China's attitude to the Karabakh problem that Azerbaijan faced after gaining independence and The Patriotic War that ended with it.

**Key words:** *Azerbaijan, The People's Republic of China, Nagorno-Karabakh, Heydar Aliyev, Ilham Aliyev, conflict, Armenia.*

**Шадыева Айтадж**
***Докторант кафедры истории стран Азии и Африки***

**Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт во внешней политике Китайской Народной Республики**

После обретения независимости Азербайджан, как и многие страны мира, установил дипломатические отношения с Китайской Народной Республикой. С приходом к власти общенационального лидера Гейдара Алиева, политические отношения с Китайской Народной Республикой еще больше расширились. Китайская Народная Республика с первых дней поддержала территориальную целостность Азербайджана в Карабахском конфликте. Поддержка такого сильного союзника, как Китай, укрепила позиции Азербайджана. Для Азербайджана это с одной стороны связано с собственным сепаратизмом, а с другой стороны, он воспринимает Азербайджан как сильного партнера. Поддержка Китайской Народной Ресрублики Азербайджану обусловлена, с одной стороны, собственным сепаратизмом, а с другой-принятием Азербайджана в качестве сильного партнера. В статье пойдет речь о проблеме Карабаха, с которой столкнулся Азербайджан после обретения независимости, и об отношения Китайской Народной Республики к Отечественной войне.

**Клычевые слова:** *Азербайджан, Китайская Народная Республика, Карабах, Гейдар Алиев, Ильхам Алиев, конфликт, Армения*

UOT 32 (092)
DOI:10.30546/3006-0346.2024.3.81.0056

# "DURING THE AKP PERIOD, THE ROLE OF DAVUTOĞLU IN TURKEY'S MIDDLE EAST POLICY"

**CHICHAK NASIRLI**
*Khazar University,*
*graduate student*
*E-mail: ciceknesirli111@gmail.com*

## Introduction

The Middle East's emergence as a focal point of global interest came about in the aftermath of the Industrial Revolution during the 18th and 19th centuries. With industrial advancements, there arose a substantial need for raw materials, prompting Western nations, leaders in industrialization, to turn their attention to the Middle East, particularly due to its abundant oil reserves. While Turkey, aspiring to attain the standards of Western civilizations as part of its Western-oriented modernization agenda, endeavored to steer clear of the power struggles in its neighboring region as much as possible, conflicts, political upheavals, and economic downturns in the region occasionally impacted Turkey directly or indirectly.

In such a period, the involvement of a figure like Ahmet Davutoğlu, who places special emphasis on the Middle East region, in Turkish foreign policy brought about significant alterations in Turkey's approaches toward the region. Davutoğlu, highlighting Turkey's historical, religious, and cultural bonds with the region, argued that Turkey cannot afford to remain indifferent or apathetic to the developments in the region owing to these connections. Moreover, he advocated for the region to be embraced as part of Turkey's Ottoman heritage, considering it one of the foremost issues in Turkish foreign policy.

"Davutoğlu and the Middle East Vision"

Since the Justice and Development Party assumed power in November 2002, there has been a notable alteration in the character and trends of Turkish foreign policy both regionally and globally. The Middle East has become a focal point for Turkish policymakers [Barkey,2011:125].

Under Davutoğlu's leadership, Turkey has moved beyond its exclusive focus on the West and instead seeks to develop policies that will influence not only the broader world but particularly the neighboring Middle East region, acknowledging the necessity of engagement in this area [Sinkaya,2011:93].

Soft power, which Davutoğlu defines as a more cost-effective and quicker-yielding political tool compared to military and economic power, has emerged as a key aspect of his political arguments [Köseoğlu,2011:31]. With a structure that conforms well to European norms and a predominantly Muslim population, Turkey's image serves as another crucial factor in its soft power initiatives in the Middle East [Kanaş,2014].

Davutoğlu's consecutive terms as foreign minister (2009–2014) followed by prime minister (2014–2016) were marked by a progressively assertive foreign policy and a pan-Islamist perspective [Özkan,2014]. During this period, Turkey significantly intensified its regional endeavors, embraced a "zero problems with neighbors" approach, and enhanced its trade relations with neighboring countries [Aras,2005].

Propelled by appeals to both nationalist and religious sentiments within the electorate, exemplified by President Erdoğan's confrontation with Israeli President Shimon Peres in Davos and the national outcry following the Mavi Marmara incident in 2010, where Israeli commandos killed nine Turkish activists aboard a state-owned aid ship bound for Gaza, Turkey began to assert itself more vigorously as an active and independent regional power in the Middle East.

Turkey played an active role in addressing regional disputes, serving as a mediator between Syria and Iraq, and also between Syria and Israel. Turkey initiated development aid programs and ranked as the third-largest donor in 2013, trailing only the United States and Great Britain [Gilley,2015:38].

Davutoğlu's implementation of the "zero problems with neighbors" policy during the AK Party's rule has been influential in shaping Turkey's approach to the Middle East. However, this policy has faced scrutiny for its perceived impracticality given Turkey's complex relationships with its neighbors. In response to such criticism, Davutoğlu has positioned the policy as a continuation of Atatürk's principle of "Peace at Home, Peace in the World," emphasizing its feasibility and practicality rather than mere idealism [Gökçay, 2012:97-98].

Ahmet Davutoğlu implemented a proactive and efficient foreign policy strategy, focusing on two main approaches: the strategic depth policy and the

policy of problem mitigation. These strategies were formulated based on his political theories, which aimed to explore the core principles of foreign policy theory. The strategic depth theory and the neo-Ottoman theory stand out as the most prominent among these theories [İnaç&Hadji,2022:310].

Strategic Depth Theory originates from a geographic perspective that aims to overcome the perceived alienation of Turkey's neighboring countries. In his renowned work "Strategic Depth," Ahmet Davutoğlu advocates for Turkey to maintain equal distance from all countries and actors, avoiding entanglements in regional alliances or blocs to maintain neutrality and alleviate concerns of regional and international stakeholders about Turkish policies [Davutoğlu, 2014:54].

Neo-Ottomanism represents a vision aimed at revitalizing Turkey, with its origins tracing back to the era of the late Turkish President Turgut Özal in the 1980s, when it garnered support from various segments of Turkish society and politics. Davutoğlu highlighted the realization that history cannot be escaped, just as geography cannot be changed [Ganem, 2009:17].

As of early 2015, the coup in Egypt and the internationalization of the conflict in Syria presented insurmountable obstacles for the AKP government to pursue its dominant aspirations in the Middle East or uphold a coherent regional strategy. Additionally, these developments posed risks to the country's alignment with the US. Furthermore, the evident Islamic leaning of the government in both domestic and foreign affairs served as a catalyst for anti-government dissent, particularly exemplified by the Gezi protests of 2013 [Balta, 2018:17].

Davutoğlu's perspectives regarding the Middle East appear to have been shaped by the geopolitical concepts of Alfred T. Mahan, who underscored the strategic significance of "chokepoints" (narrow waterways) in attaining naval supremacy globally. Throughout various sections of his work "Strategic Depth," Davutoğlu highlights the geopolitical relevance of these chokepoints, many of which he believes are situated within the territories of predominantly Muslim nations.

Davutoğlu's views on the Middle East can be characterized by several key geopolitical aspects. He frequently underscores the discrepancy between current political boundaries and the geopolitical dynamics of the region. For example, he criticizes the way borders were established in the Middle East, likening them to poorly constructed walls due to their simplistic delineation by British and French authorities in the early twentieth century. However, he adopts a more traditional geopolitical perspective when he describes the Middle East as an "inescapable hinterland" or an area of influence for Turkey. This suggests that his critique of the region's borders primarily stems from its abrupt separation from the Ottoman Empire, rather than a comprehensive evaluation of the border-drawing process by Western powers [Erşen, 2014:92].

In 2016, Davutoğlu stepped down from his roles as the leader of the Justice and Development Party (AK Party) and as Turkey's Prime Minister. His resignation was triggered by internal disputes and conflicting viewpoints within the party. Criticism was directed towards Davutoğlu's foreign policy approach, especially regarding the zero problems policy with neighboring countries and his vision for the Middle East. This departure resulted in shifts in Turkey's foreign policy direction and signaled the onset of a new political phase.

## Conclusion

In conclusion, Davutoğlu's leadership and his policies regarding the Middle East have had significant ramifications both regionally and globally. The 'zero problems with neighbors' policy reflected Turkey's efforts to promote regional stability and cooperation, albeit facing challenges in implementation over time, yielding unexpected outcomes. Concepts such as strategic depth and neo-Ottomanism provided a vision for Turkey's aspirations to become a regional power, aiming to enhance its influence in the Middle East.

However, following the end of Davutoğlu's tenure, Turkey's Middle East policy underwent changes. Under new leadership, Turkey's regional strategies were reshaped, and a different approach was embraced. Nonetheless, the ideas and strategies underlying Davutoğlu's Middle East policies continue to exert a significant influence.

In summary, Davutoğlu's Middle East policy reflects Turkey's efforts to intervene in regional dynamics and strengthen its role in the Middle East. However, the challenges in implementing these policies and the changing regional conditions underscore the comp-

lexity and uncertainty of Turkey's future role in the Middle East. The evolution of Turkey's Middle East policies and its impact on the region are crucial issues to be carefully monitored in the future.

**LITERATURE:**


*1. Aras, B. (2005). Turkey and the GCC: An Emerging Relationship. Middle East Policy, 12(4). Retrieved from https://www.researchgate.net/publication/238738997_Turkey_and_the_GCC_An_Emerging_Relationshiop*

*2. Balta, E. (2018). The AKP's Foreign Policy as Populist Governance. Middle East Report. Retrieved from https://merip.org/2018/12/the-akps-foreign-policy-as-populist-governance/*

*3. Barkey, H. J. (2011). Turkish Foreign Policy in the Middle East. Retrieved from https://www.academia.edu/992029/Turkish_Foreign_Policy_in_the_Middle_East*

*4. Davutoğlu, A. (2014). Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. Küre Yayınları.*

*5. Ersen, E. (2014). Geopolitical Codes in Davutoglu's Views toward the Middle East. Insight Turkey, 16(1). Retrieved from https://www.proquest.com/openview/6c4ece620c2c71d2ef12febac7ae0155/1?pq-origsite=gscholar&cbl=54734*

*6. Ganem, I. A. (2009). Elistraticiye El'Türkiye ve El'Usmaniye El'Cedide. Elahram Elyuumi.*

*7. Gilley, C. J. (2015). Turkey, Middle Powers, and the New Humanitarianism. Perception. Retrieved from https://dergipark.org.tr/en/pub/perception/issue/48962/624612*

*8. Gökçay, Kemal. (2012). Statükoculuk'tan "Çok Yönlü Dış Politika'ya"; "Komşularla Sıfır Sorun" Değerlendirmesi*

*9. İnaç, M., & Hadji, İ. (2022). Turkish Foreign Policy in the Middle East During the Rule of the Justice and Development Party: Interaction of Interests and Future Challenges. Mana: Journal of Islamic Studies, 5(2). Retrieved from https://dergipark.org.tr/en/pub/mana/issue/72441/1161897*

*10. Kanaş, İ. (2014). Ahmet Davutoğlu'nun Stratejik Derinlik Doktrini İle AKP'nin 2002-2009 Yılları Arasındaki Dış Politikasının Karşılaştırılması.*

*11. Köseoğlu, İ. (2011). AK Parti Döneminde Türkiye'nin Ortadoğu Politikaları; Ekonomik ve Kamuoyu Yansımaları.*

*12. Özkan, A. (2014). "Turkey, Davutoglu and the Idea of Pan-Islamism." Survival.Retrieved from https://www.researchgate.net/publication/264244738_Turkey_Davutoglu_and_the_Idea_of_Pan-Islamism*

*13. Sinkaya, B. (2011). Geçmişten Günümüze Türkiye'nin Ortadoğu Politikası ve Batı Etkisi. Retrieved from https://www.semanticscholar.org/paper/Ge%C3%A7mi%C5%9Ften-G%C3%BCn%C3%BCm%C3%BCze-T%C3%BCrkiye%E2%80%99nin-Ortado%C4%9Fu-Politikas%C4%B1-Sinkaya/3f5d36550a7417fe10ec95e5bdf95d8024f353ad*



**Çiçək Nəsirli**
**Xəzər Universiteti, magistrant**


**AKP dönəmində Türkiyənin Orta Şərq siyasətində Davudoğlunun rolu**

**XÜLASƏ**


Bu məqalədə, Əhməd Davudoğlunun xarici siyasət strategiyasının Orta Şərqdəki təsirini müzakirə etdik. Əhməd Davudoğlu, Türkiyənin xarici siyasətinə idealist bir perspektivlə yanaşmışdır. O, Türkiyənin gücünə, tarixi varlığına, geostrateji mövqeyinə və sair xüsusiyyətlərinə inanaraq bir sıra prinsiplər və konseptlər inkişaf etdirərək bunları xarici siyasətdə tətbiq etməyə çalışmışdır. Davudoğlu dövrü xarici siyasətdə xüsusilə "yumşaq güc" prinsipi çox hiss olunmuşdur.

Davudoğlu, "Strateji Dərinlik" konsepti əsasında Türkiyənin xarici siyasətinin müəyyənləşdirilməsində əhəmiyyətli bir rol oynamışdır. Onun vizyonunda, Türkiyənin coğrafi və mədəni bağlantıları, bölgədə liderlik rolunu oynamasına və təsirinin artmasına imkan verir. "Qonşularla Sıfır Problem" siyasəti, Türkiyənin ətrafındakı ölkələrlə münasibətlərini gücləndirməyə çalışan bir strategiya olaraq tanınır. Bununla birlikdə, qonşu ölkələrlə yaşanan gərginliklərə diqqət çəkərək bu siyasətin praktikada necə işlədiyi müzakirə mövzusu olmuşdur .

Davudoğlunun "Neo-Osmanlıçılıq" vizyonu, Osmanlı İmperiyasının ənənələrini yenidən canlandırmağa çalışan bir siyasət çərçivəsində müzakirə olunur. Bu, Türkiyənin bölgədəki nüfuzunu artırmağa və təsir sahəsini genişlətməyə yönlənmişdir. Lakin bu vizyonun praktikada gərginliklərə səbəb olduğu və bəzi tənqidçilərin "neo-imperializm" adlandırdığı bir durum yaratdığı qeyd edilir.

Davudoğlu dövründə yaşanan "Ərəb Baharı" hadisələrində demokratik hərəkatları dəstəkləmiş və özünü bir aktor kimi ön plana çıxarmışdır. Tür-

kiyə, Orta Şərq ölkələri ilə yaxşı münasibətlər qurarkən,İsrail və Amerika Birləşmiş Ştatları ilə münasibətləri pisləşmişdir.Rusiya ilə münasibətləri isə 2015-ci ildə gərginləşsə də, regional maraqlar əsas plana çıxdığında, R.T. Ərdoğan tərəfindən gərginliyi azaltma çağırışları edilmişdir.

**Açar sözlər:** *Strateji dərinlik, qonşularla sıfir problem,neo-ottomanism*

**Чичяк Насирли**
**Университет Хазар, магистрант**

**В период правления АКП роль Давутоглу во внешней политике Турции по отношению к Ближнему Востоку**

**РЕЗЮМЕ**

В этой статье мы обсуждаем влияние внешней политики стратегии Ахмеда Давутоглу на Ближний Восток. Ахмед Давутоглу подходит к внешней политике Турции с идеалистической перспективой. Он развивает ряд принципов и концепций, веря в силу, историческое наследие, геостратегическое положение и другие характеристики Турции, и старается применять их на практике во внешней политике. Эпоха Давутоглу особенно отличается принципом "мягкой силы" во внешней политике.

Давутоглу сыграл значительную роль в определении внешней политики Турции на основе концепции "Стратегическая Глубина". По его видению, географические и культурные связи Турции позволяют ей играть лидирующую роль в регионе и увеличивать свое влияние. Политика "Нулевых Проблемов с Соседями" признана стратегией, направленной на укрепление отношений Турции с соседними странами. Однако, обсуждается, как эта политика работает на практике, особенно с учетом напряженных отношений с некоторыми соседними странами.Ракурс видения Давутоглу о "Нео-османизме" обсуждается как политика, направленная на восстановление традиций Османской империи с целью увеличения влияния Турции в регионе. Тем не менее, отмечается, что эта визия сталкивается с некоторыми критиками, которые называют это "неоимпериализмом" и утверждают, что она привела к напряженным ситуациям на практике.

В эпоху Давутоглу Турция поддерживала демократические движения во время событий "Арабской Весны" и активно выступала как ключевой игрок. В то время как Турция развивала хорошие отношения с странами Ближнего Востока, отношения с Израилем и США ухудшились. В отношениях с Россией возникли напряженные моменты в 2015 году, однако, когда на передний план вышли региональные интересы и политика, президентом Эрдоганом были сделаны призывы к снижению напряженности.

**Ключевые слова:** *Стратегическая глубина, ноль проблем с соседями, нео-османизм.*

UOT 32
DOI:10.30546/3006-0346.2024.3.81.0060

# CƏNUBİ QAFQAZ VƏ XƏZƏR REGİONUNUN LİDER DÖVLƏTİ: AZƏRBAYCAN

**ƏLƏKBƏR SADIXLI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: elekbersahinoglu@gmail.com*

Müasir Azərbaycan Respublikasının müstəqillikdən bəri olan dövrdə dövlət quruculuğu, iqtisadi-sosial dirçəliş, ictimai-siyasi həyatda tərəqqi dövrünü əhatə edən inkişaf strategiyası Ümummilli Lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə sıx bağlıdır. Beynəlxalq iqtisadi statistikada ən sabit inkişaf indikatorlarına malik Azərbaycan Respublikası müstəqillikdən sonrakı keçdiyimiz illərdə əldə etdiyi uğurlara, inkişafa və geniş tərəqqiyə məhz ümummilli lider Heydər Əliyevin hazırlayaraq həyata keçirdiyi və İlham Əliyevin davam etdirdiyi iqtisadi-sosial inkişaf doktrinasının reallaşdırılması vasitəsilə mümkün olunmuşdur. Hər iki rəhbərin bu istiqamətlərdəki əsas addımları bir tərəfdə dövlətin siyasi, iqtisadi və müdafiə potensialının artırılması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, digər tərəfdə isə beynəlxalq sistemdə əksər ölkələrlə əməkdaşlıq və qarşılıqlı tərəfdaşlığın qurulması nəticəsində dövlətimizin regional və beynəlxalq layihələrdə iştirak etməkdən, mötəbər qurumların tamhüquqlu üzvü olmaqdan, bütün regionlar ilə qarşılıqlı əməkdaşlığı inkişaf etdirməkdən ibarət olub. Bu çərçivədə sözügedən beynəlxalq güc olmaq yolunda, əlbəttə, ilkin amil öz regionunda mühüm mövqeni əldə etdirməkdir ki, regionu dünyanın ən həssas məkanlarından olan Azərbaycan Respublikası üçün bu heç də asan olmamış, ardıcıl, məqsədyönlü planlaşdırma vasitəsilə bugünki yerə - **Cənubi Qafqaz və Xəzər regionunun lider dövlətinə** gəlib çatmışdır.

Cənubi Qafqaz təxmini 477 min kvadrat km-lik ərazinin 186 minlik hissəsində yerləşən 3 dövlət – Azərbaycan, Gürcüstan və Ermənistanı əhatə edir. Digər tərəfdən, Xəzər regionu terminini izah etmək bu qədər asan deyil, bu bölgə həm geniş anlamda Xəzərətrafı Asiya və Avropa qovşağında yerləşən məkanı ehtiva etsə də, bir tərəfdən də Xəzər dənizinin çevrəsində yerləşən 5 dövləti özündə cəm edir. Azərbaycan Respublikası isə çoxistiqamətli inkişaf strategiyası ilə hər iki bölgədə əsas söz sahibi dövlətlər siyahısındadır. Heydər Əliyevin banisi olduğu, bizlərə miras olaraq buraxdığı və hazırda ölkə prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən tarixi inkişaf strategiyamızı 3 əsas başlıqda toplaya bilərik.

**1) Cənubi Qafqaz və Xəzər regionunun enerji mərkəzi olması:**

Qafqaz və Xəzərin ilkin cəlbedici tərəfi, əlbəttə, sahib olduğu təbii sərvətləridir. Tarixin şanslı xalqı hesab edilə bilərik ki, hər iki regionun ən ümdə stratejik təbii sərvəti hesab edilən neft və təbii qaz ehtiyatları əsas etibarilə Azərbaycan Respublikasının hüquqi ərazisində yerləşir. Beləki, ABŞ Enerji İnformasiya İdarəsinin verdiyi statistik məlumatlara görə Xəzərətafı ərazidə 48.2 milyard barel neft, 292 trilyon kub metr qaz rezervləri mövcuddur ki, [1] Cənubi Qafqazın quru yataqlarında olan karbohidrogen ehtiyatlar ilə birgə bu region bəzi dünya qitələrindən (məsələn: Avropa) daha çox enerji gücünə malikdir. Xatırladaq ki, Azərbaycan Respublikası bu göstəricilərə əsasən Cənubi Qafqazda birinci, Xəzər hövzəsində isə Rusiya və Qazaxıstan ilə bərabər ilk üç yeri paylaşır. Sadə rəqəmlər kimi görünsə belə bu statistika tarixin səhifələrində beynəlxalq qütblərin niyə bu məkan ilə maraqlanmasını sübut edir. Maraqların cəmləndiyi yer olan region isə Sovet təsirindən çıxdıqdan sonra müxtəlif istiqamətlərdə problemlərlə üzləşməyə başladı. Dövlətlərarası gərginlik, yeni yaranan dövlətlərin iqtisadi-sosial daxili problemləri, təhlükəsizliyin risk altında olması kimi hallar Qafqaz və Xəzərin 1991-2000-ci illər arasında həssas məkan olmasına təsir göstərdi. Bu həssaslıqda enerji ehtiyatlarda bir çərçivədə rol oynayırdı. Bu ehtiyatlardan səmərəli, planlı istifadə və digər gərginliklərin azaldılmasına dəstək sadəcə problemlərin aradan qaldırılmasına rol oynaya bilərdi. Dünyada çox dövlətin nefti var, lakin hamı bu ehtiyatdan lazımi istifadə edə bilmirdi. Məhz yeni yaranan Azərbaycan Respublikasına bu tipli səmərəli və davamlı strategiya lazım idi. Ümummilli Lider Heydər Əliyev 1991-1993-cü illər xaotik vəziyyətindən çıxmağın, ölkənin digər daxili iqtisadi-sosial problemlərinin həllini məhz bu enerjinin stratejik tərəfində görürdü. 1993-cü ildən işlənilməyə başlayan və 1994-cü il “Əsrin müqavilə-

si" ilə başlayan "Neft strategiyası" Azərbaycan Respublikasının yeni yaranan digər region dövlətlərindən öndə olmasına mühüm təkan idi. Ölkənin həmin dövrdəki rəhbəri neft və qazın sadə xammal olmadığını, onların geostrateji xətt olduğunu çox yaxşı bilirdi, məhz bu səbəbdən xarici blokları Azərbaycana hərbi çərçivədə deyil, iqtisadi-tərəfdaşlıq çərçivəsində dəvət etdi. Təhlükəli hərbi vəziyyətdə olan ölkəyə investisiya yatırılmayacığını bilən Heydər Əliyev ilkin olaraq atəşkəs razılaşması ilə hərbi sakitliyi yaratdı, daha sonra isə yeni inkişaf xəttinin əsasını qoydu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın enerji ehtiyatlarının Bakı-Supsa, Bakı-Novorossiysk, Bakı-Tbilisi-Ceyhan kimi xətlər ilə regiona, daha sonra isə Avropaya daşınmasının təməlini qoydu. Heydər Əliyevin mirası olan "neft inkişaf konsepsiyamızı" davam etdirən Prezident İlham Əliyev isə bu xammallardan beynəlxalq bazarda rəqabət üçün istifadə etdi və bu rəqabətdə üstünlük qurmağa başlayan Azərbaycan enerji ehtiyatları beynəlxalq bir məsələyə çevrildi. [Mirbabayev: 2009; 170-176] 2000-2010-cu illər Avropa – Rusiya – ABŞ üçbucağında baş verən dalğalı münasibətlər "isinməyə" ehtiyacı olan Avropa Birliyinin Azərbaycana qarşı olan əvvəlki "özündənrazı" davranışının "xoş münasibət"ə çevrilməsinə səbəb oldu. 2006-cı ildə istismara verilən Bakı – Tbilisi – Ərzurum qaz xətti əvvəlcə sadə boru kəməri olsa da, 2011-ci ildən sonra yeni bir səhifənin təməl daşı oldu. Belə ki, Rusiyanın "Дружба" kəməri ilə davamlılıq əldə edə bilməyəcəyini, "Nabukko" kəmərindən isə nəticə alınamayacağını anlayan Avropa Birliyi timsalında Avropa Komissiyasının sədri M.Barrozu və Prezident İlham Əliyev arasında "Cənub Qaz Dəhlizi" haqqında bəyannamə, 2013-cü ilin sonunda isə "Şahdəniz-2" sazişi imzalandı. Avropa və Azərbaycan arası imzalanan saziş ilə tariximizdə ikinci dəfə "Şahdəniz" yatağı üzrə hasil olan təbii yanacağın İttifaqa daşınması ilə bağlı razılıq əldə edildi. Layihənin nəticəsində rəsmi Bakının "Şahdəniz" yatağından çıxan mavi yanacaq "Tanap" vasitəsilə Türkiyəyə, 2020-ci ildə başa çatan "Tap" vasitəsilə isə İtaliyanın San-Fako qəsəbəsinə çatdırılır [3].

Azərbaycan Respublikası enerji sahəsində qonşu region dövlətləri (Rusiya, İran, Mərkəzi Asiya) ilə qarşılıqlı əməkdaşlığa önəm verir. Hazırda Rusiya və İran ilə Şimal-Cənub koridori çərçivəsində qurulan inkişaf siyasəti, Mərkəzi Asiyanın neft və qazla zəngin dövlətlərinin karbohidrogen ehtiyatlarının Avropaya daşınması ilə davam etdirilir. Azərbaycan bir-birinə əks olan qütblərin enerji siyasətində bir yerə gəlməsində mühüm dövlətlərdəndir. Avropa ilə olan əlaqələrin yüksəkliyinə baxmayaraq, Azərbaycan Rusiya faktorunuda əsas görərək, Bakı – Novorossiysk xəttinin istifadəsini davam etdirir, digər tərəfdən isə İranın şimal hissələrinin enerji təchizatında mühüm rol oynayır. Bu isə Azərbaycanın apardığı çoxtərəfli enerji siyasətinin nəticəsidir.

Ümumilikdə, Azərbaycan Respublikası öz enerji strategiyasını daxili-xarici inkişaf istiqamətində həyata keçirir. Xarici əlaqələrin nəticəsində əldə edilən gəlirin ölkənin daxili sosial-ictimai-iqtisadi tərəqqisinə yönəltmək Heydər Əliyevin "neft strategiyası"-nın təməl daşıdır. Bu səbəbdən ölkənin ümumi inkişaf strategiyasının ikinci başlığı olaraq qeyri-neft sektorunu göstərə bilərik.

**2) Azərbaycanın inkişafında neftdən asılı olmayan qeyri-neft sektorunun mühümlüyü:**

1994-cü il "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası özündə neftdən asılı bir ölkənin yaranmasını deyil, enerji sektoruna paralel inkişaf edəcək qeyri-neft sisteminin formalaşmasını ilk başdan bəri ehtiva edirdi. Heydər Əliyevin əsasını qoyduğu bu inkişaf konsepsiyası Azərbaycanın neftlə zəngin ərəb dövlətləri kimi enerjidən asılı ölkə kimi formalaşmasını mümkün görmürdü. Belə ki, Azərbaycan Respublikasında neft gəlirlərinin idarəsinin "Norveç" modelinin tətbiq edilməsi məhz Heydər Əliyevin uğurlu siyasətinin əsası olmuşdur [4]. Bu çərçivədə 1999-cu ildə yaradılmış Dövlət Neft Fondu məhz bu idarəetmə mexanizmasının istifadə edilməsində əsas metoddur. Ulu Öndərin bu siyasətini davam etdirən Prezident İlham Əliyev "neft kapitalının insan kapitalına çevrilməsi" konsepsiyasını irəli sürür. Beləliklə, neftdən asılı sayılan qeyri-neft sektorunun adının dəyişməsi və "insan kapitalının" yaranması üçün sosial-iqtisadi addımların atılması dövrü başlayır. Neft Fondu və dövlət büdcəsi arasında səlahiyyətlərin yenidən bölünməsi ilə sənaye, kənd təsərrüfatı, turizm, səhiyyə, mədəniyyət və elm-təhsil sferalarına çəkilən xərclərin gəlirlər ilə aradan qaldırılması həyata keçirilməyə başlandı. 21-ci əsrin ilk onilliklərində ölkənin sənaye və iqtisadi inkişafının əsasən neft və qismən təbii qaz gəlirlərindən asılı olduğunu görsək də ikinci onillikdən etibarən artıq xərclər birbaşa qeyri-neft sektorunun gəlirləri hesabına ödənməyə başlandı [5][10].

Dövlət Neft Fondunun yaranması sonrası 2001-ci ildən etibarən müxtəlif layihələr neft gəlirlərinin digər sahələrə köçürülməsi ilə mümkünləşdi. Türkiyədə yerləşən "STAR" neft emal zavodunun inşası, Bakı-Tbilisi-Qars dəmiryolunun qurulması, həmin dövr üçün qaçqın və məcburi köçkünlərin məişət problemlərini həlli, Abşeron və xüsusilə Bakı şəhərinin içməli su təchizatı üçün mühüm olan "Oğuz – Qəbələ - Bakı" su xəttinin inşası, iqtisadiyyatın digər sahələri üzrə (Heydər Əliyev adına Bakı Neft Emal Zavodu, "AzərNeftYağ" Neft Emal Zavodu, "AzərKimya" İstehsalat Birliyi tərkibində yeni kimya və neft – kimya müəssisələri) sənaye mərkəzlərinin, aqroparkların qurulması və bunlar kimi yüzlərcə istiqamət neft gəlirləri hesabına gerçəkləşir. Bunu da demək lazımdır ki, həmin dövrdə bu sahələrə qoyulan neft investisiyası hazırda ölkə iqtisadiyyatı, sənaye və kənd təsərrüfatının mühüm sahələrinin müstəqil şəkildə, neft və qazdan asılı olmadan yüksək inkişaf etməsinə səbəb olmuşdur [Məhərəmov: 2013; 323-345].

Ölkə Prezidenti İlham Əliyevin "qara qızılın insan qızılına çevrilməsi" konsepsiyası Azərbaycan Respublikasında 21-ci əsrin ikinci onilliyindən etibarən müasir, innovativ və inklüziv elm, təhsil və xidmət sektorunun yaranmasının əsasını qoydu. Bakı və regionlarda müasir təhsil komplekslərinin yaradılması, təhsilin "ali" və "ömürboyu təhsil" formalarının qurulması, elmi institutların modernləşdirilməsi, 2019-2022 və 2023-2026-ci illər gənclərin xarici ölkələrdə ali təhsil alması Dövlət proqramlarının əsasının qoyulması, təhsil və xidmət sahələrinin paralel inkişafı və digər layihələr İlham Əliyevin neftdən asılı olmayan təhsil və elm konsepsiyasının əsasıdır [7]. Həmçinin, artıq dünyada Azərbaycan sadəcə enerji, sənaye, kənd təsərrüfatı sistemləri ilə deyil, xidmət sektoru ilə də "Made İn Azerbaijan" brendini yaratmış, ilkin mərhələdə "Regionların sosial – iqtisadi inkişafı Dövlət Proqramları (2004 – 2008, 2009 – 2013)", "Azərbaycanda yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı (2008 – 2015)", "Azərbaycanda yanacaq – enerji kompleksinin inkişaf etdirilməsi üzrə Dövlət Proqramı (2005- 2015)", "Azərbaycanda sənayenin müxtəlif sahələrinin inkişafına dair Dövlət Proqramı (2015 – 2020)", "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası", "Asan Xidmət", "DOST" kimi sistemlər ölkə daxili inkişafı təmin etmiş, 2015-2016-cı illərdən etibarən isə bu xidmət sektorları Azərbaycan brendi adı ilə patentli formada xarici dövlətlərə ixrac olunmağa başlamışdır [8][9].

Beləliklə, daxili iqtisadi-sosial gərginlikləri ilə varlığı belə sual altında olan bir ölkənin sadəcə 30-40 il ərzində özünəməxsus bir "brend" yaratması sadəcə mükəmməl planlaşdırılmış inkişaf strategiyası ilə mümkün ola bilərdi. Bunu söyləmək lazımdır ki, 2000-ci ilə qədər enerji sferasından asılı olan yuxarıda adıçəkilən sektorlar hazırda öz-özünə inkişafı təmin edə bilir. Keçdiyimiz günlərdə verilən 2023-cü ilin yekun statistikasından görə bilərik ki, Azərbaycanın əsas makro-iqtisadi göstəriciləri üzrə artımlar məhz qeyri-neft sektoru (ümumi daxili məhsulda qeydə alınan 1.1 faiz artım enerjidən kənar sektorlar) hesabına baş verib. Bu rəqəmlər hər keçən ilin statistik məlumatlarında daha artım göstərir ki, məhz bu informasiya Azərbaycan Respublikasının "Norveç" modeli çərçivəsində necə inkişaf etdiyinin sübutudur. Cənubi Qafqaz və Xəzər regionunun digər dövlətlərində baş tutan birtərəfli tərəqqi strategiyalarından tam fərqli olaraq Azərbaycan Respublikasının həyata keçirdiyi bu çoxistiqamətli inkişaf konsepsiyası ölkənin sözügedən regionlar üzrə lider rəqəmləri əldə etməsinə səbəb olur. Lakin, enerji və enerjidən kənar strategiyaları tamamlamaq üçün bütün dövlətlərin mühüm gördüyü digər bir istiqamətin formalaşması da çox mühümdür, bu istiqamət inkişaf strategiyamızın üçüncü başlığı olan diplomatik-beynəlxalq əlaqələri ehtiva edir.

**3) Azərbaycan Respublikasının qlobal təhlükəsizlik, əməkdaşlıq və diplomatik əlaqələrdə artan rolu:**

Azərbaycan Respublikası beynəlxalq sistemin bütün subyektləri ilə qarşılıqlı faydalı əməkdaşlığı öz gələcəyi və qlobal inkişaf istiqamətində mühüm hesab edir. 1991-ci ildən etibarən Azərbaycan Respublikasının xarici siyasi – diplomatik əlaqələrini 2 mərhələdə analiz edə bilərik: a) Əsası Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində ortaya atılan xarici siyasət kursu – belə ki, bu mərhələ müstəqilliyi əldə etdikdən sonra 2020-ci ilə qədər olan tarixi mərhələni əhatə edir. Sözügedən mərhələdə Azərbaycan xarici münasibətlər prioritetlərini daha çox erməni yalanları və işğal reallığının beynəlxalq qəbulu üzrə istiqamətləndirmişdi. b) 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilən tarixi, şanlı qələbədən sonra isə bu çərçivə özünü daha çox beynəlxalq gündəliyi əlaqələndirən

Məqalə Azərbaycan Respublikasının Monteneqronun enerji təhlükəsizliyinin təmin edilməsində mühüm və önəmli roluna həsr olunur. Məqalədə belə bir nəticəyə gəlinir ki, Azərbaycan Respublikası ilə energetika sahəsində əməkdaşlıq Monteneqronun iqtisadi və enerji təhlükəsizliyində mühüm rol oynayır. Fakt və arqumentlər göstərir ki, Avropanın cənub-şərq bölgəsinin, o cümlədən Monteneqronun enerji təhlükəsizliyində ölkəmizin rolu davamlı şəkildə artmaqdadır. TANAP (2018-ci il) və TAP (2020-ciil) layihələri başa çatdı. Azərbaycanın maye qazı Avropaya daxil oldu. Maye qazı Cənub-Şərqi Avropaya, Qərbi Balkanlara, Monteneqroya daşıyacaq IAP layihəsinin 2025-2026-cı illərdə yekunlaşması nəzərdə tutulub. Monteneqronu alternativ qazla təchiz edəcək İAP layihəsi həmçinin Avropanın enerji təminatında vacib tranzit ölkə kimi Monteneqronun rolunu və əhəmiyyətini artıracaqdır. Albaniyadan Monteneqroya və Bosniya və Herseqovinadan Xorvatiyadakı Splitə qədər uzanacaq İAP Boru kəmərinin gücü ildə beş milyard kubmetr qaz təşkil edəcəkdir.

**Açar sözlər:** *Azərbaycan Respublikası, Monteneqro, enerji təhlükəsizliyi, geosiyasi aspekt, Xəzər neft-qaz ehtiyatı.*

**Narmin Guliyeva**
***Part-time doctoral student, Baku Slavic University***

**The role of the Republic of Azerbaijan in ensuring the energy security of Montenegro**

The article is dedicated to the important and important role of the Republic of Azerbaijan in ensuring the energy security of Montenegro. The article concludes that energy cooperation with the Republic of Azerbaijan plays an important role in the economic and energy security of Montenegro. Facts and arguments show that the role of our country in the energy security of the southeastern region of Europe, including Montenegro, is continuously increasing. TANAP (2018) and TAP (2020) projects have been completed. Azerbaijan's liquefied gas entered Europe. The IAP project, which will transport liquefied gas to Southeast Europe, the Western Balkans, and Montenegro, is scheduled to be completed in 2025-2026. The IAP project, which will supply Montenegro with alternative gas, will also increase the role and importance of Montenegro as an important transit country in Europe's energy supply. The capacity of the IAP Pipeline, which will stretch from Albania to Montenegro and from Bosnia and Herzegovina to Split in Croatia, will be five billion cubic meters of gas per year.

**Keywords:** *Republic of Azerbaijan, Montenegro, energy security, geopolitical aspect, Caspian oil and gas reserves*

UOT 327
DOI:10.30546/3006-0346.2024.3.81.0076

# NAVIGATING STRATEGIC CULTURE: ANALYZING RUSSIAN INSECURITIES IN UKRAINE-WEST RELATIONS

**LAMAN GAHRAMANOVA**
*Khazar University, graduate student*
*E-mail: laman.qahramanova@khazar.org*

## Introduction

Understanding the dynamics of strategic culture has always been of utmost importance. Strategic culture describes how states and their leaders view the role of war, the nature of their enemy, how force should be used, and against whom [13, p.8].

Historical legacies, volatile geographical locations, identity, and narratives have played a crucial role in shaping Russian strategic culture. Russian strategic culture has been historically characterized by a sense of insecurity towards the West, which in turn, has originated from a history of invasions as well as its aspiration for creating buffer zones. This has been due to its volatile geography, which does not have features that would serve as barriers to defense [5, p.32].The Russian strategic culture is one of the key factors that shape its relations with its neighbors and Western powers. President Vladimir Putin has made a considerable evolution in Russian strategic culture, which has had a significant impact on the country's interactions with the West and its fraternal neighbor Ukraine.

This article delves into Russian foreign policy, which has become more assertive since the turn of the new millennium. The annexation of Crimea leading to the subsequent full-scale invasion of Ukraine and hostile policy towards the West have been key events that illustrated the shift in Russia's strategic culture.

## Annexation of the Crimean Peninsula

In 2014 Ukraine experienced a political upheaval, which led to the ousting of pro-Russian president Viktor Yanukovych. Euromaidan movement, also known as the "Revolution of Dignity" was driven by Yanukovych's decision to reject a trade deal with the European Union to nurture closer ties with Russia. The protestors expressed their discontent over economic stagnation, corruption, and an aspiration for integration into the EU. Subsequently, a new government under an interim Western-oriented president Oleksandr Turchynov was formed once Yanukovych fled Ukraine [7].

Western-oriented policy of the Ukrainian leadership was accompanied by conflicts with pro-Russian separatist groups in the eastern part of Ukraine. Taking advantage of the instability in the country, Russia annexed the peninsula. Apart from the concerns over increasing Western-oriented aspirations of Ukraine, which Putin perceived as a "brotherly nation", the symbolic importance of the peninsula to Russia played a role in making such a decision. The annexation of Crimea was perceived as re-uniting with historically Russian land, which was "gifted" to Ukraine by then-Soviet leader Nikita Khrushchev. Putin in his address after the annexation of the peninsula, portrayed the decision as follows: "The decision was made behind the scenes. Naturally, in a totalitarian state, nobody bothered to ask the citizens of Crimea and Sevastopol. They were faced with the fact" [11].

By doing so, the Russian leadership intended, to secure its interest, which is not of only strategic importance, but also has essential cultural and historical ties to Russia. Such a policy, however, leads to a clash in narratives. The narratives around "fraternal" relations between the two nations, clashed with the widespread propaganda against the reforms and protests that occurred in Ukraine. Apart from that the Russian leadership claimed to be ready to normalize its relationship with Ukraine while maintaining its support for separatist groups in Donbass [ 1, p.16].

These contradictions have led to notable confusion among Russian strategic thinkers. The Russian strategic culture lacked clarity regarding how to treat Ukraine in the context of its dispute with the West. Russia has found itself in a dilemma. On the one hand, the leadership of Russia has intended to keep Ukraine in Russia's sphere of influence, and on the other hand, there have been concerns about the instability in Ukraine, which is perceived as a threat to Russia's security.

## The roots of Russia's insecurities vis-a-vis the West

Historical invasions and perceived betrayals Russia experienced over the centuries have led to a sense of vulnerability towards the West. These memories have been transformed into collective narratives influencing the strategic culture of Russia. The western part of the world has been at the core of these

narratives. The war with the Polish-Lithuanian commonwealth (17th century), Napoleonic wars leading to the invasion of Russia (19th century), fighting WW2 against Nazi Germany (20th century), and the confrontation with the US and NATO during the Cold War period starting in 1947, two years after the end of WW2, and leading to the dissolution of the Soviet Union are all key historic events that shaped the Russian strategic culture. Currently, existing negative perceptions and narratives towards the West have their deep roots in the experiences of the past [4, p. 484; 5, p. 33]. The Russian leadership seems to feel proud of their past Soviet legacy and perceives the dissolution of the Union as a catastrophy. Such a perception was also common among the general public in Russia. According to the survey conducted by the Pew Research Center majority (69%) of Russians perceived the disintegration of the USSR as something bad [10].

**Figure 1: Russian Public Opinion on the Dissolution of the USSR**




***Source:*** *Pew Research Center*
*URL: https://www.pewresearch.org/global/2015/06/10/2-russian-public-opinion-putin-praised-west-panned/*

In today's ongoing war against Ukraine, Russian strategic thinkers and decision-makers perceive NATO as an existential threat. The expansion of NATO towards the post-Soviet space and the existence of "military infrastructure" near the borders of Russia has been portrayed as a danger or threat in National Security Strategies and Russian Military Doctrines since 1993 [4, p. 485].

**Criticism towards unipolarity**

A unipolar world that emerged after the disintegration of the USSR, where the US emerged as a sole great power has been criticized and viewed as an unfair system by the Kremlin. The existing world order has been viewed as an unfair system, which is backed by a group of international legal norms imposed by the West and portrayed as modern Western neo-colonialism.

International financial institutions have also been blamed by the Russian leadership for reinforcing the unjust system. The promotion of the neo-colonial system, from the Russian point of view, enabled the West to exploit the global resources due to the prevalence of the dollar and state-of-the-art technology and subsequently helped the US to ensure its position as a world hegemon [12].

The Russian leadership also accuses the West, particularly the US of acting domineeringly and being the culprit of the existing unrest and instability around the world. According to them, the interference of the US in the domestic affairs of any country leads to disintegration. Russia condemns such an approach by taking Syria, Libya, Iraq, and Afghanistan as an example. Thus, interfering countries such as Georgia and Ukraine, which used to be in the Russian sphere of influence, led to insecurities and anxieties in the Kremlin.

Russia also blames the US for acting single-handedly without taking the concerns of other countries into account. Therefore, the Russian leadership believes that non-western nations especially the ones that align with Russia should have a greater influence in global decision-making processes. The concept of "multipolar word" and the organizations like the G20 and BRICS are largely promoted by Russia to counterfeit, the US dominance and gain more legitimacy and influence in the global arena [6].

**Embracing the East in the Face of the West**

Apart from the idea of promoting a "multipolar world", the shift towards the East, particularly towards China intensified because of the deterioration in relations with the West, especially since the annexation of Crimea in 2014 and the eruption of the conflict in 2022.

With the help of this tactic, Russia hopes to minimize the implications of the economic sanctions and seize new commercial and diplomatic opportunities. This strategy largely relies on close cooperation with China, as both states are interested in establishing diplomatic and economic ties as well as geopolitical coordination, which sometimes goes against the foreign policy of the US.

Before the Ukraine crisis, the Kremlin had a divided view of China's expansion in Central Asia. On the one hand, the Russian leadership was content with China's quest for cheap gas as long as Beijing was able to support Gazprom in safeguarding its position in the European gas market [8].On the other hand, the leadership of Russia was discontent about Beijing's increasing role in post-Soviet areas worrying that those countries would end up being more dependent on China than Russia.

Nevertheless, the two nations managed to unite within multilateral organizations countering the global influence of the West. To garner support from developing nations, Russia and China founded their organizations such as BRICS (Brazil, India, and South Africa). The BRICS has proven to be an especially potent force in the world economy, which is supposed to counter the US dollar's hegemony by promoting "de-dollarization". Egypt, Ethiopia, Iran, and the United Arab Emirates have formally joined the BRICS group by the year 2024 [3].

This in turn, from the Russian perspective, may put an end to unipolarity and increase the role of other countries in world affairs. It also influences the way those countries perceive Russia. In most developing regions positive sentiment towards Russia was growing before the full-scale invasion of Ukraine in 2022. Inevitably, the conflict in Ukraine has led to a significant reevaluation throughout most of Africa and Latin America, but less so in Asia, probably because the events were reported through the lens of preexisting Russian sympathies. The general public of the European Union, Pacific North Asia, and Anglo-Saxon Democracies on the other hand, have been developing more negative views towards Russia since 2014 [2].

**Figure 2: Diverging Global Sentiments Toward Russia**




**Pacific North Asia refers to Japan, South Korea, and the Republic of China (Taiwan).*

***Source:*** *Center for the Future of Democracy*
*URL: https://www.bennettinstitute.cam.ac.uk/publications/a-world-divided/*

**From a "brotherly nation" to an "adversarial counterpart"**

Analysis of the Russian strategic culture and insecurities vis-a-vis the West provides clearer insights into the origins behind the hostilities in Ukraine since 2014. As a general rule, the shift in the way Russia perceives Ukraine has been shaped by a variety of factors. First of all, due to shared historical and cultural ties, Russia has historically viewed Ukraine as a part of its sphere of influence, and even a part of Russia rather than a separate sovereign state. For Russia, Ukraine is of significant geopolitical importance owing to its strategic location which provides access to the Black Sea. Maintaining control over Ukraine gives Russia a degree of leverage in regional politics and security dynamics. The expansion of Western institutions, such as NATO and the EU, eastwards exacerbates the already existing sense of vulnerability and insecurity, thus leading to the adoption of a more antagonistic approach towards the West. Involving Russian close neighbors, particularly Ukraine into NATO and the EU is viewed as a menace to Russian national and security interests. The possibility of Ukraine getting closer to the West, and eventually becoming a member of the Western military alliance, exacerbates Russian anxieties about encirclement. Alexander Grushko, who was a deputy foreign minister of the Russian Federation, portrayed Georgia's and Ukraine's membership in the alliance as "a huge strategic mistake, which

bears "the most serious consequences for pan-European security" [9]. American political scientist and a prominent scholar of international relations, known for his theory of offensive realism, John J. Mearsheimer, blames the West for the crisis in Ukraine and posits as follows: The taproot of the crisis is the American-led strategy to make Ukraine a Western bulwark on Russia's borders, by integrating Ukraine into the EU, turning Ukraine into a pro-Western liberal democracy and most importantly, incorporating Ukraine into NATO" [9 p.18].

The conflict is also driven by differing competing identities and aspirations. Since the collapse of the USSR, Ukraine has sought to assert its independence and intensified its integration into the EU. Such an aspiration has become even stronger since the Euromaidan revolution in 2014. The Ukrainian government portrayed this turn of events as a desire for independence and an aspiration to embrace Western democracy and norms. Meanwhile, the leadership of Russia intends to maintain its power and influence and prevent Ukraine from completely seizing independence from its sphere of influence. In other words, to achieve this objective Russia has resorted to numerous strategies ranging from military to informational ones in a tactic known as "hybrid warfare". The hybrid warfare waged by Russia involved the annexation of the Crimean peninsula, support for separatist groups in eastern Ukraine, economic pressure, propaganda campaigns, and cyber operations.

Hindering Ukraine's full integration into Western institutions and thus adopting Western norms and practices, and sustaining influence over its internal affairs, are on the list of priorities to achieve Russia's strategic objectives vis-a-vis Ukraine. These objectives have their deep roots in historical events, imperial and Soviet legacies, perceived grievances, and negative narratives around the Western powers.

## Conclusion

While analyzing Russia's strategic culture at the turn of the new millennium several major issues emerge. Russia has undergone significant shifts in its strategic culture, which has been characterized by assertive foreign policies towards the West and countries in its sphere of influence, particularly Ukraine.

Russia's aspirations to assert its power within as well as beyond its borders stems from historical narratives around security, sovereignty, and a sense of insecurity vis-a-vis the West and an ambition to hinder perceived Western encroachment. Due to the existence of such perceptions, the relations with the West have become more antagonistic. The situation has been exacerbated more owing to the narratives around the expansion of NATO and critiques of Western-dominated global systems. Russia's closer ties with China have been a strategic imperative employed as a coping mechanism in the face of sanctions posed by the West for the hostilities carried out in Ukraine.

To resolve the conflict peacefully, Russian strategic culture needs to adopt a balanced approach and in this case, engagement with the West is of utmost importance to tackle shared concerns and promote stability.

In the face of geopolitical rivalry, calls for negotiations, dialogues and an acknowledgment of common interests have to be on the list of priorities. The Russian leadership needs to adopt a more flexible strategic culture as it has the power to determine its relations with the West as well as Ukraine. Russia can advance its national interests and promote stability and cooperation on a global scale by skillfully managing these dynamics.

**Keywords:** *Russian strategic culture, historical narratives, Ukraine-West relations, geopolitical tensions, annexation of Crimea.*

## REFERENCE LIST:

*1. Baev, P. (2020). Transformation of Russian strategic culture: Impacts from local wars and global confrontation (Russie.Nei.Visions No. 118). French Institute of International Relations (IFRI).*

*2. Foa, Roberto S., Margot Mollat, Han Isha, Xavier Romero-Vidal, David Evans, and Andrew J. A World Divided: Russia, China and the West. Center for the Future of Democracy, October 2022. Retrieved from: https://www.bennettinstitute.cam.ac.uk/publications/a-world-divided/*

*3. Fong, C., & Maizland, L. (n.d.). China and Russia: Exploring ties between two authoritarian powers. Council on Foreign Relations. Retrieved from https://www.cfr.org/backgrounder/china-russia-relationship-xi-putin-taiwan-ukraine*

*4. Götz, E., & Staun, J. (2022). Why Russia Attacked Ukraine: Strategic Culture and Radicalized Narratives. Contemporary Security Policy, 43(3), 482–497. Retrieved from https://doi.org/10.1080/13523260.2022.2082633*

*5. Hayat. (2022). Russia-Ukraine War: A Const-*

*ructivist Analysis. Journal of Politics and International Studies, 8(2), 29-40.*

*6. Hutchings, S., & Szostek, J. (2015, April 28). Dominant Narratives in Russian Political and Media Discourse during the Ukraine Crisis. E-International Relations. Retrieved from https://www.e-ir.info/2015/04/28/dominant-narratives-in-russian-political-and-media-discourse-during-the-crisis/*

*7. Krapfl, J., & Kühn von Burgsdorff, E. (2024). Ukraine's Euromaidan and Revolution of Dignity, ten years later. Canadian Slavonic Papers, 325-334. https://doi.org/10.1080/00085006.2023.2293420*

*8. Lewis, D. "Strategic Culture and Russia's "Pivot to the East:" Russia, China, and 'Greater Eurasia,' " Marshall Center Security Insight, no. 34, July 2019, https://www.marshallcenter.org/en/publications/security-insights/strategic-culture-and-russias-pivot-east-russia-china-and-greater-eurasia-0*

*9. Mearsheimer, J. J. (2014). "Why the Ukraine Crisis Is the West's Fault: The Liberal Delusions That Provoked Putin." Foreign Affairs, 93(5), 77-84, 85-89*

*10. Pew Research Centerhttps://www.pewresearch.org/global/2015/06/10/2-russian-public-opinion-on-putin-praised-west-panned/*

*11. Putin, V. (2014, March 18). Address by President of the Russian Federation.Retrieved from http://en.kremlin.ru/events/president/news/20603*

*12. Snigyr, O. (2023, November). Russian Strategic Narratives, 2022–2023. Orbis. Retrieved from https://doi.org/10.1016/j.orbis.2023.11.002*

*13. Wiltenburg, I. (2020). The Importance of Understanding Russian Strategic Culture. Atlantisch Perspectief, 44(1), 7-12. Retrieved from https://www.jstor.org/stable/48600538*

**Ləman Qəhrəmanova**
***Xəzər Universiteti, magistrant***
***E-mail: laman.qahramanova@khazar.org***

**Strateji Mədəniyyətin İdarə Edilməsi: Ukrayna-Qərb Əlaqələrində Rusiyanın Təhlükəsizlik Narahatlıqlarının Təhlili**

**XÜLASƏ**

Məqalədə Rusiyanın strateji mədəniyyətinin Ukrayna və Qərb dövlətləri ilə münasibətləri kontekstində təhlili verilmişdir. Məqalə strateji mədəniyyət və tarixi rəvayətlərin Rusiyanın Ukrayna və Qərb ilə bağlı təsəvvürlərini və hərəkətlərini necə formalaşdırdığını araşdırır. Məqalədə əsas diqqət Rusiyanın Qərbə qarşı həssaslıq və etibarsızlıq hissinə və Rusiyanın strateji məqsədləri, o cümlədən öz təsir dairəsində hakimiyyəti saxlamaq və Qərbin şərqə doğru genişlənməsinin qarşısını almaq cəhdlərinə yönəlmişdir.Ukrayna və Qərblə geosiyasi gərginlik şəraitində sabitlik və əməkdaşlığa kömək etmək üçün Rusiyanın strateji mədəniyyətində qarşılıqlı əlaqə, dialoq və çevikliyin vacibliyi vurğulanır. Məqalədə Rusiya-Ukrayna-Qərb münasibətlərinə xas olan çoxsaylı problemlərin həlli üçün qarşılıqlı anlaşma və əməkdaşlıq çərçivələrinin zəruriliyi vurğulanır.

**Açar sözlər:** *Rusiyanın strateji mədəniyyəti, tarixi rəvayətlər, Ukrayna-Qərb münasibətləri, geosiyasi gərginlik, Krımın ilhaqı.*

**Ламан Гахраманова**
***Хазарский Университет, магистр***
***Эл.почта: laman.qahramanova@khazar.org***

**Навигация по стратегической культуре: Анализ российских опасений в отношениях Украины и Запада**

**РЕЗЮМЕ**

В данной статье представлен анализ стратегической культуры России в контексте ее отношений с Украиной и странами Запада. Исследование рассматривает, как стратегическая культура и исторические нарративы формируют восприятие и действия России по отношению к Украине и Западу. Основное внимание уделяется чувству уязвимости и незащищенности России перед Западом, а также стратегическим целям России, включая усилия по сохранению власти в своей сфере влияния и предотвращению экспансии Запада на восток. В условиях геополитических напряженностей с Украиной и Западом подчеркивается важность взаимопонимания России для содействия стабильности и сотрудничества, а также необходимость общения, диалога и гибкости. Статья выделяет значимость установления рамок сотрудничества и взаимопонимания для решения многочисленных проблем, характерных для отношений между Россией, Украиной и Западом.

**Ключевые слова:** *стратегическая культура России, исторические нарративы, украинско-западные отношения, геополитические напряженности, аннексия Крыма.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.3.81.0081

# QAZAXISTAN-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI YENİ MƏRHƏLƏDƏ

**ƏSMƏR ŞÜKÜRLÜ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: asmar.shukurlu@gmail.com*

## Giriş

Qazaxıstan və Azərbaycan arasında əlaqələrin inkişaf etməsində dövlət başçılarının qarşılıqlı dövlət və işgüzar səfərləri mühüm rol oynayır. Son illərdə səfərlərin davamlı şəkildə olması Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etməsinə gətirib çıxarmışdır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev 2022-cü il avqustun 24-də Azərbaycana rəsmi səfər etmişdir. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni təqdim olunmuşdur. Daha sonra iki ölkə başçısı Qazaxıstanın "Bİ Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşlar. Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın bu layihəsini yüksək qiymətləndirərək bildirmişdir ki, işğaldan azad edilmiş ərazilərdə tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi Qarabağın bərpası işinə töhfədir. Geniş tərkibli görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanmışdır [1].

Azərbaycan Prezidenti İ.Əliyev 2022-ci il oktyabrın 12-14-də Qazaxıstanda işgüzar səfərdə olmuşdur. Prezident İlham Əliyev Asiyada Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə toplantısında və MDB Dövlət Başçılarının iclasında iştirak etmişdir [2].

2023-cü il aprelin 10-da Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfər etmişdir. Həmin gün Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olmuşdur. Görüş əsnasında Azərbaycan ilə Qazaxıstan arasında ticarət dövriyyəsində 40 faiz artımın olması müstəsna hal kimi qeyd olunmuşdur. Dövlət başçıları ticarət dövriyyəsinin bir milyard dollara çatdırılması üçün imkanların olduğunu vurğuladılar. Həmçinin görüşdə Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı, nəqliyyat-logistika imkanlarının artırılması, kənd təsərrüfatı sahəsində əməkdaşlıq, birgə investisiya layihələri məsələləri müzakirə olundu. Xəzərin dibi ilə fiber-optik xətlərin çəkilməsi istiqamətində də sürətli inkişafın olduğu qeyd olundu [3].

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində atdığı addımlar barədə məlumat vermişdir.

Söhbət zamanı iki ölkənin nəqliyyat infrastrukturunun sinxronlaşdırılması, yüklərin daha sərbəst və sürətli keçidinin təmin edilməsinin önəmi qeyd edildi.

Daha sonra isə Azərbaycan Prezidentinin Qazaxıstan Prezidenti ilə geniş tərkibdə görüşü olmuşdur. Görüş əsnasında media və kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, bu sahədə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi vurğulandı. Qazaxıstan Dövlət Televiziyası tərəfindən Ulu Öndər Heydər Əliyevə həsr olunmuş filmin hazırlandığı və həmin filmin Qazaxıstan Dövlət Televiziyasında nümayiş etdiriləcəyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzaladılar. "Azərbaycan Milli Elmlər Akademiyası və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli və "Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası" Respublika İctimai birliyinin prezidenti Murat Jurinov imzalamışdır. "Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC ilə "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və "Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi" Qeyri-Kommersiya Səhmdar Cəmiyyətinin baş direktoru Rauşan Kajibayeva imzalamışdır. Bundan əlavə, bir sıra digər mühüm sənədlər imzalanmışdır [4].

İki dövlət başçısı aprelin 10-da Astanada Heydər Əliyev küçəsinin açılış mərasimində iştirak etmişlər. Heydər Əliyevin şərəfinə adlandırılan bu küçə Yesil rayonunda yerləşir. Küçənin uzunluğu 1400

metrdir. Heydər Əliyev küçəsində dərin mənalı bir abidə ucaldılmışdır. Bu memarlıq nümunəsinə daxil olan elementlər türk köklərinin ortaqlığını, mədəni dəyərlərinin yaxınlığını vurğulayır [5].

Həmin gün Azərbaycan Prezidenti İ.Əliyev və Qazaxıstan Prezidenti K.Tokayev Astana Beynəlxalq Maliyyə Mərkəzində olmuşlar. Mərkəzin rəhbəri Renat Bekturov investisiyaların cəlb edilməsi və regional təşəbbüslərin dəstəklənməsi üçün Maliyyə Mərkəzinin potensialı, o cümlədən burada Azərbaycan layihələrinə beynəlxalq investorlarda maraq yaratmaq və sərmayələrin strukturlaşdırılması imkanları barədə dövlət başçılarına məlumat vermişdir. Prezident İlham Əliyev sərmayədarların sərbəst fəaliyyəti üçün etibarlı və münbit investisiya mühitinin əhəmiyyətini xüsusi vurğuladı. Orta dəhlizlə bağlı müzakirələrin aparıldığını qeyd edən dövlətimizin başçısı bildirdi ki, bu dəhliz təkcə tranzit imkanlarının genişləndirilməsi baxımından deyil, müxtəlif sahələrdə biznesin inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Sonda Prezident İlham Əliyev mərkəzin xatirə kitabına ürək sözlərini yazdı [6].

Türk Dövlətləri Təşkilatının X Zirvə görüşü 2023-cü il noyabrın 3-də Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilmişdir. Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etmişdir. Astana Zirvə toplantısının yekun mətnində Transxəzər Beynəlxalq Şərq-Qərb Mərkəzi Dəhlizi boyunca nəqliyyat fəaliyyətlərinin asanlaşdırılmalı, fiziki və rəqəmsal infrastrukturun ən qısa zamanda yaradılması lazım olduğu qeyd edilmişdir. Təbii ki, bu məqamda Zəngəzur dəhlizinin açılması həyati əhəmiyyət kəsb edir. Bu kontekstdə "Yeni İpək Yolu" deyə biləcəyimiz Bakı-Tbilisi-Qars dəmir yolu xətti Şərqi Zəngəzur İqtisadi Zonasını Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək. Bu xətt həm də Çinin sürətli inkişafı ilə xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra gündəmə gələn Şərq-Qərb istiqamətində dəhliz savaşlarında türk dünyasının önə keçməsini təmin edəcək ən səmərəli xətdir [7].

2023-cü il noyabrın 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana işgüzar səfərə gəlmişdir. Qazaxıstan Prezidenti K.Tokayev atası, görkəmli qazax yazıçısı Kemel Tokayevin 100 illik yubileyinin keçirilməsinə və "Gecə atılan atəş" əsərinin çapdan çıxmasına görə minnətdarlığını bildirmişdir. Görüşdə Qazaxıstanın və Azərbaycanın beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsi, iki ölkə arasında ticarət, iqtisadiyyat, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi vurğulanmışdır. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə olunması, nəqliyyat-logistika imkanlarının və Transxəzər nəqliyyat dəhlizinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır [8].

Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev 2024-cü il martın 11-də ölkəmizə rəsmi səfərə gəlmişdir. Martın 11-də iki ölkə başçısının iştirakı ilə Azərbaycan – Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Ali Dövlətlərarası Şuranın yaradılmasının iki ölkə arasında münasibətlərin inkişaf etməsində rolunu vurğuladı. Həmçinin İ.Əliyev Qazax xalqının Azərbaycan xalqına hədiyyəsi olan və Prezident K.Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürünü bildirdi [9].

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev mətbuat bəyanatında vurğuladı ki, Qazaxıstan xalqı Azərbaycanın qələbəsindən böyük sevinc hissi keçirmişdir. K.Tokayev Qazaxıstanın COP29-un keçirilməsini dəstəklədiyini, COP29-un Azərbaycanda keçirilməsini yüksək qiymətləndirdiyini və tədbirdə iştirak etməyi planlaşdırdığını qeyd etmişdir [10].

Martın 11-də Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izlədilər. Qeyd edək ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı – Aktau – Abşeron stansiyası) 11günə qət etmişdir. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılmışdır. Orta dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənmişdir. İlkin razılaşmaya əsasən, bu mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır. Bununla yanaşı, Orta dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılmış, Azərbaycan və Qazaxıstan dəmir yolları "Track and Trace" ("Təqib" və "İzləmə") funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklə-

rin izlənməsi sisteminə inteqrasiya olunmuşdur [11].

Həmin gün iki dövlət başçısının iştirakı ilə Azərbaycan – Qazaxıstan sənədlərinin imzalanması mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Qazaxıstan Respublikasının "KazMunayQaz" Milli Şirkəti"nin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz"Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan ərasindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş"i imzaladılar. Bundan əlavə bir sıra mühüm sənədlər imzalandı [12].

Azərbaycanda dövlət səfərində olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli və Şuşaya gəlmişlər. İlk öncə dövlət başçıları Füzuli şəhərinin Baş planı ilə tanış oldular. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçılarına Füzulidə görülən işlər barədə məlumat vermişdir. Qazaxıstan Prezidentinə həmçinin işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verilmişdir. Həmin gün iki ölkə başçısı Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak etmişlər. Tədbirdə dövlət başçıları Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüşdülər [13]. Füzulidə açılış mərasimində Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qeyd etdi ki, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazax xalqının Azərbaycan xalqına humanitar hədiyyəsidir. Qazaxıstan Prezidenti mərkəzin təkcə yaradıcılıq mərkəzi olmadığını, həmçinin Qazaxıstan və Azərbaycanın dostluq və qardaşlıq mərkəzi olduğunu vurğuladı. Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev mərkəzin əməkdaşlarına Kurmanqazı dombrasının surətini və uşaqların daşınması üçün avtobus hədiyyə etmişdir [14].

Qeyd edək ki, Uşaq Yaradıcılıq Mərkəzində 600 şagirdin təsil alması üçün hər cür şərait yaradılmışdır. Əsas istiqamətlər vokal, musiqi alətləri, robototexnika, 3D modelləşdirmə, veb dizayn, fotoqrafiya və videoqrafiya sahələrində olacaq. Burada həmçinin xalçaçılıq və dulusçuluq da daxil olmaqla sənətkarlıq dərsləri, müxtəlif idman və xoreoqrafiya dərsləri keçiriləcək [15].

Martın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Füzulidə inşa olunacaq mərkəzi rayon xəstəxanası ilə tanış oldular. Xəstəxananın inşasında Qazaxıstanın "Bİ Group" və bir sıra Azərbaycan şirkətləri iştirak edəcək.

Martın 12-də dövlət başçıları Şuşa şəhərinə səfər etdilər. Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxdılar. Mədəniyyət paytaxtımız Şuşa şəhərinin baş planı haqqında Qazaxıstan Prezidentinə məlumat verildi. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Şuşada "Xan qızı" bulağı, Bülbülün ev-muzeyi, Yaradıcılıq Mərkəzi, Saatlı məscidi ilə tanış oldu. Azərbaycan və Qazaxıstan prezidentləri Cıdır düzündə də oldular. Sonra isə XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş üç yaşayış binasından ibarət olan "Yasəmən" hotelində oldular. Mədəniyyət paytaxtımız Şuşa şəhəri ilə tanışlıq Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevdə dərin təəssürat yaratmışdır [16].

**Nəticə:**

Yuxarıda nəzərdən keçirilənləri yekunlaşdıraraq, belə bir nəticəyə gələ bilərik ki, son illərdə Qazaxıstan və Azərbaycan arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Bu əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə uğurla davam edir. Səfərlərin dinamikası da təsdiqləyir ki, Qazaxıstan – Azərbaycan əlaqələri həm strateji tərəfdaşlıq, həm dostluq, həm qardaşlıq, həm də mehriban qonşuluq çərçivəsində daha da genişlənməkdədir.

**Açar sözlər:** *Qazaxıstan, Azərbaycan, rəsmi səfərlər, işgüzar səfərlər, rəsmi sənədlər.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan və Qazaxıstan strateji tərəfdaş, həm də müttəfiqdirlər// Azərbaycan. – 2022. - 25 avqust. – s.2-3*

*2. Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana işgüzar səfərə gəlib. https://azerbaijan.az/news/10428 [Müraciət tarixi 28.03.2024]*

*3. Azərbaycan – Qazaxıstan münasibətləri müttəfiqliyin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur // Azərbaycan. – 2023. - 11 aprel. – s.3*

*4. AZƏRTAC. Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb // Xalq qəzeti. – 2023. - 11 aprel. – s.3*

*5. Astanada Heydər Əliyev küçəsinin açılışı olub. https://president.az/az/articles/view/59360 [Müraciət tarixi: 30.03.2024]*

*6. AZƏRTAC. Astanada Heydər Əliyev küçəsi açılıb // Respublika. – 2023. - 11 aprel. –s.5*

*7. Görüş – Türk Devletleri Teşkilatı Zirvesi: 21.yüzyıl bir Türk yüzyılı ola bilirmi? https://www.aa.com.tr/tr/analiz/gorus-turk-devletleri-teskilati-zirvesi-21-yuzyil-bir-turk-yuzyili-olabilir-mi/3045109 [Müraciət tarixi: 28.03.2024]*

*8. İlham Əliyev Qazaxıstan Prezidenti ilə görüşüb. https://president.az/az/articles/view/62324 [Müraciət tarixi: 30.03.2024]*

*9. Azərbaycan –Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib // Respublika. – 2024. - 12 mart. – s.2*

*10. E.Zülfüqaroğlu. Qardaşlığımızın qızıl dövrü başlayır // Türküstan. -2024. - 12-18 mart. – s.2*

*11. Azərbaycan və Qazaxıstan prezidentləri Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər // Azərbaycan. – 2024. - 12 mart. - s.3*

*12. Sənədlərin imzalanması mərasimi // Xalq qəzeti. – 2024 . – 12 mart. - s.3*

*13. Qazaxıstan Prezidenti Qarabağda // 525-ci qəzet. – 2024. -13 mart. - s.3*

*14. S.Sakenova. Kazakhstan Gifts Children's Creativity Center to Azerbaijan. https://astanatimes.com/2024/03/kazakhstan-gifts-childrens-creativity-center-to-azerbaijan/ [Müraciət tarixi: 29.03.2024]*

*15. R.Nurbəy. Братский визит. Президент Казахстана едет в Азербайджан. https://www.inform.kz/ru/bratskiy-vizit-prezident-kazahstana-edet-v-gosti-k-prezidentu-azerbaydzhana-e34051 [Müraciət tarixi: 31.03.2024]*

*16. Dostluq və qardaşlığın əsl nümunəsi. //Azərbaycan. – 2024. - 13mart . – s.2-3*

**Asmar Shukurlu**

**Kazakhstan-Azerbaijan cooperation is at a new stage**

**SUMMARY**

Kazakh-Azerbaijani relations are based on historical roots, brotherhood, and traditional friendship. After gaining independence, relations between the two countries began to develop. After Azerbaijan liberated the occupied lands and restored its territorial integrity, these relations entered a new stage. In recent years, Kazakhstan-Azerbaijani relations have gained new dynamics, development in all areas, especially strengthening of friendly relations, has been observed. Since 2020, high successes have been achieved in political, economic and cultural relations between the two countries. Today, relations are developing both bilaterally and in the Organization of Turkic States, as well as within the framework of the Central Asian region. In the article, we will talk about the new era of cooperation between Kazakhstan and Azerbaijan after the 44-day Patriotic War.

**Key words:** *Kazakhstan, Azerbaijan, official visits, business trips, official documents.*

**Асмар Шукурлу**

**Казахстанско-азербайджанское сотрудничество находится на новом этапе**

**РЕЗЮМЕ**

Казахстанско-азербайджанские отношения основаны на исторических корнях, братстве и традиционной дружбе. После обретения независимости отношения между двумя странами начали развиваться. После освобождения Азербайджаном оккупированных земель и восстановления своей территориальной целостности эти отношения вступили в новый этап. В последние годы казахстанско-азербайджанские отношения приобрели новую динамику, наблюдается развитие по всем направлениям, особенно укрепление дружественных отношений. С 2020 года достигнуты высокие успехи в политических, экономических и культурных отношениях между двумя странами. Сегодня отношения развиваются как в двустороннем формате, так и в рамках Организации тюркских государств, а также в рамках Центральноазиатского региона. В статье мы поговорим о новой эпохе сотрудничества Казахстана и Азербайджана после 44-дневной Отечественной войны.

**Ключевые слова:** *Казахстан, Азербайджан, официальные визиты, командировки, официальные документы.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.3.81.0085

# BOSNİYA VƏ HERSEQOVİNADA MÜHARİBƏ VƏ SÜLH MƏSƏLƏLƏRİNƏ BEYNƏLXALQ İCTİMAİYYƏTİN YANAŞMASI: STRATEGİYALAR VƏ ÇAĞIRIŞLAR (1991-2024)

**ELMAR İSMAYILZADƏ**
*Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı*
*E-mail: ismaylzadelmar@gmail.com*

Balkanlar regionundakı konfliktlərdə tarix boyu beynəlxalq amilin rolu yüksək olmuşdur. Osmanlı imperiyası və Avstriya-Macarıstan imperiyalarının bu regionda hökmranlığı və Yuqoslaviya dövlətlərinin mövcud olduğu və Yuqoslaviyanın dağılmasından sonrakı dövrlərdə bu faktor aydın nəzərə çarpdı. Konfliktlər bu dövrlər arası keçidlərdə xarici dövlətlərin təsiri nəticəsində kəskinləşmişdir.

1980-ci illərin sonlarında Yuqoslaviyada iqtisadi və siyasi problemlərin kəskinləşməsi keçmiş üzv dövlətlər arasında və onların daxilində gərginliyin artmasına səbəb oldu [2: s. 117]. Bu hadisələrin baş verməsinin ciddi təsir etdiyi ərazilərdən biri də Bosniya və Herseqovina oldu. Həmin müharibə 1992-ci ilin aprelindən 1995-ci ilə qədərki dövrü əhatə etdi [2: s. 119].

Bosniya və Herseqovinada baş vermiş müharibəyə beynəlxalq mövqelər (1992-1995). Yuqoslaviya böhranının Körfəz müharibəsi illərinə təsadüf etməsi ona diqqəti azaltdı [7: s. 505]. Müharibəyə beynəlxalq reaksiyalar ilkin dövrdə Yuqoslaviyanın ərazi bütövlüyünü müdafiə etmək istiqamətində olsa da, sonralar beynəlxalq mövqe boşnaklar və xorvatların xeyrinə dəyişdi. 1991-ci ilin sonlarında keçirilmiş Haaqa konfransında BMT keçmiş Yuqoslaviyaya silah embarqosu tətbiq etdi. Ancaq bu akt sonralar boşnak qüvvələrinin və rəhbərliyinin müharibə qabiliyyətinə daha çox təsir etdi [5: s. 624].

Beynəlxalq ictimaiyyətin Yuqoslaviyanın tərkibindən çıxmaq istəyən dövlətləri tanımaq yönündə mövqe nümayiş etdirməsi bu dövlətləri müstəqilliyə ruhlandırdı. 1992-ci ilin martın 1-də Bosniya və Herseqovinada keçirilmiş referendumda səslərin çoxluğu müstəqillik yönündə oldu və 7 aprel 1992-ci ildə Yuqoslaviyadan ayrıldığını elan etdi. 22 may 1992-ci ildə Bosniya və Herseqovina BMT-yə üzv qəbul edildi [11: s. 92].

Bosniya və Herseqovinada baş vermiş gərginlikdə dünya dövlətləri milli maraqlarından çıxış edərək konfliktin müxtəlif tərəflərini dəstəkləməyə üstünlük verirdilər. Fransa, Böyük Britaniya və Rusiya serblərə meyil göstərir, Almaniya, Avstriya və Macarıstan xorvatları dəstəkləyirdilər. Türkiyə boşnaklar lehinə mövqe göstərdi. ABŞ-nin mövqeyi isə Fransa və Böyük Britaniyanın mövqelərinə daha yaxın idi [8].

1992-ci ilin aprelində Bosniya və Herseqovinanın müstəqilliyinin Avropa İttifaqı və ABŞ tərəfindən tanınmasından sonra serblər mərkəzi hökumətə qarşı silahlı qiyama başladılar. Bu gedişat konfliktə beynəlxalq faktorun təsirini göstərirdi. İngilis tarixçisi N. Malkolm hərbi embarqo və Vans-Oven planının Bosniyanın dağılmasına gətirib çıxartdığını qeyd edirdi [14: s. 22-24].

Avropa İttifaqının Bosniya və Herseqovina konfliktinə dair vahid mövqeyi yox idi [5: s. 626]. Aİ-nin rolu daha çox BMT-nin təşəbbüskarlıq etdiyi diplomatiyanın tərkib hissəsi sayıla bilərdi [10: s. 95]. Müharibənin baş verdiyi dövrdə Avropa ölkələrinin sülh cəhdləri uğursuzluqla nəticələndi. Lord Karrinqton və Lord Oven təşəbbüsü, 1992-ci il Karrinqton- Kutiliyero sülh təklifləri, Vans və Ovenin 1993-cü il və Oven və Stoltenberqin 1994-cü il sülh planları bu cəhdlərə nümunə göstərilə bilər [5: s. 626].

ABŞ Bosniya və Herseqovinada baş vermiş müharibənin ilkin dövründə passiv xarici siyasətə üstünlük verdi və bu konflikti “Avropa problemi” kimi nəzərdən keçirdi. Etnik təmizləmənin intensivləşməsi qarşısında Avropa İttifaqı və BMT-nin qeyri-effektiv olması ABŞ-nin siyasətində dəyişikliklərə səbəb oldu. ABŞ-nin siyasətində dəyişiklik etməsi konfliktin tənzimlənmə imkanlarına ciddi təsir etdi [5: s. 626-627]. 1993-cü ildə “Təhlükəsiz zonalar”ın yaradılmasına gətirib çıxaran Ortaq Hərəkət Planının qəbul olunmasında ABŞ-nin xüsusi rolu olmuşdu. [8] ABŞ Almaniya ilə birlikdə Xorvatiyaya təzyiq edərək 1994-cü ildə boşnak-xorvat federasiyasının yaradılmasına şərait yaratdılar. [7: s. 514]

NATO Bosniya və Herseqovina müharibəsində iştirak etmiş xarici qüvvələrdən idi. Bu təşkilat BMT TŞ-nin Bosniya və Herseqovinaya dair qəbul etdiyi qətnamələrin tətbiq olunması üçün 16 iyul 1992-ci ildə “Kəskin Keşikçi” (Sharp Guard), 12 aprel 1993-cü ildə “Uçuşa Mane Olma” (Operati-

on Deny Flight) və 1995-ci ilin avqustunda "Qərarlı Güc" (Operation Deliberate Force) əməliyyatlarını həyata keçirmişdi [15: s. 54]. NATO və Qərbi Avropa İttifaqı 1992-ci ildən Xorvatiya vasitəsilə boşnaklara silah yardımı edirdi [12: s. 376].

Rusiya Bosniya və Herseqovina müharibəsi dövründə konfliktdə maraqları olan aktorlardan biri idi. Rusiyanın həmin dövrdə xarici işlər naziri olmuş A. Kozırev liberal ideologiya və Qərb ölkələri ilə əməkdaşlığa meyilli olsa da, konfliktin sülh yolu ilə həllinin tərəfdarı idi. Rusiya 1992-ci ilin mayında BMT TŞ-nin qəbul etdiyi Yuqoslaviyaya sanksiyalar tətbiq etmiş 757 saylı qətnaməyə səs vermiş ölkələrdən biri idi. O eyni zamanda BMT TŞ-nin 13 avqust 1992-ci ildə qəbul etdiyi 770 saylı qətnamənin həmmüəlliflərindən biri idi. Bu qətnamə beynəlxalq ictimaiyyətin Bosniya və Herseqovinaya müdaxiləsi üçün legitim əsas yaratmışdı [15: s. 44].

1994-cü ildən sonra Rusiyanın konfliktə dair siyasəti dəyişməyə başladı. Buna Rusiya-Qərb münasibətləri təsir etdi. Bu xarici siyasətin əsasını Rusiyanın beynəlxalq güc kimi konfliktin idarəedilməsi prosesində iştirakının vacibliyinin vurğulanması təşkil edirdi. Nəticədə, Rusiya Bosniya və Herseqovina konfliktinin həlli üçün yaradılmış Təmas Qrupunun sülh təşəbbüslərində aktiv iştirak etməyə başladı. [9: s. 210-216] Qeyd etmək lazımdır ki, Rusiyanın bu təşəbbüslərə qoşulmasında ABŞ diplomatiyasının böyük rolu olmuşdu [1: s. 198].

1995-ci ilin noyabrında münaqişə tərəflərinə qarşı beynəlxalq təzyiqlər nəticəsində Deytonda müharibənin başa çatdırılması üçün danışıqlara start verildi. Bosniyada Sülh naminə Ümumi Çərçivə Sazişi isə 14 dekabr 1995-ci ildə Parisdə imzalandı. "Deyton sazişi" də adlandırılan bu saziş Bosniya və Herseqovinada post-münaqişə yenidənqurmasının əsaslarını müəyyənləşdirdi.

*Bosniya və Herseqovina konfliktinin post-Deyton mərhələsində beynəlxalq ictimaiyyətin iştirakı.* Deyton sazişinin imzalanmasından sonrakı dövrdə beynəlxalq ictimaiyyət Bosniya və Herseqovinada post-münaqişə yenidənqurma proseslərinə daxil oldu. ABŞ yenidənqurmanın hərbi aspektlərinin, Avropa ölkələri isə mülki aspektlərinin həyata keçirilməsi istiqamətində fəaliyyətlərə daha çox cəlb olundular. ABŞ yenidənqurmanın ilkin mərhələsində daha aktiv iştirak etsə də, sonrakı dövrlərdə Avropa İttifaqı yenidənqurmanın əsas aktoru oldu. NATO-nun "Həyata Keçirmə Qüvvələri" (IFOR) və "Sabitləşdirmə Qüvvələri" (SFOR) missiyaları Bosniya və Herseqovinanın yenidənqurmasında mühüm rol oynadı. Avropa İttifaqının "Avropa İttifaqı Qüvvələri" (EUFOR) və "Avropa İttifaqı Polis Missiyası" (EUPM) adlı missiyaları yenidənqurmanın ikinci mərhələsində səlahiyyətləri NATO-dan təhvil aldı [5: s. 635-639].

İngilis tarixçisi D. Çendler Bosniya və Herseqovinada həyata keçirilən sülh quruculuğunu tənqid edən iki əsas yanaşmanı: liberal və mühafizəkar yanaşmanı irəli sürür. Liberal yanaşmaya görə beynəlxalq ictimaiyyət Bosniya və Herseqovinanın post-müharibə yenidənqurmasında fəaliyyətini kifayət qədər irəli apara bilməmişdir. Buna maneə kimi millətçi qüvvələr göstərilir. Mühafizəkar yanaşmanın tərəfdarları isə regiondakı geosiyasi reallıqları vurğulayırlar. [14: s. 28] Müasir dövrdə beynəlxalq aktorların Bosniya və Herseqovina konfliktindəki ziddiyyətli mövqelərinin əsaslarını bu yanaşmada müşahidə etmək olar.

Müasir dövrdə Qərb və qeyri-Qərb dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsi Ali Nümayəndənin beynəlxalq legitimliyi məsələsinə təsir edir. Bosniya və Herseqovinada hazırki Ali Nümayəndə X. Şmidt Rusiyanın razılığı olmadan təyin edildi. Çin də X. Şmidtin təyinatını dəstəkləmədi. [3: s. 414] 2021-ci ilin iyulunda Rusiya və Çin BMT Təhlükəsizlik Şurasına Ali Nümayəndənin ləğv olunması haqqında qətnamə layihəsi təklif etdi. BMT TŞ-nin üzvlərindən təkcə Rusiya və Çin qətnaməni dəstəklədi [3: s. 423].

Avropa İttifaqı Bosniya və Herseqovinada sülh quruculuğu prosesini sürətləndirmək üçün üzvlük məsələsini gündəmə gətirdi. Aİ bu məsələ çərçivəsində Bosniya və Herseqovinanın Ali Nümayəndə Ofisindən asılılığının azalaraq bu institutun ləğv olunmasına çalışırdı. Bosniya və Herseqovina ictimai rəyində Avropa İttifaqı üzvlüyü məsələsini dəstəkləmə mövqeyi üstünlük təşkil etməsinə baxmayaraq Avropa İttifaqının üzvlük standartlarının vacib hissələri qarşılanmır. Bosniya və Herseqovinanın dövlətçilik problemləri bu kontekstdə başlıca məsələlərdən sayılır [4: s. 50].

Avropa İttifaqının Bosniya və Herseqovinaya münasibətdə liberal sülh quruculuğu yanaşmasına üstünlük verməsi ciddi tənqidlərə səbəb oldu. Bu tənqidlər daha çox bu praktikanın "yuxarılardan" (top-down) həyata keçirilməsi və lokal aktorların nəzərə alınmaması ətrafında idi. Avropa İttifaqının

2012-ci ildən bəri humanitar və inkişaf siyasətlərində "elastiklik" yanaşmasına üstünlük verməyə başlaması ilə Bosniya və Herseqovinaya münasibətdə lokal aktorlar ilə əməkdaşlığa yer ayırmağa meyilli olduğunu hesab etmək olar. [13: s. 4-5]

Ukrayna müharibəsi nəticəsində dünya sistemində baş vermiş dəyişikliklər Qərb dövlətlərini Bosniya və Herseqovinaya münasibətdə çağırışlar qarşısında qoyur. Bosniya və Herseqovinaya Rusiya və Çinin təsirinin böyük ölçüdə artması ABŞ və Avropa İttifaqının maraqlarına təhdid yarada bilər. Bu baxımdan Çinin "Bir Kəmər Bir Yol" layihəsi çərçivəsində bəzi ölkələrdə həyata keçirdiyi "borc tələsi diplomatiyası" ehtimalı baş verə bilər [6: s. 1-3].

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Atiyas, N. B. Mediating regional conflicts and negotiating flexibility: peace efforts in Bosnia- Herzegovina // - Philadelphia: The Annals of the American Academy of Political and Social Science,- 1995. Vol. 542, - p. 185-201.*

*2. Bayraktar, F. Y. Ethnic conflict movements: the case study of Bosnia and Herzegovina // - Tekirdağ: Anadolu ve Balkan Araştırmaları Dergisi,- 2021. Cilt 4, №7, - s. 113-132.*

*3. Beglerović, N. The Role, expectations and challenges of High Representative in Bosnia and Herzegovina // - Prague: Politics in Central Europe,- 2022. Vol. 18, № 3,- p. 397-432.*

*4. Bugajski, J. Return of the Balkans: challenges to european integration and U.S. disengagement: [Electron resource] / - Carlisle, 2013. URL: https://apps.dtic.mil/sti/pdfs/ADA580874.pdf*

*5. Delalić, S. EU common foreign and security policy and Bosnia and Herzegovina // - Navarra: Anuario Español de Derecho Internacional, - 2019. Vol. 35, - p. 617-654.*

*6. Fixing Dayton: a new deal for Bosnia and Herzegovina // -Washington D. C.: NextEurope,- 2020. №1, - p. 1-11.*

*7. Glenny, M. Balkanlar 1804-1999: milliyetçilik, savaş ve büyük güçler / M. Glenny. – İstanbul: Sabah Kitapları, - 2000. – 564 s.*

*8. Harland, D. Never again: International intervention in Bosnia and Herzegovina: [Elektron resource] / Zürich, 2017. URL:https://css.ethz.ch/en/services/digital-library/articles/article.html/9d2d0261-16db-43d5-877a-5401abf6e016.*

*9. Headley, J. Sarajevo?, February 1994: the first Russia- NATO crisis of the post-Cold war era // - Birmingham: Review of International Studies,- 2003. Vol. 29, - p. 209-227.*

*10. Juncos, A. E. The EU's post-conflict intervention in Bosnia and Herzegovina: (re)integrating the Balkans and/or (re)inventing the EU? // - Budapest: Southeast European Politics, - 2005. Vol. VI, No. 2, - p. 88-108.*

*11. Küpeli, Y. Tarihin izinde Balkanlar ve ABD / Y. Küpeli. – Ankara: Öncü Kitap, - 2000. – 222 s.*

*12. Malcolm, N. Bosnanın kısa tarihi / N. Malcolm. – İstanbul: Om Yayınevi,- 1999. – 553 s.*

*13. Morillas, P. and Bargués, P. From democratization to fostering resilience: EU intervention and the challenges of building institutions, social trust and legitimacy in Bosnia and Herzegovina // Barcelona: Democratization,- 2021. – p. 1-19.*

*14. Rašidagić, E. K. Modern political history of Bosnia and Herzegovina // Sarajevo: Bosnia Studies, - 2021. Vol. V, № 1,- p. 18-37.*

*15. Yermolaev, M. and Mazing V. , Russia's peacekeeping policy: the Balkan experience: [Electron resource] / Washington D. C., 1999. URL: https://apps.dtic.mil/sti/pdfs/ADA366925.pdf*



## XÜLASƏ

Məqalə "soyuq müharibə"nin qurtarmasından sonra beynəlxalq aktorların siyasətinin Bosniya və Herseqovina konfliktinə təsirindən bəhs edir. Məqalə tarixi baxımdan iki hissəyə ayrılır: Bosniya və Herseqovinada müharibənin baş verdiyi 1992-1995-ci illər dövrü və 1995-ci ildə Deyton sazişinin imzalanmasından sonrakı dövr. Məqalədə müharibə dövründə xarici aktorların maraqları və mövqeləri analiz olunur və həyata keçirdikləri fəaliyyət və cəhdlər təqdim olunur. Eyni zamanda burada beynəlxalq ictimaiyyətin sülh quruculuğu prosesində iştirakı, sülh quruculuğu fəaliyyətlərinə tənqidlər və qarşılaşdıqları çağırışlar müzakirə olunur. Beynəlxalq aktorların Bosniya-Herseqovina konfliktində tarix ərzində dəyişən siyasi mövqeyi müqayisə olunur. Məqalə konfliktə münasibətdə olan beynəlxalq mövqelərin necə formalaşdığını izah etmək baxımından əhəmiyyətlidir.


**Açar sözlər:** *Bosniya və Herseqovina, konflikt, beynəlxalq, sülh quruculuğu, müharibə.*

**SUMMARY**

**Elmar Ismayilzada**

**THE INTERNATIONAL COMMUNITY'S APPROACH TO WAR AND PEACE ISSUES IN BOSNIA AND HERZEGOVINA: STRATEGIES AND CHALLENGES (1991-2024)**

The Article examines the effects of politics of international actors to conflict in Bosnia and Herzegovina after the end of the Cold War. The Article is consist of two paragraphs in historical terms: the years between 1992 and 1995 when the war in Bosnia and Herzegovina happened and until now after 1995 when Dayton agreement was signed. The interests and the positions of the foreign actors during the war in the article were analysed and their actions and attempts were presented. As well as the participation of international community in the process of peacebuilding, the critics to peace building activities and the challenges were discussed here. The Changing political position of the international actors in Bosnia and Herzegovina conflict during the term was compared. The Article is essential for explaining how to form the international positions to the conflict.



**Keywords:** *Bosnia and Herzegovina, conflict, international, peacebuilding, war.*



**РЕЗЮМЕ**

**Эльмар Исмаилзаде**

**ПОДХОД МЕЖДУНАРОДНОГО СООБЩЕСТВА К ВОПРОСАМ ВОЙНЫ И МИРА В БОСНИИ И ГЕРЦЕГОВИНЕ: СТРАТЕГИИ И ВЫЗОВЫ (1991-2024)**

В статье рассматривается влияние политики международных субъектов на конфликт в Боснии и Герцеговине после окончания холодной войны. Эта статья состоит из двух пунктов в историческом плане: за период с 1992 по 1995 год, когда началась война в Боснии и Герцеговине, и до настоящего времени после 1995 года, когда было подписано Дейтонское соглашение. В статье были проанализированы интересы и позиции иностранных субъектов во время войны, а также представлены их действия и попытки. Помимо участия международного сообщества в процессе миростроительства, здесь обсуждались критика деятельности в области миростроительства и проблемы. Сравнивалось изменение политического положения международных субъектов в конфликте в Боснии и Герцеговине в течение этого срока. Эта статья имеет важное значение для разъяснения того, как формировать международные позиции в отношении конфликта.



**Ключевые слова:** *Босния и Герцеговина, конфликт, международный, миростроительство, война.*

УДК 327; 930.22
DOI:10.30546/3006-0346.2024.3.81.0089

# НАЧАЛО АФГАНО-ПАКИСТАНСКОГО КОНФЛИКТА

**ГЮНЕЛЬ АМИРАСЛАНОВА**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики, магистрант*

*E-mail: gunelamir98@gmail.com*

Отношения между Афганистаном и Пакистаном начиная с конца 1940-х и до сегодняшнего дня непостоянны, причем характеризуются чередованием периодов роста и снижения напряжённости. Они всегда были сложными и напряженными, основанными на исторических, культурных и геополитических факторах. Это исследование рассматривает исторический контекст, текущие вызовы и будущие перспективы двух стран.

Корень этой проблемы заключается в том, что Кабул не признаёт существующую государственную границу с Пакистаном, которая разделяет территории, на которых живут пуштуны. Эта граница устраивает Исламабад, который стремится сохранить пакистанскую часть пуштунских районов, полученную ему после колониального периода.

Территория, где населялись пуштунские кланы, была поделена в 1893 г. по "Дюрандской линии". Эта граница была закреплена соглашением, оформленным в Кабуле 12 ноября 1893 г. после полугода обсуждений между эмиром Афганистана Абдур-Рахманом и сэром Мортимером Дюрандом, представителем британского колониального управления в Индии. Установление границы между Афганистаном и Британской Индией было следствием двух англо-афганских конфликтов (1838–1842 и 1877–1881 гг.). В этих конфликтах Британская империя пыталась свергнуть афганских лидеров, склонных к России (в первой войне это был Дост Мухаммад Хан, во второй — Шер Али Хан), и заменить их своими доверенными лицами — Шуджой уль-Мульком и Абдур-Рахманом.

Конфликт, известный как вопрос о "Пуштунхва" или "Пуштунской земле", начался вскоре после того, как Пакистан стал независимым государством в 1947 году.

Граница между Афганистаном и Пакистаном, известная как линия Дюранда, была проведена в 1893 году между Британской Империей и Афганистаном. Она разделяет пуштунские территории, что стало причиной многих противоречий между двумя государствами.

Афганистан неоднократно высказывал претензии к Пакистану по поводу этой границы, утверждая, что она была насильственно наложена и разделяет пуштунские территории. С другой стороны, Пакистан утверждает, что линия Дюранда является международно признанной границей, и отрицает любые претензии со стороны Афганистана.

Вопрос о пуштунской идентичности также имеет глубокие корни. Пуштуны составляют большую часть населения Афганистана, но также проживают и на территории Пакистана, в основном в провинции Хайбер- Пахтунхва.

Этот конфликт многократно усугублялся различными внешними и внутренними факторами, включая интересы мировых держав, соседних государств и различных этнических и религиозных групп внутри обеих стран.

В 1947 году афганское управление выразило несогласие с вступлением Пакистана в ООН, однако позже пересмотрело свою позицию. 26 июля 1949 года, на фоне усугубляющихся афгано-пакистанских связей, заседание Лойя-джирги было организовано в Афганистане после бомбардировки пакистанскими ВВС афганского населенного пункта у линии Дюранда. Вслед за этим столкновением афганская администрация объявила, что не признает эту предполагаемую границу и что все ранее заключенные договоры относительно линии Дюранда аннулированы. В 1950 и 1951 годах из Афганистана проникали вооруженные отряды с намерением присоединить часть земель Пакистана, но эти действия были безуспешными. Пакистанская власть в ответ прервала дипломатические связи, отозвала дипломата из Кабула и прекратила поставку топлива в Афганистан на протяжении примерно трех месяцев.

13 июня 1947 года глава правительства Афганистана направил в Английское представитель-

ство в Кабуле записку, в которой утверждалось: «Пуштунам и белуджам следует предоставить выбор создания своего управления или войти в состав Афганистана» [1]. Он аргументировал это тем, что пуштуны и белуджи считаются афганцами и должны самостоятельно определить свою принадлежность к одной из стран или объявить независимость. В реакции на этот документ британское управление, сославшись на соглашение 1921 года, призвало Афганистан не втягиваться в процесс деления на северо-западных рубежах.

Перед разделением Индии представители Афганистана утверждали, что после ухода британцев из Индии, договоренность о «линии Дюранда» потеряет свою силу и крупный участок Пакистана присоединится к Афганистану.

21 июня Шах Махмуд отправил британцам дополнительное послание, где потребовал от Пакистана признать, что Афганистан желает иметь доступ к морю и учитывать его претензии на транзитную зону от Хайбера до Карачи. Таким образом, афганское управление желало воспользоваться сложившимся положением, чтобы расширить свои позиции на юге и обрести путь к Аравийскому морю.

На ранних стадиях 1941-го года глава экономического ведомства Афганистана А.Маджид обсуждал в Берлине вопросы с дипломатами Третьего Рейха; он настаивал на предоставлении его государству значительной части территории Индии. По его словам, новая граница должна была идти вдоль реки Инд; к тому же Афганистану следовало передать порт Карачи у Аравийского моря и участок Советского Туркменистана [2].

В середине 1947 года прошло голосование, на основе которого больше 280 тысяч жителей прилегающих районов выразили свою волю за вхождение в состав Пакистана, в то время как всего 2874 человека отдали свой голос Индии. Следует отметить, что доля участвовавших из всех имевших право голоса составила около 50%. По словам российского эксперта Ю.Паничкина, голосование выиграли поклонники Пакистана с небольшим превосходством в районе 1% от общего числа избирателей [3].

В ноябре 1947 года в Карачи начались исходные диалоги между Пакистаном и Афганистаном относительно «линии Дюранда». Афганскую сторону представлял специальный посланник Захир-шаха Наджибулла-хан. Открытие обсуждений по граничному вопросу указывало на неохоту признавать верховенство Пакистана над пуштунами, проживающими на афганской территории. Тем временем, согласно утверждениям афганского ученого Мухаммада Икрома Андешманда, представитель Захир-шаха в первую очередь акцентировал внимание на предоставлении пуштунам самоуправления, принятии мер для прогресса этой зоны и переименовании Северо-Западной граничной области так, чтобы новое наименование соответствовало этнокультурной принадлежности её населения.

Данные афганского ученого позволяют предполагать, что на старте диалогов афганская сторона не обладала ясной стратегией касательно «линии Дюранда» и будущего пуштунов за этой «границей». По крайней мере, в процессе обсуждений делегаты Афганистана не осмеливались выдвигать Пакистану территориальные требования, а только стремились поддерживать желания пуштунов к самостоятельности [4].

Согласно рассказам руководителя Отдела печати при управлении Шаха Махмуда Сайида Касима Риштии, в 1947 году в Кабуле прошло обширное заседание, на котором рассматривалась тема о «линии Дюранда». В процессе этого заседания было отмечено, что с момента заключения соглашения о «линии Дюранда» ушло достаточно времени, и Афганистан не должен выдвигать Пакистану земельные требования; мировое сообщество также не одобрит это. К тому же, изменение этой границы повлечет за собой корректировку всей географической картины района.

Таким образом, было принято решение настаивать на том, чтобы Пакистан дал пуштунам возможность самоопределения. По утверждениям Риштии, именно на этом мероприятии появилось предложение использовать название «Пуштунистан», которое впоследствии активно распространялось в медиа.

С 1949 года связи между Афганистаном и Пакистаном начали усложняться. В феврале 1948 года Абдул Гаффар-хан участвовал в начальной сессии Основательного собрания Пакистана и дал клятву лояльности этой стране. В это время он также встретился с М.А. Джинной и предложил ему приехать в СЗПП. Вернувшись оттуда, Абдул Гаффар-хан продолжал пропаганду созда-

ния Пуштунистана в рамках Пакистана, однако 15 июня 1948 года его задержали. Его обвинили в соучастии с Факиром из Ипи, который вел военные действия в Северном Вазиристане сперва против британцев, а позднее и против управления Пакистана. Абдул Гаффар-хан был осужден к трехлетнему заключению в тюрьме под строгим режимом; в реестре задержанных оказались и его брат Хан Сахиб, а также многие из его единомышленников.

В 1970-х годах Афганистан и Пакистан снова столкнулись с трудными взаимоотношениями после того, как восстание белуджей и пуштунов было подавлено кабинетом Зульфикара Али Бхутто. Пакистанское управление решило отреагировать на антипакистанскую линию Афганистана, поддерживая исламские группировки, противостоящие афганскому управлению, включая будущих главарей моджахедов, таких как Гульбеддин Хекматияр и Ахмад Шах Масуд. Данный план оказался довольно эффективным, и к 1977 году руководство Афганистана под руководством Мухаммеда Дауда было готово решить все граничные споры в обмен на отмену ограничений на автономию пуштунов, которая была обеспечена Конституцией Пакистана, но аннулирована кабинетом Зульфикара Бхутто, когда нация была разделена на два региона: Западный и Восточный Пакистан.

Тем не менее, утверждение о разделе Пакистана на Западную и Восточную части неполно. Западный и Восточный Пакистан были двумя территориальными единицами Пакистана с момента его независимости в 1947 году до 1971 года. В 1971 году, в результате войны за независимость, Восточный Пакистан стал независимым Бангладеш. Зульфикар Али Бхутто не был ответственен за этот раздел, так как это случилось до его лидерства. Однако он действительно играл ключевую роль в политических делах Пакистана в 1970-х годах.

В 1978 году у руля Пакистана оказались военные под командованием генерала Мухаммеда Зия-уль-Хака, тогда как в Афганистане был установлен режим, ориентированный на СССР, возглавляемый Народно- демократической партией Афганистана. Вожди афганских мятежников Гульбеддин Хекматияр и Мохаммад Раббани получили финансовую поддержку, тренировку и оборудование от Межведомственной службы разведки Пакистана. В 1980-х годах Мухаммед Зия-уль-Хак установил прочные отношения с афганскими повстанцами, рассчитывая свергнуть прокоммунистическое управление Афганистана.

Лишь к началу 2011 года обстановка в пуштунском районе риска немного стабилизировалась. Этот момент важно принимать во внимание при анализе будущего международного спора, связанного с присутствием на афганской территории крупного детальмента зарубежных войск. В момент наибольшего напряжения, который случился в прошлом году, общая численность американских и НАТОвских войск приближалась к 150 тыс. человек. Но сейчас, после отвода около 10 тыс. американцев и части их НАТОвских партнеров, число часто оценивается в 130 тыс. человек.

Относительная текущая стабильность в пограничной пуштунской зоне связана не только с достижениями пакистанского военного контингента и органов безопасности, но также с усиленной деятельностью сил западных партнеров и кабульских властей, и в значительной мере с поисками путей урегулирования и соглашений между текущим режимом в Афганистане и их оппонентами. Если будет найден компромисс с талибами и на этой основе будут разрешены международные, с участием ведущих держав, региональные, в первую очередь афгано-пакистанские, и внутренние афганские конфликты, то ситуация в пуштунской зоне риска, без сомнения, положительно изменится.

Между этими государствами отсутствует договор о граничной линии, которая отделяет пуштунов. Из-за этого иногда происходят столкновения. Тем не менее, талибы также отзываются на действия Пакистана по установке барьеров на границе, указывая на риски для национальной безопасности. Таким образом, граничные вопросы становятся причиной напряженности и агрессии.

События, случившиеся 11 декабря 2022 года, являются одним из таких инцидентов. Стычки, в результате которых семеро человек утратили жизнь, а 30 получили травмы, показали насколько остро стоят вопросы на границе между Афганистаном и Пакистаном. 15 декабря 2022 года пакистанские органы власти заявили о новом

артиллерийском обстреле со стороны Талибана, направленном на мирные объекты. Обстрел в районе пограничных ворот Чаман привел к нарушениям в торговле и общей деятельности на границе [5].

Эволюция граничных противоречий играет ключевую роль в формировании взаимодействия обеих сторон. Собственно, 18 декабря 2022 года Исламабад послал представителей в Афганистан для решения возникших вопросов. Но блокировка пограничных проходов между двумя нациями, происходящие события между террористической группировкой Техрик-и-Талибан Пакистан (ТТП) и Исламабадом, а также попытки бывшего премьер-министра Имрана Хана настаивать на досрочных выборах против текущей власти, также находят отражение в проблематике границы между Афганистаном и Пакистаном.

Граничные разногласия приводят к столкновению между администрациями Афганистана и Пакистана, что делает их отношения взаимно напряженными. В результате недавних стычек пункт пересечения границы Чаман был закрыт, но затем снова начал функционировать. Ранее из-за аналогичных инцидентов граница между Чаманом и Спин-Болдаком приостанавливала свою работу. Находящийся примерно в 120 км (74 мили) к северо-западу от Кетты, административного центра провинции Белуджистан в юго-западной части Пакистана, пункт пересечения Чаман — одно из наиболее активных мест на границе между двумя государствами. То, что его не закрывали на продолжительный период, также указывает на его значимость и интенсивность использования. При этом можно утверждать, что такие ситуации демонстрируют попытки найти решения возникающим проблемам.

Успешное и благоприятное развитие отношений между талибами и Пакистаном критически важно как для региональной стабильности, так и для обеих сторон. Именно поэтому обе структуры стремятся к тому, чтобы вопросы не превратились в серьезные проблемы. Быстрое восстановление работы пограничных проходов и отправка пакистанской делегации духовенства в Афганистан для рассмотрения граничных споров также рассматриваются в контексте этой стратегии.

## ЛИТЕРАТУРА:


*1. Андешманд М.И. Мы и Пакистан. Кабул, 2007*

*2. Паничкин Ю.Н., Мусаев Ф.А. Кризис в пакистано-афганских отношениях после образования Пакистана: начало конфликта (1947—1950 гг.) // Фундаментальные исследования, 2013, No 1 (ч. 3). С. 615—618*

*3. Паничкин Ю.Н. Образование Пакистана и пуштунский вопрос. М., 2005. С. 180.*

*4. Искандаров К. Статья «Фактор Пакистана в Афганском конфликте» Том 16, Вып.3, 2013*

*5. Fresh Border Clashes Between Pakistan, Afghanistan's Taliban", Voa News,https://www.voanews.com/a/fresh-border-clashes-between-akistan-afghanistan-s-taliban-/6878079.html, Дата обращения 15 окт.2023*


## ВЫВОД:


Начало Афгано-Пакистанского конфликта берет свои корни из деликатных вопросов государственных границ, национального самоопределения и региональной власти, которые были актуальными с момента создания Пакистана в 1947 году. Основные дискуссии и разногласия касались «линии Дюранда», которая разделяла пуштунские и белуджские территории между двумя странами. Несмотря на различные попытки дипломатического решения вопроса, амбиции и национальные интересы обеих сторон привели к ряду напряжений и конфликтов. Подходы к решению данного вопроса, начиная от мирных диалогов и заканчивая военными действиями, свидетельствуют о сложности и многогранности проблемы, которая оставалась актуальной для обеих стран в течение длительного времени.



**Ключевые слова:** *Афганистан, Пакистан, конфликт, «линия Дюранда»*



**Günel Əmiraslanova,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, magistrant***
***E-mail: gunelamir98@gmail.com***


## Əfqanıstan-Pakistan münaqişəsinin başlanğıcı

## XÜLASƏ


Əfqanıstan-Pakistan münaqişəsinin başlanmasının kökü 1947-ci ildə Pakistanın yaradılmasın-

dan bəri aktual olan dövlət sərhədləri, milli özünü müəyyənləşdirmə və regional hakimiyyət kimi həssas məsələlərdən götürür. Əsas müzakirə iki ölkə arasında puştun və bəlucistan ərazilərini ayıran "Dyuranda xətti" ilə əlaqədardı. Məsələnin diplomatik yolla həllinə cəhd edilməsinə baxmayaraq, hər iki tərəfin arzuları və milli maraqları bir sıra gərginliklərə və münaqişələrə səbəb oldu. Bu məsələyə yanaşma üsulları, sülhsevər dialoqlardan hərbi əməliyyatlara qədər, bu məsələnin mürəkkəbliyini və çoxbucaqlılığını göstərir, bu da uzun müddət hər iki ölkə üçün aktual idi.

**Açar sözlər:** *Əfqanıstan, Pakistan, münaqişə, "Dyuranda xətti".*

**Gunel Amiraslanova**
***Academy of Public Administration under the President of the Republic of Azerbaijan, master student***
***E-mail: gunelamir98@gmail.com***

**The beginning of the Afghan-Pakistani conflict**
**SUMMARY**

The inception of the Afghan-Pakistani conflict stems from delicate issues surrounding state borders, national self-determination, and regional

authority, which have been pertinent since the establishment of Pakistan in 1947. Main discussions and disagreements revolved around the "Durand Line", which separated the Pashtun and Baloch territories between the two countries. Despite various diplomatic attempts to address the issue, the ambitions and national interests of both sides led to a series of tensions and conflicts.

Approaches to resolving this issue, ranging from peaceful dialogues to military actions, attest to the complexity and multifaceted nature of the problem, which remained relevant for both nations over an extended period.

**Key words:** *Afghanistan, Pakistan, conflict, Durand Line.*

UOT:327
DOI:10.30546/3006-0346.2024.3.81.0094

# YAXIN ŞƏRQDƏ NEFT BÖHRANLARI VƏ ONLARIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

**TALEH ƏLİYEV**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər və*
*iqtisadiyyat fakültəsi, bakalavr*

*E-mail: taleheliyev2020t@gmail.com*

## GİRİŞ

Adətən, neft dedikdə, ağlımıza qara rəngli maye gəlir və biz onun əhəmiyyətini yalnız bir yanacaq növü kimi dərk edirik. Lakin bu fikir yanlışdır. Bu sehirli maddə demək olar ki, insan həyatının hər yerindədir. Plastikdən hazırlanmış bütün məhsullarda, yundan olmayan geyim məhsullarında, kənd təsərrüfatında istifadə olunan gübrələrdə, boyalarda, hətta günəş qoruyucu kremlərdə də neft vardır. Maraqlı bir nüansdır ki,neft yalnız avtomobilin benzin çənində deyil, 135 hissəsində istifadə olunur. Yəni avtomobil nəinki neftsiz işləmir, həmçinin neft olmadan istehsal edilə bilməz. Neft istehlakının miqdarı hər il 1 milyon barel artır. Hər il neftə olan tələbatın ötən illərlə müqayisədə artması indiki dövrdə neftin dünya iqtisadiyyatı üçün nə dərəcədə böyük önəm kəsb etdiyini bir daha ortaya qoyur. Bu faktları öyrəndikdən sonra neftin əhəmiyyətini və neft uğrunda mübarizələri daha yaxşı dərk edirik.Neftin əhəmiyyəti və istifadə olunması uzun bir tarixi yol keçmişdir.

Əvvəla, neft dünyamızın milyonlarla illik dövrünün məhsuludur və milyonlarla il ərzində formalaşmışdır. Ona görə də neftin tarixi əslində milyonlarla il əvvələ gedib çıxır [18].

Neft ilk dəfə məhz Yaxın Şərqdə eramızdan əvvəl III-II minillikdə Mesopatamiyada müşahidə olunan yarı-qatı və palçıqlı bir mayenin yerdən sızması nəticəsində müşahidə olunmuşdur. Həmin dövrdə bu mayedən Babil şəhərində divarların,qüllələrin tikintisində istifadə edilmişdir. Qədim Misirdə mumyaların və Bizansın məşhur silahı olan "Rum atəşinin" hazırlanmasında da neftdən istifadə olunmuşdur. Zaman keçdikcə neftin önəmi artmış, XIX əsrdə dünya miqyasında geniş istifadə olunmuşdur. Buna səbəb isə Sənaye inqilabı idi. Sənaye inqilabı Qərbdə meydana gəldi, neft isə Şərqdə idi. Bunun nəticəsində iri sənaye dövlətlər sənayesini daha da inkişaf etdirmək üçün neftə olan tələbatını Yaxın Şərqdən qarşılamağa başladı.

Müasir dünyamızda xaos və münaqişənin ən çox baş verdiyi, zəngin tarix və resurslara malik olan region Yaxın Şərq hesab edilir. Məhz bu zənginliklərə görə də tarix boyu böyük güclərin maraqları bu ərazidə toqquşmuşdur. Yaxın Şərqi ən əhəmiyyətli hala gətirən isə neftlə zəngin olmasıdır. Məqalədə dünyanın mərkəzi sayılan və tarixin ən ziddiyyətli regionu olan Yaxın Şərq, həmçinin Yaxın Şərqin tarixində xüsusi çəkiyə malik olan neft böhranları haqda məlumatlar öz əksini tapmışdır. 1973-1974,1979-1980,1990-cı illərdə baş vermiş neft böhranları tarixin gedişatına ciddi təsir göstərmiş və tarixə önəmli siyasi proseslər kimi düşmüşdür.

## ƏSAS HİSSƏ

***Neft ixracatında Yaxın Şərqin rolu.*** Avropa dövlətləri neftə olan ehtiyacının 60%-ni, ABŞ 25%-ni, Yaponiya və Çin isə 70%-ni Yaxın Şərqdəki zəngin neft ölkələrindən qarşılayır. Səudiyyə Ərəbistan neftinin əsas alıcısı ABŞ və Yaponiyadır. Buna qarşılıq olaraq Səudiyyə Ərəbistanının Yaxın Şərqdəki rəqibi və ABŞ-nin əzəli düşməni İran isə Çinin enerji mənbəyi rolunu oynayır. Çin ABŞ sanksiyalarına baxmayaraq İran neftinin əsas alıcısıdır, hətta öz enerji təhlükəsizliyini təmin etmək naminə Səudiyyə Ərəbistanı-İran münasibətlərində vasitəçi qismində çıxış edərək bu iki dövləti barışdırmaq missiyası aparır.

**Cədvəl 1.[17]**

| **Ölkələr** | **Neft ehtiyatları (milyard barrel ilə)** |
|---|---|
| Venesuela | 302.810 |
| Səudiyyə Ərəbistanı | 266.260 |
| Kanada | 169.710 |
| İran İR | 155.600 |
| İraq | 147.220 |
| Küveyt | 101.500 |
| BƏƏ | 97.800 |
| Rusiya Federasiyası | 81.005 |
| Liviya | 48.373 |
| ABŞ | 40.220 |

Aşağıdakı cədvəldə isə İran, İraq,Suriya, Kuveyt, Səudiyyə Ərəbistanı, BƏƏ ümumilikdə neft istehsalı və dünya neft istehsalı ilə müqayisəsi göstərilmişdir. Qrafikdən göründüyü kimi Yaxın Şərqin 6 ölkəsinin (İran, İraq, Suriya, Küveyt, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin) dünya neft istehsalına nisbəti son 40 ildə demək olar ki, dünya neft istehsalının dörddə birini təşkil etmişdir. Hal-hazırda neft ehtiyyatlarının ümumi həcmi 1407 milyard bareldir. Bunun 48 faizinin Yaxın Şərqdə cəmləşməsi regionun zənginliyi və əhəmiyyətinin əsas nümunəsidir. Bu rəqəmlər bizə Yaxın Şərqin önəmini daha yaxşı anlamağımıza kömək olur.

**Cədvəl 2.[4]**




***Yaxın Şərq regionunun əhəmiyyəti:*** Orta Şərq XX əsrin əvvəllərində ortaya atılan yeni coğrafi anlayışdır. İlk dəfə 1902-ci ildə Amerika dəniz zabiti tərəfindən istifadə edilmiş bu ifadə (orta şərq) İkinci Dünya müharibəsinə qədər geniş şəkildə qəbul edilmədi. 1939-cu ildə Amerikada qurulan iqtisadi təşkilat olan Middle East Supple Center "Orta Şərq" terminini istifadə edilən hala gətirdi və o vaxtdan bəri bir çox beynəlxalq təşkilatlar tərəfindən istifadə olunmağa başlandı. Bu təşkilatın irəli sürdüyü “Orta Şərq” konsepsiyası Liviyadan Əfqanıstana qədər çox geniş bir ərazini əhatə edirdi. Bu gün Orta Şərq (Ər. əl-Şərku'l-avsat) termini dar mənada işlədilir və Şərqi Aralıq dənizi ilə həmsərhəd olan ölkələr (Yunanıstan istisna olmaqla) və qonşu ölkələrə aid edilir. Məzmunu və sərhədləri dəqiq müəyyən edilə bilməyən başqa bir coğrafi anlayış olan Yaxın Şərq bu gün Orta Şərqlə eyni mənada işlədilir. Son illərdə Yaxın Şərq əvəzinə Cənub-Qərbi Asiya ifadəsini işlədənlər oldu, lakin bu, Yaxın Şərqi əvəz edə bilmədi. Ümumiyyətlə qəbul edilir ki, Yaxın Şərqin özəyini müsəlman ərəb dünyası təşkil edir [16].

Yaxın Şərq regionu tarix boyu böyük güclərin marağını cəlb etmişdir.Buna müxtəlif səbəbləri aid etmək olar:

1) Bu region hər zaman zəngin resurslara malik olmuşdur.

2) 3 qitə - Avropa, Asiya və Afrika arasında dəhliz rolunu oynaması regionun strateji əhəmiyyətini artırmışdır.

3) 3 səmavi din olan İslam, Xristian və Musəvilikdə müqəddəs məkan sayılan Qüds şəhərinin bu regionda yerləşməsi.

• İslama görə-Qüdsdə olan Əl-Əqsa məscidi müsəlmanların ilk qibləsidir.

• Xristanlığa görə-İsa peyğəmbər Qüdsdə çarmıxa çəkilmiş və onun qəbri burada yerləşir.

• Musəviliyə görə-Qüdsdə yerləşən və Süleyman peyğəmbər dönəmində inşa edilən məbədə aid olan “Ağlama divarının” ən müqəddəs yer sayılması.

Bu dinlərin hakim olduğu dövlətlər Qüdsü öz ərazisinə qatmaq üçün mübarizə aparmışlar. Miladdan əvvəl X əsrdə bu ərazilərdə yəhudilər İsrail krallığı adlanan dövlət qurmuş və Süleyman məbədini inşa etmişdilər. Lakin Babil dövlətinin M.Ö 587-ci ildə istilası ilə yəhudilər bu torpaqlardan sürgün olunmuş,məbədləri isə Babil imperatoru Navuxodonosorun əmri ilə dağıdılmışdır. Az müddət sonra Əhəməni imperatoru 2-ci Kirin yardımı ilə yəhudilər öz torpaqlarına qayıdaraq məbədlərini yenidən qurdular. Lakin, Roma imperiyasının Şərqə doğru genişlənməsi nəticəsində şəhər romalılar tərəfindən işğal olundu və yəhudilər yenidən təqib edildilər. 637-ci ildə şəhər Ərəb xilafətinin tərkibinə daxil olmuş və uzun müddət islam idarəsində qalmışdır. Müqəddəs şəhər 11-ci əsrdən etibarən Qüdsü xristianlaşdırmaq uğruna 9 Xaç (Səlib) yürüşünə məruz qalmış,təkcə 1-ci yürüşdə 60000-dən çox müsəlman öldürülmüşdür. Lakin xaç yürüşlərinin müsbət nəticələri də oldu. Bəzi avropalı mütəfəkkirlər sonralar Şərq və müsəlman cəmiyyətini elmdən uzaq adlandırsa da yürüşlər nəticəsində Avropa məhz İslam mədəniyyəti ilə tanış olaraq inkişaf etdi, Müsəlman dünyası və Yaxın Şərqə isə ağır zərbə vuruldu.Xaç yürüşlərindən sonra Qüds və ətraf ərazilər ardıcıl olaraq Əyyubilər və Məmlüklər dövlətinin tərkibində olmuşdur. Nəhayət, 1517-ci ildə şəhər və digər ərazilər Osmanlı sultanı II Səlim tərəfindən ələ keçirilmiş və Yaxın Şərqdə 400 illik sabitlik bərqərar olmuşdur.

***1-ci neft böhranı (1973-1974).*** Osmanlı imperiyasının süqutu ərəfəsində Fələstin ərazisi İngilis mandatına keçmiş və tədricən İsrail dövlətinin yaradılması prosesi sürətlənmişdir.1948-ci ildə İsrail dövlətinin yaranması ilə müasir günümüzə qədər davam edən İsrail-Ərəb münaqişəsinin kökü qoyulmuşdur. İsrail dövləti hər tərəfdən Ərəb dünyası ilə “müha-

sirədə" idi.Bu İsrailin müstəqilliyini sual altına qoyurdu. Ərəb dövlətləri birləşərək 1948,1956,1967-ci illərdə İsrailə hücum etsələr də hər 3 müharibədə qazanan tərəf İsrail dövləti idi. 1973-cü ildə İsrail-Ərəb müharibələrində fərqli yeri tutan Yom-Kippur müharibəsi baş verdi. Bu müharibəni əvvəlkilərdən fərqləndirən əsas xüsusiyyəti isə İsrailin ilk dəfə məğlub olması idi.Yom-Kippur müharibəsi ilə siyasi ədəbiyyata "neft şoku və ya neft böhranı" ifadəsi daxil oldu. Neft əvvəlki İsrail-Ərəb münaqişələrində alət kimi istifadə olunsa da 1973-cü ildəki kimi effektiv olmamışdır. Bunun əsas səbəbləri ərəb dövlətləri arasında birliyin zəif olması və Qərb dünyasının alternativ neft ölkələrinə yönəlməsi idi.

1967-ci il müharibəsində böyük məğlubiyyətə uğrayan ərəb dövlətləri nefti daha təsirli bir silah kimi istifadə etməyin yollarını axtarmış, Neft İxrac Edən Ərəb Ölkələri Təşkilatı (OAPEC) yaradılmışdır. Beləliklə, ümumi siyasətin yaradılması və strategiyanın müəyyənləşdirilməsi ideyasının təməlləri qoyulmağa başlandı. Bu vəziyyət Ərəb dövlətlərinin neft məsələsində birgə hərəkət etmək və bu üstünlükdən siyasi alət kimi istifadə etmək baxımından əhəmiyyətli bir təşəbbüs olmuşdur [3, s. 446].

15 oktyabr 1973-cü ildə Yom-Kippur müharibəsi zamanı Ərəb dövlətləri ABŞ-nin İsrailə dəstəyinə cavab olaraq neft embarqosunun tətbiqinə başladılar. Embarqo 2 istiqamətdə həyata keçirilirdi. Birinci istiqamət istehsal və ixracatın azaldılması,ikinci isə neft qiymətlərinin qaldırılması idi.Bunun nəticəsində neft qiymətləri 4 dəfə artdı.Bu hadisə tarixə 1-ci neft böhranı və ya 1-ci neft şoku adı ilə daxil oldu. 1973-cü ilin noyabrında ərəb ölkələri embarqonun əhatə dairəsini genişləndirərək, bu münaqişə qarşısında bitərəf olan Yaponiyanı da daxil etdilər. 1973-cü ildə neft Qərbi Avropada istifadə olunan enerji ehtiyatlarının 63%-ni, Yaponiyada 85%-ni, ABŞ-da isə 17%-ni təşkil edirdi. Bu səbəbdən ərəb ölkələrinin embarqo qərarı ilə neft beynəlxalq siyasət və iqtisadiyyatda mühüm sanksiya aləti kimi yerini aldı [12].

Böhran və embarqolar öz təsirini göstərdi.Tezliklə Avropa İsrailə təzyiq göstərdi və işğal etdiyi ərazilərdən geri çəkilməsini tələb edən bəyanat yaydı, ABŞ-nin xarici işlər naziri Henri Kissincer proseslərdə əsas rol oynayan Səudiyyə Ərəbistanı Kralı Fəysalı fikrindən daşındırmaq üçün onunla görüşsə də müvəffəq olmadı. Kral Fəysalın bir tələbi var idi:İsrailə dəstəyi dayandırmaq. Kissincer Ərəbistandakı neft quyularını bombalamaqla, dövləti və xalqı acından öldürməklə hədələdi. Kissincer bu təhdidi etdikdə Kral Fəysal tarixə düşəcək bu sözləri söylədi: "Əlbəttə, neft quyularımızı bombalaya bilərsiniz. Amma unutmayın ki, biz də, atalarımız da xurma və dəvə südü ilə yaşamışıq,yenə də belə yaşaya bilərik. Siz neftsiz yaşaya bilməzsiniz!".

Qısa müddətdə bütün dünyanı təsir altına alan 1973-cü il Neft böhranının nəticələrini belə sıralamaq olar:

• Neftin barel qiyməti 1 ildə 3 dollardan 12 dollara yüksəldi.

• Sənayesi inkişaf etmiş Qərbi Avropa və ABŞ-da xüsusilə avtomobil sektoru ciddi şəkildə zədələnib.

• Yaponiya bu böhranda ərəblərin tərəfini tutdu və İsraillə münasibətlərini ən aşağı səviyyəyə endirdi.

• İngiltərə ərəblərə qarşı embarqonu ləğv etdi və İsrailə silah embarqosu tətbiq etdi.

• Neftin qiymətinin davamlı olaraq artması nəticəsində Avropa ölkələrində istehsal olunan məhsullar artıb və bu da inflyasiyaya səbəb olub.

• ABŞ bu vəziyyət qarşısında geri addım atmadı və lazım gələrsə Fars körfəzini vuracağını açıqladı [15].

1-ci neft şoku beynəlxalq münasibətlərdə heç zaman yaşanmamış və təəccüblə qarşılanan bir hadisə idi. Daim İsrail qarşısında məğlub olan Ərəb dövlətləri birlik nümayiş etdirmiş və öz zənginliyindən istifadə edərək İsrailə dəstək olan ölkələrin enerji təhlükəsizliyini təhdid etmişdi. Embarqolar öz nəticəsini vermiş,İsrailə olan dəstək günü-gündən azalırdı.İsrailə daim dəstək verən İngiltərə belə İsrailə silah embarqosu tətbiq etmiş və böhranda qarşı tərəfə kompromisə getmişdir. Yalnız ABŞ öz "kiçik müttəfiqinə" sadiq qalmış, geri addım atmamışdır.

Bütün bunlara baxmayaraq 1-ci neft böhranı iqtisadi və texniki cəhətdən Avropa və ABŞ-a ziyan vurmuş,əsas da avtomobil sektorunu zədələmişdir. Birinci neft böhranı nəticəsində baş verən durğunluqla əlaqədar olaraq şirkətlərin iflası ABŞ-da 30 faizdən,Böyük Britaniyada isə 60 faizdən çox artmışdır. Bu iflas dalğası bütün dünyada bir çox bankları və maliyyə institutlarını məhv etmişdir [2, s.84].

Neft böhranı Qərbin sənayeləşmiş dövlətlərini neft idxalından asılı olduqlarını acı bir şəkildə dərk etməyə məcbur etdi. Buna görə də onlar xammala qənaət etməyə və yeni enerji mənbələrini (külək, günəş, nüvə enerjisi) inkişaf etdirməyə çalışdılar. Həmçinin resursların qorunması ilə bağlı mübahisə başladı və bu günə qədər davam etməkdədir [13].

Ərəb ölkələrinin neft embarqosu praktikası real uğur qazanmadı. Ərəb ölkələrinin həyata keçirdiyi neft embarqosu və hasilatın azaldılması siyasəti İsraili dəstəkləyən ölkələri cəzalandırmaq məqsədi daşısa da, bütün dünya bundan çox təsirləndi. İnki-

şaf etməkdə olan və inkişaf etmiş ölkələr birlikdə bu böhrandan təsirlənmiş və təsiri açıq şəkildə hiss edilən böhran səbəbindən inflyasiya artmış, artım templəri azalmış, tədiyyə balansının kəsiri artmışdır. Neftin qiymətinin qəfil artması təklif şoklarına səbəb olsa da, tələbdə dəyişiklik olmamışdır. Bu kimi səbəblərdən qiymətlərin ümumi səviyyəsi yüksələrkən iqtisadi daralmalar yaşanmışdır. Şirkətlərin borc yükü artmış, dünya ticarətinin həcmi azalmışdır. İşsizlik isə İkinci Dünya müharibəsindən bəri ən yüksək həddə çatmışdır. Bir tənəzzül dövrü başlamış və bu tənəzzül Böyük Depressiyadan sonra ən ciddi tənəzzüldür [8 s.11].

***2-ci neft böhranı (1979-1980).*** XX əsrin 70-80-ci illəri dünya tarixinə bir çox iz salan hadisələrə şahidlik etmişdir. Yom-Kippur müharibəsi,1-ci neft şoku, SSRİ-nin Əfqanıstana müdaxiləsi,Türkiyə Respublikasının Kiprə ordu yeritməsi, İran İslam inqilabı,İran-İraq müharibəsi və s. Bu hadisələrin bir çoxu da dünyanın ən hərəkətli və ziddiyyətli regionu olan Yaxın Şərqdə baş vermişdir.Belə hadisələrdən biri də 2-ci neft böhranı idi.

2-ci neft böhranı İranın daxili qarışıqlıqdan İslam Respublikasına keçidi ilə başladı. İnqilabdan sonra ölkədə neft hasilatının azalması dünyada çaxnaşmaya səbəb oldu və bu birinci böhranın təsirlərini aradan qaldıra bilməyən dünyada həyəcana səbəb oldu. İranda hasilat cəmi 4 faiz azaldığı halda, neftin qiyməti 20 dolları ötdü.Bundan dərhal sonra 1980-ci ildə İran-İraq müharibəsi başladı. Bunun nəticəsində iki ölkənin neft hasilatı ildə 6,5 milyon barel azalaraq sutkada 1 milyon barelə düşdü. Qlobal hasilat 10 faiz azaldıqda isə bu dəfə neftin qiyməti 35 dollara çatdı [14].

Tarixin gedişatına ciddi şəkildə təsir göstərən 2 inqilab olmuşdur. Böyük Fransa İnqilabı (1789-1799) və Bolşevik İnqilabı (1917). İran İslam İnqilabı adları çəkilən digər 2 inqilab qədər geniş əhatəyə malik olmasa da dünya tarixində önəmli hadisələrdən biri sayılır. İnqilab Yaxın Şərqdə baş versə də bütün dünyaya təsir göstərən bir hadisə idi. İnqilabın beynlxalq nəticələrindən biri də ABŞ-da seçkilər zamanı Cimmi Karterin yenidən prezdent seçilməməsi idi. İran İslam İnqilabı qalib gəldikdən sonra ölkədə şəriətlə idarə olunan islami bir rejim quruldu və qərblə əlaqələr tamamilə kəskinləşdi. Çünki İnqilab tərəfdarları ölkədəki problemlərin səbəbini birbaşa olaraq Qərbdə görür, Şah Məhəmməd Rza Pəhləvinin buna göz yummasını kəskin tənqid edirdilər. Xomeyni İranda idarəetmənin başına gələrək “nə Şərq, nə Qərb, yalnız İslam respublikası” prinsipi ilə ölkəni idarə etməyə başladı. ABŞ-nin regiondakı 1 nömrəli müttəfiqi hesab olunan şahı devirməsi nəticəsində 2 ölkə arasında münasibətlər kəskinləşdi. 4 noyabr 1979-cu ildə bir qrup tələbənin ABŞ səfirliyinə hücum edərək 52 diplomatı əsir götürməsi ilə ABŞ-la münasibətlər ən çətin dönəmə daxil oldu.

İran-İraq arasında sərhəd problemi olsa da 1975-ci ildə Əlcəzairdə keçirilən konfransda tərəflər razılığa gəlmiş və müqavilə imzalanmışdır. Bu iki ölkə arasında problem məhz sərhəddin bir hissəsini təşkil edən Şəttül-ərəb çayı boyunca zəngin neft yataqlarının olması idi.1980-ci il 22 sentyabrda İranda inqilabın baş verməsindən sonra İnqilabın İraq ərazisinə nüfuz etməsinin qarşısını almaq və İranın zəngin neft yataqlarını ələ keçirmək məqsədi ilə İraq ordusu İran ərazisinə genişmiqyaslı hərbi müdaxiləyə başladı. Başlıca məqsəd bunlar olsa da müharibənin səbəblərinə bir sıra amilləri aid etmək olar:

1) ərəb-fars etnik konflikti,

2) şiə-sünni qarşıdurması,

3) Səddam Hüseyn və Xomeyni arasında olan şəxsi qarşıdurmalar,

4) hər iki dövlətin dünya bazarında neft ixrac etməsi uğrunda rəqabət.

Digər tərəfdən, İraq İranı məğlub edərək, İranın Tehrandan sonra ikinci ən mühüm sənaye bölgəsi qəbul edilən Abadan, Bəndər Xomeyni, Xürrəmşəhr, Əhvaz və s. təbii qaz və neft ehtiyatlarının yerləşdiyi Xuzistan bölgəsində yaşayan təxminən 1,5 milyon ərəb xalqına muxtariyyət verməké,bu mühüm neft və sənaye mərkəzini İranın əlindən almaq məqsədi güdürdü [7, s.546].

Amerika və İsrail ilk seçim olaraq müharibədə olan hər iki dövlətin tükənməsini hədəf almış, bunu edərkən regiondakı maraqlarını və İsrailin milli təhlükəsizlik mülahizələrini ön planda tuturdu. Əslində Amerika öz ehtiyacının yalnız 4%-ni körfəz neftindən ödəyirdi, lakin Yaponiya və onun Qərbi Avropa tərəfdaşları Körfəz neftindən çox asılı idilər və buna görə də onların itkilərinin nəticələri o dövrdə Amerikanın maraqlarını çox narahat edirdi [9, s.268-269].ABŞ bu müharibədə silah sataraq qazanc əldə etsə də,öz enerji təhlükəsizliyi uğruna müharibənin bitməsini istəyən aktorların sayı daha çox idi. Çünki Yaxın Şərq nefti ABŞ-nin neft idxalatının 35 faizini, Qərbi Avropa dövlətlərinin 61 faizini, Yaponiyanın isə 72 faizini təşkil edirdi.

1979-80-ci illərdə neft böhranı zamanı inkişaf etmiş ölkələr öz enerji sistemlərində və iqtisadi strukturlarında apardıqları transformasiyalar sayəsində ilkin olaraq cari hesab kəsiri yaşasalar da qısa

müddətdə bərpa etdilər. İnkişaf etməmiş ölkələr isə birinci neft böhranının iqtisadi nəticələrinə bənzər ciddi borclar içində ilişib qaldılar [6, s.525].

İlk neft böhranından ağır zərbə alan ABŞ ikinci zərbəni 1979-cu ildə İran İslam İnqilabı ilə aldı və neftin bir barelinin qiyməti 40 dollara çatdı. Ardıcıl zərbəylə böyük iqtisadi ziyan görən ABŞ Alyaska ştatında neft yataqları kəşfləri etməklə öz ehtiyatlarını tapmağa və xarici neftdən asılılığını azaltmağa çalışırdı. Bundan əlavə, nəhəng Amerika neft şirkətlərinin beynəlxalq əməliyyatlarına dəstək verdi və onların neft hasilatını artırmasına zəmin hazırladı. Bu böhranları yenidən yaşamaq istəməyən ABŞ böyük neft ehtiyatlarına malik Yaxın Şərqi (Körfəz ölkələri) xarici və enerji siyasətinə daxil etdi. ABŞ-ın o zamankı prezidenti Cimmi Karter 1980-ci il yanvarın 23-də Karter Doktrinası olaraq tarixə düşən siyasəti təqdim etdi:

"Mövqeyimizi açıq ortaya qoyaq: Fars körfəzi regionunda nəzarəti ələ keçirmək üçün hər hansı kənar müdaxilə cəhdi Amerika Birləşmiş Ştatlarının həyati maraqlarına hücum kimi qiymətləndiriləcək və bunu əngəlləmək üçün hərbi güc də daxil olmaqla hər tədbiri görəcəyik" [5].

***3-cü neft böhranı(1990).*** 1-ci və 2-ci neft böhranları arasında heç bir əlaqə olmasa da 3-cü neft böhranını 2-ci neft böhranının nəticəsi kimi dəyərləndirmək mümkündür.8 illik İraq-İran müharibəsi nəticəsində iqtisadiyyatı iflic vəziyyətinə və borc bataqlığına düşən Səddam Hüseyn 2 avqust 1990-cı ildə çarəni Küveyti ölkəsinin 19-cu bölgəsi elan edərək işğal etməkdə gördü. Bu hadisə tarixə Körfəz müharibəsi adı ilə daxil oldu.İraqın borclarının əksər hissəsi Səudiyyə Ərəbistanı və Küveytə aid idi.Səddam Hüseyn hər 2 ölkədən bu borcların silinməsini tələb etsə də tələbi rədd edildi. Səddam bu tələbində səbəb kimi İraqın bütün Ərəb dünyasını İranın təhlükəsindən qoruma missiyası apardığını söyləyirdi. Həmçinin İraq hökuməti Küveyti dünya bazarına həddindən artıq neft çıxarması ilə günahlandırırdı. Belə olduqda neftin qiyməti düşürdü və bu gəlirləri tamamilə azalan İraqı daha da çətin duruma salırdı.

Səddamın məqsədi İranla müharibə zamanı əldə etdiyi dəstəyə arxalanaraq Küveytin zəngin neft ehtiyatlarını ələ keçirərək iqtisadi çətinliklərindən xilas olmaq və orduya daha çox sərmayə qoyaraq regionun super gücünə çevrilmək idi. Digər tərəfdən, Küveytin işğalı səssiz qalsaydı, əhəmiyyətli hərbi gücə malik olan İraqın regional, hətta qlobal gücə çevrilməsi üçün yol açılardı.Çünki Küveytin neft ehtiyatları ilə yanaşı, bütün dünyaya yayılmış kapital gücü də var idi.İraq Küveytin neft ehtiyatlarını ələ keçirməklə, neft hasilatını əhəmiyyətli dərəcədə artırmaqla öz hərbi gücünü inkişaf etdirmək üçün lazım olan maliyyə imkanlarını əldə etmiş olacaqdı.1991-ci ilin məlumatlarına görə, Küveyt və İraqın ümumi sübut edilmiş neft ehtiyatları 215 milyard barel idi.O vaxt sübut olunmamış 80-100 milyard barel civarında mümkün ehtiyatlar da bu məbləğə əlavə edildikdə,1990-cı il avqustun 3-də Səddam dünyanın ən böyük neft ehtiyatlarına malik olan ölkənin lideri və neft qiymətlərini təkbaşına müəyyən edən dövlət durumuna gəldi [10, s.334].

Qısa müddət ərzində İraq ordusu Küveyti işğal etdi, Küveyt əmiri Cabir əl-Əhməd əs-Sabah,ailəsi və digər hökumət nümayəndələri Səudiyyə Ərəbistanına qaçdılar. Küveytin işğalı ilə 3-cü neft böhranı başladı. Nəticədə, digər neft böhranlarında olduğu kimi,dünya neft bazarından 4 milyon barel neft birdən-birə geri çəkildi.Səudiyyə Ərəbistanı hasilat fərqini aradan qaldırmaq üçün gündəlik 3 milyon barel neft hasil etməklə, çatışmayan neftin dörddə üçünü təmin etdi.Əlavə neftin geri qalanı isə Venesuela və Birləşmiş Ərəb Əmirliklərindən təmin edildi [1, s.725].

Küveytin işğalının və İraqın yaratdığı Yaxın Şərq təhlükəsinin qarşısını almaq üçün ABŞ-nin rəhbərlik etdiyi koalisiya qüvvələri yanvarın 17-də körfəzə 700 təyyarə göndərərək böyük bir hücum etdilər. İlk hava zərbələrindən sonra neftin qiymətində ciddi enişlər oldu və neftin barel qiyməti 30-40 dollardan 10 dollara qədər azaldı.Sonra bir neçə saat ərzində yenidən 20 dollara qalxdı.Amma bu qəfil qiymət qalxması və enməsinin dünya iqtisadiyyatında və maliyyə bazarlarında yaratdığı təsirlər neft böhranları aspektindən son dərəcə əhəmiyyətlidir [1, s.727].

Müharibənin İraq və Küveyt iqtisadiyyatlarına birbaşa zərərini anlamaq üçün müharibədən əvvəl 2,5 milyon barelə çatan Küveytin gündəlik neft hasilatının 400 minə qədər azaldığını xatırlamaq kifayətdir. Buna görə də dövrün qiymətlərinə görə, 1990-1991-ci illər arasında Küveytin illik itkisi 6 milyard dollara (indiki ilə müqayisədə 11 milyard dollar) çatmışdır. Müharibədən əvvəl 3 milyon barelə çatan İraqın gündəlik neft hasilatı 300 min barelə qədər azaldı. Dövrün qiymətlərinə görə, İraqın neft gəlirlərindəki itkisi 15 milyard dollara çatıb (indiki ilə müqayisədə 28 milyard dollar) [11].

Körfəz müharibəsindən sonra neft qiymətləri davamlı enmə mərhələsinə keçdi.Hətta 1990-cı illərin ortalarında son 21 ilin ən aşağı səviyyəsinə çatdı. Sonralar baş verən 2001-ci il 11 sentyabr hadisələri,2003-cü ildə başlayan İraq müharibəsi,2008-ci

ildə yaşanan qlobal böhran zamanı da neft qiymətlərində kəskin dəyişiklik yaranmış,bəzən böhran səviyyəsinə çatmışdır.

**Nəticə**

Böhran yunan sözü olub, hərfi mənada dönüş nöqtəsi,qərar mənasını verir.Faktiki olaraq böhran gizli münaqişələrin partlamasıdır və buna görə də bəzən bu söz gözlənilməz nəticələr dövrü kimi də başa düşülür.Böhranların iqtisadi, siyasi, ekoloji, enerji, demoqrafik kimi növləri vardır.

Neft böhranlarının 2 əsas xarakterik xüsusiyyəti var idi:

1) həm siyasi, həm iqtisadi, həm də enerji sferalarına aid olması,

2) əksər böhranlardan fərqli olaraq lokal və ya regional deyil,qlobal miqyasa yayılması.

Neft şokunun qısa müddət ərzində belə effekt yaratması məşhur deyimin nə qədər həqiqətə uyğun olmasını bir daha önə çıxardı. "Kim enerji resurslarına nəzarət edirsə, o, dünyaya nəzarət edir".

Müasir dövrdə neft amili hər zaman önəmli olmuş, hətta nefti əldə etmək bəzi ölkələrin milli maraqlarından birinə çevrilmişdir. XX əsrin 2-ci yarısında Yaxın Şərqdən başlayan və bütün dünyaya təsir edən 3 neft böhranı baş vermişdir:

1) 1973-cü ildə Ərəb ölkələrinin neft ixracını məhdudlaşdırması və İsrailə dəstək verən ölkələrə embarqo tətbiq etməsiylə 1-ci neft böhranı baş vermişdir.

2) 1979-cu ildə İran İslam İnqilabının qalib gəlməsi və 1980-ci ildə İraq-İran müharibəsinin başlaması 2-ci neft böhranına səbəb oldu.

3) 1990-cı ildə İraqın Küveyti işğalı nəticəsində 3-cü neft böhranı kimi tarixə düşdü.

Bu böhranların hər birinin yaranmasının səbəbləri və kəskinliyi fərqli səviyyədə olsa da neftin qiymətinin artması hamısı üçün xarakterik xüsusiyyət idi. Neftin qiymətinin artması isə Qərb üçün bir fəlakət idi. Buna görə də xüsusilə ABŞ neft böhranları zamanı əsas aktor olaraq gedişata nəzarət etməyə çalışmışdır.

İlk dəfə neft şokunun baş verməsi dünyada təəccüb doğuran hadisə idi. Buna görə də qarşı tərəflər (ABŞ, Kanada, Hollandiya, Böyük Britaniya və Yaponiya) bu prosesi anındaca həll etməyi bacarmadı. Neft böhranının və onun fəsadlarının qarşısının alınması uzun müddətə başa gəldi. Sonralar artıq Qərbdə, xüsusilə də ABŞ-da bu böhranlara adekvat cavab tədbirləri görmə qabiliyyəti formalaşdı. Bunlardan biri də 1975-ci ildə ABŞ-da Strateji neft ehtiyyatının yaradılması idi. Ehtiyatların mövcudluğu sonrakı neft böhranlarının iqtisadiyyata mənfi təsirini xeyli azaltdı. Zaman keçdikcə ABŞ neft zəngini olan Ərəb dövlətləri ilə yaxınlaşdı, hətta bu ölkələrin bəzilərinin ərazisində hərbi bazalar yaratdı. ABŞ-nin bu bazaları yaratmaqda 3 əsas məqsədi var idi:

1) Səudiyyə Ərəbistanı və digər Körfəz ölkələrini onların himayədarı olduğuna inandırmaq

2) Yaxın müttəfiqi olan İsraili qorumaq

3) Münaqişə vəziyyətində olan İrana gözdağı vermək

Bütün proseslərdən isə 2 qat qazanc əldə edən məhz ABŞ idi. O, Səudiyyə neftinin əsas alıcısı rolunu oynayır, sonra isə Yaxın Şərqdəki ziddiyyətli situasiyadan istifadə edərək Körfəz ölkələrinə böyük miqdarda silah sataraq neft üçün ödədiyi məbləği geri alırdı.Statistikaya baxdıqda görürük ki, 2022-ci ildə ABŞ-nin ən çox silah satdığı ölkələrin başında Küveyt,Səudiyyə Ərəbistanı və Qətər dayanır. 4,63 milyard məbləğ ilə bu 3 ölkə ABŞ-nin silah ixracatının 54 faizini təşkil edir. Həmçinin, ABŞ Ərəb dövlətlərinin birləşərək yenidən neft şoku kimi hadisələri yaratmasının qarşısını almaq üçün onlar arasında olan ziddiyyətlərdən məharətlə istifadə edir. 1978-ci ildə imzalanan Kemp-Devid müqaviləsi buna bariz nümunədir.Misirin İsraili müstəqil dövlət kimi tanıması ərəb dövlətlərinin narazılığına səbəb oldu və onlar Misirlə əlaqələri kəsdilər.

2023-cü il 7 oktyabrda başlayan Həmas-İsrail müharibəsinin gedişində Səudiyyə Ərəbistandan olan rəsmilərin "Qəzzada atəşkəsi təmin etmək üçün nefti silah olaraq istifadə etməyəcəyik" demələri ABŞ-nin uğurlu siyasətinin nəticəsidir.

Siyasi proseslərə və tarixə nəzər saldıqda neft üçün böyük güclərin mübarizəsini daha aydın görürük.Tarix neft uğruna mübarizələrlə bağlı bir çox hadisəyə şahidlik etmişdir.Bəzi liderlər neft gəlirlərini xarici şirkətlərdən təmizləmək üçün mübarizə aparmış, bəziləri nefti bir alət olaraq siyasətdə istifadə etmiş, bəzən isə neft yataqlarını ələ keçirmək addımı atmışdır. Neft böhranlarının üzərindən xeyli müddət keçsə də bu mövzu daim aktual olmuş və araşdırma mövzusu kimi qalmışdır.

**Açar sözlər:** *Neft, Yaxın Şərq, Sənaye inqilabı, Neft böhranı, Embarqo.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Daniel Yergin, Petrol, Para ve Güç Çatısmasının Epik Öyküsü, Kamuran Tuncay (çev.), Türkiye İş Bankası Yayınları, İstanbul, 2009.*

2. Ernest Mandel,Uluslararası Ekonomide İkinci Kriz, Yavuz Alagon (çev),Koral Yayıncılık, İstanbul, 1980
3. Fahir Armaoğlu, 20. Yüzyıl Siyasi Tarihi Cilt I: 1914-1980, Türkiye İş Bankası Kültür Yayınları, Ankara 1991, s. 726.
4. Orta Doğu, Petrol ve ABD(Mustafa Atiker, s. 21)
5. Petrolün Kısa Tarihi, Petrol Gerçekleri ve Türkiye(Mahir Kaya, s. 17.)
6. Suat Parlar.Barbarlığın kaynağı petrol,Anka yayınları,İstanbul,2003
7. Tayyar Arı . Irak, İran ve ABD Önleyici Savaş, Petrol ve Hegemonya, İstanbul: Alfa Basım Yayım Dağıtım, 2004.
8. The Economic Effects of the 1973 Oil Crisis and Stagflation Case ( Prof. Dr. Salih Öztürk,Selin Saygın s. 12)
9. Tuncer Topur. Dipsiz Kuyu Ortadoğu ve Türkiye, İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2004.
10. Veysel Ayhan.İmparatorluk Yolu Petrol Savaşlarının Odağında Orta Doğu,Ankara: Nobel Yayınları, 2006.
11. https://www.indyturk.com/node/58891
12. https://medium.com/hariciye/1973-petrol-krizi-etkileri-ve-sonu%C3%A7lar%C4%B1-7ec1d90ad4a1
13. https://www.br.de/radio/bayern2/sendungen/radiowissen/soziale-politische-bildung/oelkrise-1970er-wirtschaft-fahrverbot-opec-100.html
14. https://www.ekoturk.com/haber/yakin-tarihteki-petrol-krizleri/
15. https://www.haberturk.com/1973-petrol-krizi-nedir-neden-cikti-1973-petrol-krizi-nedenleri-sonuclari-ve-turkiye-ye-etkileri-hteg-3601333
16. https://islamansiklopedisi.org.tr/ortadogu
17. www.statisca.com
18. https://uret.com.tr/petrol-tarihi-1/

## НЕФТЯНЫЕ КРИЗСЫ НА БЛИЖНЕМ ВОСТОКЕ И ИХ ВЛИЯНИЕ НА МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

### РЕЗЮМЕ

Ближний Восток всегда был регионом с наибольшим количеством войн и конфликтов в историко-геополитическом контексте. Этот регион исторически играл роль "пороховой бочки" и занимал уникальное место в истории. Будучи центром истории, культуры и религий, и с началом истории именно с этого региона, владение Ближним Востоком рассматривалось как владение контролирующей мировую силой. Однако то, что делает Ближний Восток еще более значимым для великих держав, - это нефть. Не случайно среди 10 стран с самыми богатыми нефтяными запасами в мире пять находятся именно на Ближнем Востоке. Важная роль нефти в военном, экономическом, транспортном и энергетическом секторах привлекла внимание крупных компаний и государств. Войны за "черное золото" - нефть, были развязаны, произошли перевороты и покушения. Поэтому нефть принесла народам Ближнего Востока не счастье и богатство, а войны и разрушения. В статье исследуются роль нефти, значение региона Ближнего Востока, первый нефтяной кризис (1973-1974), второй нефтяной кризис (1979-1980), третий нефтяной кризис (1990).

**Ключевые слова:** *Нефть, Ближний Восток, Промышленная революция, Нефтяной кризис, Эмбарго.*

## OIL CRISES IN THE MIDDLE EAST AND THEIR IMPACT ON INTERNATIONAL RELATIONS

### SUMMARY

The Middle East has always been a historical and geopolitical region marked by conflicts and contradictions.It has played the role of a “Powder keg” throughout history, holding a unique place as the center of civilization, religion, and the starting point of historical events.The possession of the Middle East has often been associated with wielding global power. However, what significantly elevates its importance for major powers is oil. Not coincidentally, five out of the world's ten richest oil-reserved countries are precisely located in the Middle East. The crucial role of oil in military, economic, transportation, and energy sectors has inflated the appetites of major corporations and states. Wars have been fought, coups executed, and conflicts ignited over the black gold, bringing not happiness and prosperity but rather war and turmoil to the Middle Eastern peoples. The article explores the role of oil,the importance of the middle east region,historical events such as the first (1973-1974), second (1979-1980), and third (1990) oil crisis.

**Keywords:** *Oil, Middle East, Industrial Revolution, Oil Crisis, Embargo.*

УДК 327
DOI:10.30546/3006-0346.2024.3.81.0101

# ПАЛЕСТИНО-ИЗРАИЛЬСКИЙ КОНФЛИКТ 7 ОКТЯБРЬ 2023 ГОДА

**ЛЕЙЛИ АСЛАНОВА**
*Академия Государственного Управления При Президенте Азербайджанской Республики, магистрант*

*E-mail: leyli470@gmail.com*

Конфликт между Израилем и Палестиной длится уже более 75 лет. Противостояние этих двух стран является самым долгим в мире. Главную причину этого противостояния составляют территориальные споры между евреями и арабами.

Заметим, что до начала XX века государства Израиль на карте не было, а евреи жили диаспорами во многих странах мира.

Палестина же является древней областью, в конце X1X века находящейся под властью Турции.

Чтобы лучше понять войну между Израилем и Палестиной, нам нужно обратить внимание на историю этого противостояния. Конфликт начался 7 октября 2023 года. Когда мы говорим об израильско-палестинской войне, мы должны рассматривать теологические, социологические и политические причины этой войны, которая длится уже много лет. Основу этого противостояния составляет концепция «сионизма». Концепция «сионизма», возникшая в конце прошлого века, представляет собой движение, возникшее в результате организованных усилий евреев по переселению этой нации в Палестину. Решения, принятые на Первом сионистском конгрессе, состоявшемся в Базеле, Швейцария, 27 августа 1897 года, являются первыми конкретными шагами в этом направлении. Эти решения заключаются в следующем:

«Сионизм стремится создать родину для еврейской нации в Палестине, гарантированную общественными правами. Конгресс рассматривает следующие средства достижения этой цели:

1. Обеспечить постоянное заселение Палестины еврейскими сельскохозяйственными и промышленными рабочими;

2. Организовать и соединить весь еврейский мир через соответствующие местные и международные институты в соответствии с законами каждой страны;

3. Укрепить и сформировать еврейское национальное чувство и сознание;

4. Принять подготовительные меры для получения согласия правительств для достижения целей сионизма». (Карасапан, 1942 г.)

Были предприняты попытки реализовать решения, принятые после съезда, но они в основном не увенчались успехом. Можно даже сказать, что эти инициативы были восприняты некоторыми государствами негативно. Например; эта просьба евреев, требовавших земли от Абдулхамида, османского султана, была резко отвергнута, и тогда в 1883 году Османская империя издала «Вилли Сенийе». Благодаря этому документу евреи смогут оставаться в Палестине в течение трех месяцев только для паломничества, а продажа земли и имущества будет запрещена. (Умар, 2002)

В период с начала до середины XX века евреев хотели выслать из многих стран мира, где они жили, на Ближний Восток. Это понимание было доминирующим во всех христианских странах.

В 1947 году была предпринята попытка США и Англии разделить землю Палестины, не приняв во внимание требования палестинцев, веками живших на своей земле и только учли требования евреев. С этой даты ничего не изменилось не только на палестинских территориях, но также на Ближнем Востоке и на Аравийском полуострове. Возникли различные террористические организации. Еврейские террористические организации, действовавшие в Палестине, Хагане, Иргуне и Штерне, нападали на мирных арабов и убили сотни арабов. Из-за этих террористических атак сотни арабов были вынуждены покинуть свои дома, и демографическая структура сложилась в пользу евреев. Сложившаяся ситуация широко освещалась в газете «Джумхуриет» под заголовком «Арабско-еврейская борьба усилилась», где сообщалось, что евреи напали на две арабские деревни в районе Хайфы, убив 50 арабов и ранив 30 человек.

В 1947 году израильско-арабская война началась с оккупации Израилем палестинской территории. Следует отметить, что хотя речь идет

о войне, длившейся шесть дней, ее последствия продолжаются до сих пор. Израиль одержал решительную победу в этой войне с Иорданией на востоке, Египтом на западе и Сирией на севере.

В период с 1993 по 1995 годы, когда напряженность возрастала и происходили крупные и мелкие конфликты, что, к сожалению, привело к гибели людей. В период с 1993 по 1995 год между Израилем и Палестиной под контролем государств-посредников начались переговоры под названием «Мирные переговоры в Осло» (Соглашения Осло). Суть соглашения Осло заключалась в том, что Израиль постепенно уступит контроль над палестинской территорией палестинцам в обмен на мир.

Напряженность и конфликты между Израилем и Палестиной продолжались до 7 октября 2023 года. Каким бы ни был характер этих событий и достигнутый результат, они всегда происходили на палестинской территории.

Палестина всегда была стороной, которая сильно пострадала и понесла человеческие жертвы: люди были вынуждены покинуть свои дома, свои земли, имущество. Они понесли экономические потери, таких как закрытие рабочих мест и непригодность сельскохозяйственных земель. Учитывая результаты, ясно видно, что Израиль нацелен на гражданские поселения, а не на военные цели.

7 октября 2023 года около 06:00 утра по Израилю из сектора Газа были нанесены ракетно-ракетные удары в виде интенсивных залповых огней. В течение дня из региона начали приходить новости о том, что палестинские группы пересекли заборы, разделяющие границу Газы и Израиля, перешли на израильскую сторону, и совершали нападения на жилые районы. Было много жертв со стороны израильских гражданских и военных лиц. Новости о присутствии палестинских группировок и конфликтах в Офакиме, Кфар-Азе, Суфе, Магене, Беэри, Рейме, Нахаль-Озе, Нир-Аме, Нир-Озе, Зикиме. Были захвачены некоторые военные пункты. С другой стороны, из региона продолжали поступать новости о том, что ракетные удары продолжаются. Более того, бронетанковые подразделения израильских солдат, в том числе танки, были атакованы дронами во время конфликтов, аналогично атакам, осуществленным палестинскими организациями в Украине, и что многие солдаты и гражданские лица были вывезены в сектор Газа.

Хотя продолжающиеся нападения, в результате которых погибли около 300 израильтян и сотни других получили ранения, можно назвать неожиданностью, учитывая время их совершения. Однако они не являются неожиданными в контексте тех реформ, которые Израиль проводит в течение многих лет в своей армии. Многие израильские солдаты были убиты в результате нападения на пограничные районы Эрез, а затем группы из сектора Газа пересекли израильскую границу. По сути, Израиль обладает высокоразвитым военным оборудованием. Поэтому можно констатировать, что произошедшее является явной слабостью израильской разведки и армии и что стратегическое сдерживание Израиля против своих врагов в регионе полностью ослабло.

Реформы, проведенные в израильской армии за последние 10 лет, были направлены на создание эффективных сил против стратегии войны на несколько фронтов. В этом направлении были созданы подразделения, которые могли бы быстро перемещаться более чем на одном фронте и быстро нейтрализовать противников.

Таким образом, эти реформы были направлены на разработку функций умножения силы, таких как минимизация размера войск для более быстрой мобильности и более эффективной борьбы, повышение уровня образования и интеграция возможностей цифровизации и искусственного интеллекта.

Одним из наиболее важных элементов этой стратегии, которая представляет собой более мягкую, но эффективную, и которая позволяет войскам на местах строить свои собственные планы и включает подготовку, особенно против элементов, поддерживаемых Ираном, является использование эффективных разведывательных возможностей Израиля.

Анализируя конфликты вокруг границы с сектором Газа, можно увидеть, что Израиль потерпел неудачу во всех трех измерениях, которые составляют основу его подготовки. Первый из них: сдерживание Израиля против Хезболлы, которое, кажется, еще больше ослабло после соглашения об ограничении морской юрисдикции с Ливаном и последующих событий, полностью рухнуло в глазах группировок Газы в результате послед-

них событий. Второе измерение – это слабость Израиля в разведывательной сфере. Израиль не мог предвидеть нападения, которые произошли в рамках плана, который был тщательно подготовлен, а также не знал о возможностях, созданных палестинскими организациями, и он не мог предоставить разведывательные данные. Аналогично, израильские танки, уничтоженные дронами, являются показателем в этом отношении. Наконец, доминирование ХАМАСа в регионах, окружающих Газу, в течение определенного периода времени и наличие современной бронетехники в окрестностях показывают, что израильская армия в этом регионе не могла противостоять нападкам этой организаций. Вторжение группировок Газы в жилые районы лишает армию возможности использовать авиацию для обеспечения безопасности израильского гражданского населения. Это переводит конфликт в формат «городской войны» и затрудняет оттеснение группировок Газы обратно в рукопашный бой.

Можно сказать, что стратегия, координируемая группировками Газы, аналогична плану «переноса конфликта на территорию Израиля», объявленному лидером «Хезболлы» Хасаном Насраллой различными способами в период после 2010 года. В 2018 году утверждалось, что шесть туннелей, обнаруженных в ходе израильской операции «Северный щит», будут использоваться для проникновения в Израиль в случае возможной напряженности после интенсивных ракетных обстрелов. Поэтому в сложившейся ситуации является серьезным противоречием то, что такая слабость проявляется на юге, в то время как внутри израильской армии ведется детальная подготовка. С другой стороны, считается, что позиция, которую Хезболла займет в ближайшие дни или даже часы, имеет большое значение для хода конфликта. Потому, когда «Хезболла» вступает в устранение конфликта, Израиль ждут большие трудности в устранении много фронтальных асимметричных угроз. Израильская армия более развита, чем группировки в Газе, с точки зрения инвентаря и опыта. Сценарий войны на несколько фронтов, к которому Израиль еще не готов, потенциально может вызвать хаос, который может полностью повлиять на уравнение безопасности в регионе. Хотя представитель израильской армии заявил, что командование Северного фронта готово к линии границы, можно сказать, что этой организации будет недостаточно с точки зрения ракетного потенциала.

Одной из проблем, на которую больше всего обратило внимание правительство во главе с премьер-министром Биньямином Нетаньяху и его крайне правыми религиозными сионистскими партнерами, была проблема безопасности. Эта риторика использовалась на протяжении всего года, особенно в контексте операций по обеспечению безопасности, направленных против палестинских группировок в Дженине, Наблусе, Тулькариме и прилегающих районах, а также в контексте ливанской «Хезболлы». Во время обсуждений судебной реформы Нетаньяху было выдвинуто множество аргументов в пользу того, что судебная власть препятствует разработке политики безопасности. Теракт 7 октября нанес серьезный удар по всем политическим аргументам, выдвинутым правительством в отношении безопасности. Организации Газы сохраняли свое доминирование в Израиле в течение всего дня и не могли быть удалены из регионов, где они находились. С другой стороны, возможно, что Нетаньяху обвинит антиреформаторскую левую/левоцентристскую оппозицию в ослаблении армии посредством протестов и вовлечения резервных элементов в политику, и разовьет риторику о том, что это сыграло свою роль в произошедшем. Однако в любом случае можно сказать, что израильское правительство ждут трудные дни. Можно также констатировать, что антиреформаторские общественные движения, продолжавшиеся около 10 месяцев, прекратятся и эти дискуссии какое-то время останутся в тени.

Данное нападение представляет собой одну из величайших травм в истории Израиля. Вторым шагом израильской армии, которая в настоящее время предпринимает усилия по очистке городов Израиля от группировок Газы, станет очередная наземная операция против Газы. Хотя было объявлено, что солдаты резерва были призваны на службу и начали подготовку, видно, что некоторые точки в секторе Газа также подвергались бомбардировкам. В этом контексте можно констатировать, что сухопутной операции особого ждать не придется и что операция, которая будет проведена в секторе Газа, будет крайне жесткой. Кроме того, Израиль принимает не-

которые меры предосторожности в отношении арабов на Западном Берегу и в Израиле. Предполагается, что северная граница, которая является основным направлением подготовки Израиля, будет тщательно контролироваться в ближайшие месяцы. Кроме того, считается возможным серьезный пересмотр и структурные реформы в армии и разведывательной бюрократии.

**ЛИТЕРАТУРА:**


*1. Alterman, E. (2022). We Are Not One: A History of America's Fight Over Israel. Basic Books.*

*2. Loewenstein, A. (2023). The Palestine Laboratory: How Israel Exports the Technology of Occupation Around the World. Verso.*

*3. Savaşan, F., Türkdoğan, K. A., Ceylan, E., Kavak, G., Rakipoğlu, M., & Aydın, Ö. (2023). Antisemitizm Suçlamasının Araçsallığı ve Batıdaki Akademik Özgürlüğe Etkisi. İslam Ülkeleri Akademisyenler ve Yazarlar Birliğine (AYBİR).*

*4. Israel Academy of Sciences (2023, October 10). A letter by President of the Academy, Prof. David Harel, to Presidents of fellow science academies abroad and heads of international science organizations.*

*5. The International Press Institute. (2023, November 21). Gaza war: As killings of journalists continue, IPI reiterates call to protect safety of the press and civilians. International Press Institute.*


**ПАЛЕСТИНО-ИЗРАИЛЬСКИЙ КОНФЛИКТ 7 ОКТЯБРЬ 2023 ГОДА**

**Резюме**


В статье разговор идет о палестино-израильском конфликте, имеющим политические, межэтнические и религиозные черты и продолжающемся по сегодняшний день. Палестино-израильский конфликт является составной частью арабо-израильского конфликта.

В статье определен предмет этого противостояния – территории, которые раньше входили в Подмандатную Палестину, в 1920-1947-х годах управляющуюся Лигой Наций Великобритании.

В статье кратко описана история этого противостояния, и были кратко изложены события 7 октября, когда движение Хамас атаковало Израиль.


**Ключевые слова:** *конфликт, армия, Израиль, противостояние, Палестина.*


**Aslanova Leili Gashgai**

***Academy of Public Administration under the President of the Republic of Azerbaijan, master student, 2 course***


**PALESTINO-ISRAELI CONFLICT OCTOBER 7, 2023**

**Summary**


The article talks about the Palestinian-Israeli conflict, which has political, interethnic and religious features and continues to this day. The Palestinian-Israeli conflict is an integral part of the Arab-Israeli conflict.

The article defines the subject of this confrontation - the territories that used to be part of Mandatory Palestine, which was governed by the League of Nations of Great Britain in the 1920s-1947s.

The article briefly described the history of this confrontation, and summarized the events of October 7, when the Hamas movement attacked Israel.


**Key words:** *conflict, army, Israel, confrontation, Palestine.*


**Aslanova Leyli Qaşqay**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Magistratura, 2-ci kurs***


**FƏLƏSTİN-İSRAİL MÜQAVİLƏSİ 7 OKTYABR 2023-cü il**

**Xülasə**


Məqalədə siyasi, millətlərarası və dini xüsusiyyətlərə malik olan və bu günə qədər davam edən Fələstin-İsrail münaqişəsindən bəhs edilir. Fələstin-İsrail münaqişəsi ərəb-İsrail münaqişəsinin tərkib hissəsidir.

Məqalədə bu qarşıdurmanın predmeti - 1920-1947-ci illərdə Böyük Britaniya Millətlər Liqası tərəfindən idarə olunan Məcburi Fələstinin tərkibində olan ərazilər müəyyən edilir.

Məqalədə bu qarşıdurmanın tarixi qısa şəkildə təsvir edilib və HƏMAS hərəkatının İsrailə hücum etdiyi 7 oktyabr hadisələri ümumiləşdirilib.


**Açar sözlər:** *münaqişə, ordu, İsrail, qarşıdurma, Fələstin.*

Tarix və Antropologiya

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.3.81.0105

**BƏXTİYAR ƏHMƏDOV**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi*
*E-mail: emlak2017@mail.ru*

# GÖYÇƏ MAHALINDA YAŞAYAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI VƏ SOYQIRIMININ MƏNBƏŞÜNASLIĞI

Rusiya tərəfindən Cənubi Qafqazın işğalı siyasətinin reallaşdırıldığı XIX əsrin əvvəllərindən etibarən çar hökuməti tərəfindən başladılan, daha sonra onun varisi Sovet hökuməti tərəfindən daha qəddar üsullarla davam etdirilən Azərbaycanın ərazi bütövlüyünə qəsd, milli mənafelərimizin tapdanması, tarixi sərhədlərimizin kobudluqla dəyişdirilməsi kimi məqsədyönlü, ardıcıl və planlı şəkildə həyata keçirilən siyasətin mühüm tərkib hissəsi kimi Qərbi Azərbaycanda Göyçə gölü ətrafında, İrəvan bölgəsində yaşayan azərbaycanlı türk əhalinin öz yerlərindən didərgin salınması, onlara qarşı zorakı deportasiya və soyqırımı siyasətinin həyata keçirilməsi məsələlərinin araşdırılması öz aktuallığını və əhəmiyyətini vətən tarixşünaslığında qorumaqdadır.

Erməni millətçi dairələri və onları himayə edən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən mərhələli şəkildə 1905-1906, 1918-1920, 1948-1953, 1988-1994-cü illərdə həyata keçirilmiş kütləvi qırğınlar, soyqırımlar əslində Azərbaycana və azərbaycanlılara qarşı yönəlmiş total miqyaslı etnik düşmənçilik siyasətinin tərkib hissəsidir və hələ də davam etməkdədir. Bu siyasətin əsl mahiyyətini anlamaq və dürüst nəticə əldə etmək zərurəti problemin tarixi köklərini, gedişini dönə-dönə, dərin həssaslıqla araşdırmağı vacib məsələ kimi ortaya çıxarır.

Problemin mənbəşünaslıq bazası olduqca genişdir. Bura Rusiyanın, Türkiyənin və Azərbaycanın arxivlərindən əldə edilmiş materiallardan tutmuş, XIX-XX əsrin əvvəllərində nəşr olunan müxtəlif məcmuələrə, icmallara, mətbuat orqanlarının məlumatlarına, hadisələrin müasirlərinin məlumatlarına və s. qədər geniş mənbələr daxildir.

Erməni vilayətinin xəzinə əmlakı və gəlirləri üzrə idarəsinin keçmiş sədri, Rusiya imperator dəftərxanasında məsləhətçi işləmiş İ.Şopen tərəfindən qələmə alınmış “Rusiya imperiyasına birləşdirilməsi dövründə Erməni vilayətinin vəziyyəti” adlı əsəri [18] Göyçə gölü ətrafı ərazilərinin XIX-XX əsrin əvvəllərindəki real vəziyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Altı hissədən ibarət olan bu əsər hər nə qədər Rusiya imperiyasının böyük hegemonçuluq siyasətinə, müstəmləkəçilik mənafeyinə uyğun şəkildə yazılmış olsa da, XX əsrin əvvəllərində Göyçə gölü ətrafı ərazilərin daxil olduğu İrəvan əyalətinin coğrafi və topoqrafik vəziyyəti (sərhədləri, dağları, su hövzələri, torpaqları), siyasi vəziyyəti və inzibati bölgüsü, idarəçilik sistemi, əhalisinin say və sosial tərkibi, dini inancları, burada yerləşən məscid, monastr və kilsələr, təbii sərvətləri, əhalisinin məşğuliyyəti, dövlət vergiləri və s. haqqında geniş məlumatlar əldə etməyə imkan verir. Rusiya hakimiyyəti dövründə İrəvan əyaləti 4 dairədən – İrəvan, Şərur, Sürməli və Sərdərabad təşkil olunmuşdu. İrəvan dairəsinə Göyçə, Dərəçiçək, Qırxbulaq mahalları, Şərur dairəsinə Şərur, Gəmibasar, Vedibasar, Zəngibasar mahalları, Sürməli dairəsinə Sürməli, Dərəkənd-Parcanis mahalları, habelə Gəmibasar, Vedibasar mahallarının Araz çayının sağ sahilinə daxil olan əraziləri, Sərdarabad dairəsinə isə Səədli, Talın, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran mahalları daxil idi [18, 447]. Şopen öz əsərində bəhs olunan dövrdə əyalətin əhalisinin ümumi sayının 115 155 nəfərdən (20 920 ailə) ibarət olduğunu bildirir. Onlardan türk-müsəlman əhalisi 49875 nəfər (9196 ailə), yerli ermənilər 20073 nəfər (3498 ailə), İrandan köçürülən ermənilər 23568 (4559 ailə), Türkiyə ərazisindən köçürülən ermənilər isə 21639 nəfər (3674 ailə) təşkil edirdi [18, 635-638]. Bu dövrdə İrəvanda provoslav və qriqoryanlara aid 6 kilsənin (Pyotr və Pavel, Müqəddəs Yekaterina, Müqəddəs Sergey, Müqəddəs Georgi, Müqəddəs İohann, Müqəddəs Apostol Anania), müsəlmanlara aid 10 məscidin (Zalı xan, Novruzəli bəy, Sərtip xan, Hüseynəli xan, Hacı İmamverdi, Hacı Cəfərbəy və d. 4 məscid) olduğu bildirilir [18, 686-687]. Hər iki fakt sübut edir ki, XIX əsrin əvvəllərinə qədər Göyçə ətrafı ərazilərin əhalisinin mütləq çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Göründüyü kimi Rusiya işğalından sonra bölgəyə İrandan və Türkiyədən çoxsaylı erməni ailələri köçürülmüş,

əyalətin bütün yararlı torpaqları onların ixtiyarına verilmiş, azərbaycanlı əhali diskriminasiyaya məruz qalaraq bu ərazilərdən sıxışdırılmış və nəticədə etnik-demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişmişdir. Məsələn Qafqaza aid məlumatlar toplusunda İrəvan quberniyasında məskunlaşan əhali haqqında məlumatlar əks olunub. Həmin məlumatlardan bəlli olur ki, XX əsrin əvvəllərində quberniya əhalisinin ümumi sayı 538730 nəfər idi. Onlardan 11918 nəfər (2551 ailə) İrəvan şəhərində, 84174 nəfər (11457 ailə) İrəvan qəzasında, 83039 nəfər (11109 ailə) Eçmiədzin qəzasında, 58487 nəfəri (7 630 ailə) Sürməli qəzasında, 51791 nəfər (6886 ailə) Şərur-Dərələyəz qəzasında, 19976 nəfər (3118 ailə) Aleksandropol şəhərində 87639 nəfər (9943 ailə) Aleksandropol qəzasında, 5363 nəfəri (804 ailə) Yeni Bəyazid şəhərində, 67799 nəfər (7489 ailə) məskunlaşmışdı. Yerdə qalan əhali Naxçıvan və Ordubad qəzalarında yaşayırdılar [17, 86-87].

Rusiya İmperiyası "Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin xəbərləri" adlı illik məcmuələrdə XIX-XX əsrin əvvəlləri dövrü üçün Göyçə gölü hövzəsi haqqında geniş məlumatlar əks olunub [14]. A.Y.İoakimovun məcmuədə əks olunan məqaləsində göstərilir ki, Türkiyənin Qars və Ərzurum vilayətlərindən köçürülən ermənilər tərəfindən keçmiş Gümrü kəndinin yerində imperatriça Aleksandra Feodorovnanın şərəfinə Aleksandropol şəhər-qalası inşa edildi [16, 1-2]. "1900-cü ildə Qafqazda geodeziya və topoqrafiya işləri" adlı məqalədə İrəvan quberniyasının İrəvan və Yeni Bəyazid əyalətlərinə dair təsvirlər var. Həmin məlumatlarda Göyçə gölü ətrafı kəndlərin əksəriyyətinin erməni kəndləri olduğu, yalnız Məzrin düzünün cənub-şərq qurtaracağına doğru bir neçə türk-müsəlman kəndinin olduğu, topağın münbitliyi və məhsuldarlığı sahəsində bu ərazilərdə əhalinin kifayət qədər varlı yaşadığı, bölgəyə Türkiyədən çoxlu erməni ailələrin köçürüldüyü bildirilir [13, 210-211]. Bu isə onu göstərir ki, cəmi bir neçə on il ərzində çar hökumətinin etnik təmizləmə siyasəti öz bəhrəsini vermiş və bu ərazilərdə yaşayan azərbaycanlılar öz yurdlarından didərgin salınmışlar.

Məcmuədə diqqətçəkən maraqlı məlumatlardan biri Göyçə gölünün adının necə yaranması haqda xalq arasında gəzən deyimdir. Guya bir gün hökmdar Teymur Məlik Mənüçöhrdən var-dövlətinin nə qədər olduğunu soruşur. O da cavabında bildirir ki, "hökmdar sağ olsun, mənim var-dövlətim o qədər çoxdur ki, bütün Məzrin düzünü (Göyçə ətrafı torpaqları) kətan yağı ilə suvara bilərəm". Bunu eşidən Teymur heyrətlə "çox gözəl (çox göyçək)" deyə qışqırır və elə o zamandan da Yeni Bəyaziddəki göl ətrafları ilə birgə Göyçə adlanır [14, 80-81].

Məcmuədə Alagöz yaylağı və Araz çayı arasındakı torpaqları əhatə edən Göyçə əhalisinin etnik tərkibinə də toxunulur: "Bu ərazinin əhalisi etnik tərkibinə görə çox müxtəlifdir. Cənub-qərbdə əksərən ruslar (provaslavlar, molokanlar, duxoborlar) və ermənilər, şimal-şərqdə ermənilər, gürcülər, yunanlar və türklər yaşayır. Ruslar taxılçılıq, bağçılıq, çarvadarlıqla, digər əhali qrupları isə əvvəlki kimi əkinçilk və bağçılıqla məşğul olur" [14, 48].

Qafqazın mülki işlər üzrə rəisi general-adyutant knyaz Dondukov-Korsakovun tapşırığı əsasında E.Veydenbaum tərəfindən hazırlanan Qafqaza dair soraq kitabçasında Qafqaz vilayətinin sərhədləri, məkan və inzibati bölgüsü, oroqrafiyası (iqlim və relyef xüsusiyyətləri), hidroqrafiyası, dəniz, göl və çayları, irriqasiya sistemləri, əhalisinin sosial və etnik tərkibi nəzərdən keçirilib. Kitabçada əks olunan məlumatlara görə, Qafqaz vilayətində ermənilər əsasən İrəvan quberniyasında məskunlaşıblar və burada onlar əhalinin 52%-ə qədərini təşkil edirlər [11, 78]. Lakin, müəllif də təsdiq edir ki, "heç də bütün Qafqaz erməniləri buranın yerli əhalisi deyil. Rusiya hakimiyyətinin himayəsi ilə bir neçə dəfə Türkiyə və İran ərazisindən buraya erməni ailələri köçürülmüşdür. 1828-ci ildə İranla müharibə başa çatdıqdan dərhal sonra bu əraziyə 40 000 erməni köçürülmüşdü. Hökumətin himayəsi ilə əllərində böyük kapital cəmləşdirən ermənilər vilayətin bütün ticarət və sənayesini inhisara alaraq əkinçi əhalini iqtisadi asılılıqda saxlayırlar" [11, 78].

Qeyd olunan dövrdə Zaqafqaziya vilayətinin dövlət kəndlilərinin sosial- iqtisadi vəziyyətini və etnik tərkibini öyrənmək üçün materiallarda əks olunan V.A. Parviçkavoya [15] məxsus tədqiqatlarda bütövlükdə İrəvan quberniyası əhalisinin sayı, dini tərkibi, torpaq təminatı, xəzinəyə məxsus meşə torpaqları, yaylaq və qışlaqlar, əhalinin ödədiyi torpaq töycüsü, ev heyvanlarının sayı və s. məsələlərə toxunulub.

Mövzu araşdırılarkən Azərbaycan Respublikasının müxtəlif arxivlərində olan İrəvan quberniyasında Azərbaycan türklərinin soyqırımı ilə bağlı çox miqdarda rəsmi sənədlərdən istifadə edilib.

Bəlli olduğu kimi, 1918-ci ildə M.Ə.Rəsulzadənin

rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Müsəlman Milli Şurası real siyasi vəziyyəti nəzərə alaraq 1918-ci ildə may ayının 29-da keçirilən iclasında İrəvanın siyasi mərkəz kimi Ermənistana verilməsi haqqında qərar qəbul edir. Dövrün arxiv sənədlərindən bəlli olur ki, İrəvan müsəlman Milli Şurası bu qərara dərhal etiraz edir. İyunun 1-də keçirilən Milli Şuranın iclasında Şuranın İrəvandan olan üzvləri Mir Hidayət Seyidov, Bağır Rizayev və Nərimanbəy Nərimanbəyov yazılı surətdə bu qərara etiraz edirlər. Milli Şura İrəvanda baş verən mürəkkəb siyasi hadisələri yerində öyrənmək üçün nümayəndə heyəti göndərməyi qərara alır [4].

Milli Şuranın iyunun 13-də keçirilən iclasında ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlar barədə İrəvandan gələn xəbərlər müzakirə olunur. İrəvan quberniyası ərazisindən didərgin düşənlərin sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kəndi dağıtdığı bildirilir. Milli Şura İrəvan Quberniyasında qaçqınlara maddi yardım göstərmək üçün nümayəndə göndərməyi qərara alır. Həmçinin İrəvan quberniyası ərazisində olan türk qoşunları komandanlığından xahiş edilmişdir ki, qaçqınların öz yerlərinə qayıtması üçün erməni hökumətinə təsir göstərsin [3].

Göründüyü kimi, İkinci Dünya müharibəsindən sonra, xüsusilə də “soyuq müharibə” dövründə Moskva xaricdən müxtəlif millətlərin nümayəndələrinin yaşamaq üçün ölkəyə gəlməsinə önəm verir, bu prosesdən guya sosializm sisteminin üstünlüyünün təbliğ olunması üçün istifadə edirdi. Ermənilər bu məqamdan istifadə edərək guya xaricdən çoxlu sayda erməninin Ermənistana gəlmək istəməsi və onların yerləşdirilməsi üçün ərazilərin kifayət etməməsi və bunun üçün də oradan azərbaycanlıların çıxarılıb Azərbaycana göndərilməsinin zəruriliyi haqda Moskva rəhbərliyi qarşısında məsələ qaldırdılar. Moskva dərhal bu planla razılaşdı və 1947-1953-cü illər ərzində 100 mindən artıq azərbaycanlı əsrlərlə yaşadıqları yurdlarından deportasiya edildilər. Deportasiya edilən azərbaycanlıların yerinə xaricdən 90 mindən artıq erməni köçürüldü. Bununla “Ermənistan” deyilən ərazilərdə ermənilərin sayının əsasən kənardan köçürülmə ilə artırılması ənənəsi davam etdirilirdi. Köçürülən ermənilərin əksəriyyəti şəhərlərdə məskunlaşdılar, azərbaycanlıların zorla çıxarıldığı kəndlərin isə xeyli hissəsi boş qaldı. Əsas məqsəd xaricdən gələn ermənilər üçün yer hazırlamaq deyil, azərbaycanlıları oradan çıxarmaq idi. Bu proses Sovet imperiyası dövründə müxtəlif adlar altında davam etdirilmişdir.

1919-cu il 9 sentyabr tarixdə Azərbaycanın İrəvandakı İctimai İşlər Nazirliyinin təmsilçisi T.Makinskinin Azərbaycan İctimai İşlər Naziri V.V.Klenevskiyə göndərdiyi raportda qeyd olunur: “Erməni qətliamlarından qaçdıqları səbəbilə acınacaqlı vəziyyətə düşən müsəlmanların öz kəndlərinə dönə bilmədiklərinə görə çox sıxıntılı günlər yaşadıqları və hətta aclıqdan ölənlərin olduğu, qış aylarında bu ölümlərin artacağı, sağlamlıq probleminin olduğu, İrəvan, Eçmiədzin, Novo Bəyazid, Sürməli, Zəngəzur əyalətləri başda olmaqla, bu bölgələrə təcili olaraq qida və sağlamlıq yardımının çatdırılması haqqında göndərilən raport”. 09.09.1919 BCA. 930 01.2-31-3 [7].

Digər bir rəsmi müraciətdə isə deyilir: İrəvan müsəlmanlarının qorunma istəkləri. İrəvanın müsəlman cəmiyyəti İdarə Təşkilatının rəhbəri T.Makinskinin Azərbaycan hökumətinin rəhbərinə və Xarici İşlər Nazirinə İrəvandakı müsəlmanların müdafiəsi üçün aktiv fəaliyyətə keçilməsini istəyən müraciəti. 18.01.1919 BCA. 930 01.4-60-1[5].

### Ermənilərin İrəvandakı müsəlmanlara qarşı hücumları

Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçi yardımçısı Vəkilovun Müttəfiq Dövlətlər Yüksək Komissarı Haskelə göndərdiyi, ermənilərin İrəvan bölgəsi müsəlmanlarını silah gücüylə öz idarəsi altına almağa çalışdıqları, bu məqsədlə erməni əsgəri birliklərinin müsəlman kəndlərinə hücumlar tərtib edərək oraları yıxdıqları, yüzlərcə insanı mültəci vəziyyətinə saldıqları, bu hücumların və qətliamların bir an əvvəl durdurulması tələbini bildirən teleqraf. 30.12.1919 BCA. 930 01. 4-56-5 [2].

Ermənilərin əsir aldıqları müsəlman qadın və qızların azad edilmələri üçün müttəfiq dövlətlərin ordu komandanlığı ilə görüşülməsi barədə Azərbaycanın Gürcüstandakı diplomatik təmsilçi yardımçısı F.Vəkilovun Azərbaycan Xarici İşlər Nazirinə göndərdiyi yazı. Yazıda ermənilər tərəfindən əsir alınıb zorla İrəvana aparılan müsəlman qadın və qızların çirkin və alçaldıcı hərəkətlərə məruz qaldıqlarını general Biçə anladılmasından sonra general Biçin İrəvanda olan müttəfiq dövlətlərin ordu komandanlığına bir teleqraf göndərərək əsirlərin azad edilmələrini əmr etdiyi bildirilir. 31.03.1919 BCA. 930 01.4-64-1 [6]. Bu rəsmi sənədlərdən də göründüyü kimi, 1919-cu ildə ermənilərin azərbaycanlılara qarşı vəhşi hərəkətləri davam etməkdə idi.

XX əsrin əvvəllərində nəşr olunan dövri mətbuat da ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınları işıqlandırmaq baxımından mühüm rol oynayır. 1904-1905-ci illərdə Ə. Hüseynzadə və Ə. Ağayevin redaktorluğu ilə nəşr olunan "Həyat" qəzetinin demək olar ki, bütün nömrələrində Bakı, İrəvan, Naxçıvan, Şuşa və s. kimi azərbaycanlıların yaşadıqları ərazilərdə törədilən erməni vəhşilikləri haqqında adıçəkilən bölgələrə göndərilən qəzet müxbirlərin məlumatları əks olunub [9].

Ə.Ağayevin "Həyat" qəzetində nəşr olunan məqaləsində ermənilərin müsəlman millətinə etdiyi böhtanlardan bəhs edilir. Ermənilərin uydurmalarına görə guya müsəlmanlar ermənilərin boynunda bir yük olaraq onların geri, cəhalətə çəkir, inkişaf etməyə qoymur. Müəllif bütün bunların böhtan olduğunu söyləyərək göstərir ki, bir çox illər ermənilər daim gürcülərin, müsəlmanların tərəqqi və inkişaf etməsini istəməmişlər, çünki onlar özləri Qafqazda ağalıq etmək iddiasındadırlar. Buna görə onlar "Həyat" qəzetinin nəşrini hay-küylə qarşıladılar. "Tiflisski listok" və "Mşaq" qəzetləri bar-bar bağırırdılar ki, "Həyat" qəzeti islamlaşdırmaq siyasəti aparır. Bununla onlar millətimizi rus hökumətinin gözündən salmaq siyasəti yeridirdilər. "Mşaq" son nömrələrinin birində yenə bir iftira söyləyir: "Guya neçə gündür Qarabağ müsəlmanları ermənilərlə ona görə vuruşur ki, Ə.Ağayev bu günlərdə Şuşada olmuş və müsəlmanları ermənilərə qarşı qətliamlara təhrik etmişdir" [1].

1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetində də İrəvan müsəlmanlarının soyqırımı ilə əlaqədar bir çox materiallar dərc edilmişdir. Qəzetdə Gəncə qəzasının dağlıq hissəsinin 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanov Gəncə qəza rəisinə ünvanladığı 1919-cu il 22 aprel tarixli məlumatında yazırdı: "Aprelin 13-dən etibarən Ararat respublikasının qoşunları Yeni Bəyazid qəzasının Göyçə rayonundakı müsəlman kəndləri üzərinə hücum etmişlər. Onların məqsədi müsəlman-türk əhalini həmin ərazidən qovub çıxartmaq olmuşdur. Ermənilərin hücumları nəticəsində bölgənin 60 mindən çox əhalisi olan 22 kənd dağıdılmış və yandırılmışdır... Ermənistan Respublikası öz məqsədinə çatmışdır, artıq Göyçə rayonunda müsəlman qalmamışdır. Yeni Bəyazid qəzasının 84 müsəlman kəndi məhv edilmişdir ki, onlardan da 22-si aprelin 13-20-si arasında dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorça, Ayaq Şorça, Ağkilsə, Zod, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Canəhməd, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə və digər kəndlərdə 15 min evin əhalisinin mal-mülkü talan edilmiş və ermənilərə qismət olmuşdur [8]. Həmçinin qəzet həmin faciə barədə ətraflı məlumat verərək ürək ağrısıyla bildirmişdi: bədbəxt müsəlman əhalisi erməni qoşunlarının top atəşi altında amansızcasına öldürülür. Erməni hökuməti öz müsəlman təbəələrinin heç bir xahişinə, yalvarışına baxmayaraq vəhşicəsinə onları qırır. Erməni qoşunlarının əlinə keçən müsəlmanlara daha ağır işgəncələr verilir, uşaqları, qadınları və qocaları ağlasığmaz işgəncələrlə öldürür, cavan qadınlara və qız uşaqlarına isə dəyməyib əsir götürürlər. Erməni quldurları qırğından xilas olub qaçan müsəlman əhalisini izləyib öldürürdü. Göyçə, qırğınından xilas olan əhalinin çox bir qismi Gəncə qəzasının ərazisinə pənah gətirir, başlarına açılan soyqırımını danışırdılar.

Beləliklə, tarixi mənbələr aydın göstərir ki, bu dövrdə Ararat respublikası Göyçə rayonunda bütün müsəlman kəndlərini məhv etmişdi. Yeni Bəyazid qəzasında isə 84 müsəlman kəndi bütünlüklə dağıdılmış, əhalisi amansızcasına qırğına məruz qalmışdı.

Azərbaycan qəzetinin digər saylarında da 1918-ci il qırğınları haqqında məlumat verilmişdir. İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15 155 təsərrüfatı təmsil edən 199 kənd (10 0626 nəfər) göstərilmişdi. İrəvan hadisəsi Seymin 1918-ci il 5, 7, 19, 20 fevral iclaslarında müzakirə olunduqdan sonra, vəziyyəti öyrənmək üçün oraya nümayəndə heyəti göndərilmişdi. Təhqiqat zamanı nümayəndə heyəti İrəvan vilayətində 211 türk kəndi və 100 min nəfərə qədər əhalinin məhv edildiyini müəyyənləşdirmişdi. 1918-ci ilin yanvar ayından başlamış, ta türklər İrəvan quberniyasına gələnə qədər, erməni-daşnak qoşun birləşmələri İrəvan quberniyasında 300-dən çox müsəlman kəndini dağıtmış, 100 minlərlə türk mənşəli xalqları xüsusi amansızlıqla qətlə yetirərək soyqırımı törətmiş, müsəlman əhalisinin əmlakını soyğunçuluq və quldurluq yolu ilə talan etməklə ağır cinayətlər törətmişlər [12].

Azərbaycanlıların Qərbi Azərbaycan bölgəsindən deportasiya olunması prosesi müasir dövr mətbuatında da geniş surətdə işıqlandırılmışdır. Bu barədə "Vətən səsi" qəzetində çap olunan məqalədə yazılır: "1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan ərazisində milli münasibətlərin kəskinləşməsi üzün-

dən bir sıra rayonlarda qarət, yanğın və ictimai qayda-qanuna zidd olan digər hallarla müşaiyət olunan kütləvi iğtişaşlar baş vermişdir... Bu hərəkətlər nəticəsində 21 nəfər öldürülmüş (20 azərbaycanlı və bir erməni), 4 nəfər sonradan ölümlə nəticələnmiş ağır bədən xəsarəti almışdır. Qətl hadisəsi üzrə 8 cinayət işi və zərərçəkənlərin ölümü ilə nəticələnmiş ağır bədən xəsarəti üzrə dörd işin istintaqı başa çatdırılaraq məhkəməyə göndərilmişdir. Əliyevlər barəsindəki cinayət işinə bəraət qazandırıcı əsaslar üzrə xitam verilmişdir, belə ki, istintaq bu qənaətə gəlmişdir ki, onun Mirzoyanı öldürməsi son zəruri müdafiə həddindən baş vermişdir. Bu qəbildən məhkəməyə göndərilən üç qətl və ağır bədən xəsarəti yetirilməsi üzrə iki cinayət işi üzrə günahkarlar müxtəlif müddətlərdə azadlıqdan məhrum edilmişlər. Bir neçə cinayət işi əlavə istintaqa qaytarılmışdır. Ermənistan Prokuroruna tapşırılmışdır ki, bu işlər üzrə aparılan istintaqın tamlığını və obyektivliyini yoxlasın, onun başa çatdırılması üçün tədbirlər görsün. Günahkarların müəyyənləşdirilməsi üzündən istintaqın xitam verilmiş işləri araşdırmaq və istintaqı təzələmək məsələsinin mümkünlüyünü öyrənmək tapşırığı da verilmişdir. Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş 91 müttəhim barəsində cəmisi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfər müxtəlif müddətdə azadlıqdan məhrum edilmişdir. SSRİ Prokurorluğu cinayətlərin açılmasına nəzarət edir və zəruri kömək göstərir" [10].

Qafqaz canişini Baş İdarəsinin Arxivində toplanmış materiallar da XX əsrdə Göyçəgölü ətrafı ərazilərdə baş verən ictimai-siyasi proseslər, ermənilərin bölgənin müsəlman əhalisinə qarşı törətdikləri cinayətlər haqqında müəyyən məlumatlar əldə etməyə imkan verir. Məsələn, general-mayor Lazerev Qafqaz qoşunlarının komandanı Knorrinqə göndərdiyi raportunda göstərirdi ki, Pəmbək əyalətinin 14 kəndindən təxminən 5-6 min əhali bölgəni tərk edərək İrəvan xanlığı ərazisinə sığınmışlar.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Ağayev Ə. Böhtan və iftiranın intihası. (qarelərimizdən əfvi xahiş ediriz). 23 iyun 1905 №-14.*

*2. ARDA, 897-1-38.*

*3. ARDA, fond 970, siy 1, iş 6, v.l*

*4. ARDA, fond 970, siy 1, iş l, v.52.*

*5. ARDA, 970-1-15.*

*6. ARDA, 970-1-54.*

*7. ASPGHDA. 277- 2-58*

*8. «Azərbaycan» qəzeti. 17 may 1919-cu il.*

*9. «Həyat» qəzeti. 1905-1906-cı illər. Müxtəlif nömrələr.*

*10. Həsənli H. "Faciələrin xronikası yaradılmalıdır" məqaləsi, "Vətən səsi" qəzeti, 1 avqust 1991-ci il.*

*11. Вейденбаум Е.Г. Путеводитель по Кавказу. – Баку: Хатун Плюс, 2010. - 422с.*

*12. Газ. «Азербайджан», №205, 1919.*

*13. Известия Кавказсково Отдела Императорского Русского Географического Общество. Том XIV. 1901.*

*14. Известия Кавказского отдела Императорского Русского географического общества. Том 13. 1900 год. № 2-7.*

*15. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 1: Вып. 3; Экономический быт гос. крестьян северо-восточной части Кутаисского уезда; Экономический быт гос. крестьян юго-западной части Новобаязетского уезда Эриванской губернии / Исслед.: Ф.Т. Маркова, А.В. Парвицкого. Тифлис: Тип. А.А. Михельсона, – 1885. – с. 209-381 (840 с.).*

*16. Палео-географические заметки о бывщем селении Гюмри. Известия Кавказсково Отдела Императорского Русского Географического Общества. Том XV. 1902.*

*17. Сборник сведений о Кавказе. Том V, изданный под редакцией Главного Редактора Кавказского Статистического Комитета Н.Зейдлица. Тифлис: 1879, 491 с.*

*18. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. – Санкт-Петербург: В тип. Имп. Акад. наук, 1852. 1232 с.*


## XÜLASƏ


Məqalədə Rusiyanın Cənubi Qafqazın işğalından sonra çar hökumətinin, sonra isə onun varisi olan Sovet hökuməti tərəfindən daha qəddar üsullarla davam etdirilən Azərbaycanın ərazisi bütövlüyünə qəsd, milli mənafelərimizin tapdanması, tarixi sərhədlərimizin kobudluqla dəyişdirilməsi, ardıcıl və planlı şəkildə həyata keçirilən məqsədyönlü siyasətin mühüm tərkib hissəsi kimi Qərbi Azərbaycanda Göyçə gölü ətrafında, İrəvan bölgəsində yaşayan yerli azərbaycanlı türk əhalinin öz yerlərindən di-

dərgin salınması, buraya köçürdükləri erməni hayların xeyrinə onlara qarşı törətdikləri zorakı deportasiya və soyqırımı siyasətinin həyata keçirilməsi məsələləri araşdırılır.

**Açar sözlər:** *Göyçə mahalı, ermənilərin köçü, kütləvi qırğınlar, Ararat respublikası, soyqırımları, deportasiyalar.*

**Bakhtiyar Akhmedov**
***Leading researcher at the Institute of History named after A.A. Bakikhanov of ANAS***

**SOURCE STUDY OF THE DEPORTATION AND GENOCIDE OF AZERBAIJANIS LIVING IN THE GEOYCHI DISTRICT IN THE XX CENTURY**

**SUMMARY**

The article examines the actions of the Russian tsarist government, as well as its successor - the Soviet government after their occupation of the South Caucasus, which continued to change the territorial integrity of Azerbaijan with more brutal methods, grossly trampling on our national interests, changing our historical borders, as an important component of a targeted policy, consistently and systematically implemented in Western Azerbaijan in favor of the Armenians resettled here, highlighted the issues of oppression of the Azerbaijani autochthonous Turkic population living in the Goycha Mahal of the Iravan region, forced deportation and the policy of genocide against them.

**Keywords:** *Geoyche Mahal, resettlement of Armenians, massacres, Ararat Republic, genocides, deportations.*

**Бахтияр Ахмедов**
***Ведущий научный сотрудник Института истории имени А.А.Бакиханова НАНА***

**ИСТОЧНИКОВЕДЕНИЕ ДЕПОРТАЦИИ И ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦЕВ, ПРОЖИВАВЩИХ В ГЁЧИНСКОМ РАЙОНЕ в XX веке**

**РЕЗЮМЕ**

В статье рассматриваются действия Российского царского правительства, а также его преемника – Советского правительства после оккупации ими Южного Кавказа, которые продолжали изменять территориальную целостность Азербайджана более жестокими методами, попирая наши национальные интересы, грубо изменяя наши исторические границы, как важную составляющую целенаправленной политики, последовательно и планомерно реализуемой в Западном Азербайджане в пользу переселенных ими сюда армян, освещаются вопросы притеснения азербайджанского автохтонного тюркского населения, проживающего в Гейчинском магале Иреванской области, проведения в отношении него насильственной депортации и политики геноцида.

**Ключевые слова:** *Гёйчинский магал, переселение армян, массовые убийства, Араратская Республика, геноциды, депортации.*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.3.81.0111

# HEYDAR ALIYEV'S ROLE IN ELIMINATING THREATS TO THE MILITARY AND NATIONAL SECURITY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (1988-1993 YEARS)

**RENA GURBANOVA**
*"Nakhchivan" University, Faculty of Education, Department of General History and International Relations, History teacher*

*E-mail: renaqurbanova962@gmail.com*
*ORCİD: https://orcid.org/0000-0003-4210-7239*

After national leader Heydar Aliyev came to power, work was carried out to prevent threats to military and national security in the Nakhchivan Autonomous Republic. On September 7, 1991, Heydar Aliyev adopted a decision on the establishment of the State National Defense Committee of the Nakhchivan Autonomous Republic [2, s. 17]. There are two points that need to be clarified in terms of the historiography of the Motherland. The name of the created committee and the date of its creation. It should be noted that in a number of written works, this institution is mentioned as "Defense Committee of Nakhchivan Autonomous Republic" or "State Defense Committee of Nakhchivan Autonomous Republic". The study of archival documents shows that in the first decision signed by Heydar Aliyev on the establishment of this committee, its name was written as "National Defense Committee of the Nakhchivan Autonomous Republic" [2, s. 17]. However, gradually the phrase "National Defense Committee of Nakhchivan Autonomous Republic" of Nakhchivan AR was replaced by "State Defense Committee of Nakhchivan Autonomous Republic" in legal and political terminology.

Хотя восстание в Гяндже было подавлено, другие группы внутри Азербайджана снова восстали против государства. 12-13 марта 1995 года в Газахе и Агстафе, 16-17 марта в поселке 8-й километр Баку группа сотрудников Особого отряда полиции МВД подняла вооруженное восстание и совершила противоправные действия. против местных властей [5,с.195].

Несомненно, восстание возникло не внезапно, для него был ряд причин. Как известно, после восстановления государственной независимости азербайджанский народ пережил большие страдания, его земли были оккупированы со стороны армянских агрессоров.

Азербайджан дал много жертв в борьбе за территориальную целостность, перенес лишения и стойко встал на защиту своей с таким трудом завоеванной независимости. Однако некомпетентная и поверхностная политика Народного Фронта Азербайджана, воспользовавшегося доверием народа и захватившего власть, вызвала глубокий общественный протест и создала множество трудноразрешимых проблем. В результате время от времени активизировались антигосударственные силы, получившие поддержку из-за границы и заявлявшие о незаконном захвате политической власти.

Бывший премьер-министр Сурет Гусейнов, бывший заместитель министра внутренних дел Ровшан Джавадов и другие стали инструментами в руках контролируемых иностранцами Аяза Муталибова, Рахима Газиева, Аликрама Гумбатова, Вагифа Гусейнова и их покровителей. За время своего долженствования Сурет Гусейнов, отличавшийся своей некомпетентностью, не желавший устранять эти недостатки и не приобретший управленческих навыков, не только не пытался выполнять свои государственные обязанности, но и содержал незаконные вооруженные формирования, финансировал их и подстрекали их к противоправным действиям. Вместе с тем, Ровшан Джавадов вместе со

своим братом Махиром Джавадовым, бывшим прокурором Хатаинского района города Баку, контролировали личный состав, военную технику и базу подчиненного ему Отряда полиции особого назначения, осадили здание прокуратуры, применили насилие к должностным лицам, нарушили работу прокуратуры и нанесли ущерб государственному имуществу. Махир Джавадов проинформировал Сурета Гусейнова и Ровшана Джавадова о том, чтобы продолжить выполнение своих обязанностей по заранее подготовленному плану. Незаконно созданные Суретом Гусейновым и расположенные в Гяндже банды, по его указанию, захватили законную исполнительную власть, правоохранительные органы, государственно-значимые объекты в городе Гянджа и попытались продолжить противозаконные действия в других регионах. Вместе с соучастниками восстания , Ровшан Джавадов начал выступать с заявлениями и требованиями заставить власти пойти на незаконные уступки, а чиновников уйти в отставку [6, с.209].

Меры, предпринятые Президентом Азербайджанской Республики Гейдаром Алиевым для стабилизации ситуации, и решимость народа истощили силы, пытавшиеся совершить государственный переворот, и перед Президентским дворцом за короткое время собрались сотни тысяч людей на призыв президента. Народ защищал верховенство закона, демократию, законно избранного президента и государственность. Сурет Гусейнов и Ровшан Джавадов, опасавшиеся гнева народа, были вынуждены прекратить свои преступные действия. Вооруженные силы Сурата Гусейнова были разоружены, его криминальные товарищи и коллеги на различных государственных должностях арестованы.

Предотвращение попыток государственного переворота имело серьезное международное значение. Установление стабильности в стране благодаря сопротивлению властей Азербайджана давлению внешних и внутренних сил, решительным шагам, придало уверенности и доверия сотрудничеству и инвестициям в иностранные нефтяные компании, и стало одним из сильных факторов, влияющих на укрепление международных позиций Азербайджана. После этого сотрудничество с зарубежными нефтяными компаниями еще больше расширилось.

Из рассмотренных в главе вопросов видно, что одной из основных задач, стоящих перед Азербайджанской Республикой после восстановления государственной независимости, было превращение нефти, природного ресурса, в национальное достояние, решение важных социально-экономических проблем в стране и получить международные гарантии для укрепления государственной независимости. Еще в последние годы существования СССР ряд крупных иностранных компаний проявили интерес к азербайджанской нефти. Начались первоначальные переговоры о сотрудничестве. Однако переговоры столкнулись с трудностями под влиянием сложных процессов, происходящих внутри страны, и деятельности противников этого сотрудничества.

После второго прихода к власти Гейдара Алиева начался новый этап сотрудничества в нефтяной сфере. Иностранные силы, препятствующие сотрудничеству Азербайджана в нефтяной сфере, усилили свое давление. Несмотря на это, «Контракт века» был подписан усилиями Гейдара Алиева. Таким образом, создана договорно-правовая база в направлении превращения нефти, являющейся природным ресурсом, в национальный ресурс. С подписанием этого соглашения, имеющего большое историческое значение, открылась новая страница в истории государства и народа Азербайджана.

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Azərbaycan 1994: Milli dövlətçilik sınaq qarşısında, II hissə, Bakı 2002, 432s*

*2. Əliyev H.Ə. Aparıcı neft şirkətlərinin və kooperasiyalarının nümayəndələri ilə görüşdə çıxış. 17 avqust 1993 il //Müstəqilliyimiz əbədidir. I kitab,*

*3. Əliyev H.Ə. Azərbaycan milli televiziya və radiosu ilə çıxışı, 22sentyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir, II kitab*

*4. Əliyev H.Ə. Xəzər şelfində yataqların birgə işlənilməsi haqqında Bakida Azərbaycan Dovlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 20 sentyabr 1994 il// Müstəqilliyimiz əbədidir.II kitab*

*5. Qasımlı M. Azərbaycan Respublikasının tarixi(1991-2003), Bakı. BDU, 2021, 382s*

*6. Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild*
*7. Aliyev: Moskovodan izin almalıyız// "Milliyet" gazetesi, İstanbul, 1994, 19 Ekim*
*8. Aslanov A., Həsənov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara, 2005*
*9. Aleskerov V. Achieving Azerbaijans Strategic Vision: Negotiating the "Contract of the century"// Azerbaijan in global politics: Crafting Foreign Policy.*
*10. Алиев Г. Азербайджанская нефть в политике мира. Баку, «Азербайджан», 328с*
*11. Федоров Ю. Каспийская нефть и международная безопасность. Выпуск 1*

**РЕЗЮМЕ**

Цель подготовки этой статьи заключается в том, чтобы показать какую огромную роль сыграл «Контракт века» в истории Азербайджана. Через этот контракт решались не только вопросы экономические, но и политические. Благодаря наращиванию экономической мощи государства, заложенной заключением контракта, Азербайджан в результате своей последовательной политики смог вернуть оккупированные земли со стороны армянских агрессоров в ходе 44-х дневной войны. Наличие в стране богатых месторождений нефти, с одной стороны, создает для нее благоприятные возможности для влияния на большие нефтяные политические игры, а с другой стороны, многие возникающие проблемы решаются посредством нефтяного фактора. В этой статье были рассмотрены вопросы подготовки проекта контракта, сложности возникшие в ходе его заключения и после его заключения, попытки государственного переворота.

**Ключевые слова:** *Гейдар Алиев, «контракт века», нефтяной фактор, государственный переворот, экономика.*

**Əliverdiyeva Təranə Əliverdi qızı**
***Baki Dövlət Universiteti***
***Azərbaycan tarixi (humanitar fakültələr) kafedrasının doktorantı***
***E-mail: taranaaliverdiyeva@mail.ru***

**XÜLASƏ**

Bu yazını hazırlamaqda məqsəd "Əsrin müqaviləsi"nin Azərbaycan tarixində nə qədər böyük rol oynadığını göstərməkdir. Bu müqavilə vasitəsilə təkcə iqtisadi deyil, siyasi məsələlər də həll olundu. Müqavilənin bağlanması ilə əsası qoyulan dövlətin iqtisadi qüdrətinin artması sayəsində Azərbaycan apardığı ardıcıl siyasət nəticəsində 44 günlük müharibə zamanı işğal etdiyi torpaqları erməni təcavüzkarlarından geri qaytara bildi. Ölkədə zəngin neft yataqlarının olması bir tərəfdən onun böyük neft-siyasi oyunlarına təsir etmək üçün əlverişli imkanlar yaradır, digər tərəfdən isə ortaya çıxan bir çox problemlər neft amili vasitəsilə həll olunur. Bu məqalədə müqavilə layihəsinin hazırlanması, onun bağlanması zamanı və bağlandıqdan sonra yaranan çətinliklər, dövlət çevrilişi cəhdi müzakirə olunub.

**Açar sozlər:** *Heydər Əliyev, "Əsrin müqaviləsi", neft amili, dövlət çevrilişi, iqtisadiyyat.*

**Aliverdieva Tarana Aliverdi's daughter**
***Baku State University***
***PHD of the department "New and modern history of Azerbaijan (on humanitarian disciplines)"***
***E-mail: taranaaliverdiyeva@mail.ru***

**SUMMARY**

The purpose of preparing this article is to show what a huge role the "Contract of the Century" played in the history of Azerbaijan. Through this contract, not only economic issues were resolved, but also political ones. Thanks to the increase in the economic power of the state, laid down by the conclusion of the contract, Azerbaijan, as a result of its consistent policy, was able to return the occupied lands from the Armenian aggressors during the 44-day war. The presence of rich oil deposits in the country, on the one hand, creates favorable opportunities for it to influence the big oil political games, and on the other hand, many emerging problems are solved through the oil factor. This article discussed the preparation of the draft contract, the difficulties that arose during its conclusion and after its conclusion, and the coup attempt.

**Key words:** *Heydar Aliyev, "contract of the century", oil factor, coup attempt, economics.*

UOT:93(94)
DOI:10.30546/3006-0346.2024.3.81.0125

# NAXÇIVANDA MALDARLIĞIN TARİXİ COĞRAFİYASI (XIX-XX əsrin əvvəlləri)

**NURLANA ƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: aliyevanurlana71@gmail.com*

Tarixi ən qədim dövrlərə gedib çıxan maldarlıq təsərrüfatı Eneolit və Tunc dövrlərində daha da inkişaf edir, əhali təsərrüfatla daha geniş şəkildə məşğul olur. Maldarlığın meydana gəlməsi və inkişafı əsasən kişi əməyinin məhsulu kimi qiymətləndirilir. Heç şübhəsiz, bu hal kişinin ictimai rolunun əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Tunc dövründə köçəri maldarlığın formasının geniş miqyas alması, xış əkinçiliyinin yaranması ilə əlaqədar olaraq qaramaldan qoşqu qüvvəsi kimi istifadə edilmiş, iribuynuzlu heyvanların maldarlıqda üstün rolu meydana çıxmışdır.

Təsərrüfat sahələrində baş verən irəliləyiş maldarlığın əkinçilikdən ayrılmasını labüd etmişdir. Qafqaz dağlarındakı əlverişli iqlim və bol çəmənliklər əsrlər boyu maldarlığın inkişafına əsaslı zəmin yaratmışdır (2, s. 232). Maldarlığın inkişafı üçün bərəkətli otlaqların, geniş düzənliklərin, yaylaq və qışlaqların, əlverişli iqlim şəraitinin, təmiz dağ bulaqlarının olmasının böyük əhəmiyyəti var idi. Aparılan tədqiqatlardan aydın olur ki, Naxçıvan bölgəsində hələ qədim zamanlardan maldarlıq təsərrüfatı mövcud olmuş və inkişaf etmişdir. Bunu arxeoloji tədqiqatlar zamanı dəfələrlə əldə olunan at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç heykəllərinə, maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi təsdiq edir (6, s. 168 ). Heç təsadüfi deyildir ki, bölgədə maldarlığın inkişafına rəvac verən amillər, insanlığın bu təsərrüfat sahəsinə olan böyük ehtiyacından irəli gəlirdi. Belə ki, ətə, yuna, gön-dəriyə, südə, yağa və s. heyvandarlıq məhsullarına cəmiyyət daxilində böyük miqyasda tələbat meydana gəlmişdir. Tələbatın durmadan artması amili isə ərazinin sürətli inkişafından xəbər verirdi (5, s. 49).

XIX əsrdə maldarlıq və heyvandarlıqla məşğul olma səviyyəsinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisini üç qrupa ayırmaq mümkün-dür. Birinci qrup kəndlilər başlıca olaraq Naxçıvan qəzası və Şərur əyalətində yaşayırdılar. Onlar yalnız əkin sahələrini becərmək və öz tələbatlarını ödəmək məqsədi ilə az sayda mal-qara saxlayırdılar. İkinci qrupu isə birinci qrupa nisbətən əkinçiliklə bərabər, daha çox maldarlıq və heyvandarlıqla məşğul olan əhali təşkil edirdi. Bu cür kəndlilər əsasən dağətəyi bölgələrdə, birinci qrupa nisbətən əkinçilik üçün o qədər də əlverişli şəraiti olmayan ərazilərdə (Ordubad, Culfa, Şahbuz və s.) yaşayırdılar. Üçüncü qrupa daxil olan əməkçilər isə, əsasən dağ rayonlarında yaşadıqlarından onların əsas məşğuliyyətləri maldarlıq və heyvandarlıq idi (8, s. 122). Bu qrup əhali başlıca olaraq Dərələyəz mahalında məskən salmışdı.

Budaqova S. XIX əsrin 30-40-cı illərində Naxçıvan diyarında saxlanılan 69 min 953 baş qoyun və keçidən ildə 7772 pud yun əldə edilməsi fikrini irəli sürür (3, s. 59). Xanlıqlar dövrünün sonu və rus müstəmləkəçiliyinin başlanğıc illərində Naxçıvan dairəsində 15 min, Ordubad dairəsində 10 min, Şərur mahalında isə 13 min 686 baş qoyun və keçi saxlanılırdı (12, s. 93). Naxçıvan diyarında qoyunçuluğun inkişaf etməsinə imkan verən əsas amil müvafiq otlaqların çoxluğu, bəzi bölgələrdə isə, xüsusilə Dərələyəz mahalında bərəkətli torpaqların əkin üçün yararlı deyil, otlaq kimi istifadə edilməsi ilə bağlı idi (3, s. 64). Rusiya ilə birləşdirilən zaman Ordubad şəhərində azərbaycanlıların 58 camışı, 82 öküzü, 144 inəyi, 115 danası, 182 qoyunu, 38 keçisi, 102 atı, 123 ulağı, 41 qatırı olmuşdur. Həmin vaxt Ordubad şəhərinə yenicə köçürülmüş ermənilərin 1 inəyi, 1 danası, 3 keçisi, 3 atı, 1 qatırı var idi (15, s. 483-484).

XIX yüzilliyin 80-ci illərində Naxçıvan qəzasının qərb hissəsində 14610 baş, Ordubad dairəsinin hər bir kəndində min başa qədər (Qarçevan kəndində -5000 baş), Şərurda 9537 baş, Dərələyəzdə isə 31408 (cəmi:41259) baş xırdabuynuzlu heyvan bəslənilirdi (13, s. 109).

Q. Mədətovun tədqiqatları göstərir ki, xırdabuynuzlu heyvanlar arasında keçi saxlanılmasına da üstünlük verilirdi. Naxçıvan bölgəsi bütün Kiçik Qafqazda keçilərin sayına görə həmişə üstünlük təşkil etmişdir. 1899-cu ilə aid olan bir statistik məlumata görə Naxçıvanda 23355, Şərur Dərələyəzdə 6500, Ordubadda isə 227 keçi qeydə alınmışdır (16,

s. 175). I Dünya müharibəsi ərəfəsində Naxçıvanda 220 min baş qoyun və 50 min baş keçi qeydə alınmışdır (11, s. 108). Lakin XX yüzilliyin 20-ci illərində siyasi hadisələr maldarlıq təsərrüfatına da ciddi ziyan vurmuşdur. Bir məlumata görə davarların sayı 175 min başdan 60 min başa enmişdir (7, s. 116).

Heyvandarlıq təsərrüfatından bəhs edərkən qeyd edə bilərik ki, təsərrüfat həyatında xırda buynuzlu heyvanlardan sonra ikinci yeri iri buynuzlu heyvanlar tuturdu.

V.Qriqoryevin verdiyi məlumatlarda əhalinin məşğuliyyətində önəmli yer tutan maldarlıqdan, onun ayrı-ayrı sahələrindən geniş bəhs olunmuşdur. Camış və öküzlərin sayı 11200 baş (Naxçıvan dairəsi-10000, Ordubad dairəsi 1200) qoyun və keçi-25 min baş (Naxçıvan dairəsi-15000, Ordubad dairəsi-10000) Ordubad dairəsində 100 baş dəvə olduğu qeyd edilir. Müəllif nədənsə inəklərin sayı haqqında məlumat verməmişdir (12, s. 92). XIX əsrin birinci yarısında Ordubad bölgəsində nəqliyyat heyvanları arasında 100 baş dəvə olduğu qeyd edilmişdir. Lakin bu dəvələrin hansı mahallarda yerləşdiyi haqqında heç bir məlumat verilməmişdir. Bu dəvələrdən ticarət məqsədi ilə istifadə edilmişdir (9, s. 75). XIX yüzilliyin 70-ci illərində Naxçıvanın 3 mahalında 296 dəvə (13, s. 230), XIX yüzilliyin sonlarında təkcə Nehrəm kəndində 22 dəvə var idi (14, s. 195). 1899-cu ildə Naxçıvanda 240 dəvə, Şərur-Dərələyəzdə isə 640 dəvə olduğu göstərilmişdir (4, s. 128 ).

V.Qriqoryevin verdiyi bir məlumatlara görə, XIX əsrin 30-cu illərində camış və öküzlərin sayı 11200 baş (Naxçıvan dairəsi-10 000, Ordubad dairəsi 1200), qoyun və keçilərin sayı 25 min baş (Naxçıvan dairəsi-15000, Ordubad dairəsi-10000) olmuşdur (12, s. 92).

XIX əsrin 40-50-ci illərinə aid olan məlumata görə Naxçıvan bölgəsinin bir hissəsini əhatə edən Naxçıvan qəzasında 20-25 min baş iribuynuzlu heyvan, 3-4 min baş at var idi. Qoyun və keçi haqqında məlumat əldə edilməmişdi (10, s. 41).

XIX əsrin ikinci yarısında Naxçıvanda 23339, Şərur-Dərələyəzdə 84350, Ordubadda isə 187 baş qaramal-öküz, inək, kəl, camış qeydə alınmışdı (4, s. 224).

Qaynaqlardan aydın olur ki, 1870-ci ildə Naxçıvan qəzasında 123.079 qoyun və keçi, 23.505 öküz və kəl, 26.713 inək və camış, 2987 uzunqulaq və qatır, 6.659 at, 4.317 dəvə var idi. Z.Şahverdiyevin apardığı tədqiqatlar nəticəsində Şərur-Dərələyəz qəzasının Şərur sahəsində bu göstəricilərin müvafiq olaraq təxminən 36,4 min, 7,1 min, 12,6 min və s. olduğu qeyd edilir. XIX əsrin sonlarına doğru Naxçıvan qəzasında uzunqulaq və qatırların sayı istisna olmaqla digər göstəricilər aşağı düşmüş, Şərur- Dərələyəz qəzasında isə artmışdı (10, s. 42). XIX yüzilliyin 80-ci illərində Naxçıvan qəzasının qərbində 9640 baş, Şərur Dərələyəz qəzasının qərbində 18559 baş, Ordubadda isə 1750 baş qaramal hesaba alınmışdır (4, s. 109, 120). İ.Şopenin məlumatına görə isə, burada bəslənilən üç mal və camışdan biri sağmal olurdu və hər bir qoyun və keçinin südündən ildə 2 batmana qədər pendir almaq mümkün idi (16, s. 793-795).

Mənbələrdə bu dövrdə Ordubad dairəsində 100 baş dəvə olduğu barədə qeydlərə də rast gəlinir. Müəllif nədənsə inəklərin sayı haqqında məlumat verməmişdir (12, s. 92). Hansı ki, Naxçıvanda heyvandarlıqda inəklər digər iribuynuzlu mal-qaralardan çox olmuşdur. Dəvəyə gəlincə, o ticarətdə, köçərilikdə önəmli yer tutduğundan təkcə Ordubad dairəsində deyil, əyalətin digər bölgələrində də yayılmışdır. Lakin, bu dəvələrin hansı mahallarda yerləşdiyi haqqında heç bir məlumat verilməmişdir. XIX yüzilliyin 70-ci illərində Naxçıvanın 3 mahalında 296 dəvə, XIX yüzilliyin sonlarında təkcə Nehrəm kəndində 22 dəvə var idi (14, s. 195). Həmin yüzilliyin sonunda Naxçıvanda 240 dəvə, Şərur-Dərələyəzdə isə 640 dəvə olmuşdur.

Atçılıq təsərrüfatına gəldikdə isə onu qeyd edə bilərik ki, XIX-XX əsrin əvvəllərində atçılıq mühüm təsərrüfat sahəsi olmuşdur. Bu dövrdə at 30-100 gümüş manat dəyərində qiymətləndirilirdi. Ə.Sumbatzadə 1844-cü ildə Ordubad şəhəri ilə birlikdə Naxçıvan qəzasında 3452, 1845-ci ildə 3612, 1849-cu ildə isə 3462 atın, yenə həmin dövrdə müvafiq olaraq 491, 4136 və 3806 qatır və uzunqulağın olduğunu təsdiq edir (14, s. 81). S.P.Zelinski isə XIX yüzilliyin 70-ci illərində Naxçıvanın 3 mahalında 3976 atın, 4926 ulağın, 291 qatırın olduğunu göstərir (13, s. 230). 1883-1884-cü ildə at siyahıya alınmalarının nəticələrinə görə Naxçıvanın kənd icmalarında 1424, torpaq sahələrinin ixtiyarında 202, şəhərdə isə 188 at (cəmi: 1814 at) qeydə alınmışdır. 1899-cu ilin göstəricilərinə görə isə Ordubadda 41 at, 62 ulaq, 23 qatır, Naxçıvanda 4038 at, 5138 ulaq, 389 qatır, Şərur Dərələyəzdə 6080 at, 2000 ulaq, 480 qatır, olduğu xəbər verilir (4, s. 128).

Heyvandarlıq təsərrüfatından danışarkən barama qurdunun yetişdirilməsinə toxunmaq lazımdır.

Azərbaycanın əksər yerində baramaçılıqla da məşğul olurdular. Bu təsərrüfat sahəsi Azərbaycanda əsas etibarilə Nuxa, Ərəş, Naxçıvan (Ordubad) qəzalarında və Zaqatala dairəsində geniş sahələri əhatə edirdi. Hətta 1902-ci ildə kənd sahibkarlarının Tiflisdə qurultayı açılmış və burada baramaçılığın, ümumiyyətlə, ipəkçiliyin inkişafı məsələləri müzakirə edilmişdi (1, s. 41).

Nəticə olaraq qeyd etmək olar ki, XIX əsrin ikinci yarısında Naxçıvan bölgəsinin maldarlıq təsərrüfatında müəyyən inkişaf özünü göstərmişdi. Rusiya işğalı ərəfəsi ilə müqayisədə iri və xırda buynuzlu mal-heyvanın sayı XIX əsrin 60-cı illərində bir neçə dəfə artmışdı. Bu vəziyyət XIX əsrin 70-90-cı illərində də davam etmişdi. Ümumilikdə bütün bölgədə olan iri və xırda buynuzlu mal-heyvanın kəmiyyətini tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdı. XX əsrin əvvəllərində isə I Dünya müharibəsinin başlanması və ermənilərin bu ərazilərə amansız yürüşləri maldarlıq təsərrüfatının azalmasına səbəb olmuşdur.

**Açar sözlər:** *Naxçıvan, maldarlıq, iri və xırda buynuzlu mal-qara, XIX-XX əsrlər, tarixi coğrafiya.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi. 7 clddə. V cild. Bakı: Elm, 2008, 584 s.*

*2. Azərbaycan etnoqrafiyası. 3 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, 544 s.*

*3. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s. PDF*

*4. Həsənov Ş. Naxçıvan tarixi-etnoqrafik fenomendir. Bakı: Xəzər Universiteti, 2009, 224 s.*

*5. Hacıyeva S. XVIII-XIX əsrlərdə Naxçıvanda maldarlıq // Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, 2018, № 2 (91), s. 49-52.*

*6. Qasımlı V. İlk orta əsrlərdə Naxçıvanda maldarlıq təsərrüfatı // Bakı Universiteti Xəbərləri, 2010, № 4, s. 167-171.*

*7. Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı: Azərnəşr, 1958, 164 s.*

*8. Naxçıvan tarixi. Üç cilddə. II cild. Naxçıvan: Əcəmi, 2014, 528 s.*

*9. Rəhimov Y. XIX əsrin sonlarında Naxçıvan bölgəsinin kənd təsərrüfatı // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2018, № 6 (95), s. 61-65.*

*10. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s. PDF*

*11. Vəlili (Baharlı) M. Azərbaycan: coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat. Bakı: Azərb. Dövr. nəşr., 1993, 192 s.*

*12. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербургь : Типографии Департамента Внешней Торговли, 1833, 263с.*

*13. Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский: Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т. VII. Тифлис, 1880, с. 209-258.*

*13.Исмаилов К. Село Неграм Эриванской губернии. Нахичевансково уезда. /СМОМПК, вып. XXVII, Тифлис:1899*

*14. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в Баку: Изд-во АН Азербайджана ССР, 1964, 501с.*

*15. Число домашнего скота в Закавказии в 1899 году по данным управления ветеринарого частью на Кавказе и губернских ветеринаров. / Сборник статистических сведений по Закавказскому краю, часть 1, Тифлис: 1902.*

*16. Шопен И. Исторической памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1852, 1231с.*

### XÜLASƏ

Məqalədə XIX-XX əsrin əvvəllərində Naxçıvanın təsərrüfat həyatında maldarlığın yeri və tarixi coğrafiyaya təsirindən bəhs olunur. XIX əsrin ikinci yarısında Naxçıvan bölgəsinin maldarlıq təsərrüfatında müəyyən inkişaf özünü göstərmişdi. Rusiya işğalı ərəfəsi ilə müqayisədə iri və xırda buynuzlu mal-qaranın sayı XIX əsrin 60-cı illərində bir neçə dəfə artmışdı. Bu vəziyyət XIX əsrin 70-90-cı illərində də davam etmişdi. Ümumilikdə bütün bölgədə olan mal-heyvanın kəmiyyətini tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdı. XX əsrin əvvəllərində isə I Dünya müharibəsinin başlanması və ermənilərin bu ərazilərə amansız yürüşləri maldarlıq təsərrüfatının azalmasına səbəb olmuşdur.

**Историческая география**
**скотоводства в Нахчыване**
**(начало XIX-XX вв.)**

В статье рассказывается о месте скотоводства в хозяйственной жизни Нахчывана и его влиянии на историческую географию в начале XIX-XX веков. Во второй половине XIX века в животноводческом хозяйстве Нахчыванского региона проявилось определенное развитие. По сравнению с периодом оккупации России, в 60-х годах XIX века количество крупного и мелкого рогатого скота увеличилось в несколько раз. Эта ситуация продолжалась и в 70-90-х годах XIX века. В целом, полностью определить количество скота во всем регионе было невозможно. А в начале XX века начало Первой мировой войны и беспощадные походы армян на эти территории привели к сокращению животноводства.

**Ключевые слова:** *Нахчыван, скотоводство, крупный и мелкий рогатый скот, XIX-XX вв., историческая география.*

**An historical geography of**
**cattle breeding in Nakhchivan**
**(The 19th and early 20th centuries)**

The article provides the role of cattle breeding in Nakhchivan economy and the impact of which on historical geography in the 19th and early 20th centuries. In the second half of the 19th century, the cattle breeding developed in the Nakhchivan region. The number of cattle and small cattle increased several times in 1960s compared to the eve of the Russian occupation. This situation continued in the 70-90s of the 19th century. In general, it was not possible to determine the quantity of cattle in the whole region. At the beginning of the 20th century, starting the First World War and the occupation of these territories by Armenians led to the decline of the cattle industry.

**Key words:** *Nakhchivan, cattle breeding, cattle and small cattle, 19th-20th centuries, historical geography.*

UOT 94;327
DOI:10.30546/3006-0346.2024.3.81.0129

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN, TÜRKİYƏ VƏ RUSİYA MÜNASİBƏTLƏRİNİN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNƏ TƏSİRİ

**RAUF QURBANOV**
*Bakı Dövlət Universiteti Slavyan ölkələri tarixi kafedrasının doktorantı*

*E-mail: Qurbanovrauf7@gmail.com*

Azərbaycan müstəqillik qazandıqdan sonra qarşıda duran ən böyük vəzifələrdən biri də dünyaya inteqrasiya prosesini təmin etmək olmuşdur. Məhz Azərbaycanın coğrafi şəraiti onu Şərqlə Qərb arasında körpü rolu ola biləcək geostrateji amilə çevirmişdir. Azərbaycanın sahib olduğu coğrafi məkan, beynəlxalq ticarət yollarının üzərində yerləşməsi Avropa dövlətlərinin də burada layihələrə maraqlı olmalarının ən böyük səbəblərindən biri idi. Məhz bunun sübutu idi ki, Aİ TRASEKA nəqliyyat dəhlizinin qurulması üçün 1993-cü ildə Brüsseldə Azərbaycan da daxil olmaqla 8 ölkənin nümayəndələri ilə konfrans keçirilməsinə dəstək olmuşdur. Türkiyə isə, sonradan 2000-ci ilin mart ayında buraya daxil oldu. Azərbaycan-Türkiyə-Gürcüstanın dəmiryol xətti ilə birləşdirilməsi ilk dəfə 1993-cü ildə Birgə Nəqliyyat Komissiyası iclasında gündəmə gəlmiş, ancaq, bu sazişin imzalanması 2000-ci ildə baş tutmuşdur. Günümüzdə Azərbaycan 3 qlobal səviyyəli layihənin mərkəzində yerləşir. Bunlara “TRASEKA”, “Kəmər və yol təşəbbüsü”, üçüncüsü isə, Hindistanda başlayıb Rusiyada bitən “Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi” aiddir. Azərbaycan hökuməti məhz bu yol xətlərinin inkişaf etdirilməsi üçün bu çərçivədə dəmiryolları, avtomobil yolları, dəniz və hava limanı tikilməsinə milyard dollarlarla vəsait ayırmışdır.

1993-1995-ci illəri, TRASEKA çərçivəsində Qara dəniz-Xəzər dənizi-Orta Asiya dəhlizlərinin istifadəyə hazır vəziyyətə gətirmək və qüvvətləndirmək üçün çalışmaların sürət aldığı bir dövr idi. 1997-ci ilin sentyabrında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze, prezidentlər səviyyəsində ilk konfransın Qafqazda baş tutması mövzusunda bir təklif etmişlər. Bu təklifin nəticəsində AB-nin dəstəyi ilə 8 sentyabr 1998-ci ildə Bakıda “TRASEKA-Tarixi İpək Yolunun Restavrasiyası” başlıqlı bir konfrans baş tutmuşdur. Bu iclasın ən önəmli uğuru Avropa-Qafqaz-Asiya arasında koridorun inkişaf etdirilməsi məqsədi ilə çoxtərəfli saziş imzalanmışdır. Qarşılıqlı hədəf və məqsədlər belə sıralanmışdır:

- Avropa, Qara dəniz bölgəsi, Qafqaz regionu, Xəzər dənizi hövzəsi və Orta Asiya regionlarındakı iqtisadi münasibətlərin, ticarət və daşıma nəqliyyatının inkişaf etdirilməsi;
- Quruyolu, dəmiryolu və ticarət yolları vasitəsi ilə regionun dünya bazarına çıxışının təmin edilməsi;
- Nəqliyyat, karqo və çevrə təhlükəsizliyinin təmin etdirilməsi;
- Çatdırılma sahəsində qanuni prosedurun və nəqliyyat siyasətinin uyğunlaşdırılması;
- Çatdırılma sahəsindəki rəqabət üçün bərabər şərtlərin təmin olunması [19].

TRASEKA proqramı 1998-ci ildə Bakıda baş tutan konfransdan sonra sürət qazanmışdır. Üzv ölkələr burada Bakı mərkəzli hökumətlərarası komissiya qurmuşlar. Bu tarixdən etibarən AB dəmiryolu, liman və quru yollarının bərpa olunmasına 800 milyon dollar investisiya etmişdir. Azərbaycanın bəzi milli layihələri də TRASEKA proqramına daxil edilmişdir [2]. Traseka idarə orqanının 2001-ci ildə Bakıda yer alması da Azərbaycanın TRASEKA dəhlizi cəhətdən önəmini xatırlatmaqdadır. Türkiyə Marmaray xətti, sürətli qatar layihələri, Qara dəniz sahil yolu, İstanbul ikinci boru keçidi və ölkədəki 12 lojistik mərkəzlə BTQ-nin Avropa ilə fiziki bağını təmin etməkdədir. Əlavə olaraq qeyd etmək olar ki, Türkiyənin sahib olduğu limanlar, karqo və yük daşınmasında önəmli rol oynamaqdadır. TRASEKA proqramı, Avropanın Orta Asiya ilə əlaqə qurması və bu yolda Azərbaycan və Türkiyənin nəqliyyat sistemini dəstəkləməsində önəmli rol oynamışdır.

Azərbaycan, Türkiyə və Rusiya arasında enerji ticarəti regional və qlobal siyasətdə mühüm rol oynayır. Bu ölkələr arasında olan iqtisadi münasibətlər olduqca vacib əhəmiyyətə malikdir. Bu münasibətlərin təməlində enerji sektoru böyük rol oynamaqdadır. Xüsusi ilə təbii qaz və neft ticarəti bu üç ölkə arasında əsas ticarət səbəblərindən biridir. Bu üç ölkə həm enerji istehsalçıları, həm də enerji istehlakçıları kimi həm rəqabətdə, həm də əməkdaşlıqdadır. Enerji ticarəti bu ölkələrin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına geniş təsir göstərir.

Azərbaycan, Gürcüstan və Türkiyənin dəmiryolu vasitəsi ilə birləşdirilməsi düşüncəsi ilk dəfə olaraq 1993-cü ildə həyata keçirilən üç dövlət arasında

qurulmuş Ortaq Nəqliyyat Komissiyasi iclasında gündəmə gəlmişdir. Ancaq bu sazişin imzalanması 2000-ci illərə qədər gecikmişdir. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin təməlləri atıldıqdan sonra BTQ üçün çalışmalar daha da sürətlənmişdi. 2002-ci ildə Azərbaycan, Türkiyə və Gürcüstanın Nəqliyyat nazirləri görüşərək dəmiryolunun istiqamətini müəyyən edən protokol imzalanmışlar. 2004-cü il 29 dekabr tarixində Tiflisdə üç ölkənin nəqliyyat nazirlərinin iştirakı ilə həyata keçirilən Nəqliyyat Komissiyasının iclasında layihənin həyata keçirilməsi qərarlaşdırılmışdı. 2005-ci il 25 may tarixində Azərbaycan, Türkiyə və Gürcüstan arasında BTQ dəmiryol layihəsi ilə əlaqədar bəyənnamə imzalanmışdır [1, s, 191].

Azərbaycan və Türkiyə arasında 2011-ci il dekabrın 26-da "Şahdəniz" yatağından hasil edilən qazı Türkiyə vasitəsilə Avropaya çatdıracaq Trans Anadolu Boru Kəmərini (TANAP) inşa edəcək konsorsiumun yaradılmasına dair anlaşma memorandumu imzalanıb. 2012-ci il iyunun 26-da tərəflər arasında TANAP boru kəmərinin reallaşdırılmasına dair Azərbaycan-Türkiyə hökumətlərarası saziş imzalanıb. Hər iki ölkə TANAP-ı "yeni dövrə doğru tərəfdaşlıq" addımı kimi görür. TANAP Türkiyə-Azərbaycan enerji əlaqələrini Türkiyə-Rusiya münasibətləri səviyyəsinə qaldırmaq potensialına malikdir. Rusiya son 15 ildə Türkiyənin enerji sahəsində əsas tərəfdaşıdır. Bundan başqa, əsas məqsədi enerji sahəsində tranzit və mərkəz ölkəyə çevrilmək olan Türkiyə Rusiyanı siyasi iradəsi ilə bu sahədə mövcud vəziyyəti dəyişmək potensialına malik ölkə kimi görür. TANAP "Nabukko"dan sonrakı boru kəməri layihəsidir. Azərbaycanın təşəbbüsü ilə Türkiyə ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən beynəlxalq qaz ixracı layihəsi kimi, o, mühüm mövqeyə malikdir. SOCAR-ın ən strateji investisiyalarından olan bu layihə Xəzər qazının Avropaya nəqlində əsaslı dəyişiklik yaradaraq, Türkiyənin dünya coğrafiyasında gələcək mövqeyinə üstünlük verəcək. Azərbaycan TANAP layihəsinə qaz tədarük edəcəyini və maliyyə vəsaitlərini köçürəcəyini bəyan edib.TANAP-ın dəyəri 7 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Layihə tərəfdaşları öz paylarına proporsional olaraq boru kəmərinin tikintisini maliyyələşdirəcəklər. (SOCAR: 80%, BOTAŞ: 5%, TPAO: 15%) [23, 12]. Üçüncü tərəf kimi qaz hasil edən şirkətlər, eləcə də Şahdəniz Konsorsiumunun tərəfdaşları sonradan minoritar səhmdarlar kimi konsorsiuma qoşulmağa icazə verilə bilər. Bu layihə Azərbaycan üçün yeni ixrac imkanları açır və xarici ticarətin şaxələndirilməsini təmin etməklə Xəzər dənizini Qərbə açaraq sabit gəlir təmin edir. TANAP, Azərbaycana ilk dəfə olaraq öz qazını Türkiyənin Aİ ilə qərb sərhəddindəki avropalı müştərilərə öz qaz kəməri vasitəsilə birbaşa satmağa imkan verəcək. Azərbaycanın tranzit xidmətlərinə görə ödəniş etmədən öz boru kəmərindən istifadə etməsi Azərbaycan qazının qiymətini Avropada rəqabətədavamlı edəcək. Bakı bu layihəni "Azərbaycandan Avropaya birbaşa yol" və "Azərbaycanın gələcəyə aparan yolu" kimi müəyyən edir. Azərbaycan enerji təchizatçısı, tranzit ölkə (Transxəzər ölçüsü) və onun hüdudlarından kənarda sərmayəçi ölkə kimi üçqat rol oynayır.

TANAP layihəsinin Türkiyə üçün də olduqca müsbət nəticələri olmuşdur. Türkiyə ilk dəfə olaraq boru kəməri layihəsinin əsas tərəfdaşı olur və təbii qaz sahəsində Avropanın dördüncü əsas arteriyası olmaq məqsədinə nail olur.

TANAP layihəsindən sonra Şahdəniz-2-dən əldə olunacaq təbii qazı Türkiyə sərhədindən Avropaya daşıyacaq üç rəqib boru xətti ortaya çıxmışdır. Bunlar, Bolqarıstan və Rumıniya vasitəsi ilə Avstriyaya gedəcək olan qərb Nabukko layihəsi, ikincisi, Bolqarıstan və Rumıniya vasitəsi ilə Macarıstana gedəcək olan Cənub-Şərq Boru Xətti layihəsi, üçüncüsü isə, Yunanıstan vasitəsi ilə İtaliyaya gedəcək Trans-Adriatik boru xətti (TAP) layihəsi olmuşdur [4. s, 305]. 28 iyun 2013-cü ildə Bakıda olan iclasda Şahdəniz konsorsiumu TAP-ı seçdiyini açıqlamışdır. Trans-Adriatik boru xətti Türkiyə-Yunanıstan sərhədindən başlayaraq TANAP-a birləşən, Yunanıstandan Albaniyaya və Adriatik dənizindən İtaliyaya çatan və "Snam Rete Gas" təbii qaz xəttinə birləşən boru kəməridir [4. s, 305].

2005-ci il may ayının 25-də Azərbaycan-Türkiyə-Gürcüstan Respublikaları Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Bakıdakı açılış mərasimində beynəlxalq Bakı-Tbilisi-Qars dəmiryol dəhlizinin layihəsi haqqında bəyanat imzalamışdır. Bu layihədən kənar qalan Ermənistan dəhlizin həyata keçirilməsinin qarşısını almaq üçün bir çox addım atmışdır. 2006-ci il 20 dekabr tarixində alınan qərar ilə ABŞ, Ermənistandan keçməyən dəmiryolunu sığortalamağı və maliyyə yardımı etməyi Eximbanka qadağan etmişdir [8]. Bütün bunlara baxmayaraq dəmiryol xətti tamamilə Azərbaycan

və Türkiyə tərəfindən maliyyələşdirildiyi üçün heç bir maddi yardıma ehtiyac qalmadı. Bununla yanaşı Azərbaycan, dəmiryol xəttinin Gürcüstana düşən hissəsində uzunluğu 26,3 kmlik Qars-Axalkalaki xəttinin və uzunluğu 153 km olan Axalkalaki-Marabda xəttinin təmir-bərpa işləri üçün ümumi 775 milyon ABŞ dolları miqdarında kredit ayırmışdır [3]. Azərbaycan və Türkiyə öz torpaqlarındakı dəmiryol xəttini isə, öz vəsaitləri hesabına inşa etmişdir. 2008-ci ildə Qars və Bakıda dəmiryol xəttinin təməl atma mərasimləri keçirildi. Dəmiryol xətti 2017-ci ildə öz fəaliyyətinə başladı. Açılış mərasimində Azərbaycan və Türkiyə prezidentləri ilə yanaşı Qazaxıstan, Gürcüstan, Özbəkistan baş nazirləri və Tacikistan, Türkmənistandan nazirlər səviyyəsində iştirak olmuşdur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars haqqında fikirlərini qısaca belə ifadə etmişdir: "BTQ Avrasiya nəqliyyat xəritəsinin önəmli bir parçasıdır. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Nəticədə bu dəmiryol xətti regional təhlükəsizlik və sabitliyə xidmət edərək ölkələrimizin geopolitik önəmini artıracaq və bizlər üçün yeni fürsətlər yaradacaqdır" [10]. BMT-nin Avropa İqtisadi Komissiyası, BMT-nin İqtisadi və Sosial Şurası, Trans-Avropa və Trans-Asiya dəmiryol xətləri layihələri arasında BTQ dəmiryolunu qabaqcıl layihələrdən biri kimi elan etmişdir [19]. Dəniz nəqliyyatından istifadə edən gəmilər Çin, Şanxay, Ninbo, Sindao kimi ticarət limanlarından yola çıxdıqdan sonra ən az 35-38 gün ərzində Avropaya çatırdı. BTQ dəmiryol xətti vasitəsi ilə bu vaxt 12-13 günə qədər aşağı endi[6]. Bu da Avropa və Asiya arasındakı ticarət həcminin artmasına imkan yaratdı.

Azərbaycan və Türkiyənin dəstəklədiyi bir digər layihə isə, "Orta dəhliz" layihəsidir. Bu layihə vasitəsi ilə martşrut üzrə olan ölkələrin quru, dəniz, hava və dəmir yolları, liman və boru xətləri ilə bir-birilə əlaqələndirilməsi nəzərdə tutulur. Azərbaycan və Türkiyənin də daxil olduğu bu 3 dəhliz iki ölkəni Mərkəzi Asiya ilə əlaqələndirərək, eyni zamanda Modern İpək Yolunun bir parçası olmasına vasitə olur. Bu dəhlizlər Türkiyə-Gürcüstan-Azərbaycan və Qazaxıstan arasında imzalanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə arasında inşa edilməkdə olan Lapis-Lazuli dəhlizi və Rusiya-Azərbaycan-İran arasında hazırlanmaqda olan Cənub-Şimal dəhlizidir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi 2013-cü ildə "Modern İpək Yolu Beynəlxalq Nəqliyyat və Lojistik Ticarət Forumu" çərçivəsində Azərbaycan-Gürcüstan və Qazaxıstan tərəfindən Beynəlxalq Trans-Xəzər Nəqliyyat Xəttinin inkişaf etdirilməsi məqsədi ilə Koordinasiya Komissiyasının yaradılmasını qərara almışdır. Bu komissiyanın çalışmalarının nəticəsində 2017-ci ildə Türkiyə üzv dövlətlərlə protokol imzalayaraq burada daimi üzv olmuşdur[20].

Beynəlxalq Şimal-Cənub Nəqliyyat dəhlizinin həm ölkəmiz, həm də beynəlxalq aləm üçün iqtisadi və ticari təsirləri və müsbət cəhətləri haqqında geniş danışmaq mümkündür. Bu dəhlizdən istifadə edən ölkələr arasında ticarət daha sürətli, səmərəli baş tutur və daha ucuz qiymətə başa gəlir. Bununla da kommersiya mallarının və xidmətlərin axını asanlaşır və ticarət həcmi olduqca artır. Müəssisələr daha geniş bazarlara çıxış əldə edə bilir və artan ticarət hesabına iqtisadi artım əldə edilir. Bu dəhlizin bir digər müsbət cəhəti idxal və ixracın asanlaşması oldu. Beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə daşınmalar ixracatçı və idxalçıların logistika proseslərini asanlaşdırır. Bu, malların daha sürətli çatdırılmasına, təchizat zəncirinin idarə edilməsində kömək edir. Bu, ixrac və idxalı artıraraq iqtisadiyyata müsbət töhfə verir. Müsbət cəhətlər sırasında istər regional, istərsə də beynəlxalq iqtisadi inteqrasiyanın təşviqini nümunə göstərə bilərik. Dəhliz vasitəsi ilə iştirakçı ölkələr arasında regional iqtisadi əməkdaşlığa təşviq yaranır. Bu, gömrük proseslərinin sadələşdirilməsi, investisiyaların təşviqi vasitəsilə baş verə bilər. Bunun nəticəsində regional səviyyədə daha güclü iqtisadi inteqrasiya əldə edilir. Dəhlizboyu nəqliyyat və logistika xidmətləri göstərən şirkətlər öz sektorlarını inkişaf etdirir və beynəlxalq standartlara uyğun müasir texnologiyalar tətbiq edirlər. Bu proses sektorun səmərəliliyini və rəqabət qabiliyyətini artırır. Azərbaycanın bu dəhlizə verdiyi töhfələri və əldə etdiyi üstünlükləri belə qeyd etmək olar;

1. Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi Azərbaycanın ticari-iqtisadi əməkdaşlığı üçün böyük imkanlar açır.
2. Dəhliz Azərbaycanın ixracını artırır, ölkəyə daha çox investisiya və əməkdaşlıq imkanları yaradır.
3. Azərbaycan regional ticarəti təşviq edir və dəhliz boyu əlaqələri yaxşılaşdırmaqla iqtisadi artımı dəstəkləyir.

BTQ layihəsini Avropa ilə əlaqələndirən layihə Viking layihəsi olmuşdur. Azərbaycan-Türkiyə əməkdaşlığının bir digər nəticəsi isə, Viking layihəsi olmuşdur. Layihə Türkiyə, Azərbaycanın iştirakı ilə Xəzər dənizi, Qara dəniz və Baltik dənizini bir-birilə bağlamışdır. Layihənin iştirakçıları Ukraniya, Belarus, Latviya, Litva olmuş və 2012-ci ildə Bolqarıstan layihəyə daxil olmuşdur. 4 aprel 2013-cü ildə Litva və Türkiyə nəqliyyat nazirləri arasında, Türkiyənin Qara dəniz hissəsi ilə Baltik dənizi arasında dəmiryolu konteyner nəqliyyatı sahəsini əhatə edən bir layihəyə daxil olduğuna dair bir memorandum imzalamışdır [21]. 2016-ci ildə Azərbaycanın bu layihəyə qatılması haqqında memorandum imzalanmış, Azərbaycanın bu layihəyə daxil olması ilə daha çox yükün daha qısa müddətdə Çin və Mərkəzi Asiyadan Baltik dənizinə çatdırılmasına imkan yaranmışdır [12. s, 134].

Azərbaycan şərq və qərb arasında strateji vəziyyətini gücləndirmək və bu yolda nəqliyyat xətlərində yol ala bilmək məqsədi ilə ölkə daxilində və xaricində strateji yatırımlar etmişdir. 2013-cü ildə Türk Dövlətləri Təşkilatı başçılarının üçüncü Zirvə görüşündə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında əldə olunan anlaşma nəticəsində, Azərbaycan şirkəti "Azərsun"un Aktauda lojistik mərkəz qurması qərarlaşdırıldı [15]. 4 avqust 2013-cü ildə Türk Dövlətləri Təşkilatının nəqliyyat nazirlərinin Bakıda baş tutan birinci iclasında Bakı, Aktau və Samsun limanları qardaş liman münasibətini təsis edən saziş imzalanmışdır. Burada məqsəd limanlar arasında ticarət münasibətlərini artırmaq, təcrübə və məlumat paylaşımı, investisiya mövzularında işbirliyi, texniki dəstək və yardım təməlli ortaqlıq qurmaq olmuşdur. Məhz Azərbaycandan keçən üç beynəlxalq dəmiryolu xətti Ələtdən keçməkdədir. Bunlar aşağıdakı kimidir:

- Bakıdan Rusiyaya gedən və eyni zamanda şimal-qərb istiqamətində irəliləyən dəmiryol xətti,
- Gürcüstan və Türkiyəyə gedən və oradan da qərbə gedən dəmiryol xətti,
- Cənub və İrana qədər gedən dəmiryol xətti.

Mövqeyi etibarı ilə Ələt limanı Xəzər dənizi, Bəsrə körfəzi, Qara dəniz, Aralıq dənizi arasında mərkəzi birləşdirici bir yerdədir. Bu mövqeyinə görə Ələt limanı Avropa, Asiya bazarlarına xidmət edəcək, Avropa və Asiyanı birləşdirəcək geniş ölçülü logistik torunun bir hissəsidir. Liman xüsusi ilə Cənubi Qafqaz, Orta Asiya, İran, Rusiya və Türkiyə bazarları üçün bir mərkəzə çevriləcəkdir. Əlavə olaraq onu da qeyd edə bilərik ki, limana Azad Ticarət Zonası statusu verilmişdir. Bu qərar ixracatın artırılması istiqamətində əlavə yüklərin daşınmasına fürsət yaradır.

2017-ci il 15 noyabr tarixində Türkiyə-Gürcüstan-Azərbaycan-Türkmənistan-Əfqanıstan arasında tranzit, ticarət və nəqliyyat dəhlizi layihəsi haqqında saziş imzalandı [11]. Bu dəhliz Lapis Lazuli dəhlizi adlanırdı. Bu layihənin vasitəsilə Cənubi Asiya ölkələri də Qafqaz, Türkiyə və Avropa ölkələri ilə ticarət və nəqliyyat münasibətləri qura biləcəkdi. Dəhliz Əfqanıstanın şimal-qərbindən başlayaraq Türkmənistanın Türkmənbaşı limanı, Xəzər dənizi, Azərbaycan limanlarından keçərək Gürcüstanın Batum və Poti limanlarına çatırdı. Bundan sonra isə, Qarsdan keçərək İstanbula, oradan da Avropaya gedir. Bu dəhlizin tərəfdaşlarının məqsədi ticarət maneələrinin aradan qaldıraraq, gömrük sistemini uyğunlaşdırmaq və marşrut ölkələr üzərində nəqliyyat və ticarət münasibətlərini inkişaf etdirməkdir [11]. Asiya İnkişaf Bankı dəhlizin inşası üçün 130 milyon ABŞ dolları kredit ayırmışdır.

Türkiyə, Azərbaycan və Rusiya arasında digər mühüm beynəlxalq nəqliyyat layihəsi də "Türk axını" təbii qaz boru kəməridir. Bu layihə Rusiya təbii qazını Qara dənizdən Türkiyə üzərindən Avropaya nəql edir. "Türk axını" həm Türkiyənin enerji təhlükəsizliyi, həm də Rusiyanın enerji ixracı baxımından strateji əhəmiyyətə malikdir. "Türk axını" həm də Türkiyə ilə Rusiya arasında siyasi və iqtisadi əlaqələri gücləndirir. Təbii qazın Türkiyə üzərindən Avropaya nəqli və ildə 63 milyard kubmetr təbii qaz daşıyacaq hər birinin gücü 15,75 milyard kubmetr olan 4 sualtı boru kəmərinin tikintisi nəzərdə tutulurdu. Lakin sonrakı razılaşmaya əsasən Türk axını layihəsində nəql edilməsi planlaşdırılan təbii qazın miqdarı 31,5 milyard kubmetrə qədər aşağı salınmışdır [16, səh 64].

2018-ci il 15 mart tarixində Bakıda Türkiyə-Azərbaycan-Gürcüstan-İran xarici işlər nazirləri iclasında Cənub-Şimal dəmiryol xəttinin Bakı-Tiflis-Qars dəmiryol xəttinə birləşdirilməsi haqqında qərar qəbul edildi [22]. Bu iki xəttin birləşdirilməsi nəticəsində Çabahar, Bəndər-Abbas, Hindistanın Mumbay limanları ilə Bəsrə körfəzi, Qara dəniz və Aralıq dənizi ilə qarşılıqlı nəqliyyat dəhlizi yarandı. Cənub-Şimal dəhlizi Rusiyanın Sankt-Peterburq

şəhərindən başlayıb Hindistanın Mumbay limanına kimi davam edir. Bu dəhlizin ümumi uzunluğu isə, 7200 km-dir. İlk mərhələdə bu dəhlizin yük daşıma gücü 3 milyon, ikinci mərhələdə 5-8 milyon, üçüncü mərhələdə isə, 15 milyon ton olaraq planlanmışdır [13]. Cənub-qərb dəhlizinin inkişaf etdirilməsi üçün Azərbaycan, İran, Gürcüstan, Ukrayna və Polşa arasında işbirliyi protokolu imzalanmışdır [5].

Ümumilikdə, Azərbaycanın müstəqillik qazandıqdan sonra iştirak etdiyi beynəlxalq nəqliyyat dəhlizləri bunlardır:

TRASEKA - Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi

Orta Dəhliz marşrutu - Çin – Qazaxıstan – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə vasitəsi ilə Qara dəniz – Avropa

- Şərq-Qərb aşağı dəhlizi - Çin – Qırğızıstan – Özbəkistan – Türkmənistan – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə vasitəsi ilə Qara dəniz – Avropa
- Şimal – Cənub marşrutu - Baltik dənizi – Rusiya – Azərbaycan – İran – Hindistan
- Cənub – Qərb marşrutu - Hindistan – Fars körfəzi – İran – Azərbaycan – Gürcüstan – Ukrayna – Avropa (9).

BTQ dəmiryol xəttinə bağlı beynəlxalq layihələr tərtib edilməsi və İstanbul boğazından keçən dəmiryol tunelinin inşa edilməsi, bölgədəki bütün ölkələr üçün böyük əhəmiyyət kəsb edir. Avropa və Asiya ölkələrindən yüklərin daşınmasının sayını artıracaqdır. Trans-Avropa və Trans-Asiya dəmiryol xətləri ilə əlaqə qurmağın yanı sıra birbaşa Azərbaycan, Gürcüstan və Türkiyə vasitəst ilə yük və sərnişin daşımaq digər bölgə ölkələrinin tranzit potensialını artırmağa xidmət edəcəkdir [7. s, 19].

Orta Dəhliz Avropa ilə Asiya arasında ticarət yolu kimi Şimal dəhlizindən daha sürətli və qənaətcildir, 2000 km qısadır, iqlim şəraiti baxımından daha əlverişlidir və daşıma müddətini 1/3 (15 gün) qısaldır. Orta Dəhliz Türkiyədən başlayaraq Qafqaz regionuna çatan, Xəzər dənizi, Türkmənistan və Qazaxıstandan keçərək, daha sonra Orta Asiya və Çinə kimi çatan Xəzər Şərq-Qərb Mərkəzi Dəhlizidir (Mərkəzi Dəhliz). Tarixi İpək Yolunun canlandırılması layihəsinin ən mühüm hissəsidir. Xüsusi ilə Azərbaycan və Türkiyənin Orta Dəhliz təşəbbüsü region ölkələrinin, xüsusilə də dənizə çıxışı olmayan ölkələrin diqqətini cəlb edir.Trans-Sibir vasitəsi ilə daşınan konteyner Orta Dəhlizə nisbətdə Türkiyəyə 12-14 gün gec çatmaqdadır və 6-7 min dollar xərc olmaqda idi [17. s, 123].

Nəticə olaraq qeyd edə bilərik ki, Azərbaycan, Türkiyə və Rusiya arasında enerji ticarəti dünyaya həm iqtisadi, həm də siyasi təsirlər yaradır. Rusiya dünyanın enerji sektorunda mühüm rol oynayır. Xüsusilə regionun Türkiyə və Azərbaycan kimi enerji ehtiyatlarına malik ölkələri üçün Rusiyanın rolu böyük əhəmiyyət kəsb edir. Bu regionda enerji siyasəti həm yerli, həm də beynəlxalq səviyyədə böyük təsirlərə malikdir və Rusiya bu proseslərdə fəal iştirak edir. Enerji ticarəti bu ölkələrin gəlirlərinə, böyüməsinə, məşğulluğuna, investisiyalarına və ticarət balanslarına təsir göstərir. Enerji ticarəti bu ölkələrin regional və qlobal siyasətdəki roluna, müttəfiqliklərinə və əməkdaşlığına da təsir göstərir. Enerji ticarəti həm də bu ölkələrin enerji təhlükəsizliyi, enerji müxtəlifliyi, enerji səmərəliliyi və enerji keçidi kimi məsələlərdə qarşılaşdıqları imkanları və problemləri müəyyən edir. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə birlikdə Çin və Avropanı bir-birilə bağlayan vacib coğrafi mövqedə yerləşir. Azərbaycan və Türkiyə münasibətləri nəticəsində bu yollar Aralıq və Qara dənizinə kimi çatır. Digər tərəfdən, bu münasibətlər nəticəsində reallaşdırılan layihələr hər iki ölkənin ixracat potensialını olduqca artırır. Modern İpək Yolu layihəsi nəticəsində Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan xətti Türkiyə ilə Çin arasındakı ticarət daşıma müddətini 30 gündən 10 günə qədər endirir. Azərbaycan və Türkiyənin coğrafi mövqeyi, strateji cəhətdən də vacib önəmə sahib olması, şərq və qərb ticarət mərkəzlərinə yaxın olamaları beynəlxalq nəqliyyət dəhlizlərinin burada qurulmasına əsas şərait yaradan amillərdən biridir. Türkiyə Azərbaycan üçün Avropa bazarına çıxış, Azərbaycan isə, Türkiyə üçün Mərkəzi Asiya bazarına təhlükəsiz çıxış qapısıdır. BTQ-nın reallaşması da məhz beynəlxalq nəqliyyat dəhlizləri arasında xüsusi strateji əhəmiyyətə malikdir. Son illərdə Azərbaycan və Türkiyə arasında liman, avtomobil yolu, dəmiryolu, hava limanı kimi layihələrinin, Çin və Avropa arasında ticarət həcminin artması Tükiyə-Azərbaycan birgə nəqliyyat sisteminin önəmini daha da çox artıracaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Adem Üzümcü ve Sadika Akdeniz, "Yeni Ipek Yolu: TRACECA ve Bakü-Tiflis-Kars Demiryolu Projesi, Avrasya Etütleri, №45. no 1. 2014. seh, 191*

*2. Anar Valiyev, Azerbaijan: Perspectives on Eurasian integration, https:// www. ecfr.eu/article/essay_eurasian_integration_azerbaijan ( İstinad tarixi: 12.11.2023)*

*3. Bakü-Tiflis-Qars yeni dəmiryolu, https://www.oilfund.az/projects/6 , İstinad tarixi : (19.08.2023)*

*4. Cavid Vəliyev, Azərbaycan-Türkiyə Strateji Ortaqlığı, 2020, Ötüken nəşriyyat, səh,305*

*5. Cənub-Qərb nəqliyyat dəhlizi layihəsi üzrə protokol, https://az.trend.az/business/economy/2768132.html İstinad tarixi : (18.08.2023)*

*6. Emin Akhundzada, The importance of Baku - Tbilisi - Kars railway for the deve-lopment of interregional trade, https://en.azvision.az/news/1845/the-importan-ce-ot-baku-tbilisi-kars-railway-for-the-development-of-interregional-trade.html İstinad tarixi: (19.08.2023)*

*7. Evaldas Klimas and Mahir Humbatov, Baku-Tbilisi-Kars Railroad, The Iron Ground for the Silk Road, Vilnius 2016, Mykolas Romeris Univesity, s. 19.*

*8. Export-Import Bank Reauthorization Act of 2006, https://www.congress.gov/109/plaws/pub1438/PLAW-109pub1438.pdf, İstinad tarixi: (17.08.2023),*

*9. Ground for the Silk Road, Vilnius 2016, Mykolas Romeris Univesity, seh. 19.*

*10. İlham Əliyevin Bakı-Tbilisi-Qars Dəmir Yolu Layihəsi ilə bağlı çıxışı, https://www.president.az/articles/25701 , İstinad tarixi : (21.08.2023)*

*11. Lazurit yolu Beynəlxalq Tranzit Dəhlizi, https://az.wikipedia.org/wiki/Lazurit_yolu_Beyn%C9%99lxalq_Tranzit_D%C9%99hlizi , İstinad tarixi : (16.08.2023)*

*12. Mahir Humbatov and Kazim Sari, Turkic Council Countries: Infrastructure, Ira-de, Logistics and Transportation, SAM Review, Cild 18-19. Noyabr 2017.səh. 134.*

*13. North-South international transport Corridor https://en.wikipedia.org/wiki/International_North%E2%80%93South_Transport_Corridor , İstinad tarixi : (20.08.2023)*

*14. Ovqat Nəqliyyat dəhlizləri və Azərbaycanın tranzit potensialı https://ovqat.com/manset/58038-neqliyyat-dehlizleri-ve.html İstinad tarixi: (08.08.2023)*

*15. Prezident of Kazakhstan visits Azersun Production and Logistics Center, http:// www.azersun.com/en/content/president-kazakhstan-visits-azersun-producti-on-and-logistics-center , İstinad tarixi : (21.08.2023)*

*16. Serkan Ömer ABBASİGİL, SON DÖNEMDE GELİŞEN TÜRK-RUS İLİŞKİLERİNİN ENERJİ PERSPEKTİFİNDEN ANALİZİ, Cild.4 No.2 2016, səh 64-66.*

*17. Stanislav Pritchin, Transport Potential of the Caspian Sea: Prospects and Limita-tions, Caucasus International, Cild. 6, No: 1, 2016. seh. 123.*

*18. Trans-Adriatik Boru Kemeri (TAP), http://www.socarmidstream.az/az/project/tap/#cover , (İstinad tarixi: 12.11.2023)*

*19. Transit Transport of Azerbaijan: Priorities and Achievments in the course of implementation of The Almati Actions Program, https://www.osce.org/eea/28611 , İstinad tarixi : (21.08.2023)*

*20. Turkey a gateway to Europe for modern Silk Road, Daily Sabah, https://www.dailysabah.com/economy/2018/02/24/turkey-a-gateway-to-europe-for-modern-silk-road , İstinad tarixi : (17.08.2023)*

*21. Türkiyə Viking Layihəsinı daxil oldu, http://www.utikad.org.tr/haber-*

*22. Türkiye-Azerbaycan-Gürcistan-Iran anlastı Yeni transit koridoru oluşturuluyor, http://www.milliyet.com.tr/turkiye-azerbaycan-gurcistan-iran-ekono-mi-2628246/ , İstinad tarixi : (21.08.2023)*

*23. Xəzər Strategiya İnstitutu, Məqalə : AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ BİR ADDIM: TRANS-ANADOLU BORU KƏMƏRİ (TANAP), 2012 Noyabr, səh, 12-14*



## XÜLASƏ

Azərbaycanın beynəlxalq nəqliyyat sistemində iştirakı istər iqtisadi, istərsə də siyasi nüfuz cəhətdən mühüm önəm kəsb etmişdir. Məhz bu məqalə də, müstəqilliyimizin yenidən bərpasından sonra Azərbaycanın beynəlxalq nəqliyyat sistemində tutduğu rolu və onun xüsusi ilə Türkiyə, Rusiya, sonra isə, digər beynəlxalq və region ölkələri ilə qurduğu münasibətlərə həsr edilmişdir. Coğrafi sfera etibarı ilə əlverişli mövqedə olan Azərbaycan Avropa üçün böyük əhəmiyyətə malik olan nəqliyyat dəhlizləri və marşrutların inşasında müstəsna əhəmiyyətə sahib olmuşdur.


**Açar sözlər:** *Azərbaycan, Türkiyə, Rusiya, dəhliz, nəqliyyat.*

## THE EFFECT OF RELATIONS BETWEEN AZERBAIJAN, TURKEY AND RUSSIA DURING THE YEARS OF INDEPENDENCE ON THE INTERNATIONAL TRANSPORTATION SYSTEM

**Gurbanov Rauf,**
***Doctoral student of the Department of History of Slavic Countries, Baku State University***

**SUMMARY**

Azerbaijan's participation in the international transport system has been of great importance, both in terms of economic and political influence. This article is dedicated to the role of Azerbaijan in the international transport system after the re-establishment of our independence and its relations with Turkey, Russia, and other international and regional countries. Azerbaijan, which is in a favorable position in terms of the geographical sphere, has been of exceptional importance in the construction of transport corridors and routes of great importance for Europe.

**Key Words:** *Azerbaijan, Türkiye, Russia, corridor, transport.*

## ВЛИЯНИЕ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ, ТУРЦИЕЙ И РОССИЕЙ В ГОДЫ НЕЗАВИСИМОСТИ НА МЕЖДУНАРОДНУЮ ТРАНСПОРТНУЮ СИСТЕМУ

**Гурбанов Рауф,**
***Докторант кафедры истории славянских стран Бакинского государственного университета***

**РЕЗЮМЕ**

Участие Азербайджана в международной транспортной системе имело большое значение, как с точки зрения экономического, так и политического влияния. Эта статья посвящена роли Азербайджана в международной транспортной системе после восстановления нашей независимости и его отношениям с Турцией, Россией и другими международными и региональными странами. Азербайджан, находящийся в выгодном положении с точки зрения географической сферы, имел исключительное значение в строительстве транспортных коридоров и маршрутов, имеющих большое значение для Европы.

**Ключевые слова:** *Азербайджан, Турция, Россия, коридор, транспорт*

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.3.81.0136

# "ŞAH I ABBASIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ İNGİLİS OST-HİND ŞİRKƏTİNİN İNGİLTƏRƏ-SƏFƏVİ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ROLU"

**JANNA ƏLİYEVA**
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının magistrantı*
*E-mail: aliyevajanna98@gmail.com*

## Giriş

Şah I Abbas taxta çıxarkən Səfəvi imperiyası tənəzzül etməkdə idi. Onun hakimiyyətə gəlişi ilə Səfəvi imperiyasının Avropa ilə zəifləmiş əlaqələri dirçəliş dövrünə qədəm qoydu. Osmanlılara qarşı müharibədə qalib gəlmək üçün müttəfiq axtarışında olan Səfəvi şahı, Qərbi Avropa ölkələri ilə sıx münasibətlər qurmağa böyük önəm verirdi. İran körfəzi ticarətində üstünlük əldə etmək arzusunda olan Avropa dövlətləri də Səfəvi imperiyası ilə münasibətləri genişləndirməkdə maraqlı idilər. Bu məqalədə, xüsusilə İngiltərənin Səfəvi imperiyası ilə əlaqələrinin inkişafından bəhs olunur. XVI əsrin ortalarında yaranmış bu əlaqələr Şah I Abbasın dövründə genişləndi. 1600-cü ildə qurulmuş ingilis "Ost-Hind şirkəti"nin həmin əlaqələrin inkişaf etdirilməsində mühüm rolu olmuşdu. "Ost-Hind şirkəti"nin nümayəndələri Səfəvi dövləti ərazisində ticarət imtiyazları əldə etmək üçün Şah I Abbasla uğurlu danışıqlar aparmışdırlar.

XVI əsrin ortalarında başlanmış İngiltərə-Səfəvi əlaqələri, XVI əsrin sonları Şah I Abbasın hakimiyyəti dövründə daha da inkişaf etməyə başladı. İngiltərə Ost-Hind şirkətinin qurulması ilə bu əlaqələr daha da genişləndi.

XVI əsrin sonu-XVII əsrin əvvəlləri Səfəvi dövləti ərazisində xarici şirkətlərin meydana çıxmasının əsas səbəbi Avropa ölkələrində ipək toxuculuq sənayesinin canlanması ilə bağlı idi. Əlavə olaraq, ədviyyatın bahalaşdığı bir vaxtda ipək ticarəti ona alternativ rol oynayırdı. Avropanın ipək toxuculuq sənayesi əsasən Səfəvi ipəyindən asılı idi. Çin ipəyindən daha keyfiyyətli olduğu üçün avropalılar daha çox Səfəvi ipəyinə üstünlük verirdilər [16,.242]. Halil İnalcık, Avropada ipək toxuma sənayesinin geniş yayılmasını belə əsaslandırır: ilk dəfə XIII əsrin ortalarında İtaliyanın Toskana vilayətinin Lukka şəhərində ipək toxuma sənayesi yarandı və bu toxuculuqla məşğul olan sənətkarların dünyanın müxtəlif yerlərinə köç etməsi ilə ipək toxuculuq sənayesi Avropada genişləndi. Bolonya, Cenevrə və Fransada ilk ipək toxuculuq fabriklərinin əsası qoyuldu. XV əsrin sonları Provans, Lion, Alp dağları ətəklərində yerləşən müxtəlif alman qəsəbələrində, Belçikada bu sənaye sahəsi inkişaf etdi. İpək toxuculuq sənayesi ilə Hollandiya və İngiltərənin tanış olması ilə onlar, birbaşa ipək ticarətini aparmağın yollarını düşünməyə başladılar. İngiltərə, ipək toxuma sənayesi ilə kraliça Yelizaveta Tüdorun (1558-1603) dövründə tanış olmuşdu [16, 243].

Şərqə gedən dəniz yolunu ilk portuqaliyalılar kəşf etdiyi üçün Şərqlə ticarətə digər Avropa ölkələrindən tez başlamışdılar. İllərlə Hind okeanı ticarətini inhisara almış portuqallar, Şərqin zəngin sərvətlərinə yiyələnərək buranın strateji məntəqələrində möhkəmlənmişdilər. Digər Avropa dövlətləri, xüsusilə İngiltərə Şərq ticarətinin üstünlüyünün fərqində idi. Buna görə də Şərq ticarətində ağalıq uğrunda mübarizə illərlə səngimədi [4, 20]. O zamanlar ingilislər ticarətdə hələ fəallıq göstərmirdilər. XVII əsrin əvvəlləri Portuqaliyanın ticarətdə üstünlüyünü itirməyə başladığı bir vaxtda ingilislər ticarətə daxil oldular. Lakin bu dəfə Hollandiya tərəfindən Hind okeanı ticarətindən təcrid olundular [gunarslan]. Bu ərazi nəinki əlverişli mövqeyi, o cümlədən zəngin təbii sərvətləri, xüsusilə qızılı ilə diqqət çəkirdi. Portuqalların ağalığı dövründə holland tacirləri, ingilislər, sonra isə fransızlar buraya soxuldular [4, 20]. Bəxtiyar Əhmədovun dediyi kimi, "İngiltərənin ticarət dairələri Şərq ticarətinin İspaniya və Portuqaliya tərəfindən inhisara alınmasını öz ölkələri üçün təhdid hesab edirdilər, bu inhisarı qadağan olunmuş rayonlarda ingilis ticarətini bərqərar etməkdə ciddi addımlar atmaqla həll etmək olardı."[4,21].

Şərqlə ticarət etmək üçün yaxşı gəmilərə sahib olmaq və beynəlxalq münaqişələrə hazır olmaq lazım idi. Portuqaliyalılar bu ticarəti dövlət adından təşkil etdikləri halda, hollandiyalılar yarı dövlət-yarı şirkət dəstəyi ilə həyata keçirirdilər. İngilis tacirlər bu ticarətə özəl bir şirkətin timsalında daxil oldular. [8, 102].

İngilislər hələ Şərqdə ticarət qurmağı düşünməyə vaxt itirərkən, portuqallar artıq Hind okeanı ticarətində bəlli bir yerə gəlib çıxmışdılar. Məhz Yelizavetanın hakimiyyəti dövründə ingilislər dəniz ticarətində irəliləməyə başladılar. 1588-ci ildə "Məğlubedilməz

Armadanın" məğlub edilməsi ilə ingilislərin Şərqlə ticarətində dönüş baş vermişdi [8, 107].

Lakin İngiltərə Ost-Hind şirkəti dövlət dəstəyi görən Hollandiya və portuqaliyalıları geridə qoymağı bacardı. Tarixdə ilk dəfə idi ki, özəl şirkət bu qədər inkişaf etməyi bacarmışdı [8, 122]. Hind okeanı vasitəsilə İngiltərənin Səfəvi dövləti ilə ticarət əlaqələrinin inkişafı Ost-Hind şirkətinin adı ilə bağlıdır [4, 64].

XVI əsrin sonu XVII əsrin əvvəllərində Səfəvi-Avropa əlaqələrinin inkişafı, həm də Qərb dövlətlərinin mənafeyi ilə bağlı idi [12, 270]. İngiltərə, Hollandiya və Fransa kimi Avropa dövlətləri Osmanlı və Portuqaliya tacirlərinin vasitəçiliyindən imtina edərək Səfəvi dövləti ilə birbaşa ticarət əlaqələri qurmaq üçün addımlar atdılar. XVI əsrin sonlarında - XVII əsrin əvvəllərində bu ölkələrdə "Ost- Hind şirkətləri"nin yaradılması ilə onlar, Portuqaliyanın İran körfəzində və Hindistanda ədviyyat ticarəti üzərindəki inhisarına qarşı çıxdılar [6, 201]. Dilavər Əzimlinin qeyd etdiyi kimi, "Bununla da, həmin şirkətlərin zəngin sərvətli Səfəvi dövləti ərazilərinə və Hindistan ədviyyatına birbaşa çıxışı təmin edilirdi" [6,201]. Beləliklə, onlar Səfəvi imperiyasına öz səfirlərini göndərməyə başladılar. Səfəvi sarayı ilə əlaqələrdə İngiltərə xüsusilə fəal idi.

1508-ci ildən Hörmüzdə İran körfəzi ticarətinə Portuqaliya nəzarət edirdi. 1581-ci ildən bu ticarət portuqallardan ispanlara keçdi. İngilis "Ost-Hind şirkəti" qurulduqdan sonra 1600-1604-cü ildə ingilislər Cənub-Şərq marşrutunu ələ keçirmək üçün addımlar atdılar [17, 45]. İngilislər Hind okeanı ticarəti uğrunda Portuqaliya ilə mübarizəyə başladı [14, 348]. XVII əsrdə Şərq siyasətinin əsas iştirakçılarından olacaq ingilislər öz təsir dairələrini genişləndirmək məqsədilə Səfəvi dövləti ilə yaxınlaşmağa çalışırdı [15, 39].

"Ost-Hind şirkəti"nin yaranma tarixinə gəlsək, həmin şirkət 1599-cu ildə Corc Kemberlendin başçılıq etdiyi bir qrup tacirin təşəbbüsü ilə başlamışdı. Onlar, İngiltərə hökumətinə təqdim etmək üçün layihə tərtib etdilər. Bu layihədə Şərqi Hindistanda ticarət aparmağın üstünlüyündən bəhs olunmuşdu. Gizli Şura bu təklifi bəyəndiyi üçün tacirlər yeni ticarət şirkətinin layihəsini işləməyə başladılar.

Bu şirkətin yaranması həm də İngiltərənin ictimai-iqtisadi vəziyyətinin yaxşılaşmasına gətirib çıxaracaqdı. Nəhayət, 1599-cu ilin sentyabrında yeni ticarət şirkətinin yaranması ilə bağlı qərar qəbul edildi. Tacir heyəti, İngiltərə kraliçası Yelizaveta Tüdora xahiş ərizəsi təqdim etdi. Onlar Yelizavetanın bu şirkəti öz himayəsinə götürməsini istəyirdilər. Lakin İngiltərənin İspaniya ilə münasibətlərinin gərginləşmə ehtimalı var idi. Çünki həmin zaman Avropa-Şərq ticarəti İspaniyanın inhisarında idi. İngiltərə hökuməti 1600-cü il dekabr ayında şirkətin hüquq və səlahiyyətlərini təsdiqləyən xartiyanı imzaladı [4,23]. Bəxtiyar Əhmədovun da dediyi kimi, "İngiltərənin xarici ticarətinin sonrakı inkişafında, onun təkamülündə, İngiltərə ticarət ekspansiyasının genişlənməsində Ost-Hind şirkəti, sözün tam mənasında həlledici rol oynadı" [4,26].

Hollandiya Ost-Hind şirkəti təxminən 20 il müddətində İran körfəzində öz mövqeyini qoruyub saxlaya bildi [10, 400]. Həmin dövrdə Hollandiyada və İngiltərədə kapitalist manufakturaları inkişaf edir, yeni şəhərlər yaranır, sənayedə uğurlar əldə edilir, sərmayələr edilirdi [6, 208]. İran körfəzi ticarəti uğrunda Avropa dövlətləri arasında mübarizədən istifadə edən Şah I Abbas Portuqaliyanı İran körfəzindən çıxarmaq üçün fəaliyyətə başladı. O portuqalları İran körfəzindən çıxarmaq üçün Hollandiya və İngiltərənin köməyindən istifadə etmək qərarına gəlmişdi [6, 201].

XVI əsrin əvvəlləri Robert və Antoni Şerli qardaşları "Levant" və "Ost-Hind şirkəti"ndən ayrı fəaliyyət göstərərək Avropa ölkələri ilə danışıqlar apardığı üçün bu şirkətlərlə Osmanlı hökuməti arasında gərginlik yaranma ehtimalı vardı. Şirkətin səlahiyyətli nümayəndələri Osmanlı ərazilərindən əldə olunan gəlirin itirilməsi qorxusu ilə Şerli qardaşlarının "etibarını" zədələmək fikrinə düşdülər. Güman olunur ki, Şerli qardaşlarının Avropa ölkələrində Səfəvi dövləti adından danışıqlar aparılmasının nəticəsiz qalmasının səbəblərindən biri də, bu şirkətlərin müdaxiləsi ilə bağlı idi [7,123]. Bunun ardından "Ost-Hind şirkəti" nümayəndələrinin Səfəvi dövlətinə elçilər göndərməyə başlaması, ticarət danışıqları aparması şirkətin bu ticarəti öz nəzarətinə alması ilə bağlı idi [7, 124].

Şirkətin ilk qubernatoru vəzifəsinə vaxtilə Levant və Moskva şirkətlərinin ilk direktoru olmuş Tom Smit seçilmişdi [4,28]. Ost-Hind şirkətinin yaranmasına təşəbbüs göstərən tacir heyəti Levant və Moskva şirkəti dövründə ticarətdə iştirak edən nümayəndələr idi. Yeni yaranmış "Ost-Hind şirkəti" bir növ Moskva və Levant şirkətinin xələfi hesab edilə bilər [3, 53]. Yelizavetanın hakimiyyəti döv-

ründə dövlət lazım gəldikdə şirkətə dəstək olurdu, lakin Stüartların İngiltərədə hakimiyyətə gəlişindən sonra vəziyyət dəyişdi [4,41].

Şirkət yeni yarandığı zamanlarda dəniz yolu ilə ticarət aparmaq üçün sərmayə ayıra bilmirdi. "Ost-Hind şirkəti" ilk dəfə 1601-ci ildə Şərqi Hindistan adaları olan Malayziya və İndoneziyaya səfər etdi. Bu ekspedisiya uğurlu keçdiyindən şirkət nümayəndələri bu ərazi ilə ticarət əlaqələrinin genişləndirilməsinə başladılar [1,114]. XVII əsrin əvvəlləri Avropa dövlətlərinin Hind okeanı ticarətində rəqabət dövründə, Hind okeanı ticarətinə yeni qoşulmuş ingilislər Hindistanla ticarətinə meyil etməyə başladılar. Şirkət nümayəndələri, 1612-ci ildə Böyük Moğol hökmdarı Cahangirdən icazə alaraq Suratda fabrik qurmağa nail oldular. Lakin ingilis mahudu və çuxaları Hindistanda satılmadı. Hindistan isti iqlimə malik olduğu üçün ingilis çuxalarına tələbat az idi. Məhz həmin zaman Səfəvi dövləti İngiltərənin diqqət mərkəzinə çevrildi. Beləliklə, ingilislər ixrac etdikləri məhsullar üçün əlverişli bazar tapa bildilər. Burada ipəyin qiymətinin Hələbdə olduğundan daha ucuz olması ingilislər üçün üstünlük idi. Bununla da ingilis tacirlər Şah I Abbasla danışıqlar aparmağa başladı [5, 109].

1622-ci ildə səfəvilər Hörmüzü portuqallardan azad etdilər. Bu əməliyyat zamanı ingilis donanmasının onlara müəyyən yardım etdiyi qeyd olunurdu. Bunun müqabilində, Şah I Abbas ingilislərə Bəndər Abbasda faktoriya açmaq və başqa ticari imtiyazlar verdi. Bununla da, ingilislər İran körfəzi ticarətində üstünlük qazanmağa başladılar [14, 351]. Dilarə Həsənzadənin yazdığına görə, "hərbi əməliyyatlara başlamazdan əvvəl ingilislər İran (Səfəvi-J.Ə.) hökumətinə öz şərtlərini bildirdilər. Bu tələblərdən birinə görə, Hörmüz qalası ingilislərin tabeliyinə keçməli idi…, İran (Səfəvilər dövləti-J.Ə.) isə öz vəsaitləri hesabına yeni qala tikməli idi" [9, 109]. Lakin Hörmüz azad olunduqdan sonra Şah Abbas bu şərtləri yerinə yetirməkdən boyun qaçırdı [9, 109].

İngilis "Ost-Hind şirkəti"nin əsas vəzifəsi Hind okeanı hövzəsində yeni ərazilər ələ keçirərək, burada möhkəmlənmək idi [4, 33]. İngiltərənin həmin dövrdə Səfəvi dövləti ilə yaxınlaşması hər nə qədər dinc ticari əlaqələr qurmaq meyli ilə bağlı olsa da, bununla ingilislər bir növ gələcək müstəmləkə planlarını həyata keçirmək üçün ilk addımlarını atırdılar. Yeni yaranmış şirkət öncə bu məqsədinə dinc yolla irəliləyirdi. Lakin qeyd etmək lazımdır ki, tarixçilər ingilislərin Şərqlə bağlı müstəmləkə siyasətinin öncədən planlanmadığını və hadisələrin gedişatı nəticəsində, sonradan tətbiq olunmağa başlanması fikrini müdafiə edirlər [13,7].

Şah I Abbasın İpək yolunu Osmanlı ərazisindən Hind okeanına yönəltməklə dəyişmək planını həyata keçirməkdə yenə də ingilis və hollandlardan istifadə etməyə başladı. O, güman edirdi ki, ingilis və hollandlar ona dəstək olacaqlar, çünki onlar Osmanlı dövlətinə böyük həcmdə vergi ödəyirdilər [2, 370]. Belə də oldu, 1617-cı ildə İngiltərə kralının əmri ilə Hindistan səfiri Tomas Roy ipək ticarətini osmanlıların əlindən çxarmaq üçün şahın yanına öz nümayəndəsi olan Eduard Konnoku göndərdi [6, 212]. İnglislərlə Səfəvilərin yaxınlaşması digər dövlətlər tərəfindən yaxşı qarşılanmırdı. Xüsusilə, İspaniya bu iki dövlət arasında dostluq əlaqələrinə mane olur, ipəyin Hind okeanı ilə daşınmasının qarşısını almağa çalışırdı. Buna görə də ingilislər ipəyin Moskva istiqamətindən gedən yolla daşınmasının tərəfdarı idilər [14, 350]. İngilislər Osmanlı dövləti ərazilərindən keçməyən bir yolla daha ucuz ipək əldə etmək arzusunda idilər. Nəhayət, İngiltərə ilə Səfəvi dövləti arasında ticarət müqaviləsi bağlandı [6, 212].

Səfəvilər İngiltərə və Hollandiya ilə ticari əməkdaşlığı sayəsində Osmanlıları ipək ticarətindən təcrid etmə məqsədinə, müəyyən bir dövrdə nail oldular. 1628-ci ildə Hələb bazarında demək olar ki, heç ipək yox idi [11, 334]. Lakin Şah Abbas Osmanlı ipək ticarət yolunu Osmanlı ərazilərindən birdəfəlik çıxara bilmədi. Çünki bunun qarşılığında Osmanlılar da Səfəvi ərazilərinə qızıl ixracatını dayandırır, bu da Səfəvi dövlətində iqtisadi inflyasiyaya gətirib çıxarırdı [2, 366]. 1621-ci ilin dekabrında "Ost-Hind şirkəti"nin nümayəndəsi Eduard Monoks və şirkətin prezidenti Tomas Ratselin Səfəvi hökmdarı I Şah Abbasla İngiltərə kralı adından müqavilə imzalandı [14, 351].

T.Nəcəfli qeyd edir ki, "1621-ci ilin dekabrında "Ost-Hind şirkəti"nin nümayəndəsi Edvard Monoks və şirkətin prezidenti Tomas Ratselin Səfəvi hökmdarı I Şah Abbasla İngiltərə kralı adından aşağıdakı şərtlərlə bağladıqları müqavilədə deyilirdi:

"1. Hömüzdə Portuqaliya əleyhinə ingilis gəmilərinə yardım üçün Hörmüzün yarısı Səfəvilər, yarısı isə ingilislər üçün bölünməlidir;

2. Hörmüz qalasında Səfəvi və ingilis qoşunu yerləşdirilməlidir;

3. Hindistanda ələ keçirilmiş qala və limanlar

tərəflər arasında bərabər şəkildə bölünməlidir;

4. Hindistana gedən həm ingilis, həm də İran (Səfəvi – T.N.) gəmiləri gömrükdən azad olmalıdır;

5. Xaricilərdən gələn gömrük haqqı həm ingilis, həm də İran (Səfəvi – T.N.) arasında bərabər şəkildə bölünməlidir;

6. Bütün xristian əsirləri ingilislərin, müsəlman əsirləri İranın (Səfəvilərin – T.N.) nəzarətində olmalıdır;

7. Silah-sursat, ərzaq təchizatı və digər ləvazimatların bütün xərcləri iki dövlət tərəfindən bərabər şəkildə bölünməlidir..." [14, 351].

1621-ci ilin dekabrında Səfəvilər dövləti ilə İngiltərə arasında imzalanmış müqavilə nəticəsində ingilis tacirlərinə müstəsna ticarət hüququ verməklə, Şah Abbas portuqaliyalıları zəiflətməyə və onların işğal etdikləri torpaqları geri qaytarmağa can atırdı.

## Nəticə

Beynəlxalq ticarətdə yeni addımlayan İngiltərə, dəniz ticarətində İspaniyanın, Aralıq dənizi hövzəsində isə Osmanlı imperiyası və İtaliya şəhər-dövlətlərinin monopoliyası ilə razılaşa bilmirdi. Öz ticarət hüquqlarının müdafiəsinə qalxan ingilislər, 1588-ci ildə İspaniya dəniz donanmasını məğlubiyyətə uğratdı. Bununla da İngiltərənin ticarət həyatında yeni bir dövr başlandı. 1600-cü il dekabr ayında təsis olunan "Ost-Hind şirkəti" İngiltərə hökuməti adından uğurlu ticarət əməliyyatları aparırdı. Xüsusilə, Şərqdə ticarət aparmağa can atan ingilis tacirlər nəhayət 1612-ci ildə Hindistanda Suratda "Ost-Hind şirkəti"nin nümayəndəliyini açmağa nail oldular. Bu zaman İran körfəzi ticarətində Portuqaliya ağalıq edirdi. İngilislərin İran körfəzi ticarətinə daxil olması portuqallar tərəfindən yaxşı qarşılanmadı. Onlar arasında başlanan rəqabət İngiltərənin üstünlüyü ilə başa çatdı. Şah I Abbas portuqallara qarşı mübarizədə ingilislərə ticari imtiyazlar bağışladı və portuqalların Hörmüzdən çıxarılmasına nail oldu.

**Açar sözlər:** *Səfəvilər dövləti, "Ost-Hind şirkəti", Şah I Abbas, diplomatik missiya, İngiltərə*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abdülkadir Erçin. İngiliz Doğu Hindistan Kumpaniyası ve kumpaniyanın ticari faaliyetleri. Bartın Universitesi Çeşm-i Cihan: Tarih Kültür ve Sanat Araştırmaları E-Dergisi. İSSN:2149-5866 Cilt:4, Sayı:2, s.111-133, 2017*

*2. Aydoğmuşoğlu C. I Şah Abbas ve zamanı. Yayınlanmamış doktora tezi. Ankara: 2011, 306 s.*

*3. Ayşe Özge Ercan. İngiliz seyyah John Sandersonun seyahetnamesi (1584-1602): Türkçe çeviri ve İstanbul gözlemlerinin değerlendirilmesi. Yüksek Lisans tezi, İstanbul:2014*

*4. Bəxtiyar Əhmədov. XVII Əsrin Birinci Yarısında İngiltərənin Şərq Siyasəti. "Nafta-press" nəşriyyatı. Bakı:1998*

*5. Canan Kuş Büyüktaş. Safave hükümdarı Şah I Abbasın Osmanlı devletinin Hindistan ticaretindeki rölünü engelleme faaliyetleri. İRTAD, Sayı:4 Haziran, s.94-116*

*6. Əzimli, D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı - XVII əsrin I yarısı). Bakı: Təhsil, 2012.*

*7. Furkan Külünk. Sultan I Ahmed Dönemi ve Bursa. Gaye Kitabevi. Bursa: 2023*

*8. Günarslan H. Avrupalıların doğu ticaret mücadelesi: İngiliz Doğu Hindistan şirketinin kurulması. Sivas Cumhuriyyet Universitesi Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi. Aralık 2020, Sayı:2*

*9. Həsənzadə, D.Q. XVI əsrin sonu–XVII əsrin birinci yarısında Ingiltərənin müstəmləkə siyasəti tarixinin bəzi aspektləri və Səfəvilər dövləti (ingilis mənbələri əsasında) // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2012, №1, s. 106-110.*

*10. J.M. Roberts. Avrupa tarihi, Helicon Publishing Ltd, 1996*

*11. Küpeli Özer. İpek, Ticaret Yolları Ve Osmanlı-Safevi Mücadelesinde Ekonomik rekabet. Van Yüzüncü yıl üniversitesi sosyal bilimler enstitüsu dergisi. İSSN:1302-6879, 2018, İssue: İslam Kongresi Özel Sayısı, p.322-340*

*12. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı: "Təhsil", 2006*

*13. Masani R.P. Britain in İndia (1960) Oxford University Press, 1960*

*14. Nəcəfli T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, Bakı: Turxan NBP, 2020*

*15. S. Səfərov. XVII-XX əsrlərdə Böyük Britaniyanın şərq siyasəti. Tarix, insan və cəmiyyət, 2019, 4, (27), s.32-44*

*16. Şenay Yanar. XVII Yüzyıl Avrasya Ticaretinde İran İpeği. Journal History of Studies. İSSN:1309 4173(Online) 1309-4668 (Print) Volume 6, İssue 4, p.241-251,July 2014*

*17. Д.Г.Гасанзада. Англо-Сефевидские отно-*

*шение в концеXVI –начале XVII веков (по материалам английских источников), Баку:2007*

**Aliyeva Zhanna**

**"The role of the English East India Company in the development of Anglo-Safavid trade relations during the reign of Shah Abbas I"**

**SUMMARY**

When Shah Abbas ascended to the throne, the Safavid Empire was in decline. His rise to power marked a turning point in Safavid relations with Europe. Seeking allies to triumph over the Ottomans, Shah Abbas placed great importance on forging strong ties with Western European countries. Western European states, eager to gain dominance in Persian Gulf trade, were also interested in expanding their relations with the Safavid Empire. This article specifically discusses the development of relations between England and the Safavid Empire. These ties, established in the mid-16th century, expanded notably during the reign of Shah Abbas. The East India Company, founded in 1600, played a significant role in developing these relations. Representatives of the East India Company successfully negotiated privileges in trade within the Safavid state's territories with Shah Abbas.

**Key words:** *Safavid state, East India Company, Shah Abbas, diplomatic mission, England*

**Алиева Жанна**

**"Роль английской Ост-Индской компании в развитии англо-сефевидских торговых отношений в период правления шаха Аббаса I"**

**РЕЗЮМЕ**

Во время восхождения на трон Шаха Аббаса Сефевидская империя находилась в упадке. Его приход к власти послужил началом периода укрепления отношений Сефевидов с Европой. Шах Аббас, стремясь найти союзников для победы в войне против Османской империи, придавал большое значение установлению крепких связей с западноевропейскими странами. Западноевропейские государства, желая доминировать в торговле Персидским заливом, также проявляли интерес к расширению своих отношений с Сефевидской империей. В данной статье особое внимание уделяется развитию отношений между Англией и Сефевидской империей. Эти связи, возникшие в середине XVI века, стали шире во времена правления Шаха Аббаса. Основанная в 1600 году, Восточно-Индийская компания сыграла значительную роль в развитии этих отношений. Представители Восточно-Индийской компании успешно провели переговоры с Шахом Аббасом о получении привилегий в торговле на территории Сефевидского государства.

**Ключевые слова:** *Сефевидское государство, Ост-Индская компания, Шах Аббас, дипломатическая миссия, Англия*

UOT 94 "19/..."
DOI:10.30546/3006-0346.2024.3.81.0141

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI VƏ KOREYA RESPUBLİKASI ARASINDA MÜLKİ NÜVƏ ƏMƏKDAŞLIĞI: YENİLƏNMİŞ "123 SAZİŞİ"1

**SEVİNC İBADOVA**
*Bakı Dövlət Universiteti, tarix fakültəsinin doktorantı*

*E-mail: sevincibadova.212@mail.ru*
*Orcid id: 0000-0003-4471-24671*

Amerika Birləşmiş Ştatları və Koreya Respublikası yarım əsrdən artıqdır ki, sülhməramlı nüvə əməkdaşlığı sahəsində güclü tərəfdaşlığa malikdirlər. ABŞ Cənubi Koreyaya təkcə nüvə materialları ixrac etmir, həm də Cənubi Koreya ABŞ-dakı nüvə layihələrini dəstəkləmək üçün nüvə avadanlığı verir. Onlar habelə, beynəlxalq nüvə təhlükəsizliyi və yayılmaması tədbirlərini gücləndirmək üçün çoxsaylı təşəbbüslər üzrə əməkdaşlıq edirlər.

Birləşmiş Ştatlar və Koreya Respublikası arasında sülhməramlı nüvə əməkdaşlığına dair danışıqlar iki ölkənin statusu və maraqları, eləcə də nüvə silahının yayılmaması və mülki nüvə enerjisi ilə bağlı oxşar olsa da, fərqli baxışları fonunda baş tutub.

22 aprel 2015-ci ildə ABŞ və Koreya Respublikası nüvə texnologiyaları və resurslarında əməkdaşlıq və ticarət üçün ilkin şərt olan "123 Sazişi" kimi tanınan yeni ikitərəfli mülki nüvə sazişi imzaladılar. 2015-ci ilin iyun ayında Amerika Birləşmiş Ştatları və Koreya Respublikası arasında yeni ikitərəfli müqavilə olan "Nüvə Enerjisindən Sülh Məqsədlərində İstifadəyə dair Əməkdaşlıq haqqında Saziş" (bundan sonra "123 Sazişi") qüvvəyə mindi. Yeni saziş növbəti iyirmi il üçün nüvə əməkdaşlığının şərtlərini müəyyən edir [ 6, s. 6 ].

"123 Sazişi" termini nüvə materialı, avadanlıq, komponentlər və ya texnologiyanın ötürülməsi üçün Birləşmiş Ştatlar və başqa ölkə arasında xüsusi razılaşmanı tələb edən ABŞ-nin 1954-cü il Atom Enerjisi Aktının 123-cü Bölməsinə istinad edir. Bu sazişlər Konqresin təsdiqini tələb edir və nüvə əməkdaşlığı baş verməzdən əvvəl nüvə silahının yayılmaması ilə bağlı doqquz ətraflı meyarlara cavab verməlidir. Daha geniş mənada, sazişlər nüvə silahının yayılmaması üçün çox vacibdir, çünki onlar materialın qeyri-qanuni məqsədlərə yönəldilməsini təmin etmək, materialın necə istifadə olunacağını məhdudlaşdırmaq, material və avadanlıqların təhlükəsizliyini təmin etmək üçün təminat tələb edir. Bu tələblər tərəfdaş dövlətin material və ya texnologiyanın yayılması və ya üçüncü tərəfə ötürülməsi imkanlarını və ehtimalını azaldır. Digər beynəlxalq müqavilələrlə birlikdə işləyən "123 Sazişi" qlobal silahların yayılmaması rejiminin təməl daşı kimi xidmət edir. Birləşmiş Ştatların Yaponiya da daxil olmaqla digər dövlətlərlə bu müqavilələrdən bir neçəsi var. Bu sazişlərin məqsədi qlobal nüvə silahının yayılmaması rejimini gücləndirməkdir.

Hazırkı ABŞ-Cənubi Koreya əməkdaşlıq sazişi 1974-cü ildə qüvvəyə minmiş və 2014-cü ildə ilkin formada iki il müddətinə uzadılan müqavilənin varisidir.

Belə ki, nüvə sahəsində əməkdaşlığa davam etmək üçün Birləşmiş Ştatlar və Cənubi Koreya arasında "123 Sazişi"n yenilənməsi vacib idi. 2015-ci ilin iyununda təsdiqlənmək üçün ABŞ Senatına göndərilən yeni ikitərəfli nüvə sazişi Amerika Birləşmiş Ştatları və Cənubi Koreyanın strateji ehtiyaclarını qarşılayır.

ABŞ və Koreyanın nüvə proqramları və siyasətləri arasında tarixən güclü əlaqələr ikisi arasında nüvə əməkdaşlığına dair yeni, müasir sazişin- 2015-ci il "123 Sazişi"n danışıqlarında mərkəzi rol oynayan qarşılıqlı asılılıqlar və gərginliklər yaratmışdır. Bu danışıqlar getdikcə daha çox siyasi və mübahisəli xarakter aldı, iki dövlət, xüsusilə, Koreyanın yanacaq dövriyyəsi imkanlarının inkişafı ilə bağlı məsələlərdə-yanacaq reaktorlarında uranın zənginləşdirilməsi və nüvə tullantılarının azaldılması üçün işlənmiş yanacağın təkrar emalı ilə bağlı müxtəlif mövqelər tutdu [6, s.12].

Yeni saziş nüvə stansiyalarının təhlükəsiz və səmərəli istismarı ilə bağlı ümumi çağırışları və imkanları bölüşən yetkin tərəfdaşlar arasında əməkdaşlığı və nüvə silahının yayılmasının qarşısını almaq üçün lazımi təminatların olmasını təmin etməyi nəzərdə tutmuşdur. O, nüvə enerjisinin dinc, məsuliyyətli və təhlükəsiz inkişafına davamlı öhdəliyə əsaslanan effektiv nüvə əməkdaşlığının parametrlərini və sərhədlərini müəyyən edir. Yeni saziş mütləq olaraq hər iki tərəfin əsas maraqları, o cümlədən ABŞ-nin təhlükəsizlik tədbirləri və nüvə silahlarının yayılması ilə bağlı narahatlıqları və Cənubi Koreyanın yanacaq təchizatı, işlənmiş yanacağın idarə edilməsi və

nüvə elektrik stansiyalarının ixracı üzrə əməkdaşlıqla bağlı narahatlıqları əsasında formalaşmışdır.

"123 Sazişi" təkcə, zənginləşdirmə, istifadə olunmuş yanacağın idarə olunması, ticarətin asanlaşdırılması kimi üç prioritet sahəni əhatə etmir, həm də bir sıra digər sahələrdə əməkdaşlığa icazə verir: radiologiyanın tənzimləyici və əməliyyat aspektləri də daxil olmaqla nüvə təhlükəsizliyi üzrə müdafiə; qabaqcıl nüvə yanacaq dövrü daxil olmaqla yeni nəsil nüvə enerji sistemləri üzrə texnologiya; utilizasiya da daxil olmaqla radioaktiv tullantıların idarə edilməsi; radioaktiv izotopların istehsalı və radiasiya və radioaktivlərin tətbiqi, izotoplar; müdafiə vasitələri və fiziki müdafiə; çoxtərəfli layihələr də daxil olmaqla, idarə olunan termonüvə sintezi; nüvə yanacağının layihələndirilməsi və istehsalı; reaktorların işlənməsi, layihələndirilməsi, tikintisi, istismarı, texniki xidməti və istifadəsi; reaktor təcrübələri və istismardan çıxarılması [6, s. 15].

Bu siyahıdan görünür ki, hər iki dövlət əhəmiyyətli maraqları bölüşür və bu sahələrdə bir sıra öz daxili çətinlikləri ilə üzləşirlər. Məsələn, hər iki dövlətin köhnəlmiş nüvə donanması var və indi bu reaktorların nə qədər müddətə və hansı şərtlər altında yenidən lisenziyalaşdırılacağına dair qərar vermək prosesindədir. Birləşmiş Ştatlar bu məsələdə Koreyadan daha çox təcrübəyə malikdir, lakin növbəti onillikdə hər ikisi hər iki ölkədə yerləşdirilən dizayn reaktorlarının yenidən lisenziyalaşdırma qərarları ilə üzləşəcək. Beləliklə, təhlilləri və tənzimləyici ən yaxşı təcrübələri bölüşmək üçün kifayət qədər imkan var.

Yeni sazişin 2-ci maddəsi ABŞ və Cənubi Koreya arasında nüvə materialları, avadanlıq və texnologiyanın qarşılıqlı mübadiləsini nəzərdə tutur və beləliklə, ixracatçı qismində ABŞ və idxalçı qismində Koreya Respublikası ilə mövcud müqavilənin birtərəfli xarakterini dəyişdirir. Bu, Cənubi Koreyanın həm daxili, həm də beynəlxalq səviyyədə nüvə enerjisi sahəsində artan nüfuzunu sübut edir və Cənubi Koreyanın artıq Amerika nüvə sənayesi üçün mühüm təchizatçıya çevrilməsi faktını əks etdirir [2, s. 30].

Nüvə sazişindəki əsas dəyişikliklərə Cənubi Koreyaya uranı zənginləşdirmək, işlənmiş yanacaqdan tədqiqat məqsədləri üçün istifadə etmək və piropemal üzrə tədqiqatlar üçün qapını açıq qoymaqla yanaşı, digər utilizasiya variantlarından yararlanmaq imkanı verən mexanizmin əlavə edilməsi daxildir.

Uranın zənginləşdirilməsi ilə bağlı yeni saziş Cənubi Koreyanın nüvə enerjisi və tədqiqat məqsədləri üçün 20 faizdən az zənginləşdirə biləcəyi mexanizm yaradır. Cənubi Koreya Xarici İşlər Nazirliyinin məlumatına görə, nazirlər səviyyəsində rəsmilərdən ibarət ikitərəfli komissiya toplaşacaq və zənginləşdirmə proqramları ilə bağlı petisiyalar yarandıqda onlara baxacaqdır [1]. Hər hansı proqram irəliləməzdən əvvəl bu komissiyanın razılığı tələb olunacaqdır. Bu, kritik bir addımdır, çünki o, indi ayrı-ayrılıqda nəzərdən keçirilməsinin baş verə biləcəyi mexanizmi institusionallaşdırır. Bu, həm də daha açıq dialoq yaratmaqla hər iki tərəf üçün uçurumu aradan qaldırır. Cənubi Koreya əvvəlcədən istənilən razılığı almır, lakin bu dəyişiklik məhdudiyyətlərin azaldılması istiqamətində hərəkət edir. Birləşmiş Ştatlar isə öz növbəsində Cənubi Koreyanın tələblərinə cavab verir, eyni zamanda hələ də nəzərdən keçirmə elementini saxlayır.

Razılaşmada irəliyə doğru əlavə addım odur ki, o, Cənubi Koreyaya artıq istifadə olunmuş nüvə yanacağını utilizasiya məqsədilə üçüncü ölkəyə daşımağa icazə verir. Daha əvvəl qeyd edildiyi kimi, tullantıların atılması və təhlükəsiz yanacaq təchizatı Cənubi Koreya üçün əsas məsələlərdir. Bu, hər ikisini həll etməyə kömək edir. Cənubi Koreya təkrar emal üçün yanacağı Avropaya göndərə və ayrılmış plutoniumdan qarışıq oksidli yanacaqdan istifadə edə bilər ki, bu da tullantıların miqdarının azaldılmasına, eləcə də yanacaq tədarükündə müxtəlifliyin artmasına kömək edir. Yaxud Cənubi Koreya tullantıları uzunmüddətli utilizasiya üçün göndərə bilər. Rusiyanın tam dövrəli yanacaq xidmətlərinin artması ilə bu, yaxınlıq və xərclər nəzərə alınmaqla bir seçim ola bilər. Birləşmiş Ştatlar nəzarət elementini saxlayır, bununla belə, yanacağın çıxarılması da razılıq tələb edir.

İmkanların ön və arxa planda genişləndirilməsi faktoru Cənubi Koreyanın nüvə enerjisi biznesini xaricdə də genişləndirmək səylərinə kömək edəcəkdir. Daha önəmlisi, bu, Cənubi Koreyaya iki siqnal göndərir. Birincisi, iki xalq arasında qarşılıqlı öhdəliklə bağlı etibarı bərpa etməyə başlayır. İkincisi, ABŞ-nin Cənubi Koreyanın nüvə enerjisində texniki həmyaşıd olduğunu və bunun gətirəcəyi iqtisadi zərəri nəzərə alaraq, nüvə enerjisi əməliyyatlarında tam məhdudlaşdırılmamalı olduğunu etiraf etdiyini nümayiş etdirir. Münasibətlərin bu cür möhkəmlənməsi Cənubi Koreya Xarici İşlər Nazirliyinin

etimad, qarşılıqlı narahatlıq və qarşılıqlı faydanın vurğulandığı sazişlə bağlı mətbuata açıqlamasında daha aydın görünür [7].

Qeyd edək ki, hər iki ölkə sazişi uğurlu adlandırıb. Cənubi Koreyanın xarici işlər naziri Yun Byung-Se bildirib ki, saziş gələcək yönümlüdür müasir və qarşılıqlı faydalı əməkdaşlığı asanlaşdıracaqdır. O, müqaviləni Qarşılıqlı Müdafiə Müqaviləsi və Azad Ticarət Sazişindən sonra alyansın mərkəzi sütunlarından biri olduğunu vurğulamışdır. ABŞ-nin energetika naziri Ernest Moniz isə sazişin ittifaqı möhkəmləndirəcəyini, müvafiq nüvə sənayeləri arasında genişlənmiş əməkdaşlığa imkan verəcəyini və  hər iki hökumətin nüvə silahının yayılmaması ilə bağlı ümumi öhdəliklərini bir daha təsdiq edəcəyini bildirmişdir [5].

Beləliklə, nüvə enerjisi Cənubi Koreyanın enerji təhlükəsizliyinin əsas komponentidir. Ölkənin daxili istifadə strategiyası və qlobal bazarda nüvə enerjisinin sahibi olmaq məqsədi Cənubi Koreya iqtisadiyyatı üçün əhəmiyyətli bir istiqamətdir. “123 Saziş”ə kiçik əlavələr hər iki ölkəyə qələbə ilə irəliləməyə imkan verir. Birləşmiş Ştatlar qızıl standartlarına dair qlobal istəyini geri götürsə də, daha çox bəzi kompromislərlə rəsmiləşdirilmiş mövqeyə arxalansa da, bu yeni yanaşma uzunmüddətli perspektivdə daha davamlı ola bilər. Bununla belə, bu, gələcək müqavilələrdə ədalətli tətbiqi təmin etmək üçün daha çox rəsmiləşdirmə tələb edəcəkdir. Cənubi Koreya həm ölkə daxilində, həm də xaricdə nüvə enerjisi imkanlarını artırmaq məqsədi ilə bir qədər irəliləyir. Daha önəmlisi, Cənubi Koreya Birləşmiş Ştatlarla əlaqələrini möhkəmləndirməkdə və təmin etməkdə qalib gəlir, eyni zamanda ABŞ-nin Cənubi Koreyanın “qabaqcıl mərhələdə” nüvə dövləti olduğunu tanıması ilə öz ölkəsində nüfuz qazanır.

Araşdırmalar göstərir ki, yeni saziş, həmçinin Cənubi Koreyanın öhdəliyini təmin etməklə, müdafiə mexanizmləri yaratmaqla və ABŞ-nin nüvə silahının yayılmamasının güclü tərəfdarları ilə konstruktiv işləməyə hazır olduğuna dair qlobal ictimaiyyətə siqnal verməklə ABŞ-nin nüvə silahının yayılmaması siyasətini gücləndirir.

**Açar sözlər:** *Koreya Respublikası, Amerika Birləşmiş Ştatları, mülki nüvə əməkdaşlığı, "123 Saziş", Koreya Respublikası-ABŞ ittifaqı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Kim Sang-seon, “Korea Clinches Better Nuclear Deal,” Korea Joongang Daily. April 23, 2015. http://koreajoongangdaily.joins.com/news/article/Article.aspx?aid=3003425*

*2. Fred McGoldrick. The New Peaceful Nuclear Cooperatıonmagreement Between South Korea And The Unıted States From Dependence to Parity. The Korea Economic Institute (KEI). September 2015.*

*https://keia.org/wp-content/uploads/2015/12/KEI_Special-Studies-2015-FINAL.pdf*

*3. Fred F. McGoldrick, Robert J. Einhorn, Duyeon Kim, James L. Tyson. ROK-U.S. Civil Nuclear and Nonproliferation Collaboration in Third Countries. Special Studies Series: 6. January 16, 2015.*

*https://www.brookings.edu/articles/rok-u-s-civil-nuclear-and-nonproliferation-collaboration-in-third-countries/*

*4. Mark Holt. U.S. and South Korean Cooperation in the World Nuclear Energy Market: Major Policy Considerations. Congressional Research Service. June 25, 2013.*

*https://sgp.fas.org/crs/row/R41032.pdf*

*5. Mary Beth D. Nikitin, Mark Holt. U.S.-Republic of Korea Nuclear Cooperation Agreement. June 30, 2015.*

*https://sgp.fas.org/crs/nuke/IN10304.pdf*

*6. Miles A. Pomper, Toby Dalton, Scott Snyder, Ferenc Dalnoki-Veress. Strengthening the ROK-US Nuclear Partnership. Special Studies Series: 6. Korea Economıc Instıtute. February, 2016*

*https://www.nonproliferation.org/wp-content/uploads/2016/02/Occasional-Paper-24- Strengthening-ROK-US-Nuclear-Partnership.pdf*

*7. Ministry of Foreign Affairs, “Foreign Minister Discusses the ROK-U.S. Nuclear Cooperation Agreement with the U.S. State Secretary over the Phone,” press release. April 24, 2015. http://www.mofa.go.kr/ENG/press/pressreleases/index.jsp?menu=m_10_20.*

*8. “South Korea Wins Revisions to Nuclear Treaty with U.S.A.,” World Nuclear News. April 22, 2015.*

*http://www.worldnuclear-news.org/NP-South-Korea-wins-revisions-to-nuclear-treaty-with- USA-2241501.html.*

*9. U.S.-South Korea Relations. Congressional Research Service. R41481. 2022.*

*https://sgp.fas.org/crs/row/R41481.pdf*

*10. World Nuclear Association, "Nuclear Power in South Korea," updated August 2015.*

*http://www.world-nuclear.org/info/Country-Profiles/Countries-O-S/South Korea/#.Ubh4arW1GSo.*

**Ibadova Sevinj Tahir**
***Baku State University, PhD student***

**Civil nuclear cooperation between the United States and the Republic of Korea: the updated "123 Agreement"**

**SUMMARY**

On April 22, 2015, the United States and the Republic of Korea signed a new bilateral civilian nuclear agreement known as a 123 Agreement, a prerequisite for cooperation and trade in nuclear technologies and resources. With the new agreement, the United States has opened, however slightly, the door to allowing South Korea to expand its nuclear operations, with implications for future nonproliferation efforts. This article reviews the implications for U.S. approaches to 123 Agreements, and the potential strategic consequences for the Korean Peninsula.

**Keywords:** *Korean Republic, United States of America, civil nuclear cooperation, "123 Agreement", ROK-U.S. alliance.*

**Ибадова Севинч Тахир**
***Бакинский Государственный Университет, докторант***

**Гражданское ядерное сотрудничество США и Республики Корея: обновленное «Соглашение 123»**

**РЕЗЮМЕ**

22 апреля 2015 года Соединенные Штаты и Республика подписали новое двустороннее соглашение о гражданской ядерной энергии, известное как Соглашение 123, которое является обязательным условием для сотрудничества и торговли ядерными технологиями и ресурсами. Благодаря новому соглашению Соединенные Штаты открыли, хотя и незначительно, дверь, позволяющую Южной Корее расширить свои ядерные операции, что повлечет за собой последствия для будущих усилий по нераспространению ядерного оружия. В этой статье рассматриваются последствия подходов США к 123 соглашениям, а также потенциальные стратегические последствия для Корейского полуострова.

**Ключевые слова:** *Корейская Республика, Соединенные Штаты Америки, гражданское ядерное сотрудничество, «Соглашение 123», РК-США. альянс.*

UOT 930:314
DOI:10.30546/3006-0346.2024.3.81.0145

# OSMANLI DEMOQRAFİYASI MƏSƏLƏLƏRİ TARİXŞÜNASLIQDA
## ( L. Ö. Barkanın əsərləri əsasında)

**AZƏR ZAHİROV**
*BDU-nun Tarix fakültəsinin*
*Orta əsrlər tarixi ixtisası üzrə magistr tələbəsi*
*E-mail: azerzahirov@gmail.com*

### Giriş

Qeyri-Avropa dünyasının bütün hissələrindən Avropaya ən yaxın olanı Osmanlı imperiyası olmuşdur və bu imperiya ilə avropalılar əsrlər ərzində yaxın əlaqələrdə olmuşlar. İmperiya, ümumiyyətlə, Avropa dövlətinə bənzəmirdi. Ölçülərinə görə nəhəng olan bu imperiya dini icmaların toplumundan ibarət idi.

Onun əhalisinin əksəriyyəti müsəlman idi, özü də bura həm ortodoks müsəlmanlar, həm də Druz və Vəhhabi məzhəbləri daxil idi. Bir hissəsi daim Yaxın Şərqdə yaşayan yəhudilər, həmçinin çoxsu yunanlar, ermənilər, Suriyada yaşayan ərəblərin bir hissəsi və maronitlər olan xristianlar da imperiyada yaşayırdı. Türklər idarə edən sinif idi və yalnız türklər və ya digər müsəlmanlar orduda xidmət edə bilərdi [2; səh. 27].

Müsəlman olmayanlar raya, “naxır” və ya “sürü” kimi tanınırdı, onlar vergi ödəyirdilər. Hər kəs türkə çevrilə bilərdi. Burada din və ya irqlə heç bir əlaqə yox idi. Bosforun Avropa tərəfindəki keçmiş xristianların çoxu islama keçmiş və ağalıq edən türklərin dilini, geyimini və mədəniyyətini qəbul etmişdi. Müxtəlif dinə sahib olan insanlar çiyin-çiyinə, onların hər biri öz dini qruplarının qanunları, məhkəmələri və adətləri altında yaşayırdılar. Din xadimləri patriarxlar, yepiskoplar, rabbilər, imamlar, üləmalar öz adamları üçün türk hökuməti qarşısında cavabdeh idilər, çünki bu adamların üzərində onlar xeyli hakimiyyətə malik idilər.

Qərbi avropalılar öz xüsusi hüquqlarına malik idilər. Roma katolik din xadimləri əsasən Fələstində yaşasa da, dində Papaya, dünyəvi hakimiyyətə görə isə Fransaya tabe idilər. Qərb tacirləri “kapitulyasiya”dan və ya Osmanlı İmperiyasının XVI əsrdən başlayaraq bir sıra müqavilələrlə verdiyi xüsusi hüquqlardan istifadə edirdilər.

Kapitulyasiyaya tabe olanlardan idxal edilmiş mallar üçün Türkiyə 8%-dən çox tarif ala bilməzdi. Avropalılar vergilərin çoxundan azad olunmuşdular. İki avropalı arasında olan mülki mübahisə və ya cinayət hadisəsi yalnız avropalı konsulun apardığı məhkəmədə, Avropa qanunları altında həll edilə bilərdi. Avropalı ilə Osmanlı təbəəsi arasındakı mübahisə türk məhkəmələrində yoluna qoyulurdu, ancaq bu məhkəmədə hökmən avropalı müşahidəçi iştirak etməli idi.

Osmanlı dönəmində də Səlcuqluların ənənələrinə sadiq qalınaraq, ordunun dövlətin siyasi sütununu təşkil edən türklərdən qurulması xətti yürüdülürdü. Əslən türk olmayan yeniçərilərə gəlincə isə, onların türk-islam kimliyinə qovuşduqlarını nəzərə alsaq, ordunun monolitliyinin pozulmamasını yəqinləşdirmək olar. Osmanlı qoşunlarının əsas hissəsi sipahi adlandırılan atlı feodal qoşunlarından ibarət idi. Bu qoşun hərbi xidmət əvəzində sultandan torpaq almış döyüşçülərdən ibarətdir. Sultanın daimi piyada qüvvələri isə yeniçəri adlanırdı. Müharibə türk feodallarının əsas məşğuliyyəti olduğu üçün onların güclü sultan hakimiyyətinə ehtiyacı var idi. Sultan qeyri-məhdud hakimiyyətə malik hökmdar idi.

Osmanlı türk imperiyası türklərin tarixi nüfuz dairəsi baxımından ən böyük nailiyyəti olub, ən geniş ərazini əhatə edir. 623 il davam edən bu böyük imperiya Aralıq dənizi və Qara dənizi əhatə edən Asiya, Avropa və Afrika qitələrində yüz illər boyu hökm sürüb [ 2; 56 səh.].

Müxtəlif irq və dinlərdən olan bir çox xalqı torpaqları ilə birlikdə bir dövlətdə birləşdirib. Tarixdə belə geniş torpaqlara bu qədər uzun hökmranlıq edən digər quruluş Roma imperiyası və Britaniya imperiyası olmuşdur.

Osmanlı türk imperiyasında 36 sultan hökmranlıq etmiş və 1517-ci ildən etibarən xəlifəlik adı ilə də İslam dünyasının dini hökmranlığını öz üzərinə götürmüşdür. Onu da qeyd etmək lazımdır ki, dövlət Afrikada 395 il (1517–1912), Avropada 561 il (1363–1912; 1913–1922), Asiyada bütün hakimiyyəti boyu (623 il) qalmışdır.

Tənzimat (türk. تنظيما ت — “tənzimləmə”, “yoluna qoyma”) — İlk Osmanlı Konstitusiyasının qəbul edildiyi 1876-cı ilə qədər, 1839-cu ildən Osmanlı İmperiyasında modernləşmə islahatlarının ədəbiyyatda qəbul edilmiş adı (və onların həyata keçirilməsi dövrü) [1]. İslahatların təməl prinsipləri taxta çıxdıqdan sonra Sultan Əbdül-Məcid tərəfindən 1839-cu il noyabrın 3-də nəşr olunan “Gülxanə xətt-i Şərif”də təsbit edilmişdir.

Əvvəlki islahatlardan fərqli olaraq Tanzimatda əsas yeri hərbi deyil, sosial-iqtisadi dəyişikliklər tuturdu. İslahat təşəbbüsü, "Gülxanə xətt-i Şərifin" müəllifi olan Mustafa Rəşid Paşa rəhbərliyi ilə mütərəqqi bir bürokratiya qrupuna aid idi. O, bir neçə il İngiltərə və Fransada səfir, sonra isə xarici işlər naziri postunu tutmuşdur. Onun rəhbərliyi ilə mərkəzi hakimiyyəti gücləndirmək, Balkanlarda azadlıq hərəkatının qarşısını almaq və mövcud sistemi Qərbi Avropa həyatının normalarına uyğunlaşdıraraq ölkənin Avropa güclərindən asılılığını zəiflətmək üçün yeni islahatlar planı hazırlanmışdır [3; 24 səh.].

Tarixşünaslıqda bu islahatlar şərti olaraq iki dövrə bölünür:

Birinci dövr – 1839-1853-cü illər, yəni Krım müharibəsi başlamazdan əvvəl.

İkinci dövr – 1856-cı ildən 1876-cı ilədək, yəni müharibənin sonundan 1876-cı ildə konstitusiyanın qəbul edilməsinə qədər.

1839-cu ildə hakimiyyətə gələn Sultan Əbdül-Məcid Türkiyə tarixində tənzimat padşahı kimi tanınır. Belə ki, 1839-cu il noyabrın 3-də Mustafa Rəşid Paşanın komissiyası tərəfindən sultanın ali fərmanı elan edildi. Bu fərman Gülxana sarayında oxunduğu üçün "Gülxana fərmanı" adlandı. Fərmanda Osmanlı imperiyasının əhalisinin həyat, şərəf və əmlak təhlükəsizliyinin təmini elan edilirdi. "Gülxana fərmanı" xristian xalqların hüququnu daha da genişləndirdi. Tənzimat dövründə xristian təbəələr dövlətə qarşı fəaliyyətlərini daha da gücləndirdilər. İkinci ən vacib məsələ vergi məsələsi idi. Vergi hər kəsin bacarığına görə müəyyən edilməli və bundan artıq alınmamalı idi. 1840-cı ildə vergi toplanması tamamilə qaydaya salındı. Belə ki, vergi toplama işi valilərin və mültəzimlərin əlindən alınaraq maaşlı xüsusi maliyyə məmurlarının əlinə keçdi. Valilər isə yalnız asayiş və hərbi işlərlə məşğul olmalı idilər. Toplanan pullar birbaşa xəzinəyə təhvil verilməli idi. İltizam sistemi ləğv edildi. Orduya çağırış qaydaya salınmalı, hərbi xidmət müddəti azaldılmalı idi. Dini etiqadından asılı olmayaraq imperiyada yaşayan bütün zümrələr hüquq və vəzifə cəhətdən tam bərabər elan edildi. Bu islahatlar bir tərəfdən Sultan Mahmud islahatlarının davamı, digər tərəfdən isə yeni islahatların başlanğıcını qoydu. Türkiyə tarixşünaslığında buna "tənzimati xeyriyyə" deyilir. 1843-cü ildə verilən yeni islahatla ordunun yeni quruluşu müəyyən edildi. Orduda xidmət müddəti 15 ildən 5 ilə endirildi. Hüquq sahəsində də islahatlar keçirildi. 1840-cı ildə cəza qanunnaməsi çıxdı. Hüquq sahəsində aparılan islahatlarda əsasən fransız hüququndan bəhrələnmişdilər. Bütün osmanlıların qanun qarşısında bərabər olması vurğulanırdı. "Tənzimati-xeyriyyə" Mustafa Rəşid Paşa tərəfindən hazırlanmışdı. O, mütərəqqi fikirli bir şəxs idi, lakin çox təəssüf ki, fərmandan qısa bir müddət sonra paşa vəzifədən kənarlaşdırıldı. Çünki onunla eyni ideya və məqsəddə olan adamlar çox az idi. "Tənzimati-xeyriyyə" demək olar ki, İstanbulda yerləşən bütün xarici ölkə səfirliklərinə göndərilmişdi. Bütün məhdud cəhətlərinə və tam tətbiq olunmamasına baxmayaraq bu islahatlar burjua səciyyəsi daşıyırdı, birbaşa ölkənin inkişafına xidmət edirdi. 1848-ci ildə Rəşid Paşanın təşəbbüsü ilə İmperiya bankı yaradıldı, lakin uzunömürlü olmadı. 1850-ci ildə fransız ticarət məcəlləsi nümunəsində türk ticarət qanun məcəlləsi qəbul edildi [ 2; 54 səh.].

40-cı illərdə başlayan ibtidai, orta və ali pillələrə bölünən dünyəvi məktəblərin açılışı davam edirdi. Dünyəvi məktəblərə rəhbərlik etmək üçün təhsil nazirliyi yaradılmışdı. 60-cı illərin ortalarında dünyəvi ibtidai məktəblərdə 660 min şagird təhsil alırdı. Orta məktəblərin sayı isə heç 50-yə çatmırdı. Eyni zamanda məscidlərin nəzdindəki bütün məktəblər qorunub saxlanıldı, dünyəvi ibtidai məktəblərdə isə dinin tədrisinə təhsil ilinin yarısı ayrılmışdı. Məktəblərə faktiki nəzarət ruhanilərin ixtiyarında qaldı. 1869-cu ildə Türk məktəblərində üç və dörd illik ümumi təhsilin tətbiqini nəzərdə tutan qanun qəbul edildi.

İslahat layihəsi sultan hakimiyyətini köklü şəkildə sarsıtmadan xeyli məhdudlaşdırırdı. İmperiya tarixində ilk dəfə olaraq sultan öz vədinə sadiq qalacağına dair əyanların və üləmaların qarşısında and içməli idi. Sonra isə özü üləmalardan və əyanlardan belə bir and qəbul etməli idi. Sultanın nümayişkaranə şəkildə edam və əmlakı müsadirə etmək hüququndan imtina etməsi, əslində ilk növbədə Rəşid paşanın qələbəsi idi. Fərman eyni zamanda rüşvətxorluq və vəzifə satışını qəti qadağan edir və buna görə ağır cəza tədbiri müəyyən edirdi. Xətti şərif yeni qaydaya qarşı çıxan hər bir kəsin cəzalandırılacağı xəbərdarlığı ilə bitirdi. Bu, Rəşid Paşanın hüquq, inzibati quruluş, maarif, maliyyə, hərbi işlər və s. sahəsində həyata keçirmək istədiyi islahatların bir hissəsi idi. İslahatların həyata keçməsi Osmanlı dövlətinin inkişafına imkan yaratmış olacaqdı. Ona görə də Avropa dövlətləri tələb etdikləri yeniliklərin həyata keçirilməsində maraqlı deyildilər. Bu səbəbdən də, islahatların reallaşmasına hər vasitə ilə mane olurdular. Hakimiyyətdə köhnə qayda ilə fəaliyyət göstərmək istəyən qüvvələr də islahatlara müqavimət göstərirdilər. Tənzimat imperiyanı tənəzzül və süqutdan xilas edə bilmədi. Rəşid Paşanın isla-

Son dövrlərdə iqlim dəyişikliyi, məhdud resurslardan istifadə və yoxsulluq kimi qlobal problemlər ölkələrin və beynəlxalq təşkilatların gündəmində qlobal əhəmiyyətli mövzulara çevrilmişdir. Ekoloji problemlərin xroniki sosial-iqtisadi problemlər sırasına daxil edilməsi ilə başlayan böhran əvvəlcə "davamlı inkişaf", sonra isə "yaşıl iqtisadiyyat" anlayışları işığında həllini tapmağa çalışdı. Əslində, bir-birini tamamlayan davamlı inkişaf və yaşıl iqtisadiyyat yanaşmaları təkcə iqtisadi anlayış deyil, həm də həyatımızın bütün sahələrini əhatə edən fənlərarası anlayışdır. Bu kontekstdə bu tədqiqatın məqsədi davamlı inkişaf çərçivəsində yaşıl iqtisadiyyat konsepsiyasını araşdırmaqdır. Bu tədqiqat yaşıl iqtisadiyyat sahəsində tədqiqat və ədəbiyyata töhfə verir. Yaşıl iqtisadiyyatın yaşayış üçün əlverişli dünya üçün kritik əhəmiyyəti daha dərindən araşdırılmalıdır.

**Açar sözlər:** *yaşıl iqtisadiyyat, yaşıl iş yerləri, "yaşıl iqtisadi sistem"in tənzimlənməsi üsulları.*

**Maharramova Sevda Elshad kizi**
***Doctor of Philosophy in Economics***
***Azerbaijan University of Languages***
***mnsevda@gmail.ru***

**SUMMARY**

The gloubal ıssues recently such as climate change, the use of limited resources and poverty have been globally important agenda items of countries and international organizations. The crisis which starting with the inclusion of environmental problems to chronic socio-economic problems have been strived to find the solution firstly in the light of the concepts of "sustainable development" and then "green economy". Actually, the approaches of sustainable development and green economy which complement each other come across as not only economic but also interdisciplinary concept concerning every aspect of our life. In this context, the aim of this study is to explore the concept of the green economy in the framework of the sustainable development. The extremely importance of the green economy for habitable world need to examine more deeply.

**Key words:** *green economy, green jobs, methods of regulating the "green economic system".*

UOT 336; 336.11
DOI:10.30546/3006-0346.2024.3.81.0160

# AZƏRBAYCAN İQTİSADİYYATINA BEYNƏLXALQ İSLAM MALİYYƏ İNSTİTUTLARININ VƏSAİTLƏRİNİN CƏLB EDİLMƏSİ PROBLEMLƏRİ

**MAŞALLAH SƏFƏROV**
*Bakı Dövlət Universiteti, doktorant*
*E-mail: masallah.safarov.roman@bsu.edu.az*

## Giriş

Bildiyimiz kimi, alternativ maliyyə mənbəsi olaraq İslam maliyyələşmə üsulu Qurani-Kərim və hədislərin təliminə əsaslanır [1, s. 1]. Bu onu risk və mənfəətin bölüşdürülməsi konsepsiyasına görə ənənəvi maliyyələşmədən fərqləndirir. Belə ki, bu tip maliyyəşmə əxlaq iqtisadiyyatına (moral economy) öz töhfəsini verməklə spekulyasiyaları qadağan edir və real aktivlərə investisiya qoyulmasını təşviq edir. İslam Maliyyə İnkişaf Hesabatı 2022 (IFDR 2022) göstəricilərinə əsasən İslam maliyyə aktivlərinin müxtəlif sektorlar üzrə 2021-ci illə müqayisədə artımı müşahidə olunmuşdur [2, s. 6-7]. Hesabatda qeyd olunur ki, İslam bankçılıq alətləri, Sukuk (Islamic bonds), İslam fondları, təkafül, lizinq və s. sektorlar üzrə qeyd olunan illər ərzində müxtəlif həcmdə artım baş vermişdir. Təkcə İslam bankçılığını misal gətirərək qeyd etməliyik ki, dünya miqyasında bu tip bankçılıq üzrə maliyyə aktivlərinin həcmi 2021-ci illə müqayisədə 17 % artaraq 2.8 trilyon ABŞ dollarına bərabər olmuşdur. Bununla müştərək bankçılıq sektoru İslam maliyyə sistemində öz 70 %-lik həcmini qoruyaraq birinci yerdə qərarlaşmışdır [2, s. 6]. Bu artımın bir sıra səbəbləri mövcuddur ki, bunlardan, əsasən, istehsalı təşviq edən maliyyələşməyə marağın artmasını, "FinTech" ilə əməkdaşlığın səmərəliliyinin az olmasını və xüsusilə, İslam maliyyə institutlarının vəsaitlərinin müxtəlif sektorlara yatırım etmələrinin təşviqini qeyd etməliyik.

## Əsas hissə

Keçən əsrin sonlarına doğru alternativ maliyyələşmədə, o cümlədən İslam maliyyə mexanizminin təkmilləşməsində beynəlxalq və regional maliyyə institutlarının yaranması və formalaşması daha da sürətləndi. Belə ki, bir sıra Şərq ölkələrində iqtisadiyyatın diversifikativ təbiətinin mövcudluğu və açıq bazar iqtisadiyyatının konservativ milli iqtisadiyyatları bir-birinə inteqrasiya etdirməsi həmin ölkələrin səlahiyyətli iqtisadçı və politoloqları tərəfindən vahid maliyyə institutunun yaradılması fikrinin səsləndirilməsini şərtləndirdi. Bu çağırışlar daha çox regional səviyyədə maliyyə bazarının yaradılması yönündə idi ki, həmin ölkələr, əsas etibarilə, İslam Konfransı Təşkilatına üzv olan ölkələrdən ibarət idi. Bir müddət sonra – 1973-cü ildə ilk İslam maliyyə təşkilatı olan İslam İnkişaf Bankı təsis olundu. Onun əsas məqsədi İİB-yə üzv olan ölkələrə, həmçinin digər müsəlman cəmiyyətlərə inklüziv layihələrin həyata keçirilməsi məqsədilə İslam hüququ çərçivəsində maliyyə yardımının təmin olunmasından ibarətdir. Hazırda 57 üzvü olan İİB-yə Azərbaycan 04 iyul 1992-ci ildən üzvdür [3, s. 157].

İslam İnkişaf Bankından başqa İslam Tədqiqat və Təlim İnstitutu (IRTI, 1981), İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyası (ICIEC, 1994), Beynəlxalq İslam Ticarət və Maliyyə Korporasiyası (ITFC), Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (OCDPS, 1999), Dünya Vəqf Fondu (WWF, 2001) kimi İslam maliyyə institutlarını qeyd edə bilərik. Adlarını qeyd etdiyimiz təşkilatlardan Beynəlxalq İslam Ticarət və Maliyyə Korporasiyası (ITFC) İİB-nin muxtar müəssisəsi kimi fəaliyyət göstərir ki, əsasən 2 sektorda – "ticarət və reklam" və "maliyyə/ticarət" sektorlarında İİB qrupunun inkişaf prioritetlərinin dəstəklənməsində yaxından iştirak edir [4, s. 96-97].

Adıçəkilən maliyyə institutları, o cümlədən İslam İnkişaf Bankı bir sıra infrastruktur layihələrinin icrasında, milli iqtisadiyyatın təhsil, səhiyyə, nəqliyyat, mədəniyyət və s. sektorlarının icrasında tərəfdaşı olduğu ölkələrə kifayət qədər maliyyə yardımı göstərmişdir. Təşkilat həmin ölkələrin yüksək gəlirli kommersiya layihələrini və iri sahibkarlığı dəstəkləməklə bərabər iqtisadi cəhətdən aztəminatlı əhalinin iqtisadi səlahiyyətləndirməsində də yaxından iştirak edir. İİB iqtisadi səlahiyyətləndirmə (Economic Empowerment) funksiyalarının icrası ilə 7 əsas prinsip üzrə fəaliyyətin həyata keçirilməsini öz üzərinə götürmüşdür:

1. Kasıbları və sosial cəhətdən imkansız insanları öz ailəsi və cəmiyyəti üçün yük hesab etməmək;
2. Böyük bilik və bacarıqlara malik olan hədəf

kütlələrin araşdırılması və inkişaf etdirilməsini nəzərə almaq;

3. Aztəminatlı ailələrin cari iş mühitinə olan paradiqmaları üzərindən maliyyə səlahiyyətləndirməsi – bu zaman həmin şəxslər öz bilik və bacarıqlarını işlərinə daha yaxşı tətbiq edə biləcəklər;

4. Aztəminatlı ailələrə yardımın edilməsi yanaşmasından inkişaf və bazar əsaslı dəstək mexanizminə keçidin gücləndirilməsi;

5. Həmin əhali qrupunu dəyər zəncirinin potensial iqtisadi elementi kimi nəzərə almaq;

6. Sosial, iqtisadi və maliyyə göstəriciləri arasındakı tarazlığı diqqətlə nəzərdən keçirmək;

7. Özünüməşğulluq və iş yerlərinin yaradılmasını stimullaşdırmaq [5].

Hazırda Azərbaycan ilə İİB arasında qurulmuş sıx əməkdaşlıq çərçivəsində dövlət-özəl sektor tərəfdaşlığının (DÖST) təşviqi, biznes mühitinin genişləndirilməsi, İslam hüququ gözlənilməklə müxtəlif investisiya layihələrinin icrası gələcəkdə də ölkəmizə İslam maliyyə institutlarının vəsaitlərinin cəlbinin daha da çoxaldılmasına təkan verəcəkdir. İslam İnkişaf Bankının kapital yığımında Azərbaycanın 9.76 milyon ABŞ dolları həcmində payının olduğunu vurğulayaraq qeyd etməliyik ki, hazırkı dövrə qədər aşağıdakı layihələrin icrası məhz İİB tərəfindən maliyyə yatırımı əsasında həyata keçirilmişdir:

1. 2009-2012-ci illərdə Bakı şəhər bərk məişət tullantılarının yandırılması zavodu;

2. Yevlax-Gəncə avtomobil yolu (yenidənqurma layihəsi);

3. Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi;

4. Mingəçevir SES-in təmir-bərpa və yenidənqurma layihəsi;

5. Cənub İES-in tikintisi layihəsi;

6. 2012-2021-ci illərdə Azərbaycanın 5 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi [6].

Bundan başqa, İslam İnkişaf Bankı ilə Azərbaycanın müxtəlif kommersiya bankları arasında tərəfdaşlığın stimullaşdırılması istiqamətində də müəyyən işlər görülməkdədir.

2008-ci ildən etibarən "Turan Bank" ASC Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD) ilə əməkdaşlığa başlamışdır. Bununla əlaqədar olaraq İslam maliyyə məhsullarından bəzilərini korporativ və fərdi müştərilərə təklif etmişdir. ICD-dən cəlb edilən kreditin ümumi həcmi 2008-ci ildə 1 milyon manat olmuşdursa, 2014-cü ildə 12 milyon manatdan çox olmuşdur. 2021-ci ildə "Turan Bank" ilə ICD arasında bağlanmış müqavilədə 3 il müddətinə 10 mln. ABŞ dolları məbləğində maliyyə vəsaitinin cəlbi və kredit verilməsi nəzərdə tutulmuşdur [7, s. 65].

Habelə hazırda yalnız sukuk (İslami bondlar) aləti ilə "Paşa Bank" ASC xarici bazarlarda qiymətli kağızların investisiyasını həyata keçirir.

18 may 2023-cü ildə "Rabitə Bank" ASC və İİB arasında imzalanmış 10 milyon dollarlıq müqavilə (Letter of Credit Confirmation Facility) (akkreditiv) çərçivəsində Azərbaycan Respublikasında ticarətin, kiçik və orta sahibkarlığa dəstək imkanlarının genişləndirilməsi, ixrac potensialının artırılması, İslam maliyyəsinin tətbiq olunmasında Ticarətin Maliyyələşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyasının (ITFC) rolunun gücləndirilməsi prioritet məsələlərdən hesab olunmuşdur [8]. Qeyd etməliyik ki, hazırda Azərbaycanda İslam maliyyə mənbələrindən istifadə və sərəncamda saxlanılma ilə bağlı qanunvericilik bazasının mövcud olmaması ilə əlaqədar olaraq İİB-nin "Rabitə Bank" ASC-yə ayırdığı məbləğin nəzarət mexanizmi emitent tərəfindən həyata keçiriləcəkdir.

Azərbaycanda İslam bankı pəncərələri: Müxtəlif investisiya layihələrinin həyata keçirilməsi, o cümlədən sahibkarlara bu qəbildən kreditlərin verilməsi məqsədilə ölkəmizdə İslam bankı pəncərələrinin açılması praktikası da mövcuddur. Belə ki, müstəqillik qazandıqdan sonra alternativ maliyyə mənbəyi kimi İslam maliyyəsindən istifadənin stimullaşdırılması və iqtisadiyyatın real sektorunun inkişafı istiqamətində ölkəmizdə İslam bankının yaradılması və fəaliyyət göstərməsi prosesi ənənəvi bank sektoruna paralel şəkildə getmişdir. 1989-cu ildə əsası qoyulan "Universal Bank" ASC 2001-2015-ci illər ərzində "Kövsər Bank" ASC şəklində fəaliyyətinə davam etmişdir. Bu bank Azərbaycanda ilk, MDB məkanında isə ikinci şəriət əsaslı kommersiya bankı olmuşdur. "Kövsər Bank" bu illər ərzində Bazel Standartları və AAOIFI standartları əsasında fəaliyyət göstərməklə müştərilərə mudarəbə, murabaha, muşarəkə, sukuk və icara kimi məhsullar təqdim etmişdir [7, s. 58].

2009-cu ildə ənənəvi kommersiya banklarından fərqli olaraq "Nikoil Bank" ASC (hazırkı Yelobank) tərəfindən İslam maliyyə prinsiplərinə müvafiq cari hesab (Vadiə əd-Damənə məhsulu) istifadəyə ve-

rilmişdir. "Nikoilbank" bu tip məhsulları müstəqil olaraq deyil, İslam bankçılıq pəncərəsi təsis etməklə həyata keçirmişdir. Elə həmin ildə AAOIFI (İslam Maliyyə İnstitutları Üçün Auditor və Mühasibat Təşkilatı) və IRTI (İslam Tədqiqatlar və Təlim İnstitutu) ilə əməkdaşlıq çərçivəsində və onların təsdiq edilmiş standartlarına əsasən bank öz müştərilərinə pulsuz ödəniş kartlarının verilməsinə başlamışdır. Həmin kartlar pulsuz əldə edilməklə bərabər ödəniş komissiyası tutulmasa da, müştəriyə müəyyən məhdudiyyətlər qoyulmuşdur. Məsələn, mərc oyunları üçün kartdan ödənişin icrası mümkün olmamışdır [7, s. 56-57]. 2012-ci ildə Azərbaycan Beynəlxalq Bankında "İslam bankçılığının tətbiqi" layihəsi çərçivəsində struktur bölmə yaradılmışdır ki, həmin bölmə öz fəaliyyətinə İslam bankçılığı pəncərəsi kimi başlamışdır. Departament şəklində fəaliyyət göstərən bu pəncərə fərdi sahibkarlara və korporativ şəxslərə xidmət göstərmişdir. 2014-cü ildə Al-Hilal Bank, Barva bank, Citygroup, Dubai Islamic Bank kimi bir neçə maliyyə təşkilatı ilə əməkdaşlıq çərçivəsində İslam maliyyə prinsiplərinə uyğun sindikatlaşdırılmış kredit yolu ilə 252 mln. ABŞ dolları vəsaiti cəlb edərək müxtəlif layihələrin icrası üçün real sektora kredit şəklində vermişdir. Qeyd edək ki, ənənəvi kommersiya banklarının nəzdində pəncərə kimi açılan bu tip struktur bölmələr əsasən 4 şəkildə – nümayəndəlik, departament, filial və şöbə kimi fəaliyyət göstərə bilər. Lakin Azərbaycanda mövcud qanunvericiliyin tələblərinə əsasən qeyd olunanlardan yalnız departamentin fəaliyyətinin birbaşa tənzimlənməsinə Mərkəzi Bank nəzarət etmir.

## Nəticə

Azərbaycanın milli iqtisadiyyatına beynəlxalq İslam maliyyə institutlarının cəlb edilməsi gələcəkdə həmin maliyyə vəsaitlərindən istifadənin şaxələndirilməsinə böyük töhfə verəcəkdir. İqtisadiyyatın real sektorunu dəstəkləyən bu maliyyələşmə mexanizmi kiçik və orta biznesin, dolayısı ilə məşğulluğun artmasına təkan verməklə bərabər makroiqtisadi tənzimləmədə də özünü müsbət yöndən büruzə verəcəkdir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə sənaye və kənd təsərrüfatının yenidən bərqərar olması və inkişaf etdirilməsində alternativ maliyyə mənbəyi kimi İslam maliyyə vəsaitlərindən də istifadə həmin ərazilərdə real sektorun və bərabərində məşğulluğun inkişafına töhfə verəcəkdir. Bildiyimiz kimi, bazar iqtisadiyyatı şəraitində faiz dərəcələrinin yüksək olması investisiyaların azalmasına, nəticədə milli gəlirin yığıma yönəldilməsinə, bu da özü ilə bərabər pulun "likvidlik tələsi"nə düşməsinə və tələbin azalmasına gətirib çıxarır. İslam maliyyə alətləri iqtisadi fəal əhalinin istehsala yatırım etmələrini stimullaşdırmaqla əlavə dəyərin yaradılmasında böyük rol oynayır. Qeyd etməliyik ki, beynəlxalq təcrübədə kiçik, orta və iri sahibkarlıq subyektləri müxtəlif layihələrlə İslam bankına kredit üçün müraciət etsələr də, həmin layihələr müxtəlif risk qiymətləndirmə indikatorlarının müdaxiləsini şərtləndirir və onlardan yalnız bir neçəsinə kredit xətti ayrılır. Bunun əsas səbəblərindən biri budur ki, faizsiz (şərikli, İslam əsaslı) bank sisteminin mövcud olması üçün ya maliyyə bazarlarına nəzarət orqanının nəzdində fəaliyyət göstərən "Şəriət Şurası" (Sharia Council) həmin kreditlərin verilməsi üçün standartlar hazırlamalıdır, ya da faizsiz bank sektoru kreditin verilməsi üçün AAOIFI beynəlxalq standarları çərçivəsində fəaliyyət göstərməlidir. Odur ki, bu tip kreditlərin ayrılması hər iki tərəf mənfəət və zərər üzrə məsuliyyət daşıdığı üçün həmin standartlara dəqiqliklə uyğunluq təmin edilməlidir.

Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikası iqtisadiyyatına beynəlxalq İslam maliyyə institutları tərəfindən alternativ resurs kimi İslam maliyyə vəsaitlərinin cəlb edilməsi üçün aşağıdakı addımların atılması labüddür:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində (2020-2025-ci illər) də qeyd edildiyi kimi, əsasən, Körfəz ölkələrindən İslam maliyyə vəsaitlərinin ölkənin sahibkarlıq mühitinə dəstək mexanizmi kimi cəlb edilməsinə təşviq edilməsi (müəyyən sektorlar üzrə pilot layihə kimi);
2. Bank qanunvericiliyində əlavə və dəyişikliklərin edilməsi, bununla bağlı, ilk növbədə, təkliflər planının hökumətə təqdim edilməsi;
3. İslam bankçılığı sahəsində ixtisaslı kadrların hazırlanması: bununla bağlı bank sektorunda çalışan işçilərin və müvafiq sahədə təhsil alan tələbələrin xarici mübadilə proqramlarına cəlb edilməsi, konfransların keçirilməsi, təlim və seminarlarda maarifləndirmə işlərinin aparılması;
4. Ölkəmizdəki kommersiya banklarının nəzdində İslam bankı pəncərələrinin mövcudluğu üçün beynəlxalq İslam maliyyə institutları ilə əməkdaşlığın gücləndirilməsi;

Ölkəmizdə alternativ maliyyə mənbələri kimi İslam maliyyə mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, bu tip maliyyələşmənin iqtisadiyyatın real sektoruna cəlb edilməsi üçün eyni zamanda bununla bağlı qrant layihələrinin icrası, elmi işlərin yazılması, əhalinin müxtəlif sosial qrupları arasında sorğuların aparılması da mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Hao Y., Yahya M. H., Latip M., M. Ali Islamic Finance in China: Current Landscape and Future Forward // - The Journal of Muamalat and Islamic Finance Research, - 2022, c. 19, N 2, s. 1-2*

*2. ICD – Refinitiv Islamic Finance Development Report 2022: [Elektron resurs] / - https://www.refinitiv.com/en/resources/special-report/islamic-finance-development-report-2022*

*3. Əliyev S., Eminov A., Süleymanov E. və Ələsgərova F. Beynəlxalq maliyyə təşkilatları və Azərbaycan // - Bakı, Dərslik, - 2016, s. 157-158*

*4. Atakişiyev R. İslam maliyyə sistemi və alətləri // - Bakı, Dərslik, - 2021, s. 92-98*

*5. IsDB's Economic Empowerment 7 fundamentals: [Elektron resurs] / - https://www.isdb.org/economic-empowerment*

*6. Azərbaycanda İİB tərəfindən maliyyələşdirilən layihələr: [Elektron resurs] / - https://economy.gov.az/az/page/beynelxalq-elaqeler/maliyye-institutlari-ile-emekdasliq/islam-inkisaf-banki-idb*

*7. Atakişiyev R., Əliyev S. "Azərbaycanda alternativ maliyyə və İslam bankçılığı üzrə ehtiyacların qiymətləndirilməsi" layihəsi çərçivəsində aparılmış sorğunun hesabatı // - Bakı: İqtisadi Resursların Öyrənilməsi İB, 2022, s. 49-80*

*8. Rabitəbankla ITFC arasında 10 milyon dollarlıq müqavilə imzalandı: [Elektron resurs]/ - https://www.rabitabank.com/ferdi/xeberler/rabitebank-la-itfc-arasinda-10-milyon-dollarliq-muqavile-imzalandi.*


## XÜLASƏ


Tədqiqat işinin əsas məqsədi ölkəmizdə xidmət, ticarət, turizm sahələri ilə yanaşı real sektorun inkişafı üçün dövlətin apardığı iqtisadi siyasətin şaxələndirilməsi istiqamətində beynəlxalq maliyyə təşkilatlarının, habelə İslam maliyyə institutlarının vəsaitlərinin cəlbi yollarının aşkara çıxarılmasıdır. Belə ki, beynəlxalq praktikadan da məlum olduğu kimi, kiçik və orta biznesə İslam maliyyə mənbələrinin cəlb edilməsi ölkə iqtisadiyyatında alternativ maliyyələşməyə meyilliliyin artmasına, nağdsız hesablaşma əməliyyatları çərçivəsində şəffaf iqtisadi mühitin yaranmasına səbəb olacaqdır. Bundan başqa, İslam maliyyə alətlərinin real sektor və birbaşa investisiyalar üzrə əməliyyatlara cəlb edilməsi ölkədə ÜDM-in artmasının mühüm faktorlarından sayılır. Deyilənlərlə əlaqədar tədqiqat işinin aparılması ölkə iqtisadiyyatına alternativ maliyyə vəsaitlərinin cəlbi imkanlarının genişləndirilməsi baxımından aktual hesab olunur. Tədqiqat işində son 20 ildə ölkəmizdə fəaliyyət göstərən İslam bankı pəncərələrinin fəaliyyət istiqamətləri yer almaqla beynəlxalq İslam maliyyə institutlarının müxtəlif ölkələrə maliyyə yardımının müsbət yönlü nəticəsindən, daha çox hansı maliyyə alətlərinə üstünlük verilməsindən, beynəlxalq İslam maliyyə institutlarının ölkəmizə qazandıracağı iqtisadi perspektivlərdən və s. danışılır. Qeyd olunanlar tədqiqat işinin elmi yeniliyi və praktiki əhəmiyyətinin mövcudluğunu gözlər önünə gətirir. Tədqiqat işində araşdırma zamanı statistik, deduktiv metodlardan istifadə olunmuşdur. Tədqiqat işinin nəticə hissəsində isə İslam maliyyə vəsaitlərinin real sektora cəlb edilməsi ilə bağlı problemlərin həlli və pul axınına nəzarət etməklə bağlı bir sıra təkliflər irəli sürülmüşdür.



**Açar sözlər:** *Alternativ, maliyyə institutları, milli iqtisadiyyat, kommersiya bankları*


## PROBLEMS OF ATTRACTING FUNDS OF INTERNATIONAL ISLAMIC FINANCIAL INSTITUTIONS TO AZERBAIJAN ECONOMY


***Mashallah Safarov***
***Ph.D. student, Baku State University***
***masallah.safarov.roman@bsu.edu.az***


## SUMMARY


The main objectives of the research are the development of financial organizations for the diversification of the economic policy conducted by the state for the development of the real sector in addition to service, trade, tourism, and the ways of attracting funds from Islamic financial institutions. Thus, as it is known from international practice, the creation of Islamic financial opportunities for small and

medium-sized businesses leads to an increase in the inclination to alternative financing in the country's economy and the development of the economic situation due to the reasons of non-cash settlement operations. In addition, it is considered one of the important factors of GDP growth in the direction of involvement of Islamic financial instruments in the real sector and investment operations. With what has been said, the implementation of management research work is considered urgent due to increasing the possibilities of increasing alternative financial resources to the country's economy. Research on the financial management of Islamic financial institutions, the management of more financial instruments, the economic prospects that international Islamic financial institutions will gain, etc. is established. The above-mentioned highlights the scientific innovation and practicality of the research work. Statistical and deductive methods are used during research in research work. In order to achieve the results of the research, several proposals are put forward to solve the problems related to the attraction of Islamic financial funds to the real sector and to control the flow of money.

**Keywords:** *Alternative, financial institutions, national economy, commercial banks*

## ПРОБЛЕМЫ ПРИВЛЕЧЕНИЯ СРЕДСТВ МЕЖДУНАРОДНЫХ ИСЛАМСКИХ ФИНАНСОВЫХ ИНСТИТУТОВ В ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА

**Машаллах Сафаров**
***докторант, Бакинский Государственный Университет***
***masallah.safarov.roman@bsu.edu.az***

### РЕЗЮМЕ

Основными задачами исследования являются разработка финансовых организаций для диверсификации экономической политики, проводимой государством для развития реального сектора помимо сферы услуг, торговли, туризма, а также способы привлечения средств исламских финансовых институтов. Таким образом, как известно из международной практики, создание исламских финансовых возможностей для малого и среднего бизнеса приводит к увеличению склонности к альтернативному финансированию в экономике страны, а развитие экономической ситуации в силу причин безналичные расчетные операции. Кроме того, считается одним из важных факторов роста ВВП направление вовлечения исламских финансовых инструментов в реальный сектор и инвестиционные операции. С учетом сказанного, выполнение управленческой научно-исследовательской работы считается актуальным в связи с увеличением возможностей увеличения альтернативных финансовых ресурсов в экономику страны. Проводятся исследования финансового управления исламскими финансовыми учреждениями, управления большим количеством финансовых инструментов, экономических перспектив, которые приобретут международные исламские финансовые учреждения и т. д. Вышеупомянутое подчеркивает научную новизну и практичность исследовательской работы. Статистические и дедуктивные методы используются при проведении исследований в научно-исследовательской работе. Для достижения результатов исследовательской работы выдвигается ряд предложений по решению проблем, связанных с привлечением исламских финансовых средств в реальный сектор и по контролю за движением денег.

**Ключевые слова:** *Альтернатива, финансовые институты, национальная экономика, коммерческие банки.*

UOT 336; 336.11
DOI:10.30546/3006-0346.2024.3.81.0165

# AZƏRBAYCANDA MALİYYƏ SABİTLİYİNİN TƏMİN OLUNMA SƏVİYYƏSİNİN TƏHLİLİ VƏ EKONOMİK QİYMƏTLƏNDİRİLMƏSİ

**HAMAN BÜNYATOV**
*Azərbaycan Turizm və Menecment Universiteti, magistr*

*E-mail: bunyatov98@gmail.com*

Son siyasət düzəlişlərinə cavab olaraq, pul bazasında nəzərəçarpacaq bir daralma baş verdi ki, bu da pulun alıcılıq qabiliyyətinin əhəmiyyətli dərəcədə aşınmasına səbəb oldu. 2019, 2020 və 2021-ci illərdə müvafiq olaraq 4%, 12,4% və 12,9% inflyasiya səviyyəsi müşahidə olunub ki, bu da real pul bazasının nəzərəçarpacaq dərəcədə azaldığını göstərir. İnflyasiya və məzənnə risklərini idarə etmək üçün deflyasiya tədbirləri mühüm əhəmiyyət kəsb etsə də, onların orta və uzunmüddətli iqtisadi fəaliyyətə potensial təsirini ölçmək vacibdir. Ona görə də Mərkəzi Bankın pul siyasətini təkmilləşdirməsinə ciddi ehtiyac var. Bundan əlavə, yerli istehsalın gücləndirilməsi yerli valyutanın xarici təzyiqlərə daha az həssas olmasına səbəb ola bilər. Buna uzunmüddətli perspektivdə qeyri-neft sektorlarının ixrac payının artırılması və yerli tələbatın yerli istehsal hesabına ödənilməsi ilə nail olmaq olar. Orta illik inflyasiyaya ərzaq məhsulları təqribən 1,8 faiz, qeyri-ərzaq malları 1,2 faiz, xidmətlər isə 2 faiz bənd töhfə verib. 2023-cü ilin birinci rübündə orta aylıq inflyasiya əvvəlki ilə nisbətən 1,6 faiz bənd azalaraq 0,2 faiz təşkil edib. Bununla belə, mart ayında inflyasiya cüzi yüksəliş göstərərək 0,3 faiz təşkil edib [1, s.12]. İstehlak səbətində mal və xidmətlərin dəyərindəki dəyişiklikləri izləyən diffuziya indeksi əvvəlki illə müqayisədə azalma nümayiş etdirdi. 2017-ci ildə Milli Bank razılaşdırılmış pul kütləsi hədəfinə riayət etmək üçün likvidlik tədbirləri həyata keçirmişdir. Bundan əlavə, üzən məzənnə rejiminə keçid zamanı pul siyasətinin dayaq nöqtəsi kimi pul bazası bərpa edilmişdir. Nəticə etibarı ilə, Milli Bank strateji cəhətdən effektiv yanaşma olduğunu sübut edərək birbaşa inflyasiya hədəfləməsi vasitəsilə pul siyasətinin idarə edilməsi rolunu öz üzərinə götürmüşdür. 2023-cü ilin birinci rübündə illik inflyasiya birrəqəmli səviyyəyə düşüb və bununla da əhalinin real gəlirləri artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin birinci rübündə orta illik inflyasiya dörd faiz təşkil edib, ərzaq məhsullarının qiymətləri ildə 4,6 faiz, qeyri-ərzaq mallarının qiymətləri 4,5 faiz artıb, xidmətlər qrafikdə göstərildiyi kimi bahalaşıb.

**Məqsəd**

Monetar amillərlə sıx bağlı olan Milli Bank irəliyə doğru irəliləyişin əsas hədəfi kimi xalis inflyasiyanı qəbul etməyi düşünməlidir. Xalis inflyasiya dövlət tərəfindən tənzimlənən malların qiymətlərindəki dəyişiklikləri və dolayı vergiləri istisna edir. Bundan əlavə, müəyyən bir diapazonda inflyasiya hədəfi təyin etmək məqsədəuyğundur. Qlobal miqyasda inflyasiya hədəfləri tez-tez maksimum və minimum hədlərlə, adətən onlar arasında 2-3 faiz bənd fərqlə müəyyən edilir. Tədiyyə balansına düzəlişlər zamanı inflyasiyanın effektiv idarə edilməsi sərt pul siyasətinin erkən həyata keçirilməsini zəruri edir. Pul siyasətindən artım stimulu kimi istifadənin inflyasiya riskləri arasında səmərəsiz olduğu geniş şəkildə qəbul edilir. Nəticə etibarı ilə, 2017-ci ildə Milli Bank müvafiq pul proqramı vasitəsilə pul təklifi kanallarını səmərəli şəkildə məhdudlaşdıraraq ciddi pul siyasəti həyata keçirmişdir. Bu təşəbbüs 2021-ci ilin əvvəlinə pul bazasının 5,3 faiz artmasına, ilin birinci yarısında isə 8 274,4 milyon manata çatmasına səbəb olub. Pul dövriyyəsi 5,5 faiz, manatla müxbir hesablar isə 1,5 faiz artıb [2, s.23]. Dövrün sonuna manatın pul multiplikatoru 1,37 faiz səviyyəsində olub. Bununla belə, 2021-ci ilin birinci yarısında manatla geniş pul kütləsi (M2) 1 faiz azalaraq dövrün sonuna 1435,8 milyon manata çatıb. Maliyyə bazarının şərtlərinə təsir edən əhəmiyyətli göstəricilər fond indekslərini və təşkilati funksiyaların dağılmasını əhatə edir ki, bu da likvidlik çatışmazlığına və artan volatilliyə kömək edə bilər. Yüksək risk reytinqləri artan investor riskini və iqtisadiyyatda potensial maliyyə gərginliyini göstərir. Buna baxmayaraq, azalmış likvidlik iqtisadiyyatda müxtəlif fondlar üçün cəlbedici investisiya perspektivləri təqdim edə bilər. Maliyyə sabitliyinin təhlili çox vaxt bir neçə sektoru ayrı-ayrılıqda və ya tandemdə yoxlayır. Həm tipik, həm də gərgin vəziyyətlərdə davranışı başa düşmək üçün maliyyə möhkəmliyi göstəriciləri də daxil olmaqla bir sıra

ölçülərdən istifadə etmək vacibdir. Bu ölçülərin təfsiri hadisələrdəki dəyişiklikləri, əhəmiyyətli qeyri-müəyyənlikləri və digər müvafiq amilləri müəyyən etməkdən asılıdır.

**Metodlar**

Edilən analizlərdən məlum olduğu kimi, məzənnə dəyişməzliyi, pul təkliflərinin intensiv olaraq idarə edilməsi, ərzaq dəyərlərinin dinamikası, məhsulların və servis təkliflərinin artması, eyni zamanda inflyasiya gözləntisinin zəifləməsi cari il üçün birrəqəmli inflyasiyanı şərtləndirmiş əsas ünsürlər olmuşdur. Dəyərləri dövlətin nizamladığı məhsul və servislər, o cümlədən mövsümi xarakterli aqrar məhsulları gözardı edilərək hesablanmış orta illik baza inflyasiya 2018-ci il üçün yanvar-mart ayları ərzində 3.2 faiz olmuşdur [8].

**Qrafik1. Pul kütləsinin dəyişimi, %-lə**




**Azərbaycan Mərkəzi Bankının rəsmi saytı, 2017-cı ilin yanvar-iyun ayları üzrə Pul siyasətinin icmalı**

**Qrafik 2. Orta illik inflyasiya**




**Azərbaycan Mərkəzi Bankının rəsmi saytı, 2023-cü ilin yanvar-mart ayları üzrə Pul siyasətinin icmalı**

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, 2023-cü ilin yanvar-mart aylarında ölkədə istehsal olunmuş bütün məhsul və xidmətlərin dəyərinin dəyişməsini əks etdirən ÜDM deflyatoru 9,8 faiz təşkil edib. Bu artım, ilk növbədə, dünya bazarında neftin qiymətinin artması ilə əlaqələndirilir. İl ərzində sənaye məhsullarının istehsalçı qiymətləri indeksi 18,7 faiz, emal sənayesində 15 faiz nəzərəçarpacaq artım müşahidə olunub. Müxtəlif sektorlar üzrə qiymət artımı tütün məmulatlarının və nəqliyyat vasitələrinin istehsalı (19%), çap fəaliyyəti (27,3%) və neft emalı (20%) ilə bağlıdır. 2021-ci ildə pul siyasəti qərarlarını tərtib edərkən Milli Bank pul siyasətinin aparılması üçün əlverişli mühiti və qiymət sabitliyinə nail olmaq məqsədini vurğulamışdır [9].

**Qrafik 5. Faiz dəhlizlərinin parametrləri %**




**Azərbaycan Mərkəzi Bankının rəsmi saytı, 2021-ci ilin yanvar-dekabr ayları üzrə Pul siyasətinin icmalı**

Pul bazasının azalmasına dövlət hesablarının balansının dəyişməsi, dollarlaşma və digər amillər təsir etmişdir. Bundan əlavə, pul multiplikatorunda nəzərəçarpacaq dərəcədə azalma müşahidə edilmişdir ki, bu da bank sisteminin pul yaratmaq qabiliyyətinin azalmasından xəbər verir. Ehtiyat tələblərindəki bu düzəliş Milli Bankın aşağı faiz dərəcələri vasitəsilə iqtisadi ekspansiyanı gücləndirmək üçün daha əlverişli monetar mühitin yaradılması öhdəliyini vurğulayır [10].

**Nəticə**

Son dövrlərdə ölkəmizdə pul siyasətinin son və aralıq məqsədləri arasında formalaşmış sinerji makroiqtisadi sabitliyə nail olmaq üçün əlverişli şərait yaratmışdır. Pul siyasətinin çevikliyini artırmaq və onun iqtisadi mənzərə ilə davamlı uyğunlaşmasını təmin etmək üçün bir sıra tədbirlər tətbiq edilə bilər:

1. Milli Bankda inflyasiya modellərini təkmilləşdirməklə inflyasiyanın proqnozlaşdırılması sistemlərinin təkmilləşdirilməsi.

2. Ekonometrik üsullarla mübadilə məzənnələri ilə inflyasiya, pul vəsaitlərinin hərəkəti və faiz dərəcələri kimi aralıq hədəflər arasındakı əlaqəni dərk etmək üçün daha dərin təhlillərin aparılması.

3. Gələcəkdə Azərbaycanda birbaşa inflyasiya hədəflənməsinə potensial keçidin qiymətləndirilməsi.

4. Gələcəkdə Milli Bankın pul siyasətinin son məqsədi kimi xalis inflyasiya göstəricilərinin qəbul edilməsini nəzərə alaraq.

5. İnflyasiya gözləntilərinin hədəf təyinatına daxil edilməsi. İnflyasiya gözləntilərinin inflyasiya səviyyələrinə əhəmiyyətli təsirini nəzərə alaraq, ən yaxşı qlobal təcrübələrdən istifadə edən iqtisadi agentlər arasında potensial olaraq ixtisaslaşmış sorğular daxil olmaqla, ölçmə metodologiyalarını təkmilləşdirmək üçün səylər göstəriləcəkdir.

**Açar sözlər:** *iqtisadiyyat, maliyyə, ixrac, idxal, dinamika, sektor, korporativ, dövr, istehsal.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azerbaycan Respublikasinin Merkezi Bankin "Maliyye sabitliyi" icmali 2018, 2019, 2020.*

*2. Azerbaycan Respublikasinin 2018-2021 iller üzre iqtisadi ve sosial inkishaf konsepsiyasi ve proqnoz göstericileri.*

*3. Azerbaycan Respublikasinin Dovlet Budcesi haqqında" Azerbaycan Respublikasinin Qanunu 2020.*

*4. Azerbaycan Respublikasinin Dovlet Statistika komitesi "Azerbaycan reqemlerde", Baki 2021.*

*5. Mustafayev F.F., "Kechid iqtisadiyyatinda dovlet tenzimlenmesinin makroiqtisadi aspektleri", Baki, "Elm", 2008, 537 səh.*

*6. Eliyev U.Q., "Kechid dovrunun milli iqtisadi problemleri" (monoqrafiya), Bakı, 2008, 357 s.*

*7. Kuliev T. , "The Crisis of Liberalism" (Economic Aspect), "Economics", 2012, 448 p.*

*8. www.finance.gov.az*

*9. www.iqtisad.com*

*10. www.economy.gov.az*

## XÜLASƏ

Təqdim olunan məqalədə əsasən aşağıdakılardan bəhs edilir.

Qiymət Dəyişikliklərinin Monetar Faktorlardan Asılılığı: Son illərdə Azərbaycanda monetar amillər qiymət dəyişikliklərinin təxminən 50%-nə təsir etmişdir. Bu, onu göstərir ki, tələb və təklif dinamikası, beynəlxalq bazar konyunkturları və dövlət siyasəti kimi digər amillər qiymətlərin müəyyən edilməsində mühüm rol oynayır. İnflyasiya ilə mübarizə üçün sərt pul siyasətinin həyata keçirilməsi: Xüsusilə tədiyyə balansında düzəlişlər zamanı inflyasiyanın effektiv idarə olunması sərt pul siyasətinin həyata keçirilməsini zəruri edir. Bu, inflyasiya risklərini azaltmaq üçün pul təklifi kanallarının məhdudlaşdırılmasını nəzərdə tutur. Pul siyasəti tədbirləri: 2017-ci ildə Milli Bank pul təklifi kanallarını effektiv şəkildə məhdudlaşdıran ciddi pul siyasəti tətbiq etdi. Bu, 2021-ci ilin əvvəlinə 5,3%-ə çatan pul bazasının nəzarətli artımı ilə nəticələndi. İnflyasiya meyilləri: 2023-cü ilin birinci rübü ərzində illik inflyasiya birrəqəmli səviyyəyə enərək 4% təşkil edib. Bu azalma əhalinin real gəlirlərinin artmasına səbəb olmuşdur. Xüsusilə, ərzaq qiymətləri, qeyri-ərzaq mallarının qiymətləri və xidmətlər üzrə mülayim inflyasiya müşahidə olunub. Pul bazasının azaldılmasının təsiri: Pul bazasının azalması inflyasiya və məzənnə risklərinin idarə edilməsinə müsbət təsir göstərsə də, pulun alıcılıq qabiliyyətini də aşağı salmışdır. Uzunmüddətli Mülahizələr: Pul bazasının azalması inflyasiya və məzənnə risklərinə nəzarətdə kömək etsə də, orta və uzunmüddətli dövrdə iqtisadi fəallığı azalda bilər. Beləliklə, Mərkəzi Bank yerli valyutanın xarici təsirlərə qarşı dayanıqlılığını gücləndirmək üçün yerli istehsalı təşviq etməklə pul siyasətini gücləndirməlidir. Təhlillər göstərir ki, cari ildə valyuta məzənnəsindəki sabitlik, pul kütləsinin proaktiv idarə olunması, qlobal əsas ərzaq qiymətlərinin dinamikası, xidmət təklifinin artması və inflyasiya gözləntilərinin azalması rəqəmsal inflyasiyaya təsir edən əsas amillərdir.

**Açar sözlər:** *iqtisadiyyat, maliyyə, ixrac, idxal, dinamika, sektor, korporativ, dövr, istehsal.*

**Бунятов Аман**

## АНАЛИЗ И ЭКОНОМИЧЕСКАЯ ОЦЕНКА УРОВНЯ ОБЕСПЕЧЕНИЯ ФИНАНСОВОЙ СТАБИЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ

## АННОТАЦИЯ

Представленная статья в основном говорит о следующем.

Зависимость изменения цен от монетарных факторов: В последние годы монетарные факторы повлияли примерно на 50% изменений цен в

Азербайджане. Это показывает, что другие факторы, такие как динамика спроса и предложения, условия международного рынка и государственная политика, играют важную роль в определении цен. Реализация жесткой денежно-кредитной политики для борьбы с инфляцией. Эффективное управление инфляцией, особенно во время корректировок платежного баланса, требует проведения жесткой денежно-кредитной политики. Это предполагает ограничение каналов денежной массы для снижения инфляционных рисков. Меры денежно-кредитной политики: В 2017 году Национальный банк реализовал жесткую денежно-кредитную политику, которая фактически ограничила каналы денежной массы. Это привело к контролируемому росту денежной базы, которая к началу 2021 года достигла 5,3%. Тенденции инфляции: в первом квартале 2023 года годовая инфляция упала до однозначных цифр и составила 4%. Данное снижение привело к увеличению реальных доходов населения. В частности, умеренная инфляция наблюдалась в ценах на продукты питания, непродовольственные товары и услуги. Эффект сокращения денежной базы: Хотя сокращение денежной базы оказывает положительное влияние на управление рисками инфляции и обменного курса, оно также снижает покупательную способность денег. Долгосрочные соображения: Хотя сокращение денежной базы помогает контролировать инфляцию и риски обменного курса, оно может снизить экономическую активность в среднесрочной и долгосрочной перспективе. Таким образом, Центральный банк должен усилить денежно-кредитную политику, поощряя местное производство, чтобы повысить устойчивость местной валюты к внешним воздействиям. Анализ показывает, что в текущем году стабильность обменного курса, активное управление денежной массой, динамика мировых цен на основные продукты питания, Увеличение предложения услуг и снижение инфляционных ожиданий являются основными факторами, влияющими на цифровую инфляцию.

**Ключевые слова:** *экономика, финансы, экспорт, импорт, динамика, сектор, корпорация, период, производство.*

**Bunyatov Haman**

## ANALYSIS AND ECONOMIC ASSESSMENT OF THE LEVEL OF FINANCIAL STABILITY IN AZERBAIJAN

### SUMMARY

The presented article mainly talks about the following.

Dependence of Price Changes on Monetary Factors: In recent years, monetary factors have influenced about 50% of price changes in Azerbaijan. This shows that other factors such as supply and demand dynamics, international market conditions and government policies play an important role in price determination. Implementation of a tight monetary policy to combat inflation: Effective management of inflation, especially during balance of payment adjustments, necessitates the implementation of a tight monetary policy. This involves restricting money supply channels to reduce inflationary risks. Monetary policy measures: In 2017, the National Bank implemented a strict monetary policy that effectively limited the money supply channels. This resulted in a controlled growth of the monetary base, which reached 5.3% by the beginning of 2021. Inflation trends: Annual inflation fell to single digits at 4% during the first quarter of 2023. This decrease has led to an increase in the real income of the population. In particular, moderate inflation was observed in food prices, prices of non-food goods and services. Effect of monetary base reduction: Although the monetary base reduction has a positive effect on the management of inflation and exchange rate risks, it has also reduced the purchasing power of money. Longer-Term Considerations: While monetary base reductions help control inflation and exchange rate risks, they may reduce economic activity in the medium to long-term. Thus, the Central Bank should strengthen monetary policy by promoting local production to strengthen the resilience of the local currency against external influences. The analysis shows that in the current year, the stability of the exchange rate, proactive management of the money supply, the dynamics of global basic food prices, the increase in the supply of services and the decrease in inflation expectations are the main factors affecting digital inflation.

**Keywords:** *economy, finance, export, import, dynamics, sector, corporate, period, production.*

UOT 33
DOI:10.30546/3006-0346.2024.3.81.0169

# GÖMRÜK DƏYƏRİ VƏ ONUN TƏYİN EDİLMƏSİ SİSTEMİ

**FUAD MİKAYILOV**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: fuad.mikayilov.2020@mail.ru*

## Giriş

Beynəlxalq ticarət sferasında gömrük dəyərinin müəyyən edilməsi transsərhəd əməliyyatların strukturuna mürəkkəb şəkildə toxunmuş əsas aspekt kimi dayanır. Özündə gömrük dəyəri malların ölkəyə daxil olması zamanı vergitutma məqsədləri üçün onlara təyin edilmiş pul dəyərinə aiddir. Bu dəyər sadəcə ixtiyari bir rəqəm deyil, gömrük orqanları tərəfindən təyin edilmiş strukturlaşdırılmış proses vasitəsilə diqqətlə qiymətləndirilir.

Gömrük dəyəri mallar üçün ödənilən və ya ödənilməli olan qiymət, idxal məntəqəsinə qədər daşınma və sığorta kimi əlaqəli xərclər və satışın şərti kimi edilən hər hansı əlavə ödənişlər kimi müxtəlif elementləri əhatə edən malların bəyan edilmiş dəyərini əhatə edir. O, gömrük orqanları tərəfindən rüsumların, vergilərin və digər yığımların qoyulduğu maliyyə əsasını təmsil edir. Beynəlxalq ticarətdə gömrük dəyərinin əhəmiyyətini qiymətləndirməmək olmaz. O, gömrük rüsumlarının və vergilərinin hesablanması, idxal olunan mallara ədalətli rəftarın təmin edilməsi və qlobal bazarda ədalətli rəqabətin təşviq edilməsi üçün mühüm təyinedici rol oynayır. Bundan əlavə, gömrük dəyəri ticarət statistikasında, iqtisadi təhlildə və siyasətin formalaşdırılmasında mühüm rol oynayır, ticarət axınları və bazar dinamikası haqqında mühüm anlayışlar təmin edir.

Gömrük dəyərinin müəyyən edilməsində əsas məqsəd idxal olunan malların dəqiq fiskal dəyərini müəyyən etmək və bununla da mövcud qaydalara uyğun olaraq rüsum və vergilərin hesablanmasını və yığılmasını asanlaşdırmaqdır. Bundan əlavə, o, malların qiymətləndirilməməsi və ya yanlış bəyan edilməsinin qarşısını almağa, gəlir itkisi riskini azaltmağa və yerli sənayeləri ədalətsiz ticarət təcrübələrindən qorumağa xidmət edir. Gömrük qiymətləndirməsi üçün şəffaf və standartlaşdırılmış çərçivə yaratmaqla hökumətlər beynəlxalq ticarət əməliyyatlarında səmərəliliyi, şəffaflığı və uyğunluğu təşviq etməyi hədəfləyirlər.

## Gömrük orqanlarının rolu

Gömrük dəyəri beynəlxalq ticarətdə mühüm əhəmiyyət kəsb edir, çünki idxal olunan mallar üzrə rüsumların, vergilərin və digər yığımların qiymətləndirilməsi üçün əsas təşkil edir. Gömrük dəyərinə müxtəlif amillər təsir edir və gömrük orqanları müəyyən edilmiş qaydalar və təlimatlar vasitəsilə bu dəyərin müəyyən edilməsində əsas rol oynayır. İlkin yanaşma hesab edilən əməliyyat dəyəri metodu idxalçı ölkəyə ixrac üçün satılarkən mallar üçün ödənilən və ya ödənilməli olan qiymətə əsaslanır. Buraya daşınma, sığorta və qablaşdırma kimi idxala qədər çəkilən bütün xərclər daxildir. Bundan əlavə, eyni və ya oxşar mallar mövcud olduqda, onların əməliyyat dəyəri gömrük rüsumlarının qiymətləndirilməsində ardıcıllıq və ədalətliliyi təmin etməklə, qiymətləndirmə üçün istinad nöqtəsi kimi xidmət edir.

Əməliyyat dəyərinin müəyyən edilə bilmədiyi və ya etibarsız hesab edildiyi hallarda alternativ üsullar işə düşür. Çıxarılan dəyər metodu gömrük dəyərinin müəyyən edilməsi üçün idxalçı ölkədə malın təkrar satış qiymətindən müəyyən məsrəflərin çıxılmasını nəzərdə tutur. Eynilə, hesablanmış dəyər metodu gömrük dəyərini istehsal məsrəfləri, mənfəət və malların istehsalı zamanı çəkilmiş digər müvafiq xərclər əsasında hesablayır [10, s.14].

Yuxarıda göstərilən üsullardan heç biri mümkün olmadıqda, gömrük orqanları mövcud ağlabatan vasitələrdən istifadə etməklə gömrük dəyərini müəyyən etməyə imkan verən qalıq metoduna müraciət edə bilərlər. Bununla belə, tətbiq edilən üsuldan asılı olmayaraq, gömrük orqanları qiymətləndirmə prosesində ardıcıllıq, şəffaflıq və ədalətliliyi təmin etmək üçün müəyyən edilmiş qaydalara və təlimatlara riayət etməlidirlər [1, s.60].

Gömrük orqanlarının rolunun mərkəzi yeri gömrük qiymətləndirilməsini tənzimləyən qayda və təlimatların müəyyən edilməsidir. Çox vaxt Ümumdünya Ticarət Təşkilatının Gömrük Qiymətləndirilməsi üzrə Sazişi kimi beynəlxalq standartlara uyğunlaşdırılan bu qaydalar gömrük dəyərinin müəyyən edilməsi üçün prinsip və metodologiyaları əks etdirir. İdxalçılar bəyan edilmiş gömrük dəyərini təsdiqləmək üçün müvafiq sənədləri, o cümlədən hesab-fakturaları, müqavilələri və göndərmə sənədlərini təqdim etməlidirlər. Gömrük orqanları bəyan edilmiş dəyərin düzgünlüyünü və uyğunluğunu müəyyən etmək üçün fiziki yoxlamalar aparmaqla yanaşı, bu sənədləri ciddi şəkildə yoxlayır. Göm-

rük dəyərinə təsir edən amilləri və onun müəyyən edilməsində gömrük orqanlarının rolunu başa düşməklə idxalçılar və ixracatçılar beynəlxalq ticarətin mürəkkəbliklərini daha effektiv idarə edə bilərlər. Gömrük qiymətləndirmə qaydalarına riayət etmək təkcə ticarəti asanlaşdırmır, həm də gömrük prosesinin bütövlüyünü təmin edir, transsərhəd əməliyyatlarda ədalətliliyi və şəffaflığı təşviq edir [4, s.212].

Gömrük dəyərinin müəyyən edilməsi üsulları vergitutma məqsədləri üçün idxal olunan malların pul dəyərinin müəyyən edilməsinə yönəlmiş bir sıra yanaşmaları əhatə edir. Əməliyyat dəyəri metodu əsas yanaşma olsa da, əməliyyat dəyərinin etibarlı şəkildə müəyyən edilə bilməyəcəyi vəziyyətləri həll etmək üçün alternativ üsullar mövcuddur. Bu metodların müqayisəli təhlili onların müvafiq üstünlükləri, çatışmazlıqları və müxtəlif ssenarilərdə tətbiqi imkanlarına işıq salır.

● Əməliyyat dəyəri metodu

Müəyyən meyarlar, o cümlədən ixrac üçün vicdanlı satış, malların istifadəsi və ya sərəncamında məhdudiyyətlərin olmadığı və dəyərə təsir edən müəyyən şərtlərin olmadığı halda əməliyyat dəyəri metoduna üstünlük verilir. Bu üsul idxal ölkəsinə ixrac üçün satılarkən mal üçün ödənilmiş və ya ödənilməli olan faktiki qiymətə əsaslanır.

Əməliyyat dəyərini müəyyən etmək üçün idxalçılar mallar üçün ödənilən və ya ödənilməli olan qiyməti göstərən fakturalar, müqavilələr və göndərmə sənədləri kimi sənədləri təqdim etməlidirlər. Bundan əlavə, gömrük orqanları bəyan edilmiş dəyərin düzgünlüyünü və etibarlılığını təmin etmək üçün əlavə məlumat və ya yoxlama tələb edə bilər [2, s.42].

● Alternativ üsullar

- Eyni və ya oxşar mallar metodu. Əməliyyatın dəyərini müəyyən etmək mümkün olmadıqda, gömrük orqanları eyni və ya oxşar mallar metoduna müraciət edə bilərlər. Bu, eyni və ya oxşar malların əməliyyat dəyərinin qiymətləndirmə üçün istinad nöqtəsi kimi istifadəsini nəzərdə tutur. Bununla belə, bu üsul xüsusiyyətləri və keyfiyyəti baxımından müqayisə edilə bilən malların mövcudluğunu tələb edir.

- Deduktiv dəyər metodu. Çıxarılan dəyər metodu gömrük dəyərinin müəyyən edilməsi üçün idxalçı ölkədə malların təkrar satış qiymətindən müəyyən xərc və məsrəflərin çıxılmasını nəzərdə tutur. Bu üsul tez-tez əməliyyatın dəyərini etibarlı şəkildə müəyyən etmək mümkün olmadıqda və ya yenidən satış qiyməti haqqında məlumat olduqda istifadə olunur.

- Hesablanmış dəyər metodu. Hesablanmış dəyər metodu müəyyən edilmiş metodologiyalar əsasında, istehsal xərcləri, mənfəət və malların istehsalı zamanı çəkilmiş digər müvafiq xərcləri nəzərə almaqla gömrük dəyərinin hesablanmasını nəzərdə tutur. Bu üsul əməliyyat dəyəri və digər alternativ üsullar mümkün olmadıqda tətbiq edilir.

- Qalıq metodu. Yuxarıda göstərilən üsullardan heç biri tətbiq edilmədikdə, gömrük orqanları qalıq metoduna müraciət edə bilərlər. Bu, onlara mümkün olan ağlabatan vasitələrə əsaslanaraq gömrük dəyərini müəyyən etməyə imkan verir və dəyərin əməliyyat dəyərinə ən yaxın təxmini əks etdirməsini təmin edir [7, s.57].

### Müxtəlif metodların müqayisəli təhlili

Gömrük dəyərinin müəyyən edilməsinin müxtəlif üsullarının müqayisəsi onların nisbi güclü tərəfləri, zəif tərəfləri və müxtəlif ticarət ssenariləri üçün uyğunluğu haqqında anlayışlar təmin edir. Əməliyyat dəyəri metodu, əsas yanaşma kimi, sadəlik və kommersiya təcrübələri ilə uyğunlaşma təklif edir. O, mallar üçün ödənilmiş və ya ödənilməli olan faktiki qiymətə əsaslanır və bu, onun həyata keçirilməsini asanlaşdırır. Bununla belə, onun effektivliyi etibarlı sənədlərin mövcudluğundan və dəyərə təsir edə biləcək şərtlərin olmamasından asılıdır. Elan edilmiş dəyərlərin yoxlanılması çətinləşə və bu, potensial uyğunsuzluqlara səbəb ola bilər [6, s.185].

Bunun əksinə olaraq, eyni və ya oxşar mallar metodu, deduktiv dəyər metodu, hesablanmış dəyər metodu və qalıq metodu kimi alternativ üsullar əməliyyat dəyərinin müəyyən edilə bilməyəcəyi vəziyyətlərdə çeviklik təklif edir. Bu üsullar sənədlərin kifayət etmədiyi və ya elan edilmiş dəyərlərin düzgünlüyünə dair qeyri-müəyyənliklər olduqda qiymətləndirmə variantları təqdim edir.

Eyni və ya oxşar mallar metodu, onların dəyərinin qiymətləndirilən malların dəyərini əks etdirdiyini nəzərə alaraq, müqayisə olunan malların əməliyyat dəyərinə əsaslanır. Bununla belə, onun tətbiqi bazarda eyni və ya oxşar malların mövcudluğundan asılıdır. Çıxarılan dəyər metodu əmtəənin təkrar satış qiymətindən müəyyən məsrəfləri çıxarır və əməliyyatın dəyəri haqqında məlumat olmadıqda qiymətləndirmə üçün əsas yaradır. O, praktiki yanaşma təklif edir, lakin yenidən satış qiymətləri və əlaqədar xərclər haqqında etibarlı məlumat tələb edir.

Eynilə, hesablanmış dəyər metodu istehsal xərclərini, mənfəəti və digər müvafiq xərcləri nəzərə alaraq müəyyən edilmiş metodologiyalar əsasında gömrük dəyərini hesablayır. Bu üsul sistemli yanaş-

ma təklif etsə də, onun dəqiqliyi hərtərəfli xərc məlumatlarının mövcudluğundan və hesablama prosesinin etibarlılığından asılıdır.

Yuxarıda göstərilən üsulların heç birinin tətbiqi mümkün olmadığı hallarda gömrük orqanları qalıq metoduna müraciət edə bilərlər. Bu üsul onlara mövcud olan ağlabatan vasitələrə əsaslanaraq gömrük dəyərini müəyyən etməyə imkan verir. Bununla belə, onun subyektiv xarakteri və təxminlərə əsaslanması dəqiqlik və ardıcıllıqla bağlı narahatlıq yarada bilər.

# UŞAQ İNKİŞAFI YÖNÜMÜNDƏN DEİNSTİTUALİZASİYANIN ZƏRURİYYƏTİ AZƏRBAYCAN KONTEKSTİNDƏN DEİNSTİTUALİZASİYA VƏ ALTERNATİV QAYĞI SİSTEMİNƏ BAXIŞ

**ÜLVİYYƏ MİRZƏYEVA**
*Azərbaycan Universiteti, dissertant*
*E-mail: ulviyya.mirzayeva@uafa.az*

***"Uşaqlar nə valideynlərinin malı, nə də köməksiz xeyriyyə obyekti deyillər.***
***Onlar insandırlar və öz hüquqlarının subyektidirlər".***

***BMT-nin Uşaq Hüquqları Konvensiyası***

***"Uşağın valideynləri tərəfindən himayə olunmaq hüququ vardır".***

***Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasının 7-ci maddəsinə əsasən***

Uşaqlıq gələcək inkişafın əsasını qoyan bir dövrdür. Həyatın bu mərhələsində beyin nə qədər çox informasiya qəbul etsə, bir o qədər çox inkişaf etmiş olur. Bu zaman vacib həyat bacarıqlarını inkişaf etdirmək üçün uşaqların imkanları çox böyükdür və əldə etdikləri hər bir şey həyatları boyu onların yaddaşında həkk oluna bilir. Əgər uşağın beyni kifayət qədər informasiya qəbul etmirsə və o cəmiyyətdən təcrid olunmuşdursa, bu zaman beyin inkişafdan qalmış olur.

Uşaqların çoxu ev şəraitində onlara məhəbbət, hörmət, diqqət və qayğı göstərən, onların fikri ilə hesablaşan və qiymətləndirən ailə üzvləri, qohumlar və qonşuların əhatəsində yaşayırlar. Aparılmış tədqiqat və praktiki təcrübələr göstərmişdir ki, uşaqlar özlərinin emosional, sosial və psixoloji qabiliyyətlərini tam inkişaf etdirmək üçün ailə mühitində böyüməyə ehtiyac duyurlar. Bununla belə, bəzən ailələr müxtəlif səbəblərdən öz uşaqlarının, xüsusən də əlilliyi olan uşaqlarının qayğısına qalmaq üçün başqa yollar axtarırlar. Alternativ qayğı sisteminin olmadığı ölkələrdə valideynlərin yeganə alternativi uşaq evləri, internat müəssisələri olur.

"United Aid For Azerbaijan" təşkilatının 2001-ci ildə Azərbaycan Respublikasının Abşeron rayonunda yerləşən iki internat evində apardığı "Azərbaycanda uşaq müəssisələrinin vəziyyətinin təhlili" adlı tədqiqatı zamanı məlum olmuşdur ki, uşaq müəssisələrindəki uşaqların 64%-i mayın sonundan sentyabrın əvvəlinə kimi evə gedir. Tədqiqatın nəticəsinə əsasən uşaqların 75%-dən çoxunun valideynləri yaşayır. Tədqiqatın 2-ci və ən əsas nəticəsinə əsasən uşağın müəssisələrə atılmasının əsas səbəbinin

- yoxsulluq
- ailənin dağılması

olduğu ortaya çıxmışdır.

Başqa ölkələrdə aparılan tədqiqatlara müraciət etdikdə əlavə nəticələri də aşkar etmış oluruq, problemli davranış və zəif akademik performans kimi bir çox mənfi nəticələrin məhz yoxsulluqdan qaynaqlandığını görürük [1,s.288]. Həmçinin boşanmanın mənfi təsirinin çox vaxt yetkinlik yaşına çatdıqda da davam etdiyini, bunun isə psixi sağlamlıq problemlərinin daha geniş yayılmasına və təhsil səviyyəsinin aşağı düşməsinə səbəb olduğu nəticələri ilə qarşılaşırıq [2,s.10]

Yuxarıda qeyd olunmuş araşdırmanın nəticələrinə əsasən, yoxsulluğun aradan qaldırılması və ailə birliyi BMT-nin Uşaq Hüquqları Konvensiyasına riayət etmək və de-institusionalizasiya prosesinə əməl etmək üçün hökumət tərəfindən həll edilməli olan iki məsələdir.

Çünki müəssisələrdə yaşamanın uşağa etdiyi təsirlər və uşaqda qoyduğu izlər onun gələcək həyatına da təsir etməklə yanaşı cəmiyyətin rifahı üçün də mənfi nəticələr nümayiş etdirir.

Müəssisələrin uşaq inkişafına təsiri ilə bağlı bir çox tədqiqatlar mövcuddur və bu tədqiqatların nəticələri göstərir ki, ailədə və internatlar/uşaq evləri / digər uşaq müəssisələrində vəziyyət tamamilə fərqlidir. Çünki belə uşaq müəssisələrində normadan çox uşaq yaşayır və burada uşaqların cəmiyyətə inteqrasiyası üçün çox az imkanlar vardır. Ailədə böyüyən uşaqların sevinc hissləri uşaq müəssisələrində yaşayan, ana-ata qayğısı, məhəbbəti və nəvazişindən məhrum olan uşaqlara yaddır. Əlbəttə, belə şəraitdə böyüyən uşağın tam normal və hərtərəfli inkişafı üçün şans çox cuzi olur.

Əqli və fiziki cəhətdən geriliyi olan uşaqların yaşadığı müəssisələrdəki vəziyyət daha çətindir. Əqli və fiziki çatışmazlığı səbəbindən atılmış uşaqların yaşadıqları müəssisələrdə əksər hallarda uşaq böyük nisbəti (6:1) təmin olunmadığından onların ümumi inkişafı üçün vacib olan qayğı, diqqət və ünsiyyətdən

də məhrum olmaları labüddür.

Maslonun Ehtiyacların İerarxiyası nəzəriyyəsinə əsaslansaq, bütün uşaqların özlərini təhlükəsiz hiss etmələri və özlərinə inam hissinin formalaşması üçün yeməyə, istiliyə, qayğıya, məhəbbətə və hörmətə ehtiyacları var. Müəssisələrdə bu ehtiyacların çoxu ödənilmir. Uşaqlar kifayət qədər və öz seçimlərinə əsasən qidalanmadıqdan və ya məhəbbət görmədiklərindən onlar özlərini təhlükəsiz hiss etmirlər, bu da onların cəmiyyətə inteqrasiyasını və insanlarla ünsiyyətə girmələrini çətinləşdirir və ümumi inkişafdan saxlayır.

Çox vaxt müəssisəyə atılmış uşaq oradakı şəraitə uyğunlaşa bilmir, valideynləri üçün darıxır, özünü tənha hiss edir ki, bu da ölümlə nəticələnə biləcək depressiyaya gətirib çıxarır. Evdən müəssisəyə gəlmiş uşaqlar öz azadlıqlarını itirirlər. Bu cür uşaqlar həmişə gözlənti içində olur və çox zaman çox pis qidalanırlar.

Uşaqlar bütün hisslərini (toxunmaq, dadmaq, iyləmək, eşitmək və s) inkişaf etdirməyə ehtiyac duyurlar. Bütün bu hisslər ətraf aləm haqqında məlumat toplamağa imkan verir. Müəssisələrdə olan uşaqlar belə imkandan məhrumdurlar.

Çox zaman müəssisə işçiləri belə uşaqlarla işləmək və onlarla düzgün davranış qaydaları haqqında məlumatsız olduqlarından uşaqların hisslərini və ehtiyaclarını başa düşə bilmirlər və ümumiyyətlə, onlara düzgün münasibət bəsləmirlər. Belə olduğu halda uşaq hisslərinin və bacarıqlarının inkişaf etdirilməsində çətinlik çəkir.

Qeyri-adi, xoşagəlməz və zərərli davranışlar- çox zaman müəssisələşmənin nəticəsi hesab olunur.

Müəssisə və ailədə yaşamanın uşaq inkişafına təsirlərini daha yaxşı başa düşmək üçün reinteqrasiya olunmuş, yəni müəssisədən evə qaytarılmış uşaqların inkişafının izlənməsi dəyərlidir. Bu istiqamətdə, yəni müəssisələrdə yaşayan və reinteqrasya edilmiş uşaqların inkişafı və adaptasiyası sahəsində müxtəlif tədqiqatlar aparılmışdır.

Biz onlardan birinə, Tuleyn Universitetinin tibb fakültəsindən professor Çarlz Zinahın rəhbərlik etdiyi Buxarest Erkən Müdaxilə Layihəsinə nəzər salaq. 1965-1989-cu illərdə Nikola Çauşeskunun Rumıniyadakı avtoritar hakimiyyəti zamanı yürüdülən, hamiləlik əleyhinə vasitələrə qadağa və uşaqsız ailələrə qoyulan vergilər kimi sosial siyasətlər geniş yayılmış yoxsulluqla birləşərək əhalinin sayında yüksələn artım və dövlət müəssisələrinə verilmiş uşaqların sayının artması ilə nəticələndi. 1989-cu ildə, bu rejimin sonlarında hesablamalara görə müəssisələrdə 170000 uşaq var idi. Məhz bu tarixi kontekstdə tədqiqatçılar Buxarest Erkən Müdaxilə Layihəsini hazırladılar.

Buxarest Erkən Müdaxilə Layihəsi Rumıniyada 2000-ci ildə başlanmış, uzun müddətli və bu gün də müşahidələri davam edən layihədir.

Layihənin 3 məqsədi var:

1.Uşaqların müəssisələrə verilməsinin onların beyin və davranış inkişafına təsirlərini öyrənmək.

2.Uşaqları yüksək səviyyəli foster xidmətinə verməklə onlarda müşahidə olunmuş neqativ təsirləri aradan qaldırmağın mümkün olub-olmadığını müəyyən etmək.

3.Foster xidmətini müəssisələrə alternativ olaraq yaradaraq rumın uşaqlarının güzəranını yaxşılaşdırmaq.

Buxarest Erkən Müdaxilə Layihəsinin araşdırmaçıları aşağıdakı sahələrdə dəyərləndirmə apararaq geniş çeşidli nəticələr əldə etdilər:

• Qavrama, neyro-inkişaf (elektroensefaloqram [EEG],
• MRT və hallarla əlaqəli potensiallar),
• Psixopatalogiya,
• Fiziki inkişaf,
• Sosial bacarıqlar,
• Bağlılıq,
• Dil bacarıqları,
• Temperament,
• Avtonom və hipotalamus– hipofiz – adrenal funksiyası
• Genetika.

Qavrama aspektlərini öyrənərkən araşdırmaçılar müəssisələrdəki uşaqlara nisbətən foster xidmətinə verilmiş uşaqlarda 30, 42 və 54 aylığında əhəmiyyətli İQ artımı aşkar etdilər [3,s.919].

Uşaqların foster xidmətində yerləşdirildiyi yaşa nəzər salsaq, daha erkən yaşda, xüsusən də 24 aylığından əvvəl foster xidmətinə verilmiş uşaqlarda daha böyük İQ artımının şahidi oluruq [4, s 318] [5].

Eyni zamanda, araşdırma müəssisələrə verilmiş uşaqlarda psixi pozuntuların yüksək faizini (təxminən 38%), diqqət çatışmazlığı və hiperaktivlik pozuntusu, aqressiya kimi davranış çətinliklərinin yüksək nisbətini aşkar edib [6,s.977].

Həmçinin, Berens bildirib ki, 12, 15, 20 və 24 aylarından öncə foster qruplarına yerləşdirilsə, uşaqlarda daha böyük bərpa proseslərinin getməsi müşahidə olunub.

İQ və beyin funksiyasına əlavə olaraq, dil, sosial bacarıqlar, nəzarət funksiyaları və bağlılıqla bağlı da fərqlər qeydə alınıb [7,s.109].

Bu kimi bir sıra tədqiqatlara əsaslanaraq bu gün

uşaq müəssisələrində yaşayan uşaqların deinstitualizasiyası və alternativ qayğı modelinin yaradılması hər bir dövlətin qarşısında duran ümdə məsələdir. Həmçinin Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasının 7-ci maddəsinə əsasən:

"Uşağın valideynləri tərəfindən himayə olunmaq hüququ vardır".

Azərbaycan kontekstindən yanaşdıqda deinstitualizasiya və alternativ qayğı modelinin yaradılmasında bir sıra təsdiq olunmuş sxemlərə müraciət edilməsi mümkündür

Bu məsələyə əslində iki aspektdən yanaşmaq daha faydalı olardı.

1. Uşaqların müəssisələrə düşməsinin qarşısının alınması;

2. Uşaqların müəssisələrdən deinstitualizasiyası

Bunlardan birincisi - Uşaqların müəssisələrə verilməsinin qarşısının alınması, yəni qate kipinqdir. Gate kipinq - dövlət müəssisə qayğı sisteminə "girişində nəzarət" deməkdir. Hər bir uşaq üçün onun ehtiyaclarının və həyat şəraitinin qiymətləndirilməsinin nəticələrinə əsaslanan, hər bir uşağın maraqlarına uyğun qərar qəbul etməklə onun dövlət müəssisəsinə düşməsinin qarşısını alan və ailələrə dəstək göstərmək üçün səmərəli və məqsədyönlü sosial xidmətləri inkişaf etdirən bir sistemdir..

Bu bizə resursları qoruyub saxlamağa, uşağın ehtiyaclarını və mövcud xidmətləri müqayisə etməyə, uşağın ən yaxşı maraqlarını müəyyənləşdirib onları düzgün qarşılamağa imkan verir.

Biz bu istiqamətdə Azərbaycandakı proseslərin tarixinə nəzər salsaq bunun əsasən layihə çərçivəsində həyata keçirildiyini müşahidə etmiş olarıq. Məsələn, Deinstitualizasiya və alternativ qayğı sahəsində pilot layihələr həyata keçirilmiş UAFA təşkilatının 2008-2009-cu illərdə iki internat evində apardığı "Azərbaycanda həssas təbəqədən və əlilliyi olan uşaqların ailələrində yaşamasının təmin edilməsi" layihəsi çərçivəsində 01.09.2007 - 10.08.2009 tarixlərində Saray 7 saylı inernat evində 28, Şağan qəsəbəsində yerləşən 3 saylı internat evində 18 uşağın müəsisəyə düşməsinin qarşısı alınmışdır. İnternatda yaşayan 38 uşaq isə ailəsinə reunifikasiya edilmişdir [8].

2008-ci ildə 18 regionun təlimləndirilmiş Sobes işçiləri tərəfindən 11 uşağın müəssisəyə düşməsinin qarşısı alınmışdır

3 pilot regionda – Gəncə, Xaçmaz və Yasamal rayonlarından Qeyt-kipinq layihəsinin komandası tərəfindən müəssisələşməsinin qarşısı alınmış uşaqların sayı 19 olmuşdur:

Lakin bu prosesin dayanıqlı olmasını təmin etmək bir sıra səbəblərdən mümkün olmamışdır

Bu səbəblərdən də ən başlıcası xüsusən əlilliyi olan uşaqlar üçün günərzi qayğı mərkəzlərinin olmaması idi.

Bu istiqamətdə atılan addımlar nəticəsində hal hazrda yenidən adlandırılmış hər iki müəssisədə günərzi qayşı mərkələri fəaliyyət göstərir.

Hazırki statistikaya nəzər salsaq, bu prosesdə artıq dövlət qurumlarının fəal iştirakını görə bilərik.

2022-ci ilin noyabr ayından 2023-cu ilin may ayınadək uşaqların müəssisələrə yerləşdirilməsi ilə bağlı müraciətlərin statistikasına nəzər salsaq, ümumi müraciət sayı 220, müraciət üzrə uşaq sayı 197 oğlan,143 qız, 1 cinsi məlum olmayan olmaqla, ümumilikdə 340 nəfər olmuşdur [9]

Yaş qrupuna görə

- 0-3 yaş – 72 nəfər
- 4-6 yaş – 75 nəfər
- 7-12 yaş – 147 nəfər
- 13-18 yaş – 47 nəfər

Uşaqların statusu üzrə sayı (tək uşaq, bacı-qardaş):

- Tək uşaq – 140
- Bacı – qardaş – 80

Müraciət edən şəxslərlə uşağın qohumluq əlaqəsi üzrə bölgüsü

- Valideyn – 139
- Baba-nənə – 18
- Digər qohum – 9
- Atılmış – 5
- Qurum – 47
- Uşaq tərəfindən – 1
- İcma tərəfindən – 2
- Qəyyum - 1

Uşağın yerləşdirmə səbəbi üzrə bölgüsü (çoxsaylı seçim mövcuddur) aşağıdakı kimi olmuşdur.

- İqtisadi vəziyyət – 97
- Valideyn bacarıqlarının zəifliyi – 57
- Ailədə olan xəstəliklər – 17
- Təhsillə bağlı problem – 10
- Digər – 6 (evlə təminat)
- Ailədaxili zorakılıq – 15
- Sosial təhlükəli vəziyyətdə olan uşaq – 22
- Uşağın qanuna zidd əməlləri – 4
- Uşaqda olan xəstəliklər – 18
- Valideynlərin həbs edilməsi – 11
- Valideynin vəfat etməsi – 2
- Valideynlik vəzifələrindən imtina – 10
- Mənzil şəraitinin əlverişli olmaması – 9

• Ailədaxili münasibətlər – 17

Uşağın valideynlərinin ailə statusu üzrə bölgüsü (tək valideyni olan, hər iki valideyni olan, valideynləri olmayan):

• Tək valideyn – 120
• Hər iki valideyni olan – 62
• Valideynləri olmayan – 13
• Qəyyum və himayəçisi olan – 21

**Müraciət edənlərdən 109 (61 oğlan, 48 qız olmaqla) nəfər müəssisəyə yerləşdirilmişdir. Bunların statistikasına baxdığımızda :**

➢ 0-3 yaş – 40 nəfər
➢ 4-6 yaş – 19 nəfər
➢ 7-12 yaş – 35 nəfər
➢ 13-18 yaş – 15 nəfər

Uşağı müəssisəyə yerləşdirən şəxslərlə uşağın qohumluq əlaqəsinə baxdıqda, 27 nəfər valideyni, 4 nəfər baba-nənəsi, 7 nəfər digər qohumları tərəfindən, 5 nəfər atılmış, 1 uşaq özü, 29 nəfər müxtəlif qurumlar tərəfindən yerləşdirilmişdir

Yerləşdirilən uşaqların ailə statusu üzrə bölgüsünə gəldikdə:

➢ Tək valideyn olan – 40
➢ Hər iki valideyni olan – 23
➢ Valideyni olmayan – 9

Maraqlı nüanslardan biri də ondan ibarətdir ki, yerləşdirilən uşaqlar əsasən Baki (paytaxt) şəhəri üzrə üstünlük təşkil edir .( 49 nəfər ).

Müraciət edənlərdən 58 nəfərin qiymətləndirilməsi tədqiqatın aparıldığı dövrdə davam edirdi, 144 uşaq ailələrə dəstək tədbirləri göstərilməklə ailədə saxlanılmış , 29 uşaq digər xidmətlərə yönləndirilmiş idi.

Yuxarıda qeyd etdiyimiz kimi ikinci addım isə müəssisələrdə yaşayan uşaqların deinstitualizasiyasıdır:

Hal-hazırda Azərbaycanda vəziyyətə baxdıqda ümumi statistik göstəricilər (01.11.2022 – 19.05.2023) aşagıdakı kimidir :

**Müəssisəni tərk edən uşaqlar üzrə olmuşdur:**
**Daxil olmuş ümumi müraciət sayı – 86,**
**Ümumi müraciət üzrə uşaq sayı – 131 ( 60 qız, 71 oğlan olmaqla)**
**Yaş qrupu üzrə:**

➢ 0-3 yaş – **17**
➢ 4-6 yaş – **25**
➢ 7-12 yaş – **50**
➢ 13-18 yaş – **30**
➢ 18 yaş və daha yuxarı - **3**

**Müəssisəni tərk etmə səbəbi üzrə bölgü:**

➢ İqtisadi vəziyyətin düzəlməsi – **45**
➢ Tipik təhsil müəssisəsinə yerləşdirilmə – **7**
➢ Mənzil şəraitinin düzəlməsi – **4**
➢ Ailədaxili münasibətlərin stabilliyi – **7**
➢ Uşağın yetkinlik yaşına çatması və ya təhsilini başa vurması – **4**
➢ Digər müəssisələrə yerləşdirmə – **3**

**Müəssisəni tərk edən uşaqların sayı – 75 (3 nəfər 18+ olduğu üçün tərk etmə qərarı verilmişdir) olmuşdur. Məlumatın toplanıldığı dövrdə 32 nəfərin qiymətləndirməsi davam edirdi. Ailəyə qaytarılma mümkün hesab edilməyən müraciət sayı 10 müraciət və uşaq sayı – 19 olmuşdur. 4 müraciət, 5 uşaq digər qurumlara yönləndirilmişdir.**

Hər iki istiqamətdə aparılan və aparıla biləcək müxtəlif tədbirlər vardır. Dünya təcrübəsində də buna üç alternativ qayğı forması ilə nail olunur:

• Foster və qəyyum ailə (sonuncu adətən qohum ailələr olur),
• Qalma əsaslı qayğı (müəssisə)
• Övladlığa götürmə.

Tarixə nəzər salsaq görərik ki, bir çox ölkələr müəyyən müddət ərzində müəssisə qayğısından istifadə etmişlər. Müəssisələr adətən xoşməramlı məqsədlə uşaqlar üçün qayğının ən yaxşı forması olması fikriylə yaradılmışdır. Ancaq təcrübə göstərmişdir ki, uşaqların ehtiyaclarını ən yaxşı qarşılayan forma ailə və icma əsaslı qayğı formasıdır. Deinstitusionalizasiya proqramının həyata keçirildiyi bir sıra ölkələrin təcrübəsi göstərir ki, bu proses uşaqlar, ailələr, icmalar və həmçinin dövlətin özü üçün də faydalıdır.

Müəssisələrə alternativ olan müxtəlif xidmətlər mövcuddur. [9]

Bunlar:

• Xəstəxanada fəaliyyət göstərən sosial iş
• Günərzi qayğı mərkəzləri
• Ailə planlaşdırma mərkəzləri.
• Ana və körpə birlikləri.
• İlkin səhiyyə xidməti.
• Xüsusi ehtiyaclılar üçün təhsil
• Böhrana müdaxilə.
• Maddi dəstək
• Resurslar şəbəkəsi
• Fövqəladə qəbul xidmətləri
• Fasiləli qayğı
• Konsultasiya xidmətləri və valideyn dəstək qrupları və s.

Bundan əlavə, artıq müəssisədə yaşayan uşaqların ailə mühitində yaşamasının təmin edilməsi üçün müxtəlif xidmət növləri mövcuddur. Bunlar:

• Reinteqrasiya
• Qohum ailədə yerləşdirilmə
• Əvəzedici ailələr - Foster qayğı
➢ Fövqəladə foster qayğı
➢ Qısa və ortamüddətli foster qayğı
➢ Uzunmüddətli foster qayğı
➢ Peşəkarlar tərəfindən foster qayğı

• Övladlığa götürmə
• Peşəkarlar tərəfindən qalma əsaslı qayğı
• Terapiya xidmətləri

Avropa ölkələrində və Amerikada sosial iş təcrübəsi 100 ilə yaxındır mövcud olduğuna görə bu ölkələrdə qeyri-müəssisələşmə prosesinin həyata keçirilməsinin əsas şərtlərindən olan yuxarıda göstərdiyimiz alternativ xidmətlər fəaliyyət göstərir. Bu xidmətlərin bəziləri Azərbaycanda da mövcuddur. Lakin bunların sayı çox məhdud və əsasən paytaxtda mövcuddur.

Yuxarıda qeyd olunan xidmət növlərindən Azərbaycanda fəaliyyət göstərən alternativ xidmətlərin bir qismi dövlət tərəfindən, digər qismi isə özəl və QHT-lər tərəfindən təşkil olunmuşdur.

Dövlət tərəfindən təşkil olunan xidmətlər ƏƏSMN, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərirlər. [9]

Bunlar:

• Günərzi qayğı mərkəzləri

Bu xidmət həm dövlət, həm də QHT-lər tərəfindən dövlət sifarişi əsasında hayata keçirilir. Dövlət tərəfindən yaradılmış mərkəzlər: 1 və 2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar üçün internat evlərinin nəzdində və 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar üçün 1 saylı internat müsisəsinin nəzdində fəaliyyət göstərən Pirallahı Günərzi (13 uşaq var, ümumi 25 yerlik) qayğı mərkəzləridir.

Dovlət sifarisi əsasında QHT- lər tərəfindən həyata keçirilən günərzi mərkəzlərin sayı 2022-ci ildə 25 ( hər biri 25 yerlik) olmuşdur [9].

• İƏR mərkəzləri

QHT- lər tərəfindən həyata keçirilir

• Sosial xidmət mərkəzləri

Dövlət tərəfindən Sabunçu, Abseron və Nərimanov rayonlarında 3 sosial xidmət mərkəzi fəaliyyət göstərir

• Maddi dəstək.
➢ Ünvanlı sosial yardım ƏƏSMN-nin rayon sosial müdafiə mərkəzləri tərəfindən təqdim edilir
➢ Məşğulluq problemlərinə cəlb etmə
➢ Birdəfəlik yardımlar - ancaq ailədə əlilliyi olan şəxs varsa və ya əlilliyi olan uşaq olduğu halda bu müavinət verilir

• Reinteqrasiya xidmətləri (öz ailələrinə reinteqrasiya)
• Ailə tipli qrup evi
➢ Elm və Təhsil Nazirliyi tərəfindən yaradılmış 2 qrup evi fəaliyyət göstərir ki, bunlardan biri oğlanlar üçün nəzərdə tutlmuş olan qrup evi Lənkəranda, digəri-qızlar üçün nəzərdə tutulmuş qrup evi Mərdəkanda fəaliyyət göstərir.
• Qohum ailədə yerləşdirilmə
• Övladlığa götürmə
• Xüsusi ehtiyaclılar üçün təhsil
• Reabilitasiya xidmətləri

Həm Sosial xidmətlər agentliyi (Sosial xidmət haqqında qanunla tənzimlənir) , həm də Dövlət tibbi sosial ekspertiza və Reabilitasiya agentliyi tərəfindən həyata keçirilir. Sosial xidmətlər agentliyi tərəfindən göstrilən xidmətlərə Sosial psixoloji və sosial pedaqoji /loqopedik və Sosial adaptasiya xidmətləri aid edilir.

Digər barəsində danışdığımız xidmət növləri hələlik ölkəmizdə təşkil olunmamışdır.

**Açar sözlər:** *Deinstituonalizasiya, alternativ qayğı, foster qayğısı, alternativ qayğı sistemi, müəssisə qayğısı, sosial xidmət növləri, IQ artımı, Buxarets Erkən müdaxilə layihəsi, müəssisələşmənin uşağın bacarıqlarına təsiri.*

## ƏDƏBİYYTAT SİYAHISI:

*1. Levine J., Pollack H. The Well-being of Children Born to Teen Mothers: Multiple Approaches to Assessing the Casual Links. JCPR Working Paper 288; 04-19-2002).*

*2. Preventive Sessions After Divorce Protect Children into Teens. National Institute of Mental Health News Release; 10-15 ,2002).*

*3. Fox, N.A., Almas, A.N. Degnan, K.A., Nelson, C.A., & Zeanah, C.H. (2011). The effects of severe psychosocial deprivation and foster care intervention on cognitive development at 8 years of age: Findings from the Bucharest Early Intervention Project. Journal of Child Psychology and Psychiatry, 52(9), 919–928. PMID: 21244422.*

*4. Nelson, C.A., Zeanah, C.H., Fox, N.A., Marshall, P. J., Smyke, A.T., & Guthrie, D. (2007). Cognitive recovery in socially deprived young children:*

*The Bucharest Early Intervention Project. Science, 318(5858), 1937-1940. PMID: 18096809.*

*5. https://doi.org/10.1017/S0954579408000412*

*6. Humphreys, K.L., McGoron, L., Sheridan, M.A., McLaughlin, K.A., Fox, N.A., Nelson, C.A. & Zeanah, C.H. (2015). High quality foster care mitigates callous-unemotional traits following severe early deprivation. Journal of the American Academy of Child and Adolescent Psychiatry, 54(12), 977–983. PMCID: PMC4660264. doi: 10.1016/j.jaac.2015.09.10*

*7. Almas AN, Degnan KA, Radulescu A, Nelson CA, Zeanah CH, Fox NA. Effects of early interventionand the moderating effects of brain activity on institutionalized children's social skills at age 8.Proceedings of the National Academy of Sciences. 2012; 109(Suppl. 2):17228–17231*

*8. UAFA təşkilatına istinadən*

*9. Sosial xidmtlər agentliyinin hesabatına istinadən*

**SUMMARY**

**Ulviyya Mirzayeva**
***Azerbaijan University, PHD student***
***Email: ulviyya.mirzayeva@uafa.az***

**Necessity of Deinstitutionalization from the perspective of child development. A review of deinstitutionalization and alternative care system from the context of Azerbaijan**

In the article, the impact of institutions on child development is brought to the fore, and the effects of deinstitutionalization, that is, the transfer of children from institutions to families, on child development are discussed. There are many studies on the impact of institutions on child development, and the results of these studies show that the situation is quite different in the family and in boarding schools/orphanages/other children's institutions. In order to better understand the effects of living in an institution and in a family on child development, it is valuable to follow the development of children who have been reintegrated, that is, returned home from the institution. The article provides information on the results of some research works conducted in this field

From the perspective of Azerbaijan, there is talk of deinstitutionalization and applying to a number of approved schemes in creating an alternative care model. In the field of deinstitutionalization and alternative care from 2008 to now, both NGOs and the reforms carried out by the State and statistics are brought to attention.

**Keywords:** *Deinstitutionalization, alternative care, foster care, alternative care system, institutional care, types of social services, IQ increase, Bucharest Early intervention project, the effect of living in an institution on the child's abilities.*

**РЕЗЮМЕ**

**Ульвия Мирзаева**
***Азербайджанский Университет, диссертант***
***Электронная почта: ulviyya.mirzayeva@uafa.az***

**Необходимость деинституционализации с точки зрения развития ребенка. Обзор деинституционализации и системы альтернативного ухода в контексте Азербайджана**

В статье на первый план выдвигается влияние проживания детей в учреждениях на развитие ребенка, а также обсуждаются последствия деинституционализации, то есть перевода детей из учреждений в семьи, на развитие ребенка. Существует множество исследований влияния учреждений на развитие ребенка, и результаты этих исследований показывают, что ситуация совершенно различна в семье и в интернатах/детских домах/других детских учреждениях. Чтобы лучше понять влияние жизни в учреждении и семье на развитие ребенка, полезно проследить за развитием детей, реинтегрированных, то есть вернувшихся домой из учреждения. В статье представлена информация о результатах некоторых исследовательских работ, проведенных в этой области.

С точки зрения Азербайджана, ведутся разговоры о деинституционализации и применении ряда утвержденных схем при создании модели альтернативного ухода. В сфере деинституционализации и альтернативного ухода с 2008 года по настоящее время внимание уделяется как НПО, так и реформам, проводимым государством, и статистике.

**Ключевые слова:** *деинституционализация, альтернативный уход, приемная семья(фостер), система альтернативного ухода, институциональный уход, виды социальных услуг, повышение IQ, Бухарестский проект раннего вмешательства , влияние институционального ухода на развитие навыков ребенка.*

UOT 81
DOI:10.30546/3006-0346.2024.3.81.0212

# OMONİMLƏRİN YARANMA YOLLARI İLƏ BAĞLI BƏZİ PROBLEMLƏR

**FİDAN NURUYEVA**
*Bakı Dövlət Universitetinin Qazax filialının II kurs magistrantı*
*E-mail: fidansamadli9@gmail.com*

Omonim sözlərin əmələgəlmə yolları bütün dillərdə ümumi və xüsusi ola bilər. Ümumi cəhət dillərin hər birinə xasdır. Lakin xüsusi cəhət isə dilin öz xüsusiyyətləri ilə bağlıdır. Omonim sözlər ümumilikdə dilin öz daxili imkanları hesabına əmələ gəlir. Lakin alınma sözlər hesabına da dildə omonimiləşmə prosesi gedə bilər [1,s.24].

Azərbaycan ədəbi dilində omonim sözlərin formalaşması, yəni yaranması ilə əlaqədar qarşıya bir sıra problemlər çıxa bilər. Bizcə, bu problemlərdən ən başlıcası onların yaranmasına dair verilən müxtəlif təsnifatlardır. Omonimlərin yaranmasına dair verilən bu bölgülər, aydın məsələdir ki, ali məktəb tələbələrində müəyyən anlaşılmazlıqlar yaradır. Belə ki, dilçi alimlər hər biri ayrı-ayrılıqda omonim sözlərə dair təsnifatlar təqdim etmişlər. Eyni zamanda omonimlərin yaranma yolları ilə bağlı bir problem də onların adlandırılmasında baş verir.

İlk öncə gəlin akademik Həsrət Həsənovun verdiyi bölgü ilə tanış olaq. Onun qeydlərinə əsasən Azərbaycan ədəbi dilində olan omonim sözlər əmələgəlmə yoluna görə əsasən üç cür təsnif olunur. 1. Leksik yolla yaranan omonimlər; 2.Morfoloji yolla yaranan omonimlər; 3.Sintaktik yolla yaranan omonimlər [3,s.12].

**Leksik yolla yaranan omonimlər.** Bu yolla əmələ gələn omonimləri müqayisə etdikdə görərik ki, onlar öz sadəliyi və tarixiliyi ilə digərlərindən əsaslı sürətdə fərqlənirlər. Bunların əmələ gəlməsində heç bir qrammatik və sözyaratma vasitəsi, sintaktik əlaqə rol oynamır. Bu omonimləri ümumi şəkildə belə izah etmək olar: Hər hansı fonetik və ya qrammatik tələb əsasında yox, yalnız semantikaya əsasən əmələ gələn omonimlər leksik omonimlər adlanır.[4, s.12] Omonomiya hadisəsinin ən ümumiləşmiş tipi elə leksik -semantik omonimlərdir. Bu cür omonimlərə mürəkkəb, bal, yaz, yol, dal, al və s. sözləri nümunə kimi qeyd etmək olar.

**Morfoloji yolla yaranan omonimlər.** Morfoloji yolla omonimlərin yaranması haqqında məlumata Afad Qurbanovun qeydlərində də rast gəlmək olar, lakin o, morfoloji yolla omonimlərin əmələ gəlməsi qaydasını ayrıca bir əmələgəlmə üsulu kimi yox, leksik omonimlərin yaranma üsullarından biri olan dilimizin daxili imkanları hesabına yaranan omonimlərin tərkibində verir.

Leksik şəkilçilər hesabına yaranan omonimlər ədəbi dilimizdə daha geniş yayılmışdır. Bu cür omonimlər dil amili kimi müəyyən edilir, ancaq xüsusi leksik vahidlər sırasına daxil deyildir. Bu yolla yaranan omonimlər həmişə törəmə sözlərlə birgə verilir. Morfoloji yolla yaranan omonimlərdə məhz şəkilçi ilə yaranan omonimlərə aiddir [ 5,s.227]. Burada əsas şəkilçi rolunu leksik, yəni sözdüzəldici şəkilçilər oynayır. Bu yolla yaranan omonimlərin kökü omonim ola da bilər, olmaya da. Boylu, bağlı, donluq, sağlıq, sona və s. bu qəbildən olan sözləri morfoloji yolla yaranan omonimlərə nümunə kimi vermək olar.

İndi isə gəlin “morfoloji yolla yaranan omonimlər” haqqında öz fikirimizi bildirək. Müasir Azərbaycan dilində morfoloji yolla yaranan omonimlər haqqında məlumatı yuxarıda ümumiləşmiş formada təqdim etdik. Lakin bizim fikrimizcə, burada bəzi məlumatları daha da aydınlaşdırmağa ehtiyac vardır. Öncə gəlin dilçiliyin “Morfologiya” bölməsində nədən bəhs edilir onu yada salaq. Bildiyimiz kimi, morfologiya dildə olan sözlərin formasını öyrənən bir bəhsdir.Yunancadan “elm” və “forma” sözlərinin birləşməsindən yaranıb. Morfologiya dilçilikdə nitq hissələri və onların dəyişilmə qaydalarını öyrənir. Bizim fikrimizcə, sözdüzəldici şəkilçilər vasitəsilə yaranan sözlərin omonimliyi morfoloji yolla yaranan omonimlərə daxil edilməməlidir. Yuxarda da qeyd edildiyi kimi, morfologiya bəhsində sözlərin forması öyrənildiyi üçün buraya müasir Azərbaycan dilində işlənən, yazılışı və tələffüzü eyni, lakin kökləri müxtəlif olan sözləri daxil edə bilərik ki, bu sözlərdə omoformlar adlanır. Məsələn, əsər sözünü buna misal göstərmək olar. Bu söz insan əməyi, insan yaradıcılığı, icadı mənasında işləndikdə sadəcə bir kökdən ibarət götürülür. Forma və səslənmə baxımından eynilik təşkil edən əsər sözü isə əs feilinin qeyri-qəti gələcək zaman şəkilçisi artırılmış

formasıdır. [2,s.21]

Sintaktik yolla yaranan omonimlər.Azərbaycan ədəbi dilində istifadə olunan omonimlərin bir qismi sintaktik yolla əmələ gələn omonimlərdir. Aypara sözünü buna misal olaraq göstərmək olar. Ümumilikdə sintaktik yolla söz yaradıcılığı dedikdə, mürəkkəb yolla yaranan sözlər nəzərdə tutulur. Yəni sintaktik yolla omonimlərin əmələ gəlməsi dedikdə, mürəkkəb sözün omonimlik xüsusiyyətinə malik olması nəzərdə tutulur. Aypara sözü ay və para sözlərinin birləşməsindən əmələ gələn bir sözdür. Alacəhrə, quşqonmaz, danabaş, ikiüzlü və s. bu qəbildən olan sözləri də sintaktik yolla yaranan omonimlərə daxil etmək olar.

Yuxarıda morfoloji omonimlərlə bağlı öz fikrimizi əsaslandırdıq. Belə bir məqama eyni ilə sintaktik yolla yaranan omonimlərdə də rast gəlmək olar. Belə ki, sintaktik yolla yaranan omonimlər adı altında mürəkkəb söz yaradıcılığı vasitəsilə yaranan omonimlər verilir. Lakin yuxarıda da qeyd olunduğu kimi istər düzəltmə, istərsə də mürəkkəb sözlər omonim cərgə yaradarkən onları "derivatoloji yolla yaranan omonimlər" adı altında tədqiq etmək daha doğru olar. Çünki məlum olduğu kimi, hər hansı bir sözdən yeni söz yaranır və təbii olaraq derivatoloji hadisə hesab edilməlidir. Bəs sintaktik yolla yaranan omonimlər dedikdə, nəyi nəzərdə tuta bilərik? Sintaktik omonimlər əsasən sözün funksiyasından asılı olaraq dəyişən sözləri aid etmək olar. Akademik Həsrət Həsənov bu barədə funksional omonimlər adı altında bəhs edir. Nümunələr verməklə bunu daha da aydın izah edə bilərik. Yaxşı sözü cümlədə həm sifət, həm də zərf kimi işlənə bilər. Bildiyimiz kimi bu söz isimdən əvvəl gəlib onu izah etdikdə sifət, feildən əvvəl gəlib onu izah etdikdə isə zərf funksiyasını yerinə yetirir. Yəni, bu söz cümlədə funksiyasından aslı olaraq onun aid olduğu nitq hissəsi də dəyişir. Məhz sintaktik yolla yaranan omonimlərə bu cür omonimlər daxil edilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Cəfərov S. Müasir Azərbaycan Dili II hissə. Bakı "Şərq-Qərb" 2007, 192 s.*
2. *Əfəndiyeva T. Omonimlər və onların üslubi xüsusiyyətləri. Bakı :Azərbaycan SSR EA-nın Xəbərləri, Ədəbiyyat, dil və incəsənət seriyası 1970, N4, s. 11- 20.*
3. *Həsənov H. Azərbaycan Dilinin Omonimlər Lüğəti. Bakı, "Şərq-Qərb" 2007, 168s.*
4. *Həsənov H. Müasir Azərbaycan Dilinin Leksikası. Bakı 2005, 452 s.*
5. *Qurbanov A. Ümumi Dilçilik I cild. Bakı 2019, 448 s.*


## XÜLASƏ


Omonimlər yaranma yoluna görə üç cür təsnif edilə bilər. Leksik-semantik yolla yaranan omonimlər, morfoloji yolla yaranan omonimlər və sintaktik yolla yaranan omonimlər. Leksik-semantik yol istisna olmaqla digər yollarla yaranan omonimlər bəzən oxucularda çaşqınlıq yarada bilər. Morfoloji yolla yaranan omonimlər dedikdə, leksik şəkilçilər vasitəsilə yaranan və omonimlik xüsusiyyəti yaradan, sintaktik yolla yaranan omonimlər dedikdə isə iki və daha artıq sözün birləşməsindən yaranan və omonimlik xüsusiyyəti yaradan sözlər başa düşülür. Bu tipli omonimlər söz yaradıcılığının məhsulu olduğu üçün onları "derivatoloji omonimlər" adlandırmaq daha doğru olar. Sintaktik omonimlər dedikdə, cümlədə funksiyasından asılı olaraq dəyişən sözlər, morfoloji omonimlər dedikdə isə forma baxımından bir-birinin eyni olub, tam omonimlik xüsusiyyəti yaratmayan omoformlar nəzərdə tutulmalıdır.



**Açar sözlər:** *Leksik-semantik yolla yaranan omonim, sintaktik yolla yaranan omonim, morfoloji yolla yaranan omonim, derivatoloji yolla yaranan omonim.*


## РЕЗЮМЕ


**Нуруева Фидан**

***Студентка второго курса Казахского филиала Бакинского Государственного Университета***

***Электронная почта: fidansamadli9@gmail.com***


## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ, СВЯЗАННЫЕ СО СПОСОБАМИ ОБРАЗОВАНИЯ ОМОНИМОВ


По способу образования омонимы можно разделить на три типа. Омонимы, созданные лексико-семантическим путем, омонимы, созданные морфологическим путем, и омонимы, созданные синтаксическим путем. Омонимы, созданные не лексико-семантическим способом, иногда могут сбить с толку читателей. Морфологически образованные омонимы — это слова, образованные посредством лексических суффиксов и

создающие признак омонимии, а синтаксически образованные омонимы — это слова, образованные путем соединения двух и более слов и создающие признак омонимии. Поскольку этот вид омонимов является продуктом словотворчества, их правильнее называть «производными омонимами». Синтаксические омонимы должны обозначать слова, которые изменяются в зависимости от их функции в предложении, а морфологические омонимы — гомоформы, тождественные друг другу по форме и не создающие признака полной омонимии.

**Ключевые слова:** *Лексик-семантик йолла яранан омоним, синтактик йолла яранан омоним, морфологи йолла яранан омоним, дериватолоджи йолла яранан омоним.*

**SUMMARY**

**Nuruyeva Fidan**
***Second year graduate student of the Kazakh branch of Baku State University***
***Email: fidansamadli9@gmail.com***

**SOME PROBLEMS RELATING TO THE FORMATION WAYS OF HOMONYMS**

Homonyms can be classified into three types according to the way they are formed. Homonyms created by lexical-semantic way, homonyms created by morphological way and homonyms created by syntactic way. Homonyms created in ways other than the lexical-semantic way can sometimes confuse readers. Morphologically formed homonyms are words that are formed through lexical suffixes and create a homonymy feature, and syntactically created homonyms are words that are formed by combining two or more words and create a homonymy feature. Since this type of homonyms is a product of word creation, it is more correct to call them "derivative homonyms". Syntactic homonyms should mean words that change depending on their function in the sentence, and morphological homonyms should mean homoforms that are identical to each other in terms of form and do not create the feature of complete homonymy.

**Keywords:** *lexical-semantic homonym, syntactic homonym, morphological homonym, derivational homonym.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

İRADƏ HÜSEYNOVA: PREZİDENT İLHAM ƏLİYEVİN YARATDIĞI SİYASİ REALLIQLAR VƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ TARİXİ ZƏRURƏT KİMİ......... 5
DOI:10.30546/3006-0346.2024.3.81.001

AYGÜN ƏKBƏROVA: AZƏRBAYCANIN ENERJİ RESURSLARI XƏZƏR-QARA DƏNİZ REGİONUNDA GEOSİYASİ VƏZİYYƏTİN TRANSFORMASİYASININ MÜHÜM KATALİZATORU KİMİ.......................................................... 11
DOI:10.30546/3006-0346.2024.3.81.0011

ZAUR MƏMMƏDOV: PREZİDENT İLHAM ƏLİYEVİN PRAQMATİK XARİCİ SİYASƏT FƏLSƏFƏSİ VƏ QOŞULMAMA HƏRƏKATI ÇƏRÇİVƏSİNDƏ DİPLOMATİK UĞURLAR...... 16
DOI:10.30546/3006-0346.2024.3.81.0016

MƏLƏK CƏFƏRLİ: MÜASİR DÖVRÜN MÜNAQİŞƏ TENDENSİYALARI VƏ BURADA DÖVLƏTLƏRARASI QARŞIDURMALARIN YERİ.................................................. 20
DOI:10.30546/3006-0346.2024.3.81.0020

NƏRGİZ NAĞIYEVA: POSTKOLONİAL FEMİNİZM VƏ HİBRİDLİK........................................... 26
DOI:10.30546/3006-0346.2024.3.81.0026

LEYLA NƏBİYEVA: MÜASİR DÖVRDƏ TÜRK XALQLARININ QARŞISINDA DURAN MÜHÜM VƏZİFƏLƏR VƏ ƏMƏKDAŞLIQ MEXANİZMLƏRİ......................................... 33
DOI:10.30546/3006-0346.2024.3.81.0033

HANHAE HONG: NATION-BUILDING DURING THE FIRST REPUBLIC OF KOREA 1948-1960......................................................................................... 37
DOI:10.30546/3006-0346.2024.3.81.0037

ABDUL ORUCLU: RUSYA-UKRAYNA 2022 SAVAŞI: RUSYA-UKRAYNA KRİZİNİN SEÇİLİ ÜLKELER ÜZERİNDEKI EKONOMİK ETKİSİNİN GÖZDEN GEÇİRİLMESİ............... 44
DOI:10.30546/3006-0346.2024.3.81.0044

AYTAC ŞADİYEVA: ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÇİN XALQ RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ...................................... 51
DOI:10.30546/3006-0346.2024.3.81.0051

CHICHAK NASIRLI: "DURING THE AKP PERIOD, THE ROLE OF DAVUTOĞLU IN TURKEY'S MIDDLE EAST POLICY."..................................................................... 56
DOI:10.30546/3006-0346.2024.3.81.0056

ƏLƏKBƏR SADIXLI: CƏNUBİ QAFQAZ VƏ XƏZƏR REGİONUNUN
LİDER DÖVLƏTİ: AZƏRBAYCAN........................................................................................................ 60
DOI:10.30546/3006-0346.2024.3.81.0060

NURLANA HAGVERDIYEVA: ENERGY DIPLOMACY: COMPARATIVE
ANALYSIS OF US AND RUSSIAN STRATEGIES IN THE MIDDLE EAST.................................. 66
DOI:10.30546/3006-0346.2024.3.81.0066

НАРМИН ГУЛИЕВА: РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОБЕСПЕЧЕНИИ
ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ЧЕРНОГОРИИ................................................................ 71
DOI:10.30546/3006-0346.2024.3.81.0071

LAMAN GAHRAMANOVA: NAVIGATING STRATEGIC CULTURE:
ANALYZING RUSSIAN INSECURITIES IN UKRAINE-WEST RELATIONS.............................. 76
DOI:10.30546/3006-0346.2024.3.81.0076

ƏSMƏR ŞÜKÜRLÜ: QAZAXISTAN- AZƏRBAYCANƏMƏKDAŞLIĞI YENİ MƏRHƏLƏDƏ... 81
DOI:10.30546/3006-0346.2024.3.81.0081

ELMAR İSMAYILZADƏ: BOSNİYA VƏ HERSEQOVİNADA MÜHARİBƏ
VƏ SÜLH MƏSƏLƏLƏRİNƏ BEYNƏLXALQ İCTİMAİYYƏTİN YANAŞMASI:
STRATEGİYALAR VƏ ÇAĞIRIŞLAR (1991-2024)................................................................................ 85
DOI:10.30546/3006-0346.2024.3.81.0085

ГЮНЕЛЬ АМИРАСЛАНОВА: НАЧАЛО АФГАНО-ПАКИСТАНСКОГО КОНФЛИКТА........... 89
DOI:10.30546/3006-0346.2024.3.81.0089

TALEH ƏLİYEV: YAXIN ŞƏRQDƏ NEFT BÖHRANLARI VƏ
ONLARIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ.................................................................. 94
DOI:10.30546/3006-0346.2024.3.81.0094

ЛЕЙЛИ АСЛАНОВА: ПАЛЕСТИНО-ИЗРАИЛЬСКИЙ КОНФЛИКТ
7 ОКТЯБРЬ 2023 ГОДА........................................................................................................................ 101
DOI:10.30546/3006-0346.2024.3.81.0101

**TARİX VƏ ANTROPOLOGİYA**

BƏXTİYAR ƏHMƏDOV: GÖYÇƏ MAHALINDA YAŞAYAN AZƏRBAYCANLILARIN
DEPORTASİYASI VƏ SOYQIRIMININ MƏNBƏŞÜNASLIĞI........................................................... 105
DOI:10.30546/3006-0346.2024.3.81.0105

RENA GURBANOVA: HEYDAR ALIYEV'S ROLE IN ELIMINATING
THREATS TO THE MILITARY AND NATIONAL SECURITY OF THE
NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (1988-1993 YEARS)................................................... 111
DOI:10.30546/3006-0346.2024.3.81.0111

AYNUR ƏLİYEVA: AZƏRBAYCAN SSR-DƏ MƏDƏNİ QURUCULUQ TƏDBİRLƏRİ (1920-1930-CU İLLƏRDƏ)........ 115
DOI:10.30546/3006-0346.2024.3.81.0115

ТАРАНА АЛИВЕРДИЕВА: КОНТРАКТ ВЕКА – КАК КРИТЕРИЙ, ПОВЛИЯВЩИЙ НА ИЗМЕНЕНИЕ ОТНОШЕНИЯ РЕГИОНАЛЬНЫХ ГОСУДАРСТВ И МИРОВЫХ ДЕРЖАВ К АЗЕРБАЙДЖАНУ........ 119
DOI:10.30546/3006-0346.2024.3.81.0119

NURLANA ƏLİYEVA: NAXÇIVANDA MALDARLIĞIN TARİXİ COĞRAFİYASI (XIX-XX əsrin əvvəlləri)........ 125
DOI:10.30546/3006-0346.2024.3.81.0125

RAUF QURBANOV: MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN, TÜRKİYƏ VƏ RUSİYA MÜNASİBƏTLƏRİNİN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNƏ TƏSİRİ........ 129
DOI:10.30546/3006-0346.2024.3.81.0129

JANNA ƏLİYEVA: “ŞAH I ABBASIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ İNGİLİS OST-HİND ŞİRKƏTİNİN İNGİLTƏRƏ-SƏFƏVİ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ROLU”........ 136
DOI:10.30546/3006-0346.2024.3.81.0136

SEVİNC İBADOVA: AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI VƏ KOREYA RESPUBLİKASI ARASINDA MÜLKİ NÜVƏ ƏMƏKDAŞLIĞI: YENİLƏNMİŞ “123 SAZİŞİ”1........ 141
DOI:10.30546/3006-0346.2024.3.81.0141

AZƏR ZAHİROV: OSMANLI DEMOQRAFİYASI MƏSƏLƏLƏRİ TARİXŞÜNASLIQDA ( L. Ö. Barkanın əsərləri əsasında)........ 145
DOI:10.30546/3006-0346.2024.3.81.0145

## İQTİSADİYYAT

VÜQAR QARDAŞOV: MÜASİR DÖVRDƏ YAŞIL LOGİSTİKANIN ƏHƏMİYYƏTİ VƏ ROLU........ 151
DOI:10.30546/3006-0346.2024.3.81.0151

СЕВДА МАГЕРРАМОВА: КОНЦЕПЦИЯ ЗЕЛЕНОЙ ЭКОНОМИКИ И УСТОЙЧИВОГО РАЗВИТИЯ........ 155
DOI:10.30546/3006-0346.2024.3.81.0155

MAŞALLAH SƏFƏROV: AZƏRBAYCAN İQTİSADİYYATINA BEYNƏLXALQ İSLAM MALİYYƏ İNSTİTUTLARININ VƏSAİTLƏRİNİN CƏLB EDİLMƏSİ PROBLEMLƏRİ........ 160
DOI:10.30546/3006-0346.2024.3.81.0160

HAMAN BÜNYATOV: AZƏRBAYCANDA MALİYYƏ SABİTLİYİNİN TƏMİN OLUNMA SƏVİYYƏSİNİN TƏHLİLİ VƏ EKONOMİK QİYMƏTLƏNDİRİLMƏSİ........................................ 165
DOI:10.30546/3006-0346.2024.3.81.0165

FUAD MİKAYILOV: GÖMRÜK DƏYƏRİ VƏ ONUN TƏYİN EDİLMƏSİ SİSTEMİ..................... 169
DOI:10.30546/3006-0346.2024.3.81.0169

ÜMİD HƏSƏNOV: KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN TƏNZİMLƏNMƏSİNİN XARİCİ TƏCRÜBƏSİ VƏ ONUN AZƏRBAYCANDA TƏTBİQİ İMKANLARI............................. 173
DOI:10.30546/3006-0346.2024.3.81.0173

RƏŞAD ZEYNALOV: 2010-2022 İLLƏR ARASINDA BAŞ VERƏN TƏYYARƏ QƏZALARINA QLOBAL İSTİLƏŞMƏNİN VƏ İQLİM DƏYİŞİKLİYİNİN TƏSİRİ...................... 177
DOI:10.30546/3006-0346.2024.3.81.0177

KƏMALƏ TALIBOVA: AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN MÜVAFİQ İCRA STRUKTURU TƏRƏFİNDƏN BƏLƏDİYYƏLƏRİN FAƏLİYYƏTİNƏ İNZİBATİ NƏZARƏTİN KEÇİRİLMƏSİNİN TƏHLİLİ...................................................................... 181
DOI:10.30546/3006-0346.2024.3.81.0181

SIMNAR PASHAZADA: THE IMPORTANCE OF ATTRACTING FOREIGN CAPITAL FOR DEVELOPING COUNTRIES (THE CASE OF KENYA)........................................... 185
DOI:10.30546/3006-0346.2024.3.81.0185

MEHDİ MƏMMƏDLİ, AFAQ ASLANOVA: HEYDƏR ƏLİYEVİN KƏND TƏSƏRRÜFATINDA İNNOVASİYALARA VƏ SAHİBKARLIĞA TÖHFƏSİ.................................. 189
DOI:10.30546/3006-0346.2024.3.81.0189

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

MÜSLÜM NƏZƏROV: İNFORMASİYA CƏMİYYƏTİNDƏN BİLİK CƏMİYYƏTİNƏ KEÇİD NƏZƏRİYYƏSİ..................................................................................... 194
DOI:10.30546/3006-0346.2024.3.81.0194

ÜZEYİR ZEYNALOV, JALƏ QASIMOVA: SOSİAL DƏYƏRLƏRİN EKOLOJİ SİSTEMLƏRİN İDARƏ OLUNMASINDA ROLU.................................................................... 199
DOI:10.30546/3006-0346.2024.3.81.0199

ÜLVİYYƏ MİRZƏYEVA: UŞAQ İNKİŞAFI YÖNÜMÜNDƏN DEİNSTİTUALİZASİYANIN ZƏRURİYYƏTİ.AZƏRBAYCAN KONTEKSTİNDƏN DEİNSTİTUALİZASİYA VƏ ALTERNATİV QAYĞI SİSTEMİNƏ BAXIŞ...................................... 206
DOI:10.30546/3006-0346.2024.3.81.0206

FİDAN NURUYEVA: OMONİMLƏRİN YARANMA YOLLARI İLƏ BAĞLI BƏZİ PROBLEMLƏR......................................................................................................... 212
DOI:10.30546/3006-0346.2024.3.81.0212

**Founder:**
**“Kaspi” Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order №59**

**Published by**
**“Class Print” LLC publishing house**
**Address: Matbuat avenue 22, Yasamal district,**
**Baku, Azerbaijan**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №59**

**"Class Print" MMC nəşriyyatının**
**mətbəəsində çap olunub**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu,**
**Mətbuat pr. 22**